AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

# SOSİAL ELMLƏR

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА

# ОБЩЕСТВЕННЫЕ НАУКИ

NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN

# SOCIAL SCIENCES

№1

BAKI – "ELM" – 2020

**BAŞ REDAKTOR:**
**Nərgiz AXUNDOVA,** *akademik*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Yaqub MAHMUDOV,** *akademik*

**MƏSUL KATİB:**
**Lamiyə QAFAR-ZADƏ,** *tarix üzrə fəlsəfə doktoru*

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:**
İsmayıl Hacıyev (akademik), Nailə Vəlixanlı (akademik), Şahin Mustafayev (akademik), Musa Qasımlı (AMEA-nın müxbir üzvü), Zəhmət Şahverdiyev (AMEA-nın müxbir üzvü), Könül Bünyadzadə (AMEA-nın müxbir üzvü), İlham Məmmədzadə (fəlsəfə elmləri doktoru), Nazim İmanov (iqtisad elmləri doktoru), Aytən Mustafazadə (hüquq elmləri doktoru), Məryəm Seyidbəyli (tarix elmləri doktoru), Nəcəf Müseyibli (tarix elmləri doktoru), Ayxan Rüstəmzadə (hüquq elmləri doktoru), Əliağa Məmmədli (antropologiya elmləri doktoru).

**REDAKSİYA HEYƏTİNİN ÜNVANI:**
AZ1001, Azərbaycan Respublikası, Bakı şəh., İstiqlaliyyət küç., 30
Tel.: (+99412) 4925180; mob.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com

---

**ГЛАВНЫЙ РЕДАКТОР:**
**Наргиз АХУНДОВА,** *академик*

**ЗАМЕСТИТЕЛЬ ГЛАВНОГО РЕДАКТОРА:**
**Ягуб МАХМУДОВ,** *академик*

**ОТВЕТСТВЕННЫЙ СЕКРЕТАРЬ:**
**Ламия КАФАР-ЗАДЕ,** *доктор философии по истории*

**ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ:**
Исмаил Гаджиев (академик), Наиля Велиханлы (академик), Шахин Мустафаев (академик), Муса Гасымлы (член-корреспондент НАНА), Захмат Шахвердиев (член-корреспондент НАНА), Кёнуль Буньядзаде (член-корреспондент НАНА), Ильхам Мамедзаде (доктор философских наук), Назим Иманов (доктор экономических наук), Айтен Мустафазаде (доктор юридических наук), Марьям Сеидбейли (доктор исторических наук), Наджаф Мусейибли (доктор исторических наук), Айхан Рустамзаде (доктор юридических наук), Алиага Мамедли (доктор антропологических наук).

**АДРЕС РЕДАКЦИИ:**
AZ1001, Азербайджанская Республика, г. Баку, ул. Истиглалиййат, 30
Тел.: (+99412) 4925180; моб.: (+99455) 5581080
E-mail: socialsciences.anas@gmail.com

---

**EDITOR-IN-CHIEF:**
**Nargiz AKHUNDOVA,** *Academician*

**DEPUTY EDITOR-IN-CHIEF:**
**Yagub MAHMUDOV,** *Academician*

**EXECUTIVE SECRETARY:**
**Lamiya GAFAR-ZADA,** *Doctor of Philosophy in History*

**EDITORIAL BOARD MEMBERS:**
Ismayil Hajiyev (Academician), Naila Velikhanli (Academician), Shanin Mustafayev (Academician), Musa Gasimli (Corresponding member of ANAS), Zehmet Shahverdiyev (Corresponding member of ANAS), Konul Bunyadzada (Corresponding member of ANAS), Ilham Mammadzada (Doctor of Philosofical Sciences), Nazim Imanov (Doctor of Economic Sciences), Ayten Mustafazada (Doctor of Juridical Sciences), Maryam Seyidbayli (Doctor of Historical Sciences), Najaf Museyibli (Doctor of Historical Sciences), Aykhan Rustamzada (Doctor of Juridical Sciences), Aliagha Mammadli (Doctor of Anthropological Sciences).

**EDITORIAL ADDRESS:**
AZ1001, Azerbaijan Republic, Baku, 30 Istiglaliyyat St.
Phone: (+99412) 4925180; mob.: (+99455) 5581080
Email address: socialsciences.anas@gmail.com

# MÜNDƏRİCAT

## TARİX

**Əli FƏRHADOV**
*Mirzə Mülküm Xanın həyat və yaradıcılığına baxış* .......... 6
**Ənvər MƏMMƏDOV**
*XX əsrin 20-ci illərində Zaqatala və Sığnaq qəzaları arasındakı torpaq mübahisəsinə dair* .......... 12
**İsmayıl HACIYEV**
*Atropatena dövləti və Naxçıvan* .......... 18
**Mais ƏMRAHOV**
*1941-1945-ci illər müharibəsində faşizm üzərində qələbədə Azərbaycan xalqının rolu* .......... 25
**Selcan MƏMMƏDZADƏ**
*Manna dövlətinin inzibati-ərazi bölgüsü, şəhərləri və qalaları* .......... 39
**Hüseyn RƏHİMLİ**
*XVIII əsrin ikinci yarısında Qubalı Fətəli xanın yeritdiyi birləşdirmə siyasəti və dövlətçilik yaradılması istiqamətində göstərdiyi siyasi və diplomatik fəaliyyət* .......... 52
**Cəbi BƏHRAMOV**
*Azərbaycanın Xəzər neftinin hasil olunmasına başlanılması tarixi (1825-1949)* .......... 61

## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA

**Nəcəf MÜSEYİBLİ**
*Soyuqbulaqda Xalkolit və İlk Tunc dövrü kurqanlarında arxeoloji qazıntılar* .......... 69
**Vəli BAXŞƏLİYEV**
*Azərbaycanın neolit mədəniyyətinin xüsusiyyətləri* .......... 79

## FƏLSƏFƏ VƏ HÜQUQ

**Nigar QASIMOVA**
*Prosessual məcburiyyət tədbirlərinin tətbiqi prosesində reabilitasiyanın rolu* .......... 87
**Samirə DADAŞOVA**
*Antropoloji böhran: fəlsəfi-etik diskurs* .......... 94

## SİYASİ ELMLƏR

**Akif MARİFLİ**
*Terrorizm və media: qarşılıqlı təsir* .......... 105
**Günel MƏLİKLİ**
*Qaçqın, məcburi köçkünlər və şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması dövlətinən mühüm məqsədidir* .......... 112
**Ramilə DADAŞOVA**
*Ümummilli Lider Heydər Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini nizama salması istiqamətində fəaliyyəti* .......... 122
**Südabə HÜSEYNOVA**
*Rus tədqiqatçısı V.L.Veliçkonun "Qafqaz" (Rus işi və tayfalararası məsələlər) əsərində ermənilərin etno-psixoloji xüsusiyyətləri* .......... 129
**Tamam CƏFƏROVA**
*Görkəmli ictimai-siyasi və dövlət xadimi Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasında qadın siyasətinin həyata keçirilməsində rolu* .......... 135

## SOSİOLOGİYA

**Zeynəb HƏCƏMOVA**
*İdarəetmədə sosial qavrayışın insan amilinə təsirinin sosial-psixoloji xüsusiyyətləri* .......... 143
**Səadət MƏMMƏDOVA**
*Sosial dövlət: dünyada və Azərbaycanda inkişaf perspektivləri* .......... 148

## RESENZİYALAR

İlqar Niftəliyev və Natiq Məmmədzadənin Vaqif Abışovun "Türkiyə 1918-1920-ci illərdə: məğlubiyyətdən qələbəyə doğru ("Azərbaycan" qəzetinin materialları əsasında)" adlı kitabına resenziyası .......... 155

# СОДЕРЖАНИЕ

## ИСТОРИЯ

**Али ФАРХАДОВ**
*О жизни и творчестве Мирзы Мелькум хана*......6
**Анвар МАМЕДОВ**
*К земельному спору между Загатальским и Сигнахским уездами*......12
**Исмаил ГАДЖИЕВ**
*Государство Атропатена и Нахчыван*......18
**Маис АМРАХОВ**
*Роль азербайджанского народа в победе над фашизмом в войне 1941-1945-х годов*......25
**Сельджан МАМЕДЗАДЕ**
*Территориально-административное деление, города и крепости Маннейского царства*......39
**Гусейн РАГИМЛИ**
*Объединительная политика Фатали хана Губинского и его дипломатическая деятельность по созданию государственности во второй половине XVIII века*......52
**Джаби БАХРАМОВ**
*История начала добычи нефти на Каспии (1825-1949)*......61

## АРХЕОЛОГИЯ И ЭТНОГРАФИЯ

**Наджаф МУСЕИБЛИ**
*Археологические раскопки Союгбулагских курганов периодов халколита и ранней бронзы*......69
**Вели БАХШАЛИЕВ**
*Особенности неолитической культуры Азербайджана*......79

## ФИЛОСОФИЯ И ПРАВО

**Нигяр ГАСЫМОВА**
*Роль реабилитации в процессе применения мер процессуального принуждения*......87
**Самира ДАДАШОВА**
*Антропологический кризис: философско-этический дискурс*......94

## ПОЛИТИЧЕСКИЕ НАУКИ

**Акиф МАРИФЛИ**
*Терроризм и медиа: взаимодействие*......105
**Гюнель МЕЛИКЛИ**
*Улучшение социального положения беженцев, вынужденных переселенцев и семей шехидов является важной целью государства*......112
**Рамиля ДАДАШОВА**
*Деятельность Общенационального Лидера Гейдара Алиева по урегулированию Армяно-Азербайджанского Нагорно-Карабахского конфликта*......122
**Судаба ГУСЕЙНОВА**
*Этно-психологические особенности армян в произведении «Кавказ» (Русское дело и межплеменные вопросы) русского исследователя В.Л.Величко*......129
**Тамам ДЖАФАРОВА**
*Роль видного общественно-политического и государственного деятеля Мехрибан Алиевой в реализации женской политики в Азербайджанской Республике*......135

## СОЦИОЛОГИЯ

**Зейнаб ГАДЖАМОВА**
*Социально-психологические особенности влияния социальной перцепции на человеческий фактор в управлении*......143
**Саадет МАМЕДОВА**
*Социальное государство: перспективы развития в мире и в Азербайджане*......148

## РЕЦЕНЗИИ

Рецензия Ильгара Нифталиева и Натига Мамедзаде на книгу Вагифа Абышова «Türkiyə 1918-1920-ci illərdə: məğlubiyyətdən qələbəyə doğru (“Azərbaycan” qəzetinin materialları əsasında)”......155

# CONTENTS

## HISTORY

**Ali FARHADOV**
*Review of Mirza Malkum Khan's life and creativity* ........ 6
**Anvar MAMMADOV**
*On the land arguments between Zagatala and Signakh district*........ 12
**Ismayil HAJIYEV**
*Atropatena State and Nakhchivan*........ 18
**Mais AMRAKHOV**
*The role of the Azerbaijani people in the victory over fascism in the war of 1941-1945*........ 25
**Seljan MAMADZADE**
*Territorial and administrative division, cities and fortresses of the Mannean kingdom*........ 39
**Huseyn RAHIMLI**
*The unification policy of the ruler of Quba khanate - Fatali Khan and his diplomatic activities at the stage of establishing statehood in the second half of the XVIII century*........ 52
**Jabi BAHRAMOV**
*History of the start of Caspian oil productıon in Azerbaıjan (1825-1949)* ........ 61

## ARCHAEOLOGY AND ETHNOGRAPHY

**Najaf MUSEIBLI**
*Archaeological excavations in Chalcolithic and Early Bronze Age kurgans in Soyuqbulaq*........ 69
**Veli BAKHSHALIYEV**
*Features of the Neolithic culture of Azerbaijan* ........ 79

## PHILOSOPHY AND LAW

**Nigar GASIMOVA**
*The role of rehabilitation in the application of procedural enforcement measures*........ 87
**Samira DADASHOVA**
*Anthropological crisis: philosophical-ethical discourse* ........ 94

## POLITICAL SCIENCES

**Akif MARIFLI**
*Terrorism and media: interaction*........ 105
**Gunel MELIKLI**
*Improvement of the social situation of refugees, idpers and families of shehides is an important goal of the state*........ 112
**Ramila DADASHOVA**
*National Leader Heydar Aliyev`s activity on the settlement of the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict*........ 122
**Sudaba HUSEYNOVA**
*Etno-psychological features of Armenians in the work of Russian researcher V.L.Veliçko "Caucasus" (Russian affairs and inter-tribal issues)*........ 129
**Tamam JAFAROVA**
*The role of prominent socio-political and state figure Mehriban Aliyeva in the implementation of women's policy in the Republic of Azerbaijan* ........ 135

## SOCIOLOGY

**Zeynab HAJAMOVA**
*The socio-psychological features of the influence of the social perception to the human factor in management*........ 143
**Saadet MAMMADOVA**
*Social state: The prospects of development in the world and in Azerbaijan*........ 148

## REVIEWS

Ilgar Niftaliyev's and Natig Mamedzade's review of Vagif Abishov's book "Türkiyə 1918-1920-ci illərdə: məğlubiyyətdən qələbəyə doğru ("Azərbaycan" qəzetinin materialları əsasında)" ........ 155

UOT 94 (479.24)

**ƏLİ FƏRHADOV**
*Milli Azərbaycan Tarixi Muzeyinin böyük elmi işçisi, t.ü.f.d.*
ali_farhadov@yahoo.com
*Azərbaycan*

# MİRZƏ MÜLKÜM XANIN HƏYAT VƏ YARADICILIĞINA BAXIŞ

***Açar sözlər:*** *Mirzə Mülküm xan, dövlət, din, maarifçilik*

Məqalədə, XIX əsrin II rübü - XX əsrin əvvəlində yaşamış, Qacarlar dövlətinin görkəmli ictimai-siyasi xadimi Mirzə Mülküm xanın maarifçilik fəaliyyəti mövcud mənbə və ədəbiyyatlar sayəsində ilk dəfə olaraq kompleks şəkildə araşdırılır. Mirzə Mülküm xanın əsasən fəaliyyət göstərdiyi XIX əsrin II yarısı Qacar sülaləsinin IV hökmdarı olan Nəsrəddin şahın hakimiyyət dövrünə aiddir. Nəsrəddin şah ziddiyyətli bir şəxsiyyət olub, onun ətrafında həm müstəbid dövlət xadimləri, mürtəce ruhanilər, həm də Cəmaləddin Əfqani, Mirzə Mülküm xan (və ya Mirzə Melkum xan) kimi xalq hakimiyyətini və konstitusiya quruluşunu müdafiə edən ziyalılar fəaliyyət göstərirdilər [4, s.178]. Lakin şah əsasən mürtəce ruhanilərə və müstəbid dövlət xadimlərinə üstünlük verib, mütərəqqi ziyalıların fikirlərinə qarşı biganəlik yolunu seçmişdi.

Özünü “zillullah” (“Allahın kölgəsi”) adlandıran şah qeyri-məhdud səlahiyyətə malik olub, hakimiyyətə gəldiyi gündən etibarən qəddar və israfçı şəxs kimi ad çıxartmışdı. 1850-1852-ci illərdə dini istibdada qarşı baş verən babi üsyanlarını yatırdan, Seyid Əliməhəmməd Bab, Tahirə Zərrintac xanım kimi babi liderlərini qətl etdirən [20, s.44] şah Qərb dəyərlərini ölkədə yaymaq istəyən Mirzə Tağı xan, Mirzə Hüseyn xan kimi dövlət xadimlərinin islahatlarına da mane olurdu.

Qeyd edək ki, Nəsrəddin şah dövrünün ən görkəmli ziyalılarından biri olan Mirzə Mülküm xan (1833-1908) mənşəcə Qarabağ ermənilərinin nəslindən olub [15, s.50-51], babaları I Şah Abbasın hakimiyyəti dövründə (1587-1629) Qarabağdan İsfahana köçüb yerləşmişdi [14, s.164]. Mirzə Mülküm xan İsfahanın Culfa məhəlləsindən idi, zahirən islam dinini qəbul etmişdir [6, s.26].

Mirzə Mülküm xanın atası Mirzə Yaqub xan islamı qəbul etmiş erməni idi. Fransızca və rusca bilən Mirzə Yaqub xan Rusiyanın İrandakı səfirliyində tərcüməçi işləmiş, lakin eyni zamanda İngiltərə üçün də casusluq etmiş bir şəxs idi [16, s.6-7]. Mirzə Mülküm xanın Avropada təhsil almasında da Mirzə Yaqub xan təşəbbüskar olmuşdur.

Parisdə Politexnik İnstitutunda mühəndislik təhsili alan [2, s.14; 20, s.104] mütəfəkkir əslində fransız filosofu O.Kontun “insanlıq dini”nə, elmi biliyin qaynağı sayan pozitivizmə inanıb [14, s.164], islam dəyərlərindən xalqın maariflənməsi yolunda istifadə etməyə çalışırdı. Öz inancını "Adəmiyyət" və ya "Dini-İnsaniyyət” adlandıran [23, p.188; 20, s.108] mütəfəkkir M.F.Axundzadədən fərqli olaraq, dinə açıq-aşkar hücum etmənin əleyhinə olub dindən avropalılaşma yolunda istifadə etməyə çalışırdı [13, s.186-190]. Dini bəşəriyyətin inkişafında maneə sayan və elmə üstünlük verən Mirzə Mülküm xan dini etiqadı elm kimi qəbul etmənin əleyhinə idi [1, s.189-191].

İslam dünyasının modernləşməsi üçün Mirzə Mülküm xan xristian missionerlərinə də dəstək verirdi. “Fars mədəniyyəti” adlı məruzəsində onların islam dünyasında zəfər çalması üçün “Ortaya qoyduğunuz görüşlərin islamın özündə mövcud olduğunu ifadə etsəniz, bu daha asan qəbul ediləcəkdir” [23, p.190; 20, s.108], deyirdi. Görkəmli İran tədqiqatçısı Ə.Kəsrəvi yazır ki, “Mirzə Mülküm xan İsfahani Nəsrəddin şah dövründə ölkəyə və kütləyə ürək yandırır və xalqın oyanışı istiqamətində çalışırdı” [6, s.26].

Sədrəzəm Mirzə Hüseyn xan Sipəhsaların (ö.1881) dəstəklədiyi Mirzə Mülküm xan atası Mirzə Yaqub xanın dəstəyilə İranda "Fəramuşxanə" ("Unutma evi") və ya "Cəmiyyəti-Adəmiyyət" ("İnsanlıq cəmiyyəti") adlı mason təşkilatı yaratmışdı [15, s.74; 25, s.10]. M.F.Axundzadə bu təşkilatın əsas qayəsinin "şahlıq rejimini tənqid və azadlığı yaymaq" [15, s.74] olduğunu göstərmişdir. Təşkilatın əsas nümayəndələri arasında Rusiya-İran müharibələrində iştirak edən və Qacarların Fransadakı səfiri olmuş urmiyalı Əsgər xan Əfşar kimi azərbaycanlılar da var idi [4, s.302]. Lakin cəmiyyətin şahlıq rejimi əleyhinə mübarizəsi onun bağlanmasına səbəb oldu. Mirzə Mülküm xanın himayədarı sədrəzəm Mirzə Hüseyn xan isə ruhanilər tərəfndən küfrdə ittiham edilərək, vəzifədən çıxarıldı [6, s.24; 25, s.9-10], daha sonra isə zəhərlənərək öldürüldü [4, s.195]. Bununla da islahatçı fəaliyyətinə görə qətl edilən keçmiş sədrəzəm Mirzə Tağı xandan sonra ölkəni reformla inkişaf etdirmək istəyən daha bir sədrəzəmin islahatları yarımçıq qaldı [20, s.47-48].

"Məclisi-Tənzimat", "Dəftəri-Tənzimat" və s. əsərlər yazaraq [16, s.14; 20, s.55], Osmanlının din və vicdan azadlığını təbliğ edən tənzimat qanunlarının bənzərini İranda reallaşdırmaq istəyən Mirzə Mülküm xan, bu əsərlərini Nəsrəddin şaha da təqdim etmişdir [16, s.20]. "İran zəiflik və çürümə içindədir. Xəzinə boş, təbii qaynaqlar kəşf edilməyib. İki güclü dövlət (Rusiya və İran) İranın müstəqilliyini təhdid edir" [16, s.23-24] deyən Mirzə Mülküm xan şahı ölkədə konstitusiyaya əsaslanan, qanunverici və icraedici orqanları olan demokratik idarə sistemi qurmağa təşviq edirdi [12, s.66-67].

Ölkədəki idarəetməni təkmilləşdirmək üçün 1859-cu ildə Nəsrəddin şahın yaratdığı Dövlət Şurası Məclisi Mirzə Mülküm xan tərəfindən tənqid edilmiş və o, belə demişdi: "Məclisə bu sualı vermək istəyirəm. İranın hansı problemini həll etdiniz? Dövlətimizi bu zillətdən qurtarmalıyıq" [16, s.35]. Ölkənin əsas probleminin elmsizlik, qohumbazlıq və layiq olmayanların vəzifəyə gətirilməsi olduğunu bildirən Mirzə Mülküm xan "Kim ki, qanundan bəhs edir, onu xain və kafir elan edirlər" [16, s.47] deyərək şikayət edirdi.

Bir müddət Nəsrəddin şahın şəxsi tərcüməçisi [14, s.165], sonra isə şah hökumətinin İngiltərə səfiri olan Mirzə Mülküm xanın 1890-1898-ci illərdə Londonda gizli nəşr etdirdiyi "Ruznameyi-Qanun" ("Qanun" qəzeti) müstəbid şah hökumətini daim tənqid edirdi [15, s.50] və bu səbəbdən İrana gətirilməsi qadağan idi. Qəzetin 7-ci sayında belə yazırdı: "Qanun" qəzetini niyə xaricdə nəşr edirik? Çünki ölkədə (İran-Ə.F.) həqiqəti söyləmək qadağandır" [24, p,3].

Qacarların İngiltərədəki səfirliyinin dəftərxana müdiri Mirzə Məhəmmədəli xan Qaragözlü Həmədani (ö.1915) Mirzə Mülküm xanla dost olub, qəzetdə müxalifətçi məqalələr yazdığına görə 1889-cu ildə 22 ay İranda həbsdə yatmışdı [4, s.243].

Azərbaycan mütəfəkkirləri - M.F.Axundov, M.Şahtaxtlı və C.Məmmədqluzadə Mirzə Mülküm xanın maarifçilik fəaliyyətini yüksək qiymətləndirmişdilər. İlk dəfə 1863-cü ildə İstanbulda və 1872-ci ildə Tiflisdə Mirzə Mülküm xanla görüşən [1, s.313] M.F.Axundzadə onu "Ruhül-qüds həzrətləri" ("Müqəddəs ruh") adlandırmışdı [2, s.14]. Mirzə Mülküm xan da M.F.Axundzadəni "Böyük bir məramın böyük atası" adlandırır [2, s.64], "Kəmalüddövlə məktubları"nı İstanbulda çap etdirmək istəyirdi [2, s.18]. Ə.Hüseynzadə "Siyasəti-fürusət" əsərində Mirzə Mülküm xanı "Üsuli-insaniyyəti təlqin edən xadim" [5, s.339] adlandırmışdı.

"Mirzə Mülküm xan oturub London şəhərində bizim halımıza ağlayır" [2, s.72] deyən C.Məmmədquluzadə, müsəlmanların ona olan laqeydliyindən şikayət edirdi. "Molla Nəsrəddin" jurnalının 1907-ci il, 3-cü sayındakı "Həmşəri" məqaləsində C.Məmmədquluzadə belə yazırdı: "Alimi-yeganə (Mirzə Mülküm xan-Ə.F.) məzlumlar barədə bir kitab yazıb; tapın həmin kitabı və oxuyun" [8, s.129]. "Molla Nəsrəddin" jurnalının 1907-ci il, 30-cu sayındakı "Göz yaşları" məqaləsində C.Məmmədquluzadə "Qanun" qəzetini və onun naşiri Mirzə Mülküm xanın müsəlmanları vəhdətə dəvət edən yazılarından nümunələr verir və belə yazırdı: "Mirzə Mülküm xan "Qanun" qəzetinin onuncu nömrəsində üzünü müsəlmanlara tutub deyir: "Əgər sizdə şüur olsaydı və ən azı ittifaqın mənasını bilsəydiniz, o vaxt hansı zalım cürət edə bilərdi ki, sizin insanlıq hüququnuza əl

uzatsın?" [7, s.201]. C.Məmmədquluzadənin "Həmşəri", "Göz yaşları", "Bizim işlərimiz", "Keçi" və digər felyetonlarında da Mirzə Mülküm xana, onun "Qanun" qəzetinə müraciət edilmişdir [9].

XIX əsrin görkəmli ictimai-siyasi xadimi M.Tərbiyət "Danişməndani-Azərbaycan" əsərində Mirzə Mülküm xanın M.F.Axundzadə kimi əlifba islahatı ilə məşğul olduğunu, "Məbdeyi-tərəqqi" ("İnkişafın başlanğıcı"), "Şeyx və vəzir" adlı kitablar yazdığını qeyd edir [26, s.5; 11, s.31]. Mirzə Mülküm xan əlifba islahatı mövzusunda olan "Şeyx və vəzir" adlı əsərini M.F.Axundzadəyə də göndərmiş və bu əsər onun tərəfindən bəyənilmişdi [15, s.112]. Qeyd edək ki, "Şeyx və vəzir" əsəri osmanlı türkcəsində qələmə alınmışdır [15, s.49]. İran müstəbidlərinin Mirzə Mülküm xanın əsərlərinə lağ etdiklərini bildirən [2, s.26] M.F.Axundzadə əsərin Təbrizdə də çap olunmasını tövsiyə etmişdi [2, s.4]. Əsər "Şərqi-Rus" qəzetində hissə-hissə və 1907-ci ildə Tiflisdə "Qeyrət" mətbəəsində bütöv halda nəşr edilmişdi [2, s.69].

Şahlıq rejiminə qarşı demokratik ideyaları müdafiə edən Mirzə Mülküm xan ərəb əlifbasının çətinliyini müsəlmanların elmi, ictimai-siyasi inkişafına mane sayır [15, s.113], fəlsəfə və s. dünyəvi elmlərin məktəblərdə tədrisini tələb edirdi [16, s.82]. Qadın azadlığını və maarifçiliyi təbliğ edən Mirzə Mülküm xan "Qanun" qəzetinin 19-cu sayında yazırdı: "Biz qadınları uşaq tərbiyəsi, ailənin rifahı və dünya tərəqqisinin stimulu hesab edirik. Və qızların tərbiyəsinin sivilizasiyanın ən müqəddəs vəzifələri olduğuna inanırıq" [24, p.11-12].

"Yeni yol" qəzetinin 1922-ci il, 1-ci sayında Mirzə Mülküm xanın əlifba islahatı yolundakı fəaliyyətini təqdir edən C.Məmmədquluzadə onun belə dediyini nəql edirdi: "Əgər götürək üç yüz milyondan ibarət erməni və yunan mətbuatını, görərik ki, erməni və yunan mətbuatı bütün müsəlman mətbuatından yüksəkdir. Buna da səbəb ərəb hürufatının (hərflər-Ə.F.) çətinliyidir" [8, s.224]. Lakin İran və Osmanlı hakimiyyəti və mürtəce ruhanilər ərəb əlifbasını müqəddəs sayıb, hər hansı bir islahata qarşı çıxırdılar. Mirzə Mülküm xan M.F.Axundzadəyə yazdığı məktubda buna işarə edərək yazırdı ki, onlar əlifbanı "dinin bir parçası" [22, p.91] sayırlar. İrandakı tənəzzülün səbəbini ərəb əlifbasında görən Mirzə Mülküm xan "Əgər əlifba dəyişdirilərsə, İranda yoxsulluq ortadan qalxar, şahlıq da ləğv olar" [15, s.111], deyirdi. Mirzə Mülküm xanın əlifba çalışmalarını bəyənən M.F Axundzadə yazırdı ki, "Həqiqi alim və hörmətəlayiq Mirzə Kazımbəy də onu dəstəkləyir" [21, c.68].

Mirzə Mülküm xan İstanbulda demokratik fikirli İran azərbaycanlıları tərəfindən nəşr olunan "Əxtər" qəzetində məqalələr yazır, qəzetin dəst-xəttini müdafiə edirdi [18, s.56-57]. "Əxtər" qəzeti haqqında məlumat verən "Əkinçi" qəzetinin 1876-cı il, 5-ci sayındakı "Daxiliyyə" məqaləsində yazırdı ki, "Əgərçi İstanbul şəhərində müsəlmanlar üçün çox qəzet çap olunur, amma onlar osmanlı dilində olduğundan bizim üçün elə ləzzət eləməz, lakin "Əxtər" qəzeti fars dilində çap olunduğuna və fars dili bizim vilayətlərdə çox işləndiyinə ümidvarıq ki, onu bizim tərəflərə gətirdən çox ola" [3, s.121-122]. "Əxtər" qəzeti şahlıq rejimini tənqid edib, demokratik dəyərləri müdafiə edirdi. Bu səbəbdən İrana gətirilməsi qadağan idi [12, s.93].

Avropalılaşmağı və Qərbin dövlət idarə sistemini İranda tətbiq etməyə çalışan Mirzə Mülküm xan "Avropa millətləri bir çox mücadilədən sonra ədalət, azadlıq, seçib-seçilmə haqqına sahib oldular. Əgər müsəlmanlar həqiqətən də bu haqlara sahib olmaq istəyirsə, niyə Avropanı təqlid etmirlər?" [16, s.62] deyirdi. Volter, Russo kimi Qərb filosoflarının xalqı zülmə qarşı mübarizəyə çağırdığını deyən Mirzə Mülküm xan "Məzlum zülmə dözməməlidir" [16, s.72] deyərək, xalqı şahlıq rejiminə qarşı mübarizəyə səsləyirdi.

Ölkədə günahkarlara verilən cəzaların da qeyri-müəyyən və adama görə müxtəlif olduğunu yazan mütəfəkkir – "Cəzalar hər bir günahkar üçün aydın və bərabər olmalıdır"[16, s.75-76], deyirdi. "Qanun, bütün İran məmləkətində, bütün İran təbəələri üçün bərabər olmalıdır; Heç kimə qanunsuz cəza verilməməlidir; Etiqad azadlığı olmalıdr" [16, s.78-79] deyən Mirzə Mülküm xanın ən böyük əleyhdarları şahpərəstlər və mürtəce ruhanilər idi. Onlar Qərb texnologiyasının qəbul edilməsini mümkün sayır, lakin konstitusiyalı idarə sistemini rədd edirdilər. Mirzə Mülküm xan isə bu cür idarə sisteminin uzun təcrübələrin nəticəsi olduğunu, insanlığa daha faydalı olacağını bildirirdi [16, s.63]. Mir-

zə Mülküm xan qeyri-məhdud hakimiyyətə malik olan şahın səlahiyyətinin parlament tərəfindən məhdudlaşdırılması ideyasını irəli sürürdü [20, s.115-116]. Ölkəni xaricilərin əlində oyuncağa çevirən şah hökumətini tənqid edən mütəfəkkir özünün "Qanun" qəzetində – "Məgər İran xalqı ölüb ki, onu hərraca qoyublar?" [2, s.51] deyə şikayət edirdi.

Mütəfəkkir "İran mədəniyyəti" adlı risaləsində islam dininin mədəniyyətə mane olduğunu iddia edənləri də tənqid edir, "İslam dini mədəniyyətə müxalif deyil" deyirdi [16, s.62]. Mirzə Mülküm xan İranın və islam dünyasının Qərb qarşısındakı məğlubiyyətini nadan din və dövlət xadimlərində görür və onları tənqid edirdi. "Bu ruhanilərin nə üstünlükləri var ki, belə geniş imtiyazlara malikdirlər?" deyən mütəfəkkir onların öz rəzilliklərini vəzifə ilə pərdələdiklərini deyir [16, s.47], "Nidayi-ədalət" risaləsində Avropanın inkişafını keşişlərin yaratdığı xurafat və mövhumatların qanlı mücadilələr nəticəsində yox edilməsiylə əlaqələndirir və müsəlmanları bundan nümunə götürməyə çağırırdı [16, s.30]. O, xalqı cəhalətdə saxlayan mürtəce ruhanilərə xitabən "Siz milləti parçalayırsınız, onları bir-birinə düşmən edirsiniz" [2, s.58] deyərək, "Qanun" qəzetinin 8-ci sayında din xadimlərindən belə şikayət edirdi: "bütün bu zülmlər və İranda axan göz yaşları sizin sükutunuz və qəddarlığınıza görədir. Necə deyə bilərsiz ki, "Bu bizim problemim deyil" [24, p.13]. Məhz bu kimi hallara görə, o, İranda dünyəvi idarəetmə sisteminin qəbuluna çalışırdı [21, c.116].

İlk dəfə Mirzə Mülküm xan tərəfindən İranda ortaya qoyulan məşrutiyyət ideyaları [16, s.13] Hacı Ağa Ruhullah Nəcəfi İsfahani kimi mütərəqqi din xadimləri tərəfindən də dəstəklənmişdi. Avropa qanunlarını Qurana uyğun sayan bu din xadimi yazırdı ki, "Məşrutiyyət islam deməkdir. Məşrutiyyət istəmək islamı istəməkdir" [20, s.82]. Mirzə Mülküm xanın məşrutiyyət fikirləri görkəmli azərbaycanlı mütəfəkkir Cəmaləddin Əfqaniyə də təsir etmişdir [17, s.108]. Lakin Mirzə Mülküm xanı küfrlə ittiham edib, "Biz dinimizdən imtina etmək istəmirik. Allah bizə ağıl verib, Avropa qanunlarına möhtac deyilik" deyən mürtəce ruhanilər də var idi [17, s.105-106].

"İranda hər şeyi bir nəfər (şah-Ə.F.) zəbt edib" [16, s.44] deyən Mirzə Mülküm xan "Goftar dər rəfi-zülm" ("Zülmün ləğvi haqqında sözlər") əsərində belə yazırdı: "Ya zalımlar zülmü tərk etməli, ya da məzlumlar zülmə dözməməlidirlər" [15, s.61]. M.F.Axundzadə onun belə dediyini nəql edirdi: "Məzluma demək lazımdır ki, ey nadan! Sən ki, qüdrət, say və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan?" [1, s.268].

Maarifçi bir şəxsiyyət olan Mirzə Mülküm xan eyni zamanda ziddiyyətli ictimai-siyasi xadim idi, adı dəfələrlə rüşvət qalmaqallarında hallanmışdır. Nəsrəddin şahın Avropaya səyahətlərində İranın təbii qaynaqlarının İngiltərəyə pay verilməsi üçün ingilislərdən rüşvət aldığı ortaya çıxmış [17, s.105], aldığı rüşvətlər sayəsində şah hökumətinin icazəsilə ingilislərə ölkədə qumarxanalar qurdurmuşdu. Mirzə Mülküm xanın təşviqi ilə şah İranda istehsal edilən tütün və tənbəkinin alqı-satqı və istehsalını 50 il müddətinə Gerald Talbotun Londondakı şirkətinin inhisarına vermişdi. Lakin xalqın şiddətli etirazı və Cəmaləddin Əfqani, Mirzə Həsən Şirazi və Təbrizdən olan müctəhid Mirzə Cavadın şaha, ingilislərə qarşı cihad fətvaları Nəsrəddin şahı bu müqaviləni pozmağa məcbur etmişdi [19, s.4-5]. Deyə bilərik ki, Nəsrəddin şahın dövründə baş verən tənbəki üsyanı və sonda şahın qətl edilməsi İranda ümumxalq azadlıq hərəkatının təməlini qoydu və məşrutəyə gedən yol açıldı.

Nəticə olaraq deyə bilərik ki, Mirzə Mülküm xan ziddiyyətli bir şəxsiyyət olmuşdur. İranda müsəlman kimi özünü təqdim edən Mirzə Mülküm xanın Avropada xristian bir erməni qızı ilə kilsədə evlənməsi [14, s.164-166], missionerlərlə yazışmalarında özünün xristian olduğunu bildirməsi və ölərkən yandırılmasını vəsiyyət etməsi [17, s.109] dini baxımdan da onun müsəlmanlığına şübhələr yaratmışdır. Lakin Mirzə Mülküm xan XIX əsr İranında demokratik dəyərlərin yayılmasında, şahlıq rejiminə və xurafatçı din xadimlərinə qarşı mübarizədə böyük rol oynamışdır. Mürtəce ruhanilərin maneəsindən çəkinən Mirzə Mülküm xan əksər vaxtlarda özünün qərbpərəst fikirlərini dini terminologiya ilə ifadə edərək, müsəlmanlar tərəfindən qəbul edilməsinə çalışmışdır. İran məşrutə inqilabının təməllərinin qoyulmasında da

onun demokratik ideyaları təsiredici olmuşdur [23, p.185]. Mirzə Mülküm xanın yaradıcılığı məşrutə inqilabçılarına, o cümlədən Cənubi Azərbaycandan olan millət vəkili, görkəmli ictimai-siyasi xadim Seyid Həsən Tağızadəyə böyük təsir göstərmişdir [10, s.183]. Mütəfəkkirin "Qanun" qəzetinin bəzi nömrələri isə məşrutə inqilabı dövründə Tehranda yenidən nəşr edilmişdi [2, s.25]. Mütəfəkkirin maarifçilik fəaliyyəti M.F.Axundzadə, C.Məmmədquluzadə, M.Şahtaxtlı kimi azərbaycanlı ziyalılar tərəfindən təqdir edilmişdir. Mirzə Mülküm xanın əsərlərinin tədqiqi XIX əsr – XX əsrin əvvəlləri Azərbaycan və Yaxın Şərq tarixinin öyrənilməsi baxımından xeyli əhəmiyyətə malikdir.

**Ədəbiyyat siyahısı**


1.Axundzadə M.F. Əsərləri. Üç cilddə. II cild. Tərtib edən: H.Məmmədzadə. Bakı: Şərq-Qərb, 2005, 376 s.

2.Baxşəliyev O. Mirzə Melkum xan: həyatı və ədəbi fəaliyyəti. Bakı: Azərnəşr, 1970, 76 s.

3.Əkinçi. 1875-1877. Tam mətni. Bakı: Avrasiya, 2005, 496 s.

4.Həsənzadə T. XVIII-XIX əsrlərdə İranda yaşamış azərbaycanlı ictimai-siyasi xadimlər (Mehdi Bamdadın "Tarixi-ricali-İran" əsəri əsasında). Bakı: Nurlan, 2007, 319 səh.

5.Hüseynzadə Ə. Seçilmiş əsərləri. II cild. Bakı: Çaşıoğlu, 2008, 579 s.

6.Kəsrəvi Ə. İranın məşrutə inqilabının tarixi. I cild. Tərc: A.Ə.Haşimi (Cavanşir). Essen, 2003, 528 s.

7.Məmmədquluzadə C. Əsərləri. II cild. Bakı: Öndər nəşr., 2004, 584 s.

8.Məmmədquluzadə C. Əsərləri. IV cild. Bakı: Öndər nəşr., 2004, 472 s.

9."Mülküm xan" // Cəlil Məmmədquluzadə Ensiklopediyası // http://calilbook.musigi-dunya.az/m/mul-kum_xan.html?fbclid=IwAR2YZdCQdagt1Be-REjBLRrpHM9MoYJKAY-tAL5TJ_5HIZ6Oj2S9wfPPyqXIU

10.Şəfiyeva Ə. S.H.Tağızadənin elmi-pedaqoji fəaliyyəti // Tarix və onun problemləri, 2009, №3, s.182-185.

11.Tərbiyət M. Danişməndani-Azərbaycan. Bakı: Elm və təhsil, 2012, 129 s.

12.Alam Tabriz A. Aydınların, dini liderler ve esnafın İranın yakın dönem toplumsal hareketlerindeki ve devrimlerindeki rollerinin incelenmesi. Ankara: Ankara Üniversitesi, 2004, 256 s.

13.Algar H. Ahundzade Mirza Feth Ali // TDV İslam Ansiklopedisi, II cild, İstanbul, 1989, s.186-190.

14.Algar H. Mirza Melkum han // TDV İslam Ansiklopedisi, XXX cild, İstanbul, 2005, s.164-166.

15.Devebakan M. İranın modernleşme ve meşrutiyete geçiş sürecinde önemli bir aktör: Mirza Malkum Han (1833–1908). Tokat: Gaziosmanpaşa Üniversitesi, 2008, 135 s.

16.İmamoğlu O. Mirza Malkum hanın risalelerinde İran modernleşmesi. Van: Van Yüzüncü Yıl Üniversitesi, 2019, 105 s.

17.Karadeniz Y. İran Batılılaşma Hareketinde Mirza Malkum Han'ın Rolü (1833-1908) // SDÜ Fen Edebiyat Fakültesi S o s y a l B ili m l e r D e r g i s i , 2011, Sayı: 23, s.103-111.

18.Kurtuluş R. Ahter // TDV İslam Ansiklopedisi, Ek-1-ci cild, İstanbul, 2016, s.56-57.

19.Kurtuluş R. Tütün // TDV İslam Ansiklopedisi. 42-ci cild. İstanbul, 2012, s.4-5.

20.Uyar M. İranda modernleşme ve din adamları. İstanbul, Emre yay., 2008, 336 s.

21.Рзаев А.К. Мухаммед Али Мирза Казем-Бек. Москва: Наука, 1989, 199 с.

22.Algar H. Mirza Malkum Khan. A Biographical Study in Iranian Modernism. California: University Press of California, 1973, 337 p.

23.Algar H. *Religion* and the *State* in Iran, 1785–1906: The Role of the Ulama in the Qajar Period. California: University of California Press, 1980, 286 p.

24. Bashir H. Qanun and the Modernisation of Political Thought in Iran // https://isu-ir.academia.edu/HassanBashir

25.Kəsrəvi Ə. Tarixe-məşruteye-İran. Tehran: Müəssəseye-intişarate-Əmir Kəbir, 1343, 906 s.

26.Tərbiyət M. Danişməndane-Azərbaycan. Tehran, 1314, 414 s.

**Summary**

**Ali Farhadov**

**Review of Mirza Malkum Khan's life and creativity**

In the article, the educational activities of prominent public figure of Qajars state Mirza Malkum Khan who lived in the XIX - early XX centuries are researched for the first time in the complex form based on existing sources and literature. Mirza Malkum Khan was one of the eminent enlightened people of his period.

The creativity of Mirza Malkum Khan, who worked on the education of Muslim population, had been praised by Azerbaijani enlighteners such as M.F.Akhundzadeh and J.Mammadguluzadeh. The research of the works of Mirza Malkum Khan, who fought against the reactionist clericals and the shah regime, has great importance in terms of studying the history of the Near East in the $19^{th}$ and at the beginning of the $20^{th}$ century. These issues were mentioned in the article.


***Keywords:*** *Mirza Malkum Khan, state, religion, enlightenment*


**Резюме**

**Али Фархадов**

**О жизни и творчестве Мирзы Мелькум хана**

В статье впервые на основе имеющихся источников и литературы комплексно исследуется просветительская деятельность известного общественно-политического деятеля государства Каджаров Мирзы Мелькум хана, проживающего в XIX – начале XX века. Одним из самых видных деятелей династии Каджаров является Мирза Мелькум хан.

Деятельность Мирзы Мелькум хана на пути просвещения мусульманских народов была высоко оценена такими просветительями азербайджана, как М.Ф.Ахундзаде, Дж. Мамедкулузаде. Исследования Мирзы Мелькум хана, борющегося против реакционного духовенства и шахского режима, имеет большое значение в изучении ближневосточной истории XIX и начала XX веков. В статье представлены эти вопросы.


***Ключевые слова:*** *Мирза Мелькум хан, государство, религия, просвещение*

UOT 94 (479.24)

**ƏNVƏR MƏMMƏDOV**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, t.ü.f.d., dosent*
*mammadovanvar1969@mail.ru*
*Azərbaycan*

# XX ƏSRİN 20-Cİ İLLƏRİNDƏ ZAQATALA VƏ SIĞNAQ QƏZALARI ARASINDAKI TORPAQ MÜBAHİSƏSİNƏ DAİR

***Açar sözlər:*** *Zaqatala qəzası, Şirək düzü, Sığnaq qəzası, torpaq mübahisəsi, bolşevik Rusiyası, komissiya*

Çarizmin XIX-XX əsrin əvvəllərində Cənubi Qafqazda hayata keçirdiyi inzibati-ərazi bölgüsünə əsasən Vətənimizin ərazisi müxtəlif inzibati vahidlər arasında bölünmüş, bununla da əzəli Azərbaycan topaqlarının qonşu dövlətlərin ərazisinə qatılması üçün bir növ zəmin hazırlanmışdı. Hazırki məqalədə də məhz çarizm zamanında əsası qoyulmuş, bolşevik Rusiyası tərəfindən davam etdirilərək XX əsrin 30-cu illərində əzəli Azərbaycan torpaqları olan Şirək düzü və Çiaur meşə sahəsinin Gürcüstana verilməsi ilə nəticələnmiş problemin üzərində dayanacağıq.

İlk olaraq qeyd edək ki, tarixi Car-Balakən camaatlığı və İlisu sultanlığının əhalisinin qədimdən istifadəsində olmuş Şrom kəndi, Snorisxali məntəqəsi və Qabalsu çayına kimi uzanan bu torpaqların böyük hissəsi Azərbaycanın çar Rusiyası tərəfindən işğalından sonra rus hökuməti tərəfindən onların əlindən alınaraq bölgənin işğalındakı xidmətlərinə görə knyaz Çelokayev kimi bəzi gürcü knyazlarına verilmişdi [1, v. 52]. Voronsov-Daşkovun canişinliyi zamanında bu torpaqlarda Laqodexidən başlayaraq cənub-qərbə doğru Novo-Alekseyevka, Novo-Mixaylovka, Qrafskoe, İllarionovka, Voronsovka və Daşkovka kimi rus məskənləri salınır və onlar inzibati cəhətdən Sığnaq qəzasına tabe edilir [1, v. 52].

Azərbaycanın şimal-qərb torpaqlarının böyük hissəsinə göz dikən Gürcüstanın menşevik hökuməti çar Rusiyası zamanında müəyyən edilmiş inzibati sərhədləri əsas gətirərək inzibati cəhətdən əvvəllər Tiflis quberniyasına tabe edilmiş torpaqlarımıza iddia etməyə başlayır. Məhz menşevik hakimiyyəti zamanı bu torpaqlardakı rus məskənlərinin əhalisi qovularaq onların yerində Tiflis və Kutaisi quberniyalarından köçürülmüş gürcülərin yerləşdirilməsi ilə tərəflər arasındakı torpaq mübahisəsinin əsası qoyulur [1, v. 53; 2, v. 15].

Sığnaq qəza rəhbərliyi Gürcüstanda aqrar islahatın keçirildiyini əsas gətirərək Çiaur meşəsini ayrı-ayrı sahələrə bölməklə buradakı rus məskənlərinə köçürülmüş gürcü əhaliyə paylamağa başlayır. Şirəkdəkı torpaqlar isə Gürcüstan vətəndaşları olan tuşin maldarlarına icarəyə verilir [2, v. 15].

Qeyd edək ki, həmin vaxtı Şirək düzündə Zaqatala mahalı kəndlilərinə məxsus torpaqların ümumi sahəsi 16 min desyatindən artıq idi [6, v. 41].

Şirək düzü və Çiaur meşə sahəsində Zaqatala və Sığnaq qəzalarının əhalisi arasında mövcud olan torpaq mübahisəsi sovet hakimiyyətinin ilk illərində yenidən başlayır.

Rusiya Kommunist bolşeviklər Partiyası Zaqafqaziya Diyar Komitəsinin 12 noyabr 1922-ci il tarixli mandatıyla Zaqatala və Sığnaq qəza inqilab komitələrinin məsul katibləri Balaxlinski və Baramaşvili bu qəzalar arasındakı torpaq mübahisəsinin həlli, mübahisəli torpaqlardakı faktiki istifadəçilərin müəyyən edilməsi üçün səlahiyyətli nümayəndələr təyin edilirlər. Zaqatala və Sığnaq qəzaları arasındakı torpaq mübahisəsini həll etmək məqsədilə hər iki qəza icraiyyə komitələrinin nümayəndələrindən təşkil olunmuş qarışıq komissiyanın Alazanın sağ sahilini, eləcə də Çiaur meşə sahəsini gəzdikdən sonra gəldiyi nəticə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin nəzdindəki qəzaların sərhədlərini müəyyən edən komissiyanın 14 may 1923-cü il tarixli iclasında müzakirə edilərək 1) Qərbdə Mosul bərəsi, şərqdə Zakam binə (Qa-

nıx Daman), cənubda Kedı dağları, şimalda Alazan çayı ilə sərhədlənən ərazi qış aylarında maldarlardan icarə haqqını toplamaq hüququyla iqtisadi və inzibati cəhətdən Zaqatala qəzasına tabe edilsin; 2) Qərbdə Muğanlıçayın mənsəbi, şərqdə Mosul bərəsi, şimalda Alazan çayı, cənubda Kedı dağ silsiləsi (Qanlı Qobu) ilə sərhədlənən Alazanın sağ sahilindəki mübahisəli ərazi iqtisadi və inzibati cəhətdən Sığnaq qəzasına tabe edilməsi qərara alınmışdı.

İclasın qərarına görə Muğanlı icması üçün ayrılmış torpaq sahəsindən onların ödəyəcəyi dövlət və digər vergilərin Zaqatala qəza hakimiyyət orqanları tərəfindən toplanması, otlaqlar üzərində sərəncamvermə hüququnun hər iki qəzanın torpaq komitələrinin səlahiyyətlərinə aid edilməsi nəzərdə tutulmuşdu [8, v. 36].

Tərəflər arasında Çiaur meşə sahəsi və Şirək düzündə sərhəddi nizamlamaq məqsədilə təşkil olunmuş komissiyanın 1924-cü il oktyabrın 15-i, 16-sı və 17-də keçirilmiş iclasların qərarları xüsusilə əhəmiyyətlidir. Çünki sonralar bu mübahisəli məsələnin nizamlanması zamanı məhz həmin iclasların qərarları əsas kimi götürülüb.

Zaqatala və Sığnaq qəza icraiyyə komitələrinin sədrləri (Qocayev və Çaxnaşvili), hər iki qəzanın torpaq şöbəsinin rəhbərləri (Süleymanov və Alavidze), Azərbaycan və Gürcüstan SSR torpaq komissarları (Balabanov və Teudukidze), Gürcüstan Daxili İşlər Komissarlığının nümayəndəsidən (Tazişvili) ibarət Zaqatala və Sığnaq qəzaları arasında sərhəd mübahisəsini nizamlayan komissiyanın 1924-cü il oktyabrın 15-də Tiflisdə keçirilmiş iclasında Qabaqçöl və Laqodexi rayonunun kəndləri arasında Çiaur meşə sahəsində yaranmış torpaq mübahisəsinə baxılaraq qərara alınır:

1) Qəzalar arasında sərhəd Moslis-Tsike (Kalabuqav Tala) qalasının xarabalıqlarından cənub-qərb istiqamətində Abjitsu çayı ilə düz şimal-qərbə doğru Kvirias Tsxali (Dərin Qobu) çayının mənbəyi, oradan da cənuba tərəf Dərin Qobu çayı ilə onun Abjitsu çayına qovuşduğu yer, bu çayların axarı boyu Ulqamsu çayının Alazana töküldüyü yerə qədərki xətt müəyyən edilsin. Abjitsu çayının mənbəyini Sığnaq qəzasına keçmiş ərazidən götürdüyünü, qabaqçöllülər üçün həyati əhəmiyyət kəsb edən meşə sahəsinin qorunub saxlanmasında maraqlı olduğunu nəzərə alaraq Sığnaq qəza hakimiyyəti şimal-qərbdə Abjitsu çayından şərqə doğru Laqodexidən Qabaqçöl kəndinə gedən yola qədərki sahəni qırılması qadağan olunmuş zona elan etməyi öhdəsinə götürsün;

2) Köhnə cığırdan yuxarı, Abjitsu çayının sağ sahilindəki 30 desyatinə qədər ərazi otlaq sahəsi kimi tərəflərin ümumi istifadəsində saxlansın;

3) Bu razılaşmanın birinci bəndinə görə Qabaqçölün Dərin Qobunun sağ sahilindəki Sığnaq qəzasına keçmiş ərazidəki Çuruli tala, Beşkənd xutorları onlarda əkin və mülk sahələrinin genişləndirilməməsi şərti ilə əvvəlki qaydada qabaqçöllülərin istifadəsində saxlansın;

4) Problemin ədalətli həlli naminə Sğnaq qəza hakimiyyət orqanları bu razılaşmaya görə ona keçmiş ərazilərdən istifadə müqabilində 1924-1925-ci illər üçün qabaqçöllülərdən icarə haqqı almasın;

5) Razılaşmaya görə Zaqatala qəzasına keçmiş ərazilərdə Laqodexi rayonunun əhalisinin istifadəsində olan torpaqlar qalarsa, onun sahəsini özbaşına artırmamaq şərti ilə həmin yerlərdən gürcü əhalinin istifadə etməsinə maneçilik törədilməsin [8, v. 24].

Komissiyanın 1924-cü il oktyabrın 16-da keçirilmiş iclasında isə Zaqatala və Sığnaq qəzaları arasında Şirək düzündəki sərhəd müəyyən olunur. Bu məsələnin müzakirəsi zamanı Gürcüstanın torpaq komissarı Jvaniya və Sığnaq Qəza İcraiyyə Komitəsinin sədri Çaxnaşvili Rusiya Kommunist Partiyası Zaqafqaziya Diyar Komitəsinin əvvəllər, eyni zamanda bu məsələ ilə əlaqədar sonuncu dəfə 1923-cü ildə təşkil etdiyi komissiyanın yerində vəziyyətlə tanış olduqdan sonra gəldiyi nəticəni, əldə etdiyi faktları nəzərə almadan qəzalar arasında sərhəddin Alazan çayı müəyyən olunmasında israr edərək belə vacib məsələnin kabinet həllini tələb edirlər. Gürcü tərəfi yalnız 1923-cü il aprelin 1-nə kimi Zaqatala qəzasının əhalisinin istifadəsində olmuş torpaqların onların ixtiyarında saxlanmasına razılıq verirdi. Azərbaycan nümayənədələri sübut kimi mübahisəli ərazinin 1881-ci ildən Tiflis quberniya torpaq idarəsi tərəfindən fasiləsiz olaraq həmişə Zaqatala qəzasının əhalisinə icarəyə verildiyini, bu əkin və otlaq sahələrinin həmin əhali üçün həyati əhəmiyyət kəsb etdiyini qeyd etməsinə baxmayaraq, Sığnaq qəzasının

nümayəndələri gətirilən arqumentləri nəzərə almaqdan imtina edirlər. Gürcü tərəfi Tionet və Telav qəzalarındakı tuşinlərin də mübahisəli torpaqlardan icarə əsasında istifadə etdiyi sahələrin həcmini müəyyən etməyin vacibliyini qeyd etməklə problemin artıq Sığnaq qəzasının deyil, bütün Gürcüstan əhalisinin ehtiyaclarını nəzərə almaqla həll etmək təklifini irəli sürür.

İclas iştirakçıları heç bir razılığa gələ bilmədiyindən irəli sürülən təklifləri protokola qeyd etməklə mübahisəni Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin komissiyasının müzakirəsinə vermək qərara alınır [8, v. 25].

Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Zaqatala və Sığnaq qəzaları arasında sərhəd mübahisəsini həll edən komissiyanın Geqeçkeri və Bünyadzadənin iştirakıyla 1924-cü il oktyabrın 17-də Tiflisdə keçirilən iclasında tərəflər arasındakı sərhəd mübahisəsi məsələsi müzakirə edilərək Şirəkdəkı sərhədlə bağlı qərara alınır: 1) "Şirək" sahəsində tərəflərin əvvəlki əmək istifadəsi nəzərə alınmaqla Zaqatala və Sığnaq qəzaları arasında inzibati sərhəd Alazan çayı müəyyən edilsin; 2) Şirəkdə Azərbaycan və Gürcüstan vətəndaşlarının faktiki istifadəsində olan torpaqların müəyyən edilməsi və mərzləşdirilməsi məqsədilə Balabanovun sədrliyi ilə Zaqatala və Sığnaq qəza icraiyyə komitələrinin nümayəndələri Qocayev və Çaxnaşvilidən ibarət komissiya göndərilsin; 3) Komissiyanın sərəncamına kifayət qədər torpaqölçən verilməklə bu işi iki həftə ərzində başa çatdırmaq tapşırılsın [6, v. 30].

Lakin Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin sədri Ağamalıoğlunun sədrliyi ilə komissiyanın 1924-cü il oktyabrın 26-da keçirilmiş iclasında göstərilirdi ki, məsələnin həlli zamanı tərəflərin mübahisəli torpaqlara olan hüququnun müəyyən edilməsində onların bu torpaqlardakı faktiki istifadə əlamətləri deyil, bu təsərrüfatların həmin ərazidə torpaqla hansı səviyyədə təmin olunması məsələsi nəzərə alınmalıdır [6, v. 31]. Bu gürcü tərəfin iddia etdiyi mübahisəli torpaqların əsl sahibi olan Zaqatala qəzasının əhalisinin mənafeyinə zidd idi. Çünki həmin vaxta kimi Sığnaq qəza rəhbərliyi bura köçürülmüş gürcü əhaliyə özbaşına mübahisəli ərazilərdən çoxlu torpaq sahələri vermişdi.

Bundan narahat olan Qabaqçöl, Əliabad və Muğanlı kəndlərinin müvəkkilləri Məhəmməd Kurbaçov, Məhəmməd Tinav Ömər oğlu, Ramazan Hacıyev, Səməd Allahverdi oğlu və İsmayıl Süleymanov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə göndərdikləri məktubda yazırdılar: "Zaqatala və Sığnaq qəzaları arasındakı sərhəd mübahisələrini həll edən komissiyanın 1924-cü il oktyabrın 15-də Tiflisdə keçirilmiş ilkin iclasında bizim qəzanın əməkçi əhalisinin maraqlarına zidd qərar qəbul olunub. Əvvəllər Ağamalıoğlunun rəhbərliyi ilə yerində keçirilmiş baxış zamanı həm bizi, həm də gürcü əhalini qane edən təkmil sərhəd müəyyən olunsa da, nədənsə sonrakı iclaslarda bu nəzərə alınmadı. Biz "Beşkənt", "Çereli tala", "Tseteli qori" və digər xutorlarımızın gürcülərə verilməsi ilə razılaşa bilmərik. Bu torpaqlar üzərində tarixən olduğu kimi, hal-hazırda da faktiki sahibolma hüququ bizə məxsusdur. Əgər güc və hərc-mərcliklə həmin torpaqlar əlimizdən alınsa, onda bu bizə qarşı ədalətsiz hərəkət, qanuni hüquqlarımızın açıq-aşkar pozulması olacaq" [6, v. 42].

Bundan başqa azərbaycanlı əhali müzakirələrə onların nümayəndələrinin dəvət olunmamasından da narazı idilər. Zaqatala Qəza İcraiyyə Komitəsinin nümayəndələri Balacayev Şirin, Nəsibov Dibir və Şabanbəyov Üzeyir Azərbaycan SSR Torpaq Komitəsinin sədri Qrinə göndərdikləri məktubda Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsindən bununla bağlı izahat almamış, onun işində indidən sonra iştirak etməyəcəklərini bildirirdilər. Azərbaycan Torpaq Komitəsi özünün 30 dekabr 1924-cü il tarixli 16738 saylı məktubunda Zaqatala Qəza İcraiyyə Komitəsini əmin edir ki, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində mübahisəli torpaqların müzakirəsi zamanı onların nümayəndələri də dəvət olunacaq [7, v. 36].

Əhalinin haqlı narazılığını nəzərə alan Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi özünün Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinə göndərdiyi 21 fevral 1925-ci il tarixli iclasının 8/37 saylı protokolunda göstərirdi: 1) Zaqatala qəzasının Qabaqçöl kəndi və Laqodexi rayonunun kəndləri arasında Çiaur meşə sahəsində yaranmış mübahisəsinə yenidən baxılması, məsələyə baxılana qədər mübahisəli ərazilərdən istifadədə komissiyanın 1924-cü il 15 oktyabr iclasına qədər mövcud olmuş qaydaların saxlanılması Zaqafqaziya Mərkəzi İcraiy-

yə Komitəsindən xahiş olunsun; 2) Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində bu məsələnin müzakirəsi zamanı Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətli nümayəndələri ezam olunsun [8, v. 30].

Tərəflər arasındakı inzibati sərhəddi Alazan və Mazım çayları ilə müəyyənləşdirən komissiya sonrakı iclaslarda hər iki respublikaların vətəndaşlarının qarşı tərəfdə qalmış torpaqlardan istifadəsini qaydaya salmışdır. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Qabaqçöl icmasının Çiaur meşə sahəsinə olan iddiasına baxan komissiya (üzvləri-Əliyev, Morçiladze, Zaqatala və Sığnaq Qəza İcraiyyə Komitələrinin nümayəndələri Binyətov, Qocayev, Qoqnidze, Baydaşvili) 6 may 1925-ci il tarixli iclasında mübahisəli məsələ ilə tanış olduqdan, Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin komissiyasının 1924-cü il 15, 17 oktyabr iclaslarının, həmçinin Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1925-ci il 30 mart tarixli 6 saylı qərarlarına əsasən qərara alınır: Qabaqçöllülərin torpağa olan kəskin ehtiyacını nəzərə alaraq onların hal-hazırda Çiaurda olan xutor və mal-qarasına kifayət edəcək qədər torpaq sahəsinin ayrılması üçün Zaqatala və Sığnaq qəza icraiyyə komitələrinə bir həftə ərzində öz nümayəndələri və torpaq ölçənlərdən ibarət qarışıq komissiyanı təşkil etmək tapşırılsın; indidən sonra qabaqçöllülərə bu xutorlarda binə və mal-qaranın sayının artırılmasını, Laqodexi meşə idarəsinin icazəsi olmadan Çiaur meşə sahəsindən odun hazırlamağı qadağan edən qərar Zaqatala Qəza İcraiyyə Komitəsinə bildirilsin [7, v. 37].

Bu qəzalar arasındakı torpaq mübahisəsini həll etmək üçün növbəti iclas Sığnaq Qəza İraiyyə Komitəsinin sədri Merianaşvili, milis şöbəsinin rəisi Mestiaşvili, təsərrüfat şöbəsinin müdiri Baizaşvili, meşəbəyi Qeorqadze, onun köməkçisi Mlaroseyeviç, Laqodexi rayon milis şöbəsinin rəisi Çirviladze, Laqodexi Rayon Partiya Komitəsinin katibi Bensaşvili, Şərqi Gürcüstan prokurorunun köməkçisi Qoçolaşvili, Zaqatala Qəza İcraiyyə Komitəsinin sədri Şirin Balacayev, milis rəisi Səlim Dadaşov, torpaq şöbəsinin müdiri Dibir Nəsibovun iştirakıyla 1926-cı il iyunun 7-də keçirilir. İclasda Qabaqçöl və Laqodexi kəndlilərinin ümumi istifadəsində saxlanılmış 30 desyatin otlaq sahəsi və digər mübahisəli məsələlərin nizamlanması, eyni zamanda Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Beşkənd, Dərin Qobu, Tseteli Qori binələrinə dair 15 oktyabr 1924-cü il tarixli qərarının həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olunaraq qərara alınır:

- Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin 15 okytabr 1924-cü il tarixli iclasının 1 saylı protokoluna uyğun olaraq bu 30 desyatin ərazi tərəflərin ümumi istifadəsində saxlanılsın. 15 oktyabr 1924-cü il iclasına qədər mövcud olmuş binə və əkin sahələrindən istifadə əvvəlki qaydada saxlanılmaqla 1926/1927-ci və sonrakı illər üçün icarə haqqı Sığnaq meşə idarəsinə ödənilsin. Zaqatala Qəza İcraiyyə Komitəsi icarə haqqını ödəməli olan binə sahiblərini onların istifadəsindəki əkin sahələri və mal-qaranın sayı göstərilməklə müvafiq vasitələrlə təmin edilməsini təşkil etsin. Qeydiyyata alma və icarə haqqının ödənilməsi üçün 1926-cı il iyunun 15-dən iyulun 1-nə kimi müddət müəyyən edilsin. Bu müddətdə qeydiyyata düşməyənlər tutduqları torpaqlardan çıxarılsınlar;

- Qabaqçöl kəndinin birgə komissiyanın 1924-cü il 15 oktyabr iclasına qədər mövcud olmuş binələrindən Beşkənddəki 8 binəsi, Dərin Qobudakı 32 və Tseteli Qoridəki 32 binəsi saxlanılsın. Qabaqçöllülərin Beşkənd rayonundakı əkin yerləri sahəsini artırmamaq şərti ilə əvvəlki qaydada onların istifadəsində saxlanılsın, buradakı meşələrin qırılması isə qadağan olunsun. Dərin Qobuda qabaqçöllülərin əkin sahələri olmadığından indidən sonra onlara burada əkin aparmağa icazə verilməsin. Əgər Zaqatala Qəza İcraiyyə Komitəsi 1924-cü il 15 okytabr iclasına kimi Dərin Qobuda qabaqçöllülərin əkin sahəsinin olduğunu sübut edərsə, onda həmin yerdən onlar üçün əkin sahəsi ayrılsın. Tseteli Qoridən ayrılacaq 2 desyatin əkin sahəsinin sonradan genişləndirilməsinə icazə verilməsin;

- Beşkənd və Tseteli Qoridə yuxarıda göstərilən əkin sahələrini ayrımaq üçün hər iki tərəfə bu ilin iyunun 20-dən gec olmayaraq torpaq ölçənləri göndərmək tapşırılsın;

- Dərin Qobunun köhnə və yeni axarı arasındakı 80 desyatinə qədər ərazinin hansı tərəfə məxsus olması aydınlaşana kimi həmin yerdən meşələrin qırılması qadağan olunsun. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsindən Dərin Qo-

bunun hansı axarının tərəflər arasında sərhəd olduğunu müəyyənləşdirmək tələb olunsun;

- Birgə komissiyanın planında göstərildiyi kimi, Ulqamsu çayının köhnə axarı Tseteli Qori rayonunda tərəflər arasında sərhəd müəyyən olunsun. Abjitsu çayının mənbəyindəki meşə sahəsi isə 1924-cü il oktyabrın 15-də Laqodexidə keçirilmiş iclasın qərarında göstərildiyi kimi qadağan sahəsi elan olunsun [7, v. 39].

Lakin çoxsaylı komissiyalara və onların qərarlarına baxmayaraq Şirək düzü və Çiaur meşə sahəsindəki torpaqların əsl sahibləri olan Zaqatala qəzasının əhalisi bu yerlərdən yavaş-yavaş sıxışdırılıb çıxarılırdılar. Azərbaycan SSR daxili işlər xalq komissarı Rzayevin 1927-ci il mayın 19-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinə (Əli Məmmədova), Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə (Əliheydər Qarayevə) göndərdiyi məktubda bu barədə yazılırdı: "Daxili işlər xalq komissarlığındakı məlumatlardan aydın olur ki, Zaqatala və Sığnaq qəzaları arasındakı sərhəd mübahisəsinin ZSFSR-in ali orqanları tərəfindən həll olunmasına baxmayaraq, bu məsələ hələ də açıq qalır. Çoxsaylı nüfuzlu komissiyalara, yardımçı komissiyalara, onların Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarları ilə təsdiqlənmiş nəticələrinə baxmayaraq bu, kifayət qədər ağrılı məsələ indiyə kimi özünün real həllini tapmamışdır. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin göstərişlərinə uyğun şəkildə bu mübahisəni həll emək istəyən Zaqatala qəza rəhbərliyi hər dəfə Zaqafqaziyanın ali orqanının qərarlarını həyata keçirmək arzusunda olmayan Sığnaq qəza hakimiyyət orqanlarının maneələri ilə rastlaşıb. Buna misal kimi Daxili İşlər Xalq Komissarlığı aşağıdakıları sizin diqqətinizə çatdırmaq istəyir: Bu ilin yanvarın 11-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin Zaqatala və Sığnaq qəzaları arasında Qabaqçöl kəndində sərhəddin dəqiqləşdirilməsi barədə yekun qərarı olmuşdur. Baxmayaraq ki, bu qərar qabaqçöllülər üçün əlverişli deyildi, onlar mübahisələrə son qoymaq istəyən Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin bu qərarı ilə razılaşaraq onu həyata keçirməyə hazır idi. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin teleqramına əsasən mübahisəli ərazilərdəki sərhəddin dəqiqləşdirilməsi üçün hər iki qəzanın nümayəndələrindən ibarət xüsusi komissiya təşkil olunmuşdur. Sığnaq qəza hakimiyyət orqanları bu dəfə də öz adətlərinə uyğun olaraq Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarlarını yerinə yetirməkdən imtina edərək ali orqanın işini pozmuşdur. Bununla kifayətlənməyən sığnaqlılar bu ilin aprelin 26-da qabaqçöllülərin xutorlarına silahlı basqınlar etmiş, binələri yandırmış, mal-qarasını sürüb aparmışlar.

Sığnaq qəza hakimiyyət orqanlarının bu hərəkətlərinin sovet hakimiyyətində yolverilməz olduğunu hesab edən Azərbaycan Daxili İşlər Xalq Komissarlığı onların bu hiddətləndirici hərəkətlərinin təhqiq olunması, dinc əhaliyə hücum, xutorların yandırılması və ali hakimiyyət orqanlarının direktivlərinin yerinə yetirilməsindən yayınmaqda günahkar olanların cəzalandırılması üçün komissiyanın təşkil olunmasını xahiş edir.

Bununla yanaşı, Azərbaycan Daxili İşlər Xalq Komissarlığı təcili olaraq Qabaqçöl və Şirəkdə sərhəddin qəti şəkildə müəyyənləşdirilməsi üçün xüsusi komissiyanın təşkil olunmasını xahiş edir.

Azərbaycan Daxili İşlər Xalq Komissarlığı öz tərəfindən sığnaqlıların 4 ildən artıq davam edən bu cür hərəkətlərinin Zaqatala qəzasının əhalisini qıcıqlandırdığını və əgər problem qəti şəkildə həll olunmazsa, hər cür arzuolunmaz hərəkətlərin baş verə biləcəyini qeyd etməyi lazım bilir" [5, v. 94].

Ərazi mübahisəsinin mərkəzin köməkliyi ilə onların xeyrinə həll olunacağına ümid edən gürcü tərəfi həmin ərazilərdəki gürcü əhalinin guya kasıb, qabaqçöllülərin isə kifayət qədər torpaq və meşə sahələrinə malik olması kimi əsassız bəhanələrlə məsələnin həllini uzatmağa çalışırlar. Əgər nəzərə alsaq ki, XIX əsrin ikinci yarısında həmin mübahisəli torpaqlardan şəriksiz istifadə etdikləri zaman Qabaqçöl və Şambul kəndləri 300 təsərrüfatdan ibarət idisə, sovet hakimiyyətinin ilk illərində bu kəndlərdəki təsərrüfatların sayı 2000-ə çatmışdı, onda gürcü tərəfin bu bəhanəsinin əsassızlığı üzə çıxır.

Bu problemlə bağlı təşkil olunmuş bütün komissiyalar XX əsrin əvvəllərində mübahisəli torpaqlarda salınmış yeni yaşayış məskənlərin rus əhalisinin Çiaur meşəsi və Şirək düzündəki torpaqlardan istifadəyə görə icarə haqqını dövlət meşə idarəsinə, otlaq və biçin sahələrinin icarə haqqını isə həmin torpaqların əsl sahibi olan Zaqatala qəzasının əhalisinə ödəməsi faktı-

nı nəzərə almayaraq, məsələni çarizm zamanındakı heç bir tarixi reallığı əks etdirməyən süni inzibati sərhəddə əsaslanan gürcü tərəfin mənafeyinə uyğun həll etmiş, ruslar qovulduqdan sonra onların məskənlərində yerləşdirilmiş gürcülər Rusiya mərkəzi hakimiyyət orqanlarının yardımı və himayədarlığı sayəsində yavaş-yavaş bu torpaqların şəriksiz sahibinə çevrildilər. Nəticədə bölgə əhalisinin torpaqla təminatına ciddi zərbə vurulmuş, onların iqtisadi durumu kəskin şəkildə aşağı düşmüşdü.

### Ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f. 897, siy. 1, iş 6
2. ARDTA, f. 897, siy. 1, iş 61
3. ARDTA, f. 897, siy. 1, iş 3
4. ARDTA, f. 897, siy. 1, iş 105
5. ARDTA, f. 27, siy. 4, iş 116
6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f. 1, siy. 74, iş 197
7. ARPİİSSA, f. 1, siy. 74, iş 198
8. ARPİİSSA, f. 1, siy. 85, iş 630
9. Rəhmanzadə Ş.F. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri (Azərbaycanın Şimal-qərb bölgəsinin materialları əsasında, 1917-1930-cu illərin əvvəlləri). Bakı, Aspoliqraf, 2008, 376 s.



### Summary

**Anvar Mammadov**

**On the land arguments between Zagatala and Signakh district**

The problem of transfer of original Azeri lands of Shirak plain and Chiauri timber band to Georgia in 30s of the XX century is investigated in the presented article on the basis of primary sources. As a result of research the author comes to a conclusion that the commissions formed for solving the problem about announced “disputed” territory, being based just on the existing administrative boundaries between Georgia and Azerbaijan, solved the problem, for the benefit of the first, although it undoubtedly belonged to the population of Zagatala district which had here the farms.



***Keywords****: Zagatala district, Shirag flat, Signag district, land dispute, Bolshevik Russia, commission*



### Резюме

**Анвар Мамедов**

**К земельному спору между Загатальским и Сигнахским уездами**

В представленной статье на основе первоисточников рассматривается проблема передачи в 30-х годах XX века исконных азербайджанских земель Ширакской равнины и Чиаурской лесной полосы Грузии. В результате исследования автор приходит к выводу, что комиссии, образованные для решения вопроса об объявленной «спорной» территории, разрешали ее, основываясь лишь на существующих административных границах между Грузией и Азербайджаном, в пользу первой, не смотря на то, что она бесспорно принадлежала населению Загатальского уезда, имевшего здесь хутора.



***Ключевые слова:*** *Закатальский уезд, Щиракская степь, Сигнахский уезд, земельный спор, большевистская Россия, комиссия.*

**UOT 94 (479.24)**

**İSMAYIL HACIYEV**
*AMEA-nın həqiqi üzvü, AMEA Naxçıvan Bölməsinin sədri*
*ismayıl_haciyev@yahoo.com*
*Azərbaycan*

# ATROPATENA DÖVLƏTİ VƏ NAXÇIVAN

***Açar sözlər:*** *Atropatena, Atropat, Naxçıvan, satrap, ellin dövlətləri, Parfiya, Arşakilər*

Azərbaycanın tarixi torpaqlarında baş verən siyasi proseslər nəticəsində e.ə. IV əsrdə onun şimalındakı ərazidə Albaniya, cənubunda isə Atropatena dövləti meydana gəldi. Azərbaycanın cənubunda dövlətçilik ənənələrinin e.ə.III minillikdən genişlənməsi və Naxçıvanın cənub ərazidəki siyasi qurumlarla siyasi münasibətləri onu burada cərəyan edən hadisələrlə sıx əlaqələndirmişdir. Bunun nəticəsi idi ki, Atropatena dövləti meydana gəldikdə Naxçıvan onun tərkibinə daxil olmuşdur. T.e.d. H.Həsənova görə, Atropatena dövləti e.ə. VII əsrdə, Albaniya dövləti isə e.ə. I əsrdə yaranıb: “Albaniya dövlətinin yarandığı ərazi e.ə. 612-ci ildən e.ə. II-I əsrlərə qədər Atropatena / Adorbayqan adlanan dövlətin tərkib hissəsi olub. Alban çarlığı kimmerlərin Qamir dövləti və skiflərin Aşquz çarlığının hüquqi varisi sayılır” [1; 16].

Albaniya dövlətindən fərqli olaraq, Atropatena dövlətinin mənbəşünaslığı və tarixşünaslığı elə də geniş deyil. Bu sahədəki tədqiqatlar içərisində İqrar Əliyevin rus dilində nəşr edilmiş “Atropatena tarixinin oçerki” və Abdulla Fazilinin “Atropatena e.ə. IV-e. VIII əsri” kitablarını qeyd etmək olar. Birinci kitab xronoloji cəhətdən e.ə. IV-e. I əsrlərini, ikinci kitab isə adından göründüyü kimi e.ə. IV-e.VII əsrlərini əhatə edir [2; 18]. İqrar Əliyevin monoqrafiyası tarixşünaslıqda ətraflı təhlil edilmiş və müsbət qiymətləndirilmişdir [19]. F.Əliyeva antik Azərbaycanın mədəniyyətinə həsr etdiyi kitabında Midiya Atropatenası və Qafqaz Albaniyasının mədəniyyətini birlikdə araşdırmışdır [17]. Atropatena tarixinə yeddi cildlik Azərbaycan tarixində də xeyli yer ayrılmışdır. Əsasən İqrar Əliyevin müəllifi olduğu həmin hissələrdə Atropatena tarixi ümumiləşdirilmiş şəkildə nəzərdən keçirilmişdir. Ə.Sumbatzadə “Atropatena tarixi” məqaləsində dövlətin yaranması və fəaliyyətindən bəhs etmişdir [15]. Naxçıvanın Atropatena dövrü tarixi üçcildlik Naxçıvan tarixinin birinci cildində ümumiləşdirilmişdir. Bu hissə əsas etibarı ilə arxeoloji materiallar əsasında yazılmışdır [14, s. 92-95]. Son illərdə t.ü.e.d. H.Həsənovun Atropatena ilə əlaqədar apardığı tədqiqatlar ciddi maraq doğurur [16].

Sovet dövrü tarixi tədqiqatlarda Atropatena ilə Naxçıvanın əlaqələrindən bəhs edərkən qeyd edirlər ki, Naxçıvan Atropatenanın yox, Albaniyanın tərkibində olmuşdur. Lakin müstəqillik dövrü tarixi tədqiqatlarda, xüsusilə V.Əliyev, V.Baxşəliyev, H.Həsənov, S.Qaşqay, R.Məlikov, B.Tuncay və b. tədqiqatçıların araşdırmalarında tarixin müəyyən mərhələlərində (məs. e.ə. III-I əsrlərdə) Naxçıvanın Atropatenanın tərkibində olduğunu əsaslandırmışlar. Azərbaycan Milli Ensiklopediyasının xüsusi cildində verilmiş xəritədə (səh. 174) Naxçıvan Atropatenanın tərkibində göstərilmişdir.

Makedoniyalı İsgəndərin ölümündən sonra dünya tarixində ellinizm adlanan dövr başlayır. Bu dövr xronoloji cəhətdən e. 30-cu illərinədək davam edir. Naxçıvanın Atropatena dövrü tarixinin, eyni zamanda, ellinizm kontekstində nəzərdən keçirilməsi onun ellin dövrü dövlətləri sistemində mövqeyi kimi vacib problemi ortaya çıxarır.




Atropatena dövlətinin meydana gəlməsi Əhəməni satrapı Atropatın adı ilə bağlıdır. Tədqiqatçılar yazır ki, nəinki Cənubi Azərbaycan eləcə də Şimali Azərbaycanın xeyli hissəsi Atropata tabe idi [18, s. 52]. Atropatena dövlətinin ərazisinə Urmiya gölü ətrafında və Arazboyu (müasir Cənubi Azərbaycan), İran Kürdüstanı və müxtəlif dövrlərdə Şimali Azərbaycanın bəzi torpaqları daxil idi. “Atropatenanın ərazisi şimal-qərbdə Qara dənizə, şimalda isə Baş Qafqaz dağlarınadək olan əraziləri əhatə edirdi” (H.Həsənov, mənbə 16). Atropatena dövlətinin banisi Atropat Əhəməni Şahı III Daranın dövründə Madanın satrapı idi [2, s. 172]. Atropat e.ə. 331-ci ildə Makedoniyalı İsgəndərin Əhəməni hökmdarı III Daraya qarşı Qavqamela döyüşündə iştirak etmişdir. Döyüş III Daranın məğlubiyyəti ilə başa çatmış, Əhəmənilər dövləti dağılmışdır. Bütün bunlara baxmayaraq, məharətli dövlət xadimi, uzaqgörən siyasətçi və məşhur sərkərdə olan Atropat [12, s.12] Makedoniyalı İsgəndər ilə münasibətləri qaydaya sala bilmiş, yenidən satrap təyin edilmişdir. Makedoniya qoşunlarının Hindistana yürüşü zamanı Böyük Madada e.ə. 324-cü ildə baş vermiş üsyanı yatıran Atropat üsyançıların başçısı Bariaksı Makedoniyalı İsgəndərin yanına göndərmiş və bununla da fatehin daha çox etibarını qazanmışdı. Atropat İsgəndərə süvari amazonlardan ibarət 100 nəfərlik dəstə bağışlamış, qızını onun görkəmli sərkərdələrindən olan Perdikkaya ərə vermişdi [4, s. 78].

Atropatena dövlətinin meydana gəlməsi, siyasi tarixi və s. məsələlər barəsində Strabon məlumat verir. Onun yazdığına görə Midiya iki hissəyə ayrılır. Bir hissəsini Böyük Midiya adlandırırlar ki, baş şəhəri Midiya dövlətinin paytaxtı olmuş böyük şəhər Ekbatandır... İkinci hissə – Atropat Midiyasıdır. O öz adını sərkərdə Atropatdan alıb, hansı ki, bu ölkənin, Böyük Midiya kimi makedoniyalılara tabe olunmasına yol vermədi. Doğrudan da, təntənə ilə çar elan edilən Atropat öz hökmü ilə bu ölkəni müstəqil elan etdi və indi də varislik onun ailəsində qalır... Bu ölkə Ermənistan və Matiandan şərqdə, Böyük Mitianadan qərbdə və hər iki ölkədən şimalda yerləşir; o cənubdan Matianaya və Hirkan dənizinin çuxurunun yanındakı vilayətlərlə qonşudur [5, s. 23-24].

Yeni yaranan dövlət ilk vaxtlar Mada adlandırılsa da, sonralar banisinin adı ilə Atropatena adlandırılmağa başlandı. Bəzi versiyalara görə Azərbaycan sözü də mənşə etibarı ilə Atropatenaya gedib çıxır [6, s. 288-289]. Tarixçi alim H.Həsənovun fikrincə, dövlətimizin və xalqımızın adlarının əsasını təşkil edən Atarpatena /Atropatena/ Adorbayqan sözü nə fars, nə də yunan mənşəlidir: “V əsr Suriya mənbəsinə

görə, onun kökündə 2700 il bundan əvvəl dövlətimizi yaradan sərkərdənin valilik titulu olan "Arpat" və yaxud "Orbay" durur" [1].

Atropatena dövləti ellin dövlətləri sistemində mühüm yer tuturdu. Makedoniyalı İsgəndərin ölümündən sonra yaranan dövlətlərdən biri Selevkilər dövləti (e.ə. 312-64-cü illər. Roma tərəfindən dağıdılmışdır) idi. Ornot çayı üzərindəki Antioxiya onun mərkəzi şəhəri idi. E.ə. IV əsrdə I Selevk şərqə Atropatenanın sərhədlərinə qədər irəliləmişdi. Atropatena dövləti I Selevkin varislərinə ciddi müqavimət göstərdi. Bundan əlavə, Atropatena çarı Artabazan e.ə.III əsrin 20-ci illərində öz ərazisini genişləndirdi. Onun vaxtında ərazi Xəzər dənizindən Kiçik Asiyaya qədər uzanırdı. Selevkilər dövləti sonralar parçalanmış, onun tərkibindən Parfiya (e.ə. 250-e. 224-cü illər. Sasanilər tərəfindən dağıdılmışdır) və Yunan-Baktriya dövləti (e.ə. 250-e.ə. 125-ci illər) ayrılmışdır. Az bir müddət ərzində parfiyalılar mövqelərini xeyli möhkəmləndirməyə nail olmuş, asılı ölkələrdə Parfiya Arşakilərinin kiçik qolları hakimiyyətə gəlmişdir. Bu zaman dövrün siyasi hadisələrində əsas faktorlardan biri də Roma imperiyası idi.

Atropatena dövləti siyasi sisteminə görə monarxiya idi. Burada e.ə. IV-e.ə. I əsrin əvvəllərində dövlətin banisi Atropatdan sonra, Atropatilər sülaləsindən olan Artabazan, Mitridat (Mehradad), Dara (Daryuş), I Aryabarzan və I Artavard hökmranlıq etmişdir. Atropatenanın yay paytaxtı Qazaka, qış paytaxtı isə Vera adlı qüdrətli qala olmuşdu. Atropatena dövlətində öz dili olan Atropaten xalqı formalaşmışdı.

Atropatilər sülaləsindən sonra Arşakilərin kiçik qolu hakimiyyətə gəlmiş Vanon, III Artaban, IV Artaban (Küdarz), Küdarz Horavda Vanon, II Pakor, II, III, IV Valagez, V Artaban və V Valagez hökmranlıq etmişdir [1, s. 144]. Atropatenanın dövlət həyatında mühüm rola malik olan ordusu var idi. Strabonun yazdığına görə, bu ölkə hərbi qüvvə baxımından kifayət qədər böyükdür. Belə ki, o Apollonidin dediyinə görə, (döyüşə), 10000 atlı və 40000 piyada çıxara bilir [5, s. 24]. Atropatena inkişaf etmiş pul dövrüyyəsinə malik idi [18, s. 115].

Atropatena tarixinin e.ə. I əsrin əvvəllərinədək olan tarixi haqqında məlumatlar azdır, lakin Atropat dövründən sonra dövlətin həyatına dair mənbələrin məlumatının nisbətən genişlən-diyi e.ə. I əsrin ikinci yarısı-e. 30-cu illərinə aid tarixi hadisələr, xüsusilə xarici siyasi həyata dair faktlar onun bölgədə ciddi rola malik olduğunu göstərir. Bu dövrün əsas məzmununu Parfiya və Şərqə nüfuzu getdikcə möhkəmlənən Roma arasında mübarizə təşkil edirdi. Atropatena Antoninin məşhur "Parfiya ekspedisiyası" zamanı (e.ə. 38-ci il) Parfiya ilə bir cəbhədə çıxış etmiş, müttəfiqlər qalib gəlmişdilər [18, s. 90-97]. Bu qələbə müttəfiqləri daha da birləşdirmək əvəzinə, tezliklə onlar arasında düşmənçiliyə səbəb oldu. Parfiya Atropatenanın ərazisini ələ keçirmək fikrinə düşdü. Vəziyyəti belə görən Atropatena hökmdarı Artavazd Roma ilə yaxınlaşmağa başlayır. Hadisələrin sonrakı gedişi dramatizmi və siyasi dinamikliyi ilə diqqəti cəlb edir. Atropatena hökmdarı nəhayət, romalıların köməkliyi ilə Ermənistanda hakimiyyətə (e.ə. I əsr) nail ola bilir.

Məlumdur ki, e.ə. 321-ci ildə Atropatena dövləti meydana gələndə Naxçıvan onun hüdudlarına daxil olmuşdu. Lakin son tədqiqatlar Atropatenanın e.ə. 321-ci ildə deyil, e.ə. 612-ci ildə yarandığı fikrini irəli sürür. Bu ideyanın müəllifi t.ü.f.d. Həsən Həsənovdur. O bildirir ki, Atropatena ölkəsinin adı müasir "Azərbaycan" anlayışının fonetik versiyasıdır: "İndiyə kimi elmimizdə Atropatena dövlətinin Makedoniyalı İskəndərin ölümündən sonra e.ə. 321-ci ildə yarandığı bildirilir. Əslində Atropatena e.ə. IV əsrdə yaradılmayıb, e.ə. 321-ci ildə sadəcə olaraq onun müstəqilliyi bərpa olunub. Roma tarixçisi Ammian Marsellin (IV əsr) və "Karki de Bet Selox" adlı Suriya xronikasına (V əsr) görə, e.ə. 612-ci ildə Aşşur imperiyasının süqutu nəticəsində Atropatena (Adorbayqan) adlı dövlət yaranıb" [16]. E.ə. 189-cu ildə yaranan Ermənistan çarlığının (Ermənistan çarlığı Van gölünün qərb sahillərində yaranmışdır – İ.H.) Artaksi və Zariadri təqribən e.ə. II əsrin 70-60-cı illərində Strabonun məlumatına görə, "midiyalılardan (atropatenalılardan – İ.H.) Kaspiana, Favnitida və Basoropedanı (sonrakı Vaspurakan – Van gölü ilə Urmiya gölü arasındakı ərazidə yerləşən vilayət) tutub almışlar [13, s. 56]. Lakin az sonra Arteşesin (Artaksinin) qoşununda güclü üsyan baş vermiş və e.ə. 160-cı ildə Artaşes öldürülmüşdür. Bu hadisədən sonra Ermənistan tərəfindən zəbt edilmiş torpaqlar Atropatenaya və başqa dövlətlərə qaytarılmışdır.

Ermənilərin Atropatena hökmdarlarına qarşı çıxışları Roma-Atropatena qüvvələri tərəfindən yatırılmışdı. Ermənistanda Parfiyaya meylin güclənməsi və Roma əleyhinə çıxışlarla əlaqədar olaraq e.ə.20-ci ildə romalılar bu ölkəyə qoşun yeritdilər. Onlar əvvəlcə atropatenalı Arttrobazdı, sonra isə II Ariobarzanı Ermənistan çarı elan etdilər. Mənbələrdə bu hadisədən bəhs edilərkən göstərilir ki, Ermənistanda qayda yaratmaq üçün Qay Sezar oraya göndərildi. Ermənilərin razılığı ilə o, əslən midiyalı olan Ariobarzanı onlara çar təyin etdi [13, s. 57]. Atropatena şahı II Ariobarzanın Ermənistan üzərində hökmranlığı eramızın ikinci ilinədək davam etdi.

Eramızın I əsrində Romada baş verən siyasi hadisələr nəticəsində onların mövqelərinin zəifləməsi, Atropatenaya da mənfi təsir göstərir. Eramızın 20-ci illərində Atropatilərin mövqeyinin zəifləməsi o dərəcəyə çatır ki, bu sülalənin hakimiyyətinə son qoyulur. Hakimiyyət Partiya Arşakilərinin kiçik qoluna keçir [18, s. 103-104]. Yeni sülalə sasanilərədək (e. III əsri) Atropatenanı idarə edir.

Qeyd etməlik ki, son illərə qədər Azərbaycan tarixşünaslığında möhkəmlənmiş fikrə görə, guya Atropatena Arazdan cənubda mövcud olmuşdur. Əslində, bu kökündən yanlış fikirdir. Məsələ burasındadır ki, Polibinin yazdığına görə, Atropatenanın bir hissəsi Fazisdən (Gürcüstandakı Rioni çayı) yuxarıda Pont (Qara dəniz) dənizinə, digər hissəsi isə Qirkan (Xəzər) dənizinə qədər uzanırdı: "...Bu sonuncu (Atropatena şahı Artabazan) bütün hökmdarlar içərisində ən qüdrətlisi və ən müdriki hesab edilirdi, atropatenalılar və qonşu xalqlar üzərində hökm edirdi... Qərar qəbul edildikdən sonra ordu dağları aşaraq Artabazanın Midiyanın qonşuluğunda yerləşən, ondan ortadakı dağlarla ayrılan, Fasidadan yuxarıda yerləşən hissəsi Pont üzərində yüksələn, digər hissəsi isə Qirkan dənizinə qədər uzanan ölkəsinə soxuldu. Bu ölkənin sərhədləri içərisində döyüşkən və özü-özünü at və müharibədə lazım olan digər şeylərlə təmin edən xalq yaşayır. Bu şahlıq hələ farsların dövründə mövcud idi və İsgəndərin dövründə o diqqətdən kənarda qalmışdı" [7].

Atropatenanın Arazdan cənubda olmasına dair fikirlər həm də siyasi məqsədlərlə bağlıdır. Burada əsas məqsəd növbə ilə Qarabağı, ardınca isə bütün Kür-Araz ovalığını türklərdən təmizləyərək ermənilərə hədiyyə etmək idi. Madam ki, Atropatena, yəni Azərbaycan Arazdan cənubda yerləşmişdir və antik müəlliflər Araz çayının Ərməniyyə (Ermənistan) ilə Atropatena (Azərbaycan) arasında sərhəd olduğunu, Albaniyanın isə Kürdən şimalda yerləşdiyini və Kür-Araz ovalığının yalnız III-IV əsrlərdən etibarən Albaniyanın tərkibinə keçdiyini söyləmişlər, deməli, o dövrə qədər Kür-Araz ovalığının "Ermənistan" olduğu və ərazilərdə guya ermənilərin yaşadıqları heç bir şübhə oyatmayacaq.

Son illərdə Azərbaycanda aparılan tədqiqatlar qeyd olunan fikrin tamamilə əsassız olduğunu təsdiq etmişdir. Naxçıvan ərazisindən əldə edilən maddi mədəniyyət nümunələrinin Atropatena dövlətinin ərazisindən əldə edilən müvafiq nümunələrlə müqayisəsi təsdiq edir ki, Naxçıvan bu dövlətin tərkibində olmuşdur. V.Əliyev yazır ki, "Əhəmənilər monarxiyası Makedoniyalı İsgəndər tərəfindən süquta yetirildikdən (e.ə. IV əsrdə) sonra, Naxçıvan yeni-yeni əmələ gələn Atropatena (Kiçik Midiya) dövlətinin tərkibində qaldı. Naxçıvan ərazisi e.ə. III-I əsrlərdə Atropatena dövlətinin tərkibində olmuşdur"[9, s. 37]. Naxçıvan tarixinin birinci cildində qeyd edilir ki, "Oğlanqala şəhərindən əldə edilmiş maddi mədəniyyət nümunələri Atropatena dövləti üçün xarakterik olmaqla Naxçıvanın Atropatenanın tərkib hissəsi olduğunu təsdiq edir" [14, s. 95]. Naxçıvan şəhərində, Xaraba Gilanda, Oğlanqalada və bir çox kənd tipli yaşayış yerlərində Atropatena mədəniyyətinə aid abidələr, eləcə də Makedoniyalı İsgəndərin adına kəsilmiş gümüş sikkələr-draxma və tetradraxmalar aşkara çıxarılmışdır [9, s. 37-38].

Atropatena dövründə Naxçıvan bölgəsi də digər bölgələr kimi dövlətin həyatında mühüm rol oynamış, lakin Naxçıvanın təbii-coğrafi şəraiti və siyasi nüfuzu dövlət həyatında xüsusi önəm daşımışdır. Bu məsələyə diqqəti cəlb edən tədqiqatçı qeyd edir ki, "Azərbaycan xalqının qədim təşəkkül tarixində Atropatena dövrü çox mühüm bir mərhələ olmuşdur. Naxçıvan bu dövlətin əsas əyalətlərindən, iqtisadi və mədəni mərkəzlərindən biri olmuşdur. Azərbaycanın iki mühüm iqtisadi regionu – Urmiya ilə Naxçıvanın yaxınlığı, əlaqələri daha da möh-

kəmlənmişdir... Naxçıvan və Qazaka (Atropatenanın paytaxtı – İ.H.) şəhərləri Makedoniyalı İsgəndərə tabe olan Yaxın Şərq şəhərləri ilə geniş iqtisadi-mədəni əlaqə yaratmışdılar" [9, s. 37].

Naxçıvan Atropatena dövlətinin siyasi tarixinin ən mühüm hadisələrində də fəal iştirak etmişdir. Oğlanqaladan eramızın əvvəlinə aid əldə edilmiş tapıntılar romalıların yuxarıda təsvir etdiyimiz yürüşləri zamanı Naxçıvanın bu prosesdəki yerini müəyyən etməyə imkan verir. Oğlanqalanın ikinci dövrünə aid yerli adama məxsus iki qulplu küp qəbirdə aşkar edilmiş tapıntılar bu fikri təsdiq edir. Bu tapıntılar Naxçıvanın Atropatena dövlətinin siyasi-iqtisadi həyatındakı rolunu aydın şəkildə ifadə edir. Arxeoloji qazıntılar zamanı qəbirdən dörd gümüş sikkə tapılmışdır. Sikkələrin üz tərəfində Roma imperatoru Oktavian Avqustun portreti var idi. Ətrafında "CAESAR AVGVSTS DİVİ F PATER PATRİAE" sözləri verilmişdir. Sikkənin arxa tərəfində isə öndən arxasında nizələr olan qalxana söykənmiş vəziyyətdə Sezar Qayus və Lusiusun təsvirləri vardır. Onun ətrafında isə "VGVSTİ F COS DESİG PRİNC İVVENT, CL CAESARES" yazılmışdır. Tədqiqatçının fikrinə görə, "sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Digər hissələr isə daha kiçik diapozona malik olub e.ə. 2-ci il, bizim eranın 4-cü ili ilə tarixlənir" [14, s. 94-95]. Şahbuz rayonunun Ağbulaq kəndində aşkar olunan küp qəbirdən tapılmış Arşaki (Parfiya) hökmdarı I Qotarza aid mis sikkə və Naxçıvan yaxınlığındakı Urud (Arşaki hökmdarı Orodun adını əks etdirir) toponimi isə Parfiya ilə olan əlaqələri əks etdirir [14, s. 95].

Naxçıvanın Atropatenanın digər bölgələrindən fərqli xüsusiyyətlərindən biri də ondan ibarət idi ki, o eyni zamanda Azərbaycanın şimalında baş verən hadisələrin də təsirinə məruz qalır, şimaldan olan hücumların qarşısında dayanmaqla, dövlətçiliyin möhkəmlənməsinə köməklik göstərirdi. Azərbaycan tarixindən məlumdur ki, "Albaniyanın və bitişik vilayətlərin ərazisinə şimaldan köçəri tayfaların girməsi eramızın hüdudunda və ilk orta əsrlərdə xüsusilə güclənirdi. Yazılı qaynaqlar və arxeoloji məlumatlar bu zaman Albaniya ərazisinə sarmat-massaget-alan tayfalarının soxulduğunu sübut edir. I əsrin son sülsündə Mingəçevir zonasında yeni qəbir tipləri və dəfn adətləri meydana gəlir. Burada ölüləri küplərdə dəfn etmək adəti qalmaqla bərabər, katakomba qəbirlərə, deformasiya olunmuş kəllələrə təsadüf olunur ki, bu da alanlara xas olan etnik əlamətlərdir" [6, s. 430]. Naxçıvanda aparılan arxeoloji qazıntılar zamanı bu tayfaların Naxçıvana da hücumunu təsdiq edən materiallar aşkar edilmişdir. Kəngərli rayonunun Böyükdüz kəndi yaxınlığında daş qutu qəbirlər sarmat-alan yürüşləri ilə bağlanır. Bu fikir Biçənək (Şahbuz) və Göynük (Babək) kəndlərindən aşkar edilmiş tapıntılara da aid edilir. Sarmar-alanlar içərisində peçeneq və digər tayfalar da olmuşdur. Toponimik tədqiqatlar Biçənək kəndinin adının peçeneqlərlə əlaqəli olduğunu bildirir [14, s. 95-96].

Eramızın I əsrində Azərbaycan dövlətləri olan Atropatena və Albaniyanın siyasi həyatında mühüm dəyişiklik baş vermişdi. Həm Atropatena, həm də Albaniyada hakim sülalələr dəyişmişdi. Atropatena və Albaniyada yerli sülalələri Partiya Arşakilərinin kiçik qolları əvəz etmişdi. Bu Parfiya dövlətinin siyasi idarəetmə xətti ilə bağlı idi. Parfiyalılar yerli dövlətləri mərkəzi hakimiyyətə tabe etməkdən daha çox, burada siyasi idarəetməni hakim Arşakilərin kiçik qollarına verməyi üstün tuturdular.

Azərbaycanda (Atropatena və Albaniya dövlətləri) Arşakilərin hakimiyyəti dövründə (I-III əsrlərdə) Naxçıvan Sünik vilayətinə daxil idi. F.Məmmədovanın yazdığına görə, görünür ki, Sünik alban qəbilələrinin ilkin birliyinə daxil olmayıb. Sünik siyasi cəhətdən müəyyən dövrlərdə (Ermənistanın 387-ci ildə bölüşdürülməsindən sonra) ya Albaniyadan, ya da Atropatenadan asılı olur, bəzi zamanlarda isə müstəqil olurdu [20, s. 159].

Beləliklə, aydın olur ki, Naxçıvan Azərbaycanın qədim dövlətlərinin tərkibində olmuş, onlarla müəyyən münasibət və əlaqələr qura bilmişdir. Naxçıvan eyni zamanda Azərbaycanın dövlətçilik tarixində xüsusi mərhələ olan Atropatena dövlətinin həyatında mühüm yer tutmuş, onun tarixinin bütün dövrlərini özündə əks etdirmiş, bu dövlət üçün həm cənubdan, həm də şimaldan olan yadelli hücumlarının qarşısının alınmasında fəal iştirak etmiş, onun xarici iqtisadi əlaqələrində, mədəniyyətinin inkişafında vacib rola malik olmuşdur. Arşakilər döv-

ründə də Naxçıvan siyasi hadisələrdə fəal iştirak etmiş və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində də mühüm rol oynamışdır.

## Ədəbiyyat siyahısı


1. Abasov C. “Azərbaycan adlı dövlət eramızdan əvvəl VII əsrdə yaranıb”. Tarix İnstitutunda Atropatena / Azərbaycan dövlətinin yaranma tarixi geniş müzakirə olunub. “525-ci qəzet”, 2019, 10 yanvar.
2. Abdulla Fazili. Atropatena e.ə. IV-e.VII əsri. Bakı: Elm, 1992, 216 s.
3. Azərbaycan Milli Ensiklopediyası. “Azərbaycan” cildi. Bakı: AMEA Elmi Mərkəzi, 2007, 884 s.
4. Azərbaycan tarixi. Uzaq keçmişdən 1970-ci illərə qədər. Bakı: Azərbaycan, 1996, 872 s.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Çıraq, 2007, 400 s.
6. Azərbaycan tarixi: 7 cilddə, I c., Bakı: Elm, 1992, 216 s.
7. Bəxtiyar Tuncay. Erməni “tarixçi”lərinə cavab və ya Azərbaycan (Atropatena) dövlətinin tarixi coğrafiyası və etnik tərkibi barədə bir neçə söz. Olaylar, 2009, 18 noyabr.
8. Əliyev H. Tariximizin dərin qatları: Atropatena və Hun məfhumlarına dair mülahizələr. “525-ci qəzet”, 2019, 27 dekabr.
9. Əliyev V. Naxçıvan Azərbaycanın tarixi diyarıdır. Bakı: XXI-YNE, 2002, 320 s.
10. Qədim Azərbaycan dövlətləri. “Kommunist” qəz., 1989, 18 iyul.
11. Quluzadə M. Azərbaycanın dövlətçilik tarixi. Bakı: Mürtəcim, 2016, 264 s.
12. Mahmudov Y. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, 140 s.
13. Məlikov R. Azərbaycanın Naxçıvan bölgəsi qədim dövrdə və erkən orta əsrlərdə (yazılı mənbələr əsasında) // Naxçıvan: İlkin şəhər və Duzdağ (27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları). Naxçıvan, 2013, s. 55-60.
14. Naxçıvan tarixi. Üç cilddə, birinci cild. Naxçıvan: Əcəmi NPB, 2013, 452 s.
15. Sumbatzadə Ə. Atropatena tarixi. Azərbaycan EA Xəbərləri (Tarix, fəlsəfə, hüquq seriyası). Bakı, 1978, № 3, s. 51-72.
16. Tarixçi səfir: Azərbaycan adlı dövlət e.ə. 612-ci ildə yaranıb. “İki sahil” qəz., 2019, 10 yanvar.
17. Алиева Ф. Культура античного Азербайджана – Мидийской Атропатены и Кавказской Албании (IV в. до н.э. – III в.н.э.). Баку, 2007, 162 с.
18. Алиев И. Очерки истории Атропатены. Баку: Азернешр, 1989, 160 с.
19. Дандамаев М.А. Рец. на: Играр Алиев. Очерки истории Атропатены. Баку, 1989, 160 с. – Вестник древней истории, 1992, № 1; Меликов Р. Этническая картина Азербайджана в период ахаменидского владычества (VI – IV вв. до н.э.). Баку, 2003, с. 34-37.
20. Мамедова Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н. э. – VIII в.н.э.). Баку: Элм, 1986, 284 с.


## Summary

**Ismayil Hajiyev**

## ATROPATENA STATE AND NAKHCHIVAN


In the article on the basis of the historical facts and the first sources the author speaks about the staying of Nakhchivan under the rule of Atropatena state after the empire of the Achaemenids declined, continuing of this situation till the III-I centuries B.C., activity of Atropat the creator of Atropatena state, the territories of Atropatena state, it was not only surrounding the territories of the South Azerbaijan but also some areas of North Azerbaijan, especially Nakhchivan.

Result of the investigation it was determined that during the activity of Atropatena state Nakhchivan region played an important role in his life, also Nakhchivan was one of the main province, economic and cultural center of this state. There exist a close economic-cultural relations with the

Nearest East cities and Nakhchivan. Nakhchivan prevented the attacks to Atropatena from North and played a historical role strengthening the statehood.

***Keywords:*** *Atropatena, Atropat, Nakhchivan, satrap, ellin states, Parfiya, Arshakilar*

**Резюме**

**Исмаил Гаджиев**

**ГОСУДАРСТВО АТРОПАТЕНА И НАХЧЫВАН**

В статье на основе исторических фактов и первичных источников обосновывается существование Нахчывана в составе государства Атропатена после распада монархии Ахаменидов, что длилось до III-I тысячелетий до н.э., о деятельности основоположника государства Атропатена – Атропата, о территории государства Атропатена, о вхождении в его состав не только территории Южного Азербайджана, а также части территорий Северного Азербайджана, особенно Нахчывана.

В результате исследования выявлено, что во все время деятельности Нахчыванская область играла важную роль в жизни государства Атропатена, Нахчыван был одним из главных провинций, экономическим и культурным центром этого государства, был важным звеном в торговле с городами Ближнего Востока, а также в предотвращении набегов с севера, в целом сыграл историческую роль в укреплении государственности.

***Ключевые слова***: *Атропатена, Атропат, Нахчыван, сатрап, Эллинские государства, Парфия, Аршакиды*

**UOT 94(479.24)**

**MAİS ƏMRAHOV**
*Tarix üzrə elmlər doktoru, professor, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Mədəniyyət tarixi şöbəsinin müdiri, Azərbaycan*
*emrahov48@mail.ru*

# 1941-1945-Cİ İLLƏR MÜHARİBƏSİNDƏ FAŞİZM ÜZƏRİNDƏ QƏLƏBƏDƏ AZƏRBAYCAN XALQININ ROLU

***Açar sözlər***: *Faşizm, Ikinci Dünya müharibəsi, səfərbərlik, milli diviziyalar, hərbi əməliyyatlar, arxa cəbhənin köməyi, Böyük qələbə*

**Giriş.** „Müharibə acı tər və qan… yolunu gözləyən və gəlib çıxmasından„ hə" və „yox" xəbərini gətirən məktublar, sağ qalmaq üçün öldürmək, məhv olmuş dinc həyat, yaralanmış bioqrafiyalar, həyata keçirilməyən ümidlər, həyat yoldaşı olmayan gəlinlər deməkdir" (1, s.77). Müharibənin tarixi yurdundan-yuvasından didərgin salınmış millətlərin faciəli həyat tarixidir. Soykökünə „vətən xaini" damğası vurulmuş, Vətən həsrəti ilə qəriblikdə yaşayan və dünyasını dəyişən, nəşinin vətənində dəfninə icazə verilməyən minlərlə insanın niskilli tarixidir.

İkinci Dünya müharibəsində faşizm üzərində qazanılmış qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqdır. Bu xalqların içərisində Azərbaycan xalqı şərəfli yerlərdən birini tutur. Azərbaycan xalqı öz keçmişi, xüsusi ilə müharibədəki iştirakı dövrü ilə fəxr edir.

**Azərbaycan SSR müharibə ərəfəsində. Stalin milli siyasətinin nəticələri.** 1941-1945-ci illər müharibəsinin başlanmasından xeyli əvvəl SSRİ-də müharibəyə hazırlıqla əlaqədar hərbi sənayeni gücləndirmək məqsədilə mühüm tədbirlər planlaşdırılmışdı. SSRİ-də xalq təsərrüfatının inkişafına dair III beşillik planda da (1938-1942-ci illər) istehsal sahələrində, o cümlədən hərbi sənaye sahəsində məsuliyyətin artırılması nəzərdə tutulmuşdu. Bu səbəbdən də, ölkənin müdafiəsi üçün 1939-cu ildə müdafiə xərclərinə 34,5 milyard rubl, 1940-cı ildə 56,9 milyard rubl, 1941-ci ildə 83 milyard rubl və yaxud bütün büdcənin 43,4 fazi həcmində vəsait ayrılması planlaşdırılmışdı. (30, s.64)

Ordunun təkmilləşdirilməsi aparılırdı. 1940-cı ildə yaradılan mexanikləşdrilmiş korpusa tank və motorlaşdırlmış diviziyalar daxil edilmişdi. İri hava desant hərbi hissələri, hava hücumundan müdafiə hissələri, hərbi hava qüvvələri birləşmələri yaradılırdı. (2, s.2)

Müharibə ərəfəsində müxtəlif ixtisaslı kadrların hazırlanması məqsədilə 19 hərbi akademiyada, 10 mülki institutların hərbi fakültələrində, 7 ali-hərbi dəniz məktəbində hərbi kadrların hazırlanması təşkil olunmuşdu. (2, s.2)

1939-cu il avqustun 2-də Azərbaycan K(b)P MK bürosu ehtiyatda olan siyasi heyətə rus dilinin öyrədilməsi məsələsini müzakirə etdi. Rus dilinin öyrənilməsinə diqqətin artırılmasının bir səbəbi də, ÜİK(b)P və SSRİ XKS-nn 1938-ci il 7 mart qərarına əsasən milli hərbi hissələrin ləğv edilməsi və bütün milli respublikaların və dairələrin əsgərlərinin ümumi əsaslarla, bütün xalqlarla bərabər hüquqda həqiqi hərbi xidmətə çağırılmağa başlanması oldu. Çünki bəzi xalqlar (özbək, türkmən, buryat, monqol, qırgız, Şimali Qafqaz xalqlarının bəzilərinin nümayəndələri) bütünlüklə orduda xidmətə çağırılmamış və dövləti müdafiəsi işində iştirak etməmişdlər.

Ölkənin iqtisadi potensialının artırılmasında xalq təsərrüfatı üçün ixtisaslı kadrların hazırlanması mühüm əhəmiyyətə malik idi. SSRİ miqyasında hərbi gücü artırmaq məqsədilə SSRİ Ali Soveti Rəyasət Heyəti 1940-cı il oktyabrın 2-də „*SSRİ dövlət əmək ehtiyatları haqqında*" fərman verdi. Fərmana görə fabrik-zavod və dəmiryol məktəblərində ildə 800 mindən bir milyonadək ixtisaslı fəhlələr hazırlanması planlaşdırılırdı.

1940-cı il oktyabrın 3-də Azərbaycan K(b)P MK SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını həyata keçirmək məqsədilə məsələ müzakirə etdi. 1941-1945-ci illə müharibəsi

ərəfəsində respublikadakı 42 təlim mərkəzində, 28 fabrik-zavod, 12 peşə və 2 dəmiryol təhsil məktəbində 13 mindən çox gənc oğlan və qız təhsilə cəlb olunmuşdu.

Müharibə ərəfəsində Azərbaycanın *nəqliyyat sistemində* əsaslı dəyişikliklər baş verirdi. 1937-ci ildə Azərbaycan SSR-də 1.193 km uzunluğunda dəmiryol xəttindən istifadə olunurdu. 1939-cu ildə Maştağa-Buzovna (9,4 km) elektrik dəmiryolu çəkildi. 20-ci illərin əvvəllərində tikintisinə başlanmış 445 km uzunluğunda dəmiryolu xəttinin çəkilişinin 1941-ci ildə başa çatdırılması ilə Naxçıvanla Bakı arasında dəmiryolu məsafəsi iki dəfə qısaldı və İranla əlaqələrin artmasına imkan verdi.1941-ci ildə istismara verilən Salyan-Astara dəmiryol xətti zonanın şəhərləri ilə Bakının əlaqələrini asanlaşdırdı. 1941-cı ildə respublika dəmiryol xəttinin uzunluğu 1.210 km, yük dövriyyəsi 13,2 milyon tona çatdı (5, f.1, siy.55, iş 33, v.83).

Müharibə ərəfəsində Xəzər dəniz nəqliyyatında yük dövriyyəsi yüksəlirdi. 1940-cı ildə SSRİ dəniz nəqliyyatı yük dövriyyəsinin 46 faizi Xəzər dənizinin payına düşürdü. Xəzər dəniz nəqliyyatı ilə daşınan 14,8 milyon ton yükün 13,4 milyon tonunu neft məhsulları təşkil edirdi. (35, s.41)

Üçüncü beşillikdə respublikada *avtomobil yollarının çəkilişi və təmirində* irəliləyiş hiss olunurdu. Ancaq Mərkəzin Azərbaycana qısqanclıqla yanaşmasının nəticəsində respublikanın cənub-qərbindəki 170 km. şosse yolları heç bir əsas olmadan Ermənistan SSR şosse yolları idarəsinə verilməsi avtomobillə yük daşınmasına mənfi təsir göstərdi.

Üçüncü beşillikdə Azərbaycanda 1937-ci illə müqayisədə 1940-cı ildə ümumi məhsul istehsalı 21 faiz, o cümlədən neft çıxarılması 4 faiz, qaz çıxarılması 25 faiz, elektrik enerjisi istehsalı 32 faiz, polad istehsalı 32 faiz, maşınqayırma və metal emalı sənayesinin ümumi həcmi 98 faiz, sement istehsalı 14 faiz, pambıq-parça istehsalı 22 faiz, ipək parça istehsalı 19 faiz, gön-dəri ayaqqabı istehsalı 49 faiz, qənnadı məmulatı 31 faiz, konserv istehsalı 100 faiz artdı. (28, s.52-53)

1940-cı il məlumatına görə, Azərbaycanda kənd əhalisi 63 faiz (33,s.30), məşğul olan əhalinin yarıdan çoxunu kolxozçular təşkil edirdi. Azərbaycan 30-cu illərin əvvəlində yavaş-yavaş sənaye respublikasına çevrilirdi. 1922-1940-cı illərdə sənaye məhsulu istehsalı 24 dəfə artmışdı. Onlarla sənaye obyekti tikilib istifadəyə verilmişdi. Ancaq Moskvanın Azəbaycanla bağlı siyasətindəki ikili yanaşmanın nəticəsidə sənayenin inkişafı birtərəfli xarakter daşıyırdı. Əsas diqqət energetikanın, yeyinti və yüngül sənayenin bəzi sahələrinin inkişafına yönəlmişdi. Sənaye obyektləri bir neçə şəhərdə dislokasiya olunmuşdu. Sosial strukturda dəyişikliklər baş versə də, zərbaycan aqrar ölkə kimi qalırdı. Bu tərkibdə kəndlilərin sayı şəhərlilərin, ziyalıların, fəhlələrin sayı ilə müqayisədə yüksək deyildi. (29, s.13)

Dövrün mühüm xarakterik xüsusiyyətlərindən biri də, əhalinin kənd təsərrüfatı işlərinə, xüsusilə pambıqçılıq, tütünçülük və üzümçülük sahələrinə cəlbi sahəsində həyata keçirilən tədbirlər idi.

Rusiya kəndlərindən əhalinin köçürülməsi milli siyasətdə mühüm halqanı təşkil edirdi. Müharibə ərəfəsində yaranan sosial gərginlik və aclıqla üz-üzə qalan rus kəndliləri yeni sənaye obyektlərində işləmək üçün ölkənin bir sıra rayonlarına, o cümlədən Azərbaycana göndərilirdi. Məlumatlara görə birinci beşillikdə (1928-1932-ci illər) Bakıda əhalinin sayı gəlmələrin hesabına, xüsusilə Rusiyadan gələnlərin hesabına 380 min nəfər artmışdı. 1939-cu il məlumatına görə, şəhər əhalisi təxminən 550 min nəfər artmış, kənd əhalisi isə 130 min nəfər azalmışdır. (33, s.29)

Faşist Almaniyasının SSRİ-ə hücumu ərəfəsində Azərbaycan SSR mühüm hərbi və maddi baza rolunu oynayırdı və bu səbəbdən də, SSRİ rəhbərliyinin Türkiyə və İran amilinin təsiri altında Azərbaycana olan münasibətində anti-milli dəyişikliklər baş verirdi.

Müharibə ərəfəsi Azərbaycan xalqının repressiyası ilə yadda qaldı. 1937-ci ildə „əksinqilabçı millətçi-burjua" təşkilatının üzvü kimi 22 xalq komissarı, 49 rayon partiya komitəsi katibi, 29 rayon icraiyyə komitəsi sədri, 207 sovet və həmkarlar təşkilatının işçiləri, 57 zavod və mədən direktoru repressiyaya məruz qaldı. Repressiyaya məruz qalan 400-ə yaxın məsul vəzifəli şəxs arasında MK katibləri, müxtəlif vaxtlarda Azərbaycan SSR-də və ZSFSR-də yüksək partiya və hökumət vəzifələri tutumuş şəxslər var idi (5, f.1, siy. 28, sax.vah.188, v.

27). 1920-1930-cu illərdə terror SSRİ-nin dövlət siyasətinin tərkib hissəsi olmuşdur.

1937-1938-ci illər repressiyaları zamanı Azərbaycan xalqının milli-mənəvi sərvətlərinə, mədəniyyətinə, adət və ənənələrinə güclü zərbə vuruldu. Repressiyaların təşkilinin kökündə qeyri-azərbaycanlılar, xüsusilə ermənilər dayanırdı. İstintaq-əməliyyat aparatının əsasını ermənilər təşkil edirdi. *Respublikanın 51 rayonundan 31-də XDİK rayon şöbəsinin rəhbəri erməni idi.* Oxşar vəziyyət XDİK aparatının yüksək eşelonunda da vardı. SSRİ rəhbərliyində toplaşan erməni-gürcü qruplaşması rus şovinistlərinin təhriki ilə ikili siyasət yeridir, Azərbaycanın sərvətlərindən və insan resurslarından məkrli məqsədlər üçün istifadə edirdilər.

**Müharibənin başlanması. Azərbaycan SSR-də hərbi və mənəvi səfərbərlik.** 1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3,4 milyon nəfər idi. Müharibə başlayanda respublikada hərbi səfərbərlik ümumxalq hərəkatına çevrildi. Müharibə illərində Azərbaycandan ordu sıralarına 678.950 nəfər kişi, 11 mindən artıq qadın səfərbərliyə alındı, 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə istehsalata gəldi. Hərbi hissələr üçün *15 min tibb işçisi və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü* hazırlandı. *Azərbaycan SSR ərazisində 87 batalyon, 1123 özünümüdafiə dəstəsi*, 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci, 416-cı atıcı diviziyalar formalaşdırıldı. (5, f.1, siy. 280, iş 5, v.108-109)

*Mənəvi səfərbərlikdə qarşıda duran əsas vəzifələrdən biri xalqlar arasında dostluğun möhkəmlənməsi, adamların vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyəsi idi.* Azəbaycan K(b)P MK və Azərbaycan SSR XKS-nin *„Partiya siyasi işçilərin Qızıl Ordu sıralarına səfərbər edilməsi haqqında"* 24 sentyabr 1941-ci il tarixli (5,f.1, siy.103, iş 46, v.7-8.), *„Azərbaycanlı qızıl ordu döyüşçüləri arasında partiya-siyasi işin qüvvətləndirilməsi tədbirləri haqqında"* 10 oktyabr 1941-ci il tarixli (5, f.1, siy.103, iş 49, v.160-162), *„Respublikada formalaşdırılmış hərbi hissələrdə siyasi tərbiyə işini genişləndirmək tədbirləri haqqında"* 13 noyabr 1941-ci il tarixli (5, f.1, siy.103, iş 52, v.7) qərarları mənəvi və hərbi səfərbərliyə təkan verdi.

Faşistlərin hücumunu ilk qarşılayan **Brest qalası** döyüşçüləri oldu. Qalasının müdafiəsi əfsanələrə bənzər qəhrəmanlıq nümunələri ilə 1941-1945-ci illər müharibəsi tarixinə daxil oldu. *Qalanın müdafiəsində Azərbaycanın 44 gənci iştirak etdi.* İ.Səfərov, A.İmanov, M.Məmmədov, M.İbrahimov, H.Haqverdiyev, M.Qədirov, Ə.Əliyev, D.Abdullayev və başqaları xüsusi mərdlik göstərərək qəhrəmanlıqla həlak oldu. (18, s.26)

***Leninqradın alman-faşist işğalçılarından 900 günlük müdafiəsi müharibə tarixinin parlaq səhifələrindən birini təşkil edir.*** Leninqrad uğrunda döyüşlərin qəhrəmanlarından biri Hüseyn Əliyev oldu. Hüseyn Balaəmi oğlu Əliyev ölümündən sonra „Lenin" ordeni ilə təltif edildi. Şəhərin müdafiəsində azərbaycanlı döyüşçülər-Bakı aeroklubunun yetişdirmələri *Hüseyn Bağırov, Yevgeni Sıqanqov, Asəf Səmədov, Aleksandr Şitov,* snayperçi *Məmmədəli Abbasov,* qvardiya baş leytenantı *Volodya Bağırov,* „Lenin" ordeni ilə təltif edilmiş *İlyas İsmayılov, Məhərrəm Bayramov, Ələkbər Nadirov,* sualtı qayıqçılarından biri 2-ci ranq kapitan *M.İ.Hacıyev* və başqaları iştirak etdilər. (18,s.29-32)

Vermaxt Leninqrad uğrunda döyüşlərlə bərabər Moskva altında da xeyli qüvvə cəmləşdirmişdi. Moskvanın tutulması planının şərti kod adı *„Tayfun"* idi. Azərbaycanlı döyüşçülər **Moskva uğrunda** döyüşlərdə igidlik göstərdilər. Belələrinin önündə 1941-ci ilin dekabrında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş **İsrafil Məmmədov** dayanırdı (18, s.85-87). Zenit batareyasının komandiri leytenant *Məmmədrəsul Paşayev* Moskvanın səmasını qoruyurdu. Moskvanın müdafiəsində pulemyotçu *İdris Vəliyev*, zenitçi serjant *Seyfəli Əlibalayev,* həkim və tibb bacıları *Aliyə Rüstəmbəyova, S.Qarayeva* və b. iştirak etdilər. (18, s.82-83)

Moskvanı müdafiə edənlər sırasında Bakıda təyyarəçilik kursunda təhsil almış Leyla Ələsgər qızı Məmmədbəyova, Zülexa Seyidməmmədova da vardı.

Moskva ətrafındakı vuruşmalarda göstərdiyi hərbi təşkilatçılıq və şəxsi igidliyinə görə podpolkovnik rütbəsi almış **Həzi Aslanovun 55-ci əlahiddə tank alayı** Stalinqrad vuruşmasında feldmarşal Manşteynin ordusunun darmadağın edilməsində yüksək hərbi məharət göstərdi, xüsusi döyüş nümayiş etdirdi (18, s.104-107; 23,1943, 26 may). Azərbaycan xalqının mərd oğulları-təyyarəçilər *Nuru Əliyev* və *Ta-*

*cəddin Əfəndiyev,* minomyotçu *Şamil Hüseynov,* topçu *Xeyrulla Şahgəldiyev, A.Axundov, A.Abbasov, M.Qəribov, M.İsrafilzadə, A.Əliyev, B.Ələsgərov, Ə.Kərimov, B.Muxtarov, A.Mustafayev, Ə.Həmidov, Ə.Hüseynov, M.Cəfərov* və başqaları igidliklə döyüşdülər (9, s.23). Top nişançıları *F.Əhmədov və Baxışov, top sürücüsü Şahvəliyev, kəşfiyyatçı A.Vəliyev, doldurucu İ.Məmmədov, snayperçi* Balaoğlan Abbasov və b. Stalinqrad uğrunda döyüşlərdə qəhrəmancasına həlak oldular. Düşmən tanklarına qarşı vuruşmalarda Kürdəmir rayonundan olan əsgər *Maqadim Mərdan oğlu Məmmədov,* Bakıdan leytenant *Yusif Qurban oğlu Zeynalov,* Astara rayonundan *Müsaid Hüseyn oğlu Rəhimov,* Kürdəmir rayonunun I Qaraqaşlı kəndindən olan əsgər *Rəsul Qaib oğlu Salmanov,* Laçın rayonundan leytenant *Hüseyn Nadir oğlu Yusifov,* Naxçıvan şəhərindən baş serjant *Tahir Məmmədov,* Bakıdan leytenant *Bilal Rəsulov* və leytenant *Ələkbər Hacı oğlu Hacıyev* igidlik göstərdilər. Zaqatala rayonundan olan rabitəçi leytenant *Mustafa Əliabbas oğlu Mustafayev, D.Dünyamalıyev və L.Həşimov* „İgidliyə görə" medalı ilə təltif olundular (15). *Həlimə Rzayeva, Zərifə Camalbəyova, ana və qız Bəyim və Səlimə Əlizadələr, Böyükxanım Bağırova* Stalinqrad döyüşlərində yüzlərlə yaralı əsgəri döyüş meydanlarından çıxararq ölümün pəncəsindən xilas etdilər. 16.500 nəfərdən artıq azərbaycanlı döyüşçü *„Stalinqradın müdafiəsinə görə"* medalı ilə təltif olundu. Stalinqradın müdafiəsinə görə 112 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Təltif olunanlar arasında Azərbaycan xalqının qəhrəman oğlu **Həzi Aslanov** da vardı.

**Qafqaz döyüşlərində** digər xalqlar və millətlərdən yaranan diviziyalarla yanaşı *Azərbaycanın 77, 223, 402 və 416-cı, 242, 392, 394 və 414-cü qırıcı atıcı və dağ-atıcı diviziyaları da vardı.* Qafqaz uğrunda döyüşlərdə yüksək döyüş məharəti göstərən azərbaycanlı əsgərlərdən biri Qafur Nəsir oğlu Məmmədov oldu. *İsrafil Məmmədov, Ədilə Babayeva, Humay Əlibəyli, Böyükxanım Bağırova, Roza İbadovanın* döyüş yolu Şimali Qafqazdan başladı, Donbas, Çerkass, Voroşilovqrad şəhərlərinin, Ukraynanın yüzlərlə kəndinin alınması döyüşlərində iştirak etdilər.

Novorossiysk uğrunda döyüşlərdə azərbaycanlı *Oruc Ağayev, Xanbaba Muradov, Hüseynağa Sadıqov, Novruz Aslanov, Qaçay Bəhramov, Davud Qasımov (Bakı), Səkinə Məmmədova, Süleyman Eldarov (Nuxa-indiki Şəki), İsmayıl Ağamirzəyev (Ağdam), Çoban Haqverdiyev (Ağstafa), Oruc Əsgərov (Jdanov - indiki Beyləqan)* və başqaları əsgəri rəşadət göstərdilər. Novorossiysk, Kabardinka, Tuapse, Taman uğrunda vuruşmalarda cəsur qızlardan *Dürrə Məmmədova, Səfiyyə Rüstəmbəyova, Səkinə Məmmədova, Adilə Məmmədova, Lyudmila Kərimova, Suzanna Salmanova, Naibə Həşimova, Suğra Paşayeva, Səkinə Əliyeva, Sara İbrahimova* və başqaları mərdlik nümunələri göstərdilər. Novorossiyskin müdafiəçiləri döyüş dostları Dürrə Məmmədovanı daim xatırlayırlar.

18-ci ordunun tərkibində 33 millətin nümayəndələri, o cümlədən 1000 nəfərə qədər azərbaycanlı var idi. *Ağamehdi Babayev, Tofiq Abbasov, Ağahüseyn Əliyev, Hacağa Əliyev, Hüseyn Babayev, Əliağa Cəfərov, Sadıq Sadıqzadə* (Bakı), *Fərman Nərimanov* (Ağdam), *Bəylər Xanlarov* (Ağcabədi), *Rəsul Muradov* (Quba), *Əli Məhərrəmov, Həsənxan İsmayılov* (Qubadlı), *İsmayıl Tağıyev* (Lənkəran), *Xalıq Qurbanov* (Masallı), *İman Abışov* (Neftçala), *Sofiyaxanım Rüstəmbəyova* (Sumqayıt), *İbrahim Həsənov* (İliç-indiki Babək rayonu), *Məmməd Zeynalov* (*Ordubad*), *Novruz Xudiyev* (Cəbrayıl) və başqaları Kiçik torpaqda döyüşdülər. (10)

Krımın azad edilməsində *Ə.Piriyev, Ş.Əliyev* (Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər-M.Ə.), *Ə.Qurbanov, M.Dadaşov, Ə.Ağamirov, M.Məmmədov, Abdul Rəsul oğlu Xəlilov, Bala Ağa oğlu Qasımov, rota komandiri, yazıçı Əbülhəsən Ələkbərov, Kamal Məmmədov, siyasi rəhbər Əsgərov, komandir Səlimov, siyasi işçi Şirinov* və b. mərdliklə vuruşdular (8,s.579). Krım uğrunda döyüşlərdə Z.Manafova yoldaşlarına tibbi yardım göstərdi.

Azərbaycan övladları-Sovet İttifaqı Qəhrəmanı *Səlahəddin Kazımov,* pulemyotçu *İbrahim Sultanov,* döyüşçü *Məmməd Məmmədov,* təyyarəçi *İbrahimov,* 2 dəfə „Qızıl Ulduz" və „Qızıl Bayraq" ordenləri ilə təltif edilmiş kapitan *Baxış Mehdiyevin,* „Qızıl Ulduz" ordeni ilə təltif edilmiş *Əliş Manafov və Əli Əliyev,* Dneprətrafı döyüşlərdə topçulardan *Həsən Mirzəyev, Xanmirzə Hüseynov, İsfəndiyar Əliyev,* Topçu *İsfəndiyar Əliyev, serjant Həsənalı Məmmədov,* kəşfiyyat manqasının komandiri *Çərkəz Qurba-*

*nov* Ukrayna torpaqlarının faşistlərdən təmizlənməsində iştirak etdilər (16), Belarusiyanın azad edilməsi əməliyyatlarında *Q.Əkbərov və N.Rəfiyev* Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Mogilyov şəhəri və Mogilyov vilayəti uğrunda döyüşlərdə 63 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Onların arasında 1-ci qvardiya hücumçu mühəndis-minatəmizləyən briqadanın komandiri, qvardiya polkovniki azərbaycanlı A.F.Vəzirov və b. vardı (6, s.85-86)

1945-ci ilin mart ayında Berlinə hücumu davam etdirmək üçün şərait yarandı. Mayın 1-də axşam 301-ci diviziyanın alayları 148-ci və 230-cu diviziyalarla qarşılıqlı əlaqədə faşist reyxi başçılarının son sığınacağı olan baş komandanlıq qərargahını-İmperiya Dəftərxanasının binasını və bunkerini ələ keçirmək uğrunda döyüşə başladılar. Berlin uğrunda döyüşlərdə 416-cı Azərbaycan diviziyası da iştirak etdi.

Müharibə illərində *6.200 partizan dəstəsi və gizli qrup* fəaliyyət göstərmişdi. Krasnodonda fəaliyyət göstərən „Gənc qvardiya" nın üzvlərindən biri *Əli Dadaşov* idi. (18, s.379)

8-ci Azərbaycan partizan dəstəsinin üzvləri 1943-cü ilin əvvəlində Krımın Kuybışev rayonunda hərbi düşərgədə saxlanılan 800 hərbi əsir arasında olan zabit *Əliyev Məmməd Kərim oğlu, Hacıyev Sahib Cəbrayıl oğlu, Rzayev Hüseyn Məmməd oğlu* düşərgədə hərbi əsirlərdən gizli təşkilat yaratmışdılar. 1943-cü il senyabrın 18-də *Məmməd Əliyev və Mahmud Həsənov* „Красный партизан" dəstəsini yaratdılar. 1943-cü il noyabrın 7-də dəstə Cənubi Krımda 8-ci Azərbaycan partizan dəstəsi adı ilə 7-ci partizan briqadasına daxil oldu. *Dəstənin komandiri* Məmməd Əliyev, *komissarı* Əbdülkərim Əşirov, *qərargah rəisi* Sahib Hacıyev idi. Ümumilikdə, 8-ci Azərbaycan partizan dəstəsi 7 ay ərzində düşmən arxasında 32 döyüş əməliyyatı keçirmişdi. 1.225 nəfər düşmən əsgər və zabit məhv olunmuş, 451 nəfər əsir götürülmüşdü. Partizanların əməliyyatı nəticəsində 9.700 metr rabitə xətti sıradan çıxarılmış, 7 top, 11 minomyot, 12 pulemyot, 500 vahid digər atıcı silah və 11.000 patron ələ keçirilmişdi. (37, s.291)

On minlərlə sovet adamı, o cümlədən azərbaycanlılar Fransada, Yuqoslaviyada, İtaliyada, Polşada, Çexoslovakiyada, Albaniyada, Rumıniyada, Almaniyada və b. ölkələrin xalqları ilə birlikdə faşistlərə qarşı mətanətlə vuruşurdu (18, s.422). 1942-1944-cü illərdə azərbaycanlı əsirlər Polşanın Yedlina, Almaniyanın Noyqammer-Ştrans, Fransanın Rodez, İtaliyanın Udine, Triyestin Opçina şəhərlərində gizli antifaşist təşkilatları yaratmağa nail olmuşdular.

1942-ci ildə Polşanın Yedlina şəhərində yaradılan gizli təşkilatın rəhbərləri Hadi Qiyasbəyov, Mirzəxan Məmmədov, Əşraf Süleymanov, İsmayıl Heydərov, Yunis Mirzəyev, Hüseynrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacıyev və başqalarının rəhbərlik etdiyi partizanlar faşist işğalçılarının hücum planlarını pozur, əsirlər arasında antifaşist təbliğatı aparırdılar.

Çexoslovakiya ərazisində fəaliyyət göstərən partizan dəstəsinin tərkibində 500 nəfər azərbaycanlı döyüşçü olmuşdu. Əsir düşərgəsindən qaçıb müqavimət hərəkatına qoşulan *Ə.Baxışov və Ə.Əlimərdanov* döyüşlərdə xüsusi ilə fərqlənmişlər. Uritski adına partizan dəstəsinin komandiri *Hümmət Namazov*, döyüş dostları *R.Əsgərov, Ə. Məhərrəmov, S.Bağırov, Q.İmanov, M.Tağıyev, T.Quliyev, M.Daşdəmirov, Ş.Vəliyev, M.Bayramov* və başqaları qəhrəmanlıqla vuruşmuşlar.

Almaniyanın "Ştrans" düşərgəsində saxlanılan *M.Hüseynzadə, S.İsmayılov, R.Ağazadə, M.Seyidov, M.Qulubəyov* və başqaları hərbi əsirlər arasında iş aparırdılar. Mehdi Hüseynzadə (Mixaylo) Ukrayna, Polşa, İtaliya və Yuqoslaviyada hərbi əsir düşərgələrində olan sovet əsirlərinin qaçmasına köməklik edir, yoldaşları ilə birlikdə Yuqoslaviya partizanlarına qoşulur. Faşist zabiti forması geyərək tez-tez almanların qərargahında olan Mehdi düşmən ordularının hərəkətlərinə dair kəşfiyyat materialları toplayır, qoşunların hərəkət planlarını öyrənərək partizanlara xəbər verir və onlara zərbələr endirirdilər. Opiçina kinoteatrı partladılarkən 80 nəfər faşist məhv edilmişdi.

1944-cü ilin payızında Mehdinin başçılıq etdiyi bir qrup partizanın Udine şəhərindəki faşist həbsxanasına hücumu nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsiri azad edilir. M.Hüseynzadə 1944-cü il noyabr ayının 2-də düşmənlə qeyri-bərabər döyüşdərindiki Sloveniyanın Vitovle kəndində həlak oldu. Noyabrın 16-da onun cəsədi yenidən Çepovani kəndində

dəfn edildi. Lakin M.Hüseynzadənin qəhrəmanlığı sovet rəhbərliyi tərəfindən vaxtında qiymətləndirilmədi.

Müharibə qurtaran kimi Dövlət Təhlükəsizlik Komitəsi 1946-cı ildə olduqca təhlükəli hesab etdiyi bir „casus" haqqında material toplamağa başladı. „Casus"un axtarış işində onun 1943-1944-cü illərdə Almaniyanın Ştrans məntəqəsində yerləşən Azərbaycan Milli Legionunda təbliğat-təşviqat şöbəsində işlədiyi, legionları Hitler Almaniyasına vicdanla xidmətə çağırdığı bildirilirdi. „Casus" kimi axtarışda olan Mehdi Hüseynzadə idi.

Mehdinin son məktubu Stalinqraddan gəlib. Mehdi Hüseynzadənin bacısı oğlu Mehdi Əzizbəyov yazırdı ki, dayısı əsir düşməyib. Kəşfiyyatçı kimi almanlar tərəfə atılıb. ...Onun dostları danışırdılar ki, Mehdi almanlar tərəfə keçəndən sonra SSRİ ilə əlaqə saxlamayıb, o, 162-ci „Türküstan" diviziyasına yazılıb. Mehdini bacarığını görən almanlar Potsdama 3 aylıq hərbi məktəbə göndərirlər. Kursu başa vurduqdan sonra o,yenidən „Türküstan" diviziyasına təbliğat-təşviqat işinə davam etdirir. Başqa sözlə, əsil həqiqəti bilməyən SSRİ DTK Mehdi Hüseynzadəni „Vətən xaini" hesab edir (38). Müharibə qurtarandan 9 il sonra - 1954-cü ildə Dövlət Təhlükəsizlik Nazirliyinin baş müvəkkili, bölmə rəisi V.Banserev Mehdi ilə legionda və partizan hərəkatında iştirak edən şahidləri yenidən dindirir və onlar öz ifadələrində 1944-cü ildə Almaniya hökumətinin müttəfiqi İtaliyanın məğlubiyyətindən, bundan sonra tərkibində fəaliyyət göstərdikləri 162-ci „Türküstan" diviziyasının Adriatik dənizinin sahillərinə göndərilməsindən danışır, İtaliya ilə Yuqoslaviyanın sərhədində olarkən kəskin hava şəraitinə dözməyən Mehdinin xəstələnməsindən də söz açırlar. Mikayıl Qulubəyov xatirələrində bildirir ki, Mehdi burada dermatit xəstəliyinə tutulduğuna görə, 1943-cü ilin noyabr ayında Avstriyanın Qrats şəhər xəstəxanasında müalicə olundu. Xəstəxanadan qayıdandan sonra 1944-cü ilin əvvəlində Mehdi, Cavad Həkimli və Əsəd Qurbanov düşərgədən qaçıb İvan Qradnikov adına 3-cü zərbə briqadasına qoşuldular. Rotanın komandiri Cavad Həkimli, komissarı ilk zamanda Mehdi Hüseynzadə, sonra Miryaqub Ağalarov olmuşdu.

Mehdi Hüseynzadə haqqında olan axtarış işi 8 il çəkdi. Sonda onun qəhrəman olduğunu üzə çıxdı. İtaliya Kommunist Partiyasının Baş katibi Palmiro Tolyati, Yuqoslaviya Xalq Azadlıq Hərəkatının lideri və Kommunist Partiyasının katibi Broz Tito SSRİ hökumətinə Mehdinin şücaətləri əks olunmuş sənədlər təqdim etdilər. Bütün bunlardan sonra „Casus axtarış əməliyyatı" səmtini dəyişdi. Artıq axtarış işi „Geroy" adlandırılırdı (14;38). Mehdinin ölüm xəbəri 1954-cü ildə dəqiqləşdirildi. Müharibədən sonra (1952-ci ildə) Moskvaya gələn İtaliya Kommunist Partiyasının Baş katibi Palmiro Tolyatti müharibə illərində İtaliyada „Mixaylo" adı ilə İtaliya müqavimət hərəkatı sıralarında bir azərbaycanlı gəncin misilsiz qəhrəmanlığı və şücaəti haqqında məlumat verdi. Onun məlumatlarından sonra İtaliya müqavimət hərəkatının rəhbərlərindən olan Karlos Lubinonun köməyi ilə M.Hüseynzadə haqqında materiallar toplandı və SSRİ rəhbərliyinə təqdim olundu. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli fərmanı ilə Mehdi Hüseynzadə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü (14 ;38)

**Müqavimət hərəkatının iştirakçıları**. Azərbaycanlı döyüşçülər Fransada müqavimət hərəkatında iştirak etdilər. Fransanın cənubunda, Rodez rayonunda ilk Azərbaycan alayı formalaşdı. 1942-ci ilin yayında Polşanın Edlin şəhərində azərbaycanlı hərbi əsirlərdən gizli antifaşist təşkilatı yarandı. Təşkilatın üzvləri *Hadı Qiyasbəyov, İsmayıl Heydərov, Hüseynrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacıyev* və başqaları Fransa şəhərlərinin faşistlərdən azad edilməsində iştirak etdilər.

Fransa müqavimət hərəkatının iştirakçılarından biri, müharibə illərində əsir düşməsinə baxmayaraq döyüş dostlarının köməyi ilə əsirlikdən qaçaraq fransız partizanlarına qoşulan „Xarqo" ləqəbli döyüşçü *Ə.Cəbrayılov*, İtaliya müqavimət hərəkatında iştirak etmiş *Nəsir Abdullayev, Məmməd Bağırov, Həmzə Əsgərov, Əli Babayev, Şahbaba Məcidov, Tahir İsayev, Həsən Kamalov* və başqaları faşistlərə qarşı cəsarətlə vuruşmuşdular.

Əhmədiyyə Cəbrayılov 1942-ci ildə ordu sıralarına səfərbər olunmuş, 1942-ci ilin may ayında yaranlanmış, əsir düşmüş və Fransadakı Montobon həbs düşərgəsinə göndərilmişdi.

4167 №li əsir Əhmədiyyə Cəbrayılov 1942-ci ildə Marsel altındakı əsir düşərgəsindən düşərgə xidmətçisinin köməyi ilə qaçmış və Müqavimət hərəkatı sıralarına daxil olmuşdu. O, Fransanın Hərbi Xaç, Könüllü xidmətə görə xaç, Fransanın hərbi medalı, Fəxri Legionun Ali Ordeni ilə təltif olunmuşdur. Təltifləri Şarl de Qol və Morez Torezdən qəbul etmişdir. (20, s.74 ;25 ;26)

**Milli diviziyalar**. Müharibənin ilk illərində Ali Baş Komandan Stalinin 1941-ci il 18 oktyabr tarixli əmrinə əsasən bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da milli diviziyalar təşkil olundu. Bu diviziyaların əsas heyətini azərbaycanlılar təşkil edirdi. ***77, 223, 271, 306, 402*** **və** ***416*****-cı milli diviziyalar** müxtəlif orduların tərkibində döyüş əməliyyatlarında iştirak etdilər.

1944-cü il aprel ayının 13-də Simferopol uğrunda döyüşdə fərqləndiyi üçün Ali Baş Komandanlıq tərəfindən **77-ci diviziyaya** mayın 24-də fəxri „Simferopol“ adı verildi, diviziyanın 613 əsgər və zabiti döyüş mükafatları ilə təltif olundu (5, f.1, siy. 177, iş 3, v.12). Onların arasında *Həsən Quliyev, Əli Qarayev, Əmir Quliyev, Xudu Mehdiyev, Abdul Rəcəbov, Həsən Abbasov, Əbil Seyidov, Yəhya Bağırov* və başqaları vardı. Qafqaz uğrunda vuruşmalarda 60 əsgər və zabitə (İdris Süleymanov, Qafur Məmmədov və b.) Sovet İttifaqı Qəhrəmanı adı verildi. Təqribən 600 döyüşçü „Qafqazın müdafiəsinə görə “ medalı ilə təltif olundu.

77-ci diviziyanın döyüşçülərindən 1941-1945-ci illərdə 11 nəfər „Lenin “, 2 nəfər „Qızıl Ulduz “, 68 nəfər „Qırmızı Bayraq“, 15 nəfər „Suvorov“ və „Aleksandr Nevski“, 1 nəfər „Boqdan Xmelnitski“, 101 nəfər I dərəcəli, 238 nəfər II dərəcəli „Vətən müharibəsi“, 1.149 nəfər „Qırmızı Ulduz“, 30 nəfər 2-ci dərəcəli “Şöhrət“, 412 nəfər 3-cü dərəcəli “Şöhrət“ ordeni, 208 nəfər „İgidliyi görə“, 1.131 nəfər „Döyüş xidmətlərinə görə“ medalı ilə təltif olunmuşdur. Döyüşçülərdən 8 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. (5, f.1, siy.177, iş 3, v.14.

Baş Komandanlığın 1941-ci il 18 oktyabr tarixli əmri ilə 46-cı ordunun Gürcüstan SSR-dən gəlmiş 168-ci ehtiyat alayı əsasında yaradılan **223-cü diviziyaya** təcrübəli rəislər komandanlıq etmişlər. Diviziyanın *komandiri polkovnik Romanov V.S., hərbi komissarı alay komissarı Əliyev M.A., qərargah rəisi podpolkovnik Preobrajenski N.Q.* idi. Diviziyanın qərargahı Bakı şəhərində yerləşirdi.

1941-ci il dekabrın 23-də 223-cü diviziya Bakı neft yataqlarını müdafiə üçün şəhərin hüdudlarından kənarda hazırlanan müdafiə xəttində yerləşdirilir. 1942-ci il fevralın 22-də diviziya komandirliyini Vladimir Pavloviç Züvanov (Heybət Atamoğlan oğlu Heybətov) qəbul edir.

223-cü Azərbaycan atıcı diviziyasına Belqradın alınmasındakı döyüş rəşadətinə görə ***„Belqrad”*** *diviziyası* fəxri adı verilmişdir. Diviziya döyüşçülərinin fədakarlığı, yüksək döyüş məharətinə və igidliyinə görə 20 nəfər azərbaycanlı döyüşçüyə, o cümlədən A.Vəzirov, M.Vəliyev, A.Quliyev, M.Abdullayev, B.Mirzəyev, M.Cəbiyev və X.Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı il. Təltif olunmuşdur (13, s.394). Bakıdan Praqaya qədər 6 dövlətin-Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya və Çexosolvakiyanın ərazisindən keçən 223-cü diviziyanın döyüş yolu 5.000 kilometrə bərabərdir. 30 aylıq döyüşlər zamanı diviziya sahəsi 10.000 kvadrat kilometr olan 400-dən çox yaşayış məntəqəsinin, 19 şəhər, o cümlədən Mozdok, Georgiyevski, Dneprodzerjinsk, Benderı, Kotovskoye, Konstansa, Şumin, Rqotino, Bor, Yaqodino, Belqrad, Kralyevo, Budapeşt, Komarom, Vyana, Florisdorf, Qllabrunn və digər şəhərlərin azad olunmasında iştirak etmişdir. 223-cü diviziya döyüş yolunda irili-xırdalı 50-dən artıq çaydan, o cümlədən 4 dəfə Dunay çayından keçmişdir. Alman faşistləri ilə döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri 45 mindən çox alman əsgərini məhv etmiş, 43.800 nəfər əsgər və zabit əsir alınmış, düşmənin 28 təyyarəsi, 113 tank və döyüş maşını, 549 səhra topu, 311 minaatan qurğusu, 1.152 pulemyotu, 25 mindən çox avtomaşını sıradan çıxarılmış, 28 təyyarə, 113 tank və zirehli maşın, 549 səhra topu, 311 minaatan, 1.152 pulemyot, 200-dən artın avtomaşın, 25 minə qədər tüfəng və avtomat, 219 paravoz, 7.400 vaqon, 1.350 at, 70 anbar və böyük miqdarda döyüş sursatını ələ keçirilmişdir. (5, f.1, siy. 28, sax.vah.198, v.274)

**402-ci** Azərbaycan milli atıcı diviziya 1941-ci ilin oktyabr ayınadək İranda (Cənubi Azərbaycanda) dislokasiya olunmuşdu. 1941-ci ilin oktyabr ayının əvvəllərində vətənə qayıdan

diviziya Naxçıvan-Culfa-Bakı-Qudermes marşurutu ilə müharibə zonasına yola salınmışdır. Diviziyada azərbaycanlılar 55 %, ermənilər 18,6 %, ruslar 12 faiz, ukraynalılar 3,6 %, gürcülər 3,2 faiz, digər millətlərdən olanlar 1,7 faiz təşkil edirdi. Şəxsi heyətin 45 faizi təlim görməmişdi (5, f.1, siy. 26, iş 47, v.2-4). 1943-1944-cü illərdə 402-ci diviziyadan digər milli diviziyaların tərkibini tamamlamaq və möhkəmləndirmək, döyüşçü və komandirlər hazırlamaq üçün əsas ehtiyat baza kimi istifadə olunmuşdur. Diviziya 1943-cü ildə 2.200 nəfər, 1944 - cü ildə 1.500 nəfər yeni çağırışçını qəbul edərək döyüşə hazırlamışdır. (7, s.394-395)

Qırmızı bayraqlı və II dərəcəli **„**Suvorov" ordenli **416-cı diviziya** 1942-ci ilin mart-sentyabr aylarında yaradılmış milli diviziyadır. Müxtəlif vaxtlarda S.P.Starojilov, V.T.Maslov, T.A.Əliyarbəyov, D.M.Sızranov, H.M.Zeynalov, P.M.Ryabov, R.Ə.Məcidov və b. diviziyanın komandanları, qərargah rəisi və siyasi rəhbəri olmuşlar. Diviziyanın tərkibindəki döyüşçülərin 11.050 nəfəri azərbaycanlı, 291 nəfəri rus, 225 nəfəri erməni, 110 nəfəri gürcü, 99 nəfəri ukrain, 72 nəfəri tatar, 28 nəfəri yəhudi, 23 nəfəri belarus idi. 1942-ci ilin iyun ayında diviziya Qafqazda döyüşən 44-cü ordunun tərkibinə daxil edilmişdir (5, f.1.siy.177, iş 7, v.37). Diviziya döyüşə-döyüşə 17 tank, 297 ədəd müxtəlif tipli top, 189 minomyot, 325 pulemyot, 1.067 yüngül pulemyot, 12.135 ədəd tüfəng, 18.990 avtomat, 818 avtomaşın, 164.873 mərmi, 38 zirehli maşın, 540 vaqon, 240 paravoz və s. texnikanı hərbi qənimət kimi ələ kemişçirdi.

*1943-cü il avqustun 30-da Taqanroq şəhərinin azad edilməsində göstərdiyi əsgəri igidliyə görə „**Taqanroq**" diviziyası fəxri adı verilən* diviziya „Qırmızı Bayraq" ordeninə layiq görülmüşdür.

Müharibə dövründə alman-faşist işğalçılarına qarşı fədakarlıqla vuruşduqlarna görə diviziyanın 152 döyüşçü qadınından 45 nəfər „Qızıl Ulduz" ordeni, 42 nəfər „İgidliyə görə", „Döyüş xidmətlərinə görə" medalları ilə təltif olunmuş,17 qadın zabit rütbəsi almışdı. Reyxstaq divarlarına avtoqraf yazanlar sırasında *Böyükxanım Mircavadova və Rəhimə Aslan qızı Babayeva* da vardı. *Rəhimə Babayeva* „Döyüş xidmətlərinə görə" Qafqazın, Berlinin, Almaniyanın alınmasına görə medalları ilə təltif olunmuşdur. (3, s.165-170)

*Berlin əməliyyatında iştirak edən 416-cı diviziya 1945-ci il aprelin 20-də Klosserdorfu tutub Reyxstaq istiqamətində hücumu davam etdirmiş. 1945-ci il mayın 2-də diviziyanın bölmələri Brandenburq darvazasına qələbə bayrağı sancmışlar.*

416-cı diviziyanın döyüşçülərindən 8 nəfər Sovet İttifaqı Qəhrəmanı adı almış, 11 nəfər „Lenin", 358 nəfər „Qırmızı Əmək Bayrağı", 3 nəfər 2-ci dərəcəli „Kutuzov", 47 nəfər „Aleksandr Nevski", 540 nəfər 1-ci dərəcəli „Vətən müharibəsi", 1.756 nəfər 2-ci dərəcəli „Vətən müharibəsi" ordeni, 5.205 nəfər „Qızıl Ulduz" nişanı, 5.666 nəfər isə „İgidliyə görə" və „Hərbi xidmətlərinə görə" medalı ilə təltif olunmuşdur. Ümumiyyətlə, diviziyanın təşkil olunduğu gündən Qələbə gününədək 14.369 nəfər müxtəlif orden və medallarla təltif edilmişdi. (7, s.533;13, s.387)

**Azərbaycan SSR xalq təsərrüfatı cəbhənin xidmətində.** Müharibə başlanan kimi Azərbaycan SSR sənaye müəssisələrində işləyən fəhlələr orduya səfərbərliyə alındı.Müharibənin ilk günlərindən Bakıdan cəbhəyə neft məhsulları, silah, döyüş sursatı, hərbi ləvazimat və ərzaq daşınmağa, məşhur „Katyuşa" reaktiv mərmiləri hazırlanmağa başlandı. „Yak-3" qırıcı təyyarələri, tanklar və ağır silahlar istehsal olundu.

1941-1945-ci illərdə Bakıda 63 yeni neft və kimya sənayesi müəssisəsi tikilib işə salındı. 100 növ yeni kimya məhsulu, o cümlədən 36 növ sürtkü yağı, 26 növ yanacaq və partlayıcı vasitə, 9 növ müxtəlif markalı aviasiya benzini, 8 növ müxtəlif markalı dizel yanacağı istehsal edildi. 1942-ci ilin sonlarında Bakıda 130 növ silah, sursat, başqa hərbi ləvazimat, tibb preparatları və onlar üçün xammal, kalsium-xlorid, natrium-xlorid, yodlu kalium, ağ streptosid, cərrah ipək sapı, tənzif, pambıq, şpris istehsal olunurdu. (4)

1941-ci ilin sonunda Azərbaycanda 130 adda silah, sursat, hərb mərmi və əşya istehsal olunurdu. 1941-ci ilin noyabrın 8-nə kimi 35 min qutu yandırıcı butulka, 14 min patron ehtiyatı hazırlandı, istehsal gücü sutkada 10 min butulkaya çatdırıldı.

*Kimya sənayesi, xalq istehlakı malları istehsalı* hərbi şəraitə uyğunlaşdırıldı. *Yerli səna-*

*ye və sənaye kooperativlərinin işçiləri* hərbi-təsərrüfat məhsulları buraxılışına qoşuldular.

Bakıya yüklərin yeni dəstəsi 1941-ci il oktyabrın 1-də bağlanmış üçtərəfli sazişlə, habelə, ABŞ-ın „Lend-liz" kredit və icarə haqqında qanununun noyabrda SSRİ-yə şamil edilməsi ilə bağlı daxil olmağa başladı.

*Xəzər dəniz nəqliyyatı* Azərbaycan nəqliyyat sistemində əhəmiyyətli yer tuturdu. Xəzər dəniz nəqliyyatını iki idarə-quru yüku daşınması ilə məşğul olan Xəzər Gəmiçiliyi İdarəsi *(Kaspflot*) və Neft daşıyan Xəzər Neft Gəmiçiliyi İdarəsi (*Kasptanker)* təmsil edirdi. (36, s.20)

Azərbaycan xalqı faşizm üzərində qələbə naminə öz şəxsi vəsaitini əsirgəmədi. Əhalidən respublikanın müdafiə fonduna nağd şəkildə 31.756 min rubl köçürüldü ki, ondan da 16.456 min rublu Bakı zəhmətkeşləri tərəfindən ödənildi. 30.765 min rubl dəyərində dövlət istiqrazının 13.268 min rublu Bakı zəhmətkeşləri tərəfindən alındı. Müdafiə fonduna 14.872 qram qızıl, (ondan 5.152 qramını Bakı zəhmətkeşləri verdi), 985.943 qram gümüş (ondan 187.076 qramını Bakı zəhmətkeşləri verdi) və s. təhvil verildi. Respublika zəhmətkeşləri cəbhəyə 14 min yarımkürk, 66 min ədəd gödəkcə, 33 min cütdən yuxarı keçə ayaqqabı, 468 min cüt yun corab, 338 min cüt yun əlcək, 102 min ağ dəsti, 43 min qulaqlı və qulaqsız papaq (5, f.1, siy. 87, sax.vah. 69, v.1), ümumilikdə 1941-1943-cü illərdə Azərbaycan SSR-dən ordu döyüşçüləri üçün ümumi dəyəri 40 milyon rubl olan 350 min fərdi bağlama göndərildi. (5, siy.103, sax.vah.2, v.21,175)

Müharibə illərində Azərbaycan xalqı dövlətə milyard manatlarla borc verdi. 1942-ci ildə respublika əhalisi 251 milyon manat, 1943-cü ildə 371 milyon manat, 1944-cü ildə 534 milyon manat, 1945-ci ildə isə 480 milyon manatdan çox dövlət hərbi istiqrazlarına yazılmışdılar. 1941-1945-ci illərdə Azərbaycanda 273 milyon manatdan çox pul-şey lotereyası alınmışdır. (18,s.314)

**Bakı nefti ətrafında toqquşan maraqlar.** SSRİ tərkibində olmasına baxmayaraq, neftlə zəngin ölkə kimi Azərbaycan SSR müharibə edən ölkələrin planlarında xüsusi yer tuturdu. II Dünya müharibəsinin başlanması yanacağa olan ehtiyacı kəskin şəkildə artırdığından, bir sıra məqamlarda Bakı neftinə qələbəni müəyyən edən başlıca strateji amil kimi baxırdılar.

1941-ci ilin yazında Bakı neft mədənlərinin istismarının təşkil olunması məasədilə almanlar xüsusi idarə - „**Vestfalen qərargahı**" nı yaratdılar. 1941-ci il iyulun 16-da keçirilən yığıncaqda qeyd olundu ki, „Bakı vilayəti" "alman konsessiyası olmalıdır". „**Felmi"** planına uyğün olaraq Bakının ələ keçirməsi tarixi **25 sentyabr 1942-ci il müəyyənləşdirildi.** 1942-ci ildə faşist Almaniyasının Bakını ələ keçirtmək cəhdləri bu planların tərkib hissəsi idi.

Bakı nefti *Fransa və İngiltərənin* hərbi-strateji planlarında xüsusi yer tuturdu. Hitler Almaniyası Parisi ələ keçirən zaman - 1940-cı ilin iyun ayında kiçik *La Şarite* şəhər vağzalında alman yefreytoru Parisdən aparılan gizli fransız arxivini, o cümlədən ingilis - fransız danışıqlarının yazısını ələ keçirir. Fransız qərargahının gizli sənədlərindən məlum olur ki, Fransa və İngiltərənin planında Qafqazın və Bakının neft sənayesinin ələ keçirilməsi əsas yerlərdən birini tuturdu.

1941-1945-ci illərdə SSRİ-də 110,6 milyon ton neft çıxarıldı. Onun 75,2 milyon tonu, yaxud 68%-i Bakının payına düşdü. İkinci dünya müharibəsi dövründə (1939-1945-ci illər) SSRİ-də 172 milyon ton neft çıxarıldı ki, ondan 118,9 milyon tonunu, yaxud 69%-ni Bakı verdi.

**2019-cu il oktyabrın 11-də Aşqabadda, MDB dövlət başçılarının sammiti zamanı** Azərbaycan Pespublikasının Prezidenti **İlham Əliyev Azərbaycanın 1941-1945-ci illər müharibəsində Qələbəyə verdiyi töhfədən, Hitlerin Bakını almağa necə can danışarkən bildirib ki,** „Ən dağıdıcı və qanlı müharibənin cəbhələrində, habelə arxa cəbhədə bizim xalqlarımız qəhrəmanlıq və mərdlik göstəriblər, bu da sonrakı nəsillər üçün nümunədir. Azərbaycan faşizm üzərində qələbəyə layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğul və qızı Böyük Vətən müharibəsinin cəbhələrində döyüşüblər. Onların yarısı öz canlarını bizim ümumi qələbəmiz naminə qurban verib". Prezident çıxışında onu da xatırladıb ki, Azərbaycan o vaxt bütün ölkəni yanacaqla təmin edirdi. Cəbhənin ehtiyacları üçün zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. „Bunlarsız sovet ordusu düşmənə qalib gələ bilməzdi".

Azərbaycan Pespublikasının Prezidenti hərbi kinoxronikanın məşhur kadrlarını - Hitlerə tort gətirilməsini də xatırladıb. Tortun üstündə dənizi xatırladan çökək var, orada alman dilində„Xəzər dənizi" yazılıb. Həmin çökəkdə maye qara şokalad və „Bakı" adı var. Hitler qaşıqla şokaladı götürür və tortun üstünə tökür, sonra xaç şəklində şokaladı götürüb onu „Bakı" yazılan yerə sancır. „Bu da faşistlərin Azərbaycanın neft yataqlarını ələ keçirmək planını göstərir, habelə bildiyimiz kimi onların Şimali Qafqazın neft yataqlarını tutmaq planları da olub". Azərbaycan Pespublikasının Prezidenti İlham Əliyein görüş iştirakçılarının yaddaşını təzələyərək bildirib ki, əgər faşistlər Bakını ələ keçirsəydi sovet ordusu yanacaqsız qalardı. Bakı isə havaya uçardı. Çünki sovet hökuməti bu fövqəladə halda bütün neft yataqlarını minalaşmışdı ki, düşmənə qismət olmasın. Azərbaycan Pespublikasının Prezidenti vurğulayıb ki, Azərbaycanda müharibədə həlak olanlara heykəllər qoyurlar və müharibə veteranlarına böyük qayğı göstərilir.

**Elm, maarif, ədəbiyyat və incəsənət cəbhənin xidmətində.** Müharibə xalq maarifi və məktəblər qarşısında yeni vəzifələr qoydu. Məktəb şəbəkəsinin qorunub saxlanılması, müharibə şəraitində kənd yerlərində ibtidai icbari, şəhərlərdə 7 illik icbari təhsilinin həyata keçirilməsi və genişləndirilməsi qarşıda duran mühüm məsələlərdən idi. Əsas problemlərdən biri istehsalata könüllü gedən yuxarı sinif şagirdlərinin təhsilinin, cəbhəyə kömək uğrunda ümumxalq hərəkatında məktəblilərin və müəllimlərin iştirakının təşkili, valideyn himayəsindən məhrum olan, valideynlərini itirmiş uşaqların uşaq evlərində yerləşdirilməsi idi.

Müharibə respublikanın xalq maarifi orqanlarının işində bir sıra çətinliklər yaratdı. Bir sıra məktəb binalarının hospitalların və hərbi-tədris məntəqələrinin sərəncamına verilməsi nəticəsində çoxnövbəli məşğələlər təşkil olundu. Müharibə illərində pedaqoji kadrların hazırlanması davam etdirildi.

Müharibə illərində *rus dillinin tədrisinə* diqqət artırıldı. İstehsalatda işləyən gənclərin təhsili yaddan çıxmadı. Axşam kəndli-gənclər məktəblərinin şəbəkəsinin genişləndi. *Texniki peşə təhsili şəbəkəsi* müharibə illərində ixtisaslı kadr hazırlığı sahəsində səmərəli fəaliyyət göstərdi. Məktəblilərin *hərbi-vətənpərvərlik tərbiyəsi* sahəsində aparılan işlər diqqət mərkəzində saxlanıldı.

Faşizm üzərində qələbə təkcə döyüşən ordu deyil, həm də arxa cəbhənin əməkçilərinin fədakar əməyi sayəsində qazanıldı. Azərbaycan elmi öz işini müharibə şəraitinə uyğun qurdu. SSRİ EA Azərbaycan filialı, onun elmi-tədqiqat institutları, ali məktəblər, ümumiyyətlə respublikanın bütün elmi potensialı orduya xidmət məqsədlərinə tabe edildi.

Kimyaçı alimlərimizin (Y.Q.Məmmədəliyev, V.S.Qutırya, Ə.M.Quliyev, A.Kudinov və b.) (19, s.12-13) neft emalı sənayesinin yüksək ixtisaslı mütəxəssisləri (R.H.İsmayılova, M.A. Qorelik, V.S.Əliyev, A.A.Learkin və b.) ilə birgə əməkdaşlığı sayəsində alınmış və sənaye miqyasında istehsalına başlanmış yüksək oktanlı benzin, habelə sürtkü yağları növləri, M.F.Nağıyev, H.X.Əfəndiyev, İ.Ə.Orucova, Ş.A.Məmmədov, M.M.Mövsümzadənin kimya elmi və neft emalı prosesinin müxtəlif problemlərinə dair səmərəli tədqiqatları, geoloqlarımız (Ş.A.Əzizbəyov, M.Ə. Qaşqay, Ə.D.Sultanov) (19,s.16-17), fiziklərimiz (X.İ. Əmirxanov), riyaziyyatçılarımız (İ.Q.Yesman), bioloqlarımız (A.A.Qrossheym), kənd təsərrüfatı sahəsində çalışan alim və mütəxəssislərimiz (F.Ə.Məlikov, A.Ağabəyli, C.M. Hüseynov, İ.D. Mustafayev), həkimlərimiz (M.A. Topçubaşov, M.A.Mirqasımov, V.A.Tornoqradski, F.Ə. Əfəndiyev, İ.S.Kenzburq, C.İ.Abdullayev) və b. (13,s.20) kəşf, ixtira, təklif və üsulları ilə bilavasitə döyüşən orduya, onun müxtəlif təyinatlı tələblərinin yerinə yetirilməsinə, hərbi qaydada qurulan çox sahəli xalq təsərrüfatına - sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, rabitənin, səhiyyənin müharibə şəraitində fəaliyyətinə sanballı kömək göstərdilər.

Müharibə illərində fəal iştirakına, cəbhəni və xalq təsərrüfatının vacib məhsullarla təmin edilməsində fəaliyyətinə görə **Y.Məmmədəliyev, X.Qutırya „Lenin" ordeni ilə təltif olundular** (31, s.32; 21, s.32). Kimyaçı alimlərdən Y.Məmmədəliyev, X.Qutırya, M.Kardin, L.Solovyov, A.Markin Dövlət Mükafatına layiq görüldülər. Onlarla kimyaçı mühəndis və fəhlə orden və medallarla təltif olundu. **1945-ci ilin martında Azərbaycan SSR Elmlər Akademiyasının təsisi Azərbaycan elminin qələbəsi idi.**

1941-ci ildə respublikada 66 hərbi hospital yaradıldı. Naxçıvan, Şuşa, Nuxa, Hacıkənd, Mərdəkan və Buzovnada yerləşən sanatoriyalar, respublikadakı istirahət evləri hərbi hospitallara çevrildi. Hərbi hospitallar Azərbaycan Dövlət Universiteti, Elmlər Akademiyası, Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU), Şaumyan adına mədəniyyət evi, Konservatoriya (kəllə-beyin), Birinci poliklinikada yerləşirdi.

Müharibə illərində respublikada *donor hərəkatı* genişləndi. 1941-1945-ci illər ərzində yaralı döyüşçülər üçün cəbhəyə 41.609 litr qan göndərildi, 7.229 litr qanı əvəz edən preparatlar hazırlandı. Müharibə dövründə respublikanın 149.170 vətəndaşı donorçu oldu.

1942-ci ilin yanvarında tibb elmləri doktoru, professor Əziz Əliyevin sədrliyi ilə "*Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsi"* yaradıldı.

Müharibənin ilk günlərindən səfərbərliklə əlaqədar keçirilən mitinq və yığıncaqlarda alovlu nitqlərlə çıxış edən yazıçılar faşizmin mahiyyətini başa salır, onların törətdikləri vəhşilikləri göstərərək xalqı mübarizəyə çağırırdılar. Qafqaz uğrunda gedən gərgin döyüşlərdə – 1942-ci ilin payızında S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, H.Mehdi, Z.Xəlil, Məmməd Əkbər, Ə.Məmmədxanlı döyüşçülərlə birgə idilər. M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət cənub cəbhəsində-Sevastopol və Kerç müdafiəçilərinin yanında oldular.

Müharibə illərində bəstəkarlar və musiqi ifaçılarının adamları amansız mübarizəyə səsləyən və vətənpərvərlik mövzusunda yazılan əsərləri arxa və ön cəbhənin yaxın dostuna çevrildi. Ü.Hacıbəyovun Nizaminin sözlərinə yazdığı və qələbəyə həsr etdiyi „Sənsiz ", „Sevgili canan", Ə.Bədəlbəylinin B.Zeydmanla birgə yazdığı „Xalqın qəzəbi", Niyazinin „Xosrov və Şirin" operası, „Döyüşdə" simfonik əsərləri, S.Rüstəmovun „Cəbhə eşqi" əsəri, „Cəbhəyə", „İrəli", „Qəzəl", „Qəhrəmanlar marşı" mahnıları, Ağabacı Rzayevanın „Cəngi", „Vətən nəğməsi", „Dilbərim", „Gözlərin" mahnıları müharibə dövrünün əsərləridir.

Müharibə illərində Moskva konservatoriyasının tələbəsi olan Qara Qarayev və Cövdət Hacıyevin bəslədiyi „Vətən operası" (libretto müəllifi İ.Hidayətzadə) 1946-cı ildə Dövlət Mükafatına layiq görüldü.

Rəssamlarımız müharibə qəhrəmanlarının „portret qalareyası" nı yaratdılar. Bu qalareyanın eksponatları içərisində Kamal Qasımov, İsrafil Məmmədov, İdris Süleymanov, Hüseyn Əliyev, Məzahir Abbasov, Novruz Aslanov, Əjdər Maniyev kimi müharibə qəhrəmanlarının surətləri fəxri yerləri tuturdu. Müharibə illərində *rəssamlardan* F.Əbdürəhmanov, K.Kazımzadə, P.Topçubaşova və Ə.Hacıyev „Azərbaycan SSR əməkdar incəsənət xadimi" adına layiq görüldü, F.Əbdurəhmanov, N.Fətullayev, L.Kərimova ordenlərlə, 40-dan artıq rəssam medal və fəxri fərmanla təltif olundu.

Respublikamızın **kino işçiləri** tez-tez döyüş mövqelərində olur, əsgərlərin cəbhə həyatını lentə köçürürdülər. 1942-ci ildə Krım cəbhəsinə yola düşən Zaqafqaziya kino işçilərinin tərkibində Azərbaycandan kinooperatorlar V.Yeremeyev, M.Mustafayev, operator köməkçilərindən K.Həsənov və A.Ələkbərov və b. vardı.

Müharibə illərində yaradılmış kino-oçerklər içərisində A.Həsənovun „Vətən uğrunda", kinooperator M.Mustafayev və rejissor A.Quliyevin „Qayğı", rejissor İ.Əfəndiyevin və operator S.Bədəlovun „Məktuba cavab" lentləri, rejissor A.Dadaşov, operatorlar V.Yeremeyev və L.Koreskinin Stavropolun azad olunmasında Azərbaycan xalqının köməyindən bəhs edən „Qardaşlıq köməyi" kino-oçerki uğurlu yaradıcılıq işi idi.

Azərbaycan incəsənətinin mühüm sahələrindən olan *Azərbaycan teatrları* müharibə illərində səmərəli və məqsədyönlü fəaliyyət göstərdilər.

Müharibə illərində M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında Mirzəağa Əliyev, Mərziyə Davudova, Sidqi Ruhulla, Kazım Ziya, Ələsgər Ələkbərov, Fatma Qədri, Mustafa Mərdanov, Əli Qurbanov kimi təcrübəli və peşəkar sənət ustaları ilə yanaşı Hökumə Qurbanova, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Barat Şəkinskaya, Möhsün Sənani, Süleyman Tağızadə, Əjdər Sultanov, Leyla Bədirbəyli, Məcid Şamxalov kimi gənclərdən ibarət yaradıcılıq qüvvəsi çalışırdı.

**Nəticə.** II Dünya müharibəsi 1945-ci il sentyabrın 2-də başa çatdı. Müharibədə SSRİ

qalib oldu, nasist Hitler Almaniyası, faşist İtaliyası və onların müttəfiqləri məğlub oldular. Dünya iki qütbə-sosializm və kapitalizm cəbhələrinə ayrıldı. 1941-1945-ci illər müharibəsində SSRİ dövlətinə dəyən zərərin ümumi miqdarı 679 milyard rubla bərabər olmuşdur. 1700 şəhər, 72 min kənd və qəsəbə yer üzündən silinmişdir. Dağıntıya məruz qalan ərazilər - Rusiya Federasiyasının qərb əraziləri, Ukrayna, Belarusiya, Bnaltikyanı ölkələr, Moldovanın əraziləri idi. Bundan əlavə SSRİ-nin təsir dairəsinə düşən Şərqi Avropa ölkələrinin yenidən qurulması məsələsi Sovet İttifaqının hesabına həll edilməli idi. SSRİ Qarşılıqlı İqtisadi Yardım Şurasının üzvü kimi öz hərbi bazalarını bu ölkələrdə yerləşdirdi, həmin ölkələrin neftə, çuquna, dəmir filizinə, meşə materiallarına ehtiyacı türk respublikalarının hesabına ödənildi.

Cəbhədə göstərdikləri cəsurluğa görə 176 mindən çox Azərbaycan əsgəri orden və medallarla təltif olunmuş, 121 nəfər keçmiş SSRİ dövlətinin ən ali hərbi mükafatı olan Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, 30 əsgər "Şöhrət" ordeninin üç dərəcəsinin tam kavaleri olmuş, yüzlərlə soydaşımız Avropa dövlətlərinin orden və medallarını almışlar.

Ulu Tanrı Azərbaycana yeraltı və yerüstü sərvətlər, səfalı təbiət, soykökünə bağlı insanlar, torpaq uğrunda canını verməyə hazır gənc nəsil bəxş edib. Bir xalq məsəlində deyildiyi kimi, eyibsiz gözəl olmadığı kimi, Azərbaycanın da bəxti qonşu sarıdan gətirməyib. Əslində ermənilər bizim qonşumuz olmayıb, onlar kənardan gəlib, torpağın əsil sahiblərinin səxavətliliyindən istifadə edərək özlərinə yurd-yuva qurublar. Azərbaycan xalqının atalar misalı var: „Qonşun pisdir, köç canını qurtar". **Ancaq** qonşu nə qədər pis olursa olsun, Böyük Hun sərkərdəsi Metenin dediyi kimi, **torpaq xalqın mülkiyyətidir**. Ondan pay olmaz. Zaman gələcək erməniləri bu torpaqlara köçürənlər özləri əməllərindən peşiman olacaqlar. „Özgəyə quyu qazan, özü quyuya düşər" deyiblər.

Müasir Azərbaycan Respublikası bu gün sürətlə inkişaf edir. Bu inkişafa mane olan yeganə əngəl isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Azərbaycan xalqı müharibə istəmir. Çünki Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı 20 mindən artıq övladımız şəhid olmuş, 100 mindən artıq vətən oğlu yaralanmış və ya şikəst olmuşdur. Bir milyondan artıq soydaşımız doğma yurd-yuvalarndan didərgin salınmışdır. Münaqişənin sülh yolu ilə həllində ümummilli lider H. Əliyev tərəfindən atılan mühüm addım, ulu öndərin siyasi kursunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin münaqişənin sülh yolu ilə həll edilməsi sahəsindəki fəaliyyəti dünya ictimaiyyəti və xalqımız tərəfindən bəyənilir. Ancaq İlham Əliyevin dəfələrlə xatırlatdığı kimi, məsələ ancaq ölkəmizin ərazi bütövlüyü, süverenliyi əsasında həll edilə bilər. Yurd - yuvalarından didərgin salınmış soydaşlarımız yerlərinə qayıtmalı, ata-baba torpaqları- nın sahibi olmalıdırlar. Ona görə də, bu gün demokratiyadan dəm vuran Qərb dövlətləri ikili yanaşmaya son qoymalı, beynəlxalq hüquqa hörmət göstərməli, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüquq normaları çərçivəsində həll etməlidirlər.

**Ədəbiyyat siyahısı**

1.M.Abasov. Bütün müharibə boyu döyüş. Bakı, 1983.

2.Abdullayev S.Q. 1941-1945-ci illər müharibəsində Azərbaycanda hərbi-müdafə və hərbi təşkilatı iş. Tarix elm.nam….dis., Bakı, 2000, 181 s.

3.AMEA TİEA, „Cəbhədən məktublar", qovluq 9.

4.AMEA TİEA, f.1. siy.11, iş 5080, s.37.

5.Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi

6.ASE, II cild. Bakı, 1978.

7.ASE, III cild. Bakı, 1979.

8.ASE, V cild, Bakı,1981.

9.ASE, IX cild, Bakı,1986.

10.Brejnev L.İ. Kiçik torpaq (xatirələr). Bakı, 1978.

11.Brejnev L.İ. Sovet Azərbaycanının 50 illiyi. 1970-ci il oktyabrın 2-də Bakı şəhərində təntənəli iclasda nitqi. „Kommunist" qəz.1970, 3 oktyabr.

12.Əhmədiyyə Cəbrayılov https://az.wikipedia. org/wiki/%C6%8Fhm%C9%99diyy% C9 % 99_C% C9 % 99 bray%C4%B1lov

13.Əmrahov M.İ. İkinci Dünya müharibəsi. Bakı, 2010.

**14. „Vətən xaini"ndən Sovet İttifaqı Qəhrəmanınadək...**http: //tarix.info/ qehreman lar / 627-mehdi-h252seynzad601.html

15. „Kommunist" qəz., 1943, 23 fevral

16. „Kommunist" qəz., 1943, 31 oktyabr

17. „Kommunist" qəz.1970, 3 oktyabr

18.Mədətov Q.Ə.. Azərbaycan Böyük Vətən müharibəsi illərində . 1941-1945.Bakı,1965.

19.Yaqubov Ə.Ə. Azərbaycan alimləri Böyük Vətən müharibəsi illərində. Bakı,1942.

20.Алиева Р. Азербайджанцы в Европейском движении сопротивления. Баку, 2005.

21.Алексеев, Е.П. Советские ученые - фронту. Защита отечества. М., 1985.

22.Аннагиев А.А. Профессиональное образование рабочих в Азербайджане. М.,1960.

23.Бакинский рабочий, 1943 г.

24.Вторая Мировая война: Итоги и уроки. М.,1985.

25.Воспоминания Ахмедия Джебраилова. http://209.85.229.132/search?q= cache: Q4Ic1VNiy0oJ :press.az/news1_ru.php%3FId%3D91+воспоминания,

26.Ахмедия+Джебраилов &hl=ru&ct=clnk&cd=10 &gl=az; http://life.trend.az/

27.Гречко А.А. Битва за Кавказ. 2-изд. М., 1973.

28.Достижения Советского Азебайджана за 40 лет в цифрах. Стат. сб. Баку,1960.

29.Исмаилов Е. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 гг. Баку, 2003.

30.Кравченко Г.С. Военная экономика СССР в 1941-1945 гг. М., 1963.

31.Мамедалиев, Ю.Г. Библиография. Деятели науки и культуры Азербайджана. Баку, 1965.

32.На легендарном плацдарме. Ростов на Доне, 1980.

33.Народная хозяйства Азербайджанскй ССР к 60-летию образования СССР. Юбилейный статистический ежегодник. Баку, 1982.

34.Народное хозяйство Азербайджанской ССР. Статистический сборник. Баку,1957.

35.Транспорт и связь СССР. Стат. сб. М., 1967.

36.Эдлинский Э.Ф. Каспийский транспортный флот в Великой Отечественной войне Советского Союза 1941-1945 гг. М., 1963.

37.Чапай Султанов. История не любит сослагательного наклонения, и все же…Баку, 2011.

38. http://tarix.info/qehremanlar/627-mehdi-h252seynzad601.html

## Summary

**Mais Amrakhov**

### The role of the Azerbaijani people in the victory over fascism in the war of 1941-1945

The situation of Azerbaijan SSR in the eve of war was considered, facts on the key changes occurred in the production spheres, as well as in military industry, transport system in result of realization of III five-year plan and also affection of the sending of russian peasants confronting social tension and famine occurred in the eve of war for working in new industrial objects to several regions of the country, as well as Azerbaijan tot he socio-political and socio-economic life of the republic in the article.

It is mentioned in the article that, 87 battalions, 1123 self-defense groups, *77, 223, 402 and 416th, 242, 392, 394 and 414th fighter shooter and mountain-shooter nationals* were formed in the territory of Azerbaijan SSR in war years.

In war years, Azerbaijani combatants attended in 900-year defense of Brest fortress and Leningrad from german- fascist invaders, in the battles for Moscow, under Stalingrad, in partisan troops

and resistance movement in Europe. The role oft he national economy of Azerbaijan SSR in providing of the battle-front with necessary products, especially with oil and oil products, the contribution of the scientists, enlightenment, literature and artistic figures to the victory were explained in this article by facts. It is indicated in the end part of article that, *in the struggle against fascism, 121 Azerbaijan SSR citizens (43 of them are Azerbaijani) were conferred to the name of the Hero of Soviet Union, and Hazi Aslanov was conferred to this name for twice (1942 and 1991), 30 persons (15 of them are Azerbaijani) became a cavalier of three degrees of the Order of Glory (Shohrat).*

***Keywords:*** *Fascism, Second World War, mobilization, national divisions, combat operations, the aid of rear front, Great victory*

## Резюме

**Маис Амрахов**

## Роль азербайджанского народа в победе над фашизмом в войне 1941-1945-х годов

В статье особое внимание обращается той ситуации, что существовала накануне войны в Азербайджанской ССР, в том числе, фактами указаны основательные изменения, происходящие в производственной сфере, в том числе, военной промышленности, в транспортной системе в результате осуществления плана III пятилетия, социальное напряжение, возникшее накануне войны и воздействие на общественно – политическую и социально – экономическую жизнь республики отправление русских крестьян, страдающих от голода  в ряда районы страны, в том числе, в Азербайджан для подрабатывания в новейших промышленных объектах.

В статье отмечается, что в годы войны на территории Азербайджанской ССР сформированы 87 батальонов, 1123 отряды самообороны, *77, 223, 402 и 416, 242, 392, 394 и 414 истребительные стрелковые и горные – стрелковые национальные отряды*.

В годы войны бойцы – азербайджанцы поучаствовали 900 дневной обороне Брестской и Ленинградской крепости от нападения немецко – фашистских оккупантов, в битвах за Москву и под Сталинградом, в партизанских отрядах и в отрядах сопротивления, что воевали в Европе. Фактами раскрыты роль народного хозяйства Азербайджанской ССР в снабжении фронта необходимыми продуктами, в особенности нефтью и нефтепродуктами,  вклад в победу научных деятелей, деятелей просвещения, литературы и искусства. В конце статьи указано, что в борьбе против фашизма 121 гражданина Азербайджанской ССР  (из них 43 граждане азербайджанцы) удостоены звания Героя Советского Союза, к примеру Ази Асланов дважды удостоен этого звания (1942 и 1991), 30 из них (из них 15 азербайджанцы) стали кавалерами „Славы” третьей степени.

***Ключевые слова***: *фашизм, Вторая Мировая Война, мобилизация, национальные дивизии, военные операции, помощь тыла, Великая победа*

**UOT 94 (479.24)**

**SELCAN MƏMMƏDZADƏ**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı, Azərbaycan*
*azerbaycan.selcan@mail.ru*

# MANNA DÖVLƏTİNİN İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ, ŞƏHƏRLƏRİ VƏ QALALARI

***Açar sözlər***: *Manna dövləti, mixi yazılar, qədim şəhərlər, qədim qalalar, hərbi-siyasi tarix.*

Manna Azərbaycanın tarixi cənub torpaqlarında lullubi, quti və turukku kimi qədim etnoslarımızın yayıldıqları əraziləri xarici müdaxilədən qorumaq məqsədilə kondolidasiyasından yaranan ilk sülalə sistemli dövlət olmuşdur. Sələfi olan əvvəlki tayfa birliklərindən fərqli olaraq Manna yetkin dövlət kimi daimi paytaxta, stabil idarəçilik sisteminə, ərazi-inzibati bölgüsünə, vahid mərkəzdən idarə olunan təsərrüfat infrastrukturuna malik idi. Ilk mənbələrin təhlili göstərir ki, əvvəllər kiçik əraziyə malik olan Manna bir əsr ərzində qonşuluqdakı zəif tayfa birliklərinin və yenicə siyasi səhnəyə atılan müstəqil icmaların torpaqlarının işğalı hesabına xeyli genişlənmiş, Aşşur və Urartu kimi regionun aparıcı güc mərkəzləri ilə mübarizədə uzun müddət öz suverenliyini və identikliyini qoruyub saxlaya bilmişdir.

"Manna" etno-coğrafi termini e.ə. 843-610-cu illər ərzində Akkad (Aşşur və Babil dialektləri) və biayni (Urartu) dillərində tərtib olunmuş kitabələrdə Urmiya gölü hövzəsinə (Cənubi Azərbaycan) edilən hərbi yürüşlərlə əlaqədar xatırlanır. Bu etno-coğrafi terminin bütün orfoqragik variantları (**Munna**, **Mannāi**, **Manāi**, **Mannaš**) Aşşur hökmdarı III Salmanasarın (e.ə. 859-824) salnamələrində qeydə alınıb[1]. Biayni orfoqrafiyasında samit səsin təkrarına (reduplikasiya) yol verilmədiyindən Urartu hökmdarlarının mətnlərində bu ölkə **Manani ebani** ("Mana ölkəsi") adı ilə təqdim olunur.




**Şəkil 1.** Manna və yaxın qonşuları (e.ə. IX-VII əsrlər).

Mannanın coğrafi mövqeyi və inzibati-ərazi bölgü sistemi Aşşur hökmdarlarının hərbi xronikalarından məlumdur.[2] Bu mənbələrdə xatırlandığı vaxtlardan Manna konfederativ əsaslardan yaranmış dövlət təsiri bağışlayır. Çünki onun bəzi inzibati subyektləri dövlətin tərkibinə e.ə. 735-715-ci illərdə qatılmışdır. Manna mərkəzi hakimiyyətinin idarəçiliyini normal qaydada təmin etmək üçün ölkənin ərazisi inzibati ərazi bölgü sistemi üzrə qruplaşdırılaraq vilayətlərə bölünmüşdür. Qərbdən şərqə doğru uzanan ərazilərdə Surikaş, Subi (və ya Sumbi, Sunbi), Missi (və ya Mesu, Meişta), Bit-Kapsi, Kumurda[3], Ziqirtu, Uişdiş (və ya İşdiş, Urartu kitabələrində Uqiştini), Andiya və digər vilayətlər yaradılmışdır. Bəzi vilayətlərin (məsələn Dayukkunun canişin olduğu vilayət) adları məlum deyil (bax: şəkil 1).

Şimaldakı Uişdiş vilayəti Urartu ilə sərhəddə bufer bölgədə yerləşdiyindən [23, p.93] gah Mannanın, gah da Urartu dövlətinin tərkibinə qatılırdı. Mannada vətəndaş müharibəsinin ilk illərində I Rusa Uişdiş vilayətini zəbt edərək Urartuya birləşdirmişdir [4, s. 70]. Təbriz-Mianə xətti boyunca keçən həmin bufer zonada qırmızı anqoblu Urartu keramikası aşkar olunmadığından bu yerlərin tarixən Manna tayfa ittifaqı ilə bağlı olduğunu söyləmək olar.

Ehtimal olunur ki, şimalda Manna ilə Urartunun təmas xətti indiki İranın Qaradağ (və ya Arazbaran) mahalından keçirdi. Sekendeldən (Əhərdən 34 km qərbdə) tapılan kitabə urartuluların bu yerlərə (burada Puluadi şahlığı yerləşidi) hərbi müdaxilə nəticəsində sahibləndiyini göstərir. Lakin Puluadinin məhz Mannadan qoparıldığını təsdiq edəcək fakt yoxdur.

Mannanın şərq hüdudları Qızılüzən və Zəncan çaylarınadək uzanırdı. Mannanın şimal-şərq istiqamətində ən kənar vilayəti Andiya idi. V Şamşi-Adadın bir mətnində bu vilayətin "Gündoğan dənizin" (=Xəzər) sahillərinə qədər uzandığı bildirilir. Andiyanın şimal hüdudlarının Ərdəbilədək uzandığını ehtimal etmək olar. Andiyadan qərbdə, Təbriz-Mianə-Ərdəbil üçbucağı rayonunda inzibati mərkəzə Parda olan Ziqirtu vilayəti yerləşirdi. Bu vilayət ilk dəfə III Tiqlatpalasarın salnaməsində Mada tayfa birliyinin yayıldığı ərazilərə hərbi yürüşlə əlaqədar xatırlanır. Bu yürüşün e.ə. 744 və ya e.ə. 737-ci illərdə baş verdiyi bildirilir. III Tiqlatpalasarın salnaməsində yürüşün son hədəfi kimi Zakruti (vilayətin adının ilkin forması) "qüdrətli madalıların ölkəsi" kimi təqdim olunur [7, c.204, прим.4; 6, c.250]. Ziqirtudakı şəhər və qalaların adlarının təhlili buruda irandilli madalıların kifayət qədər yayıldığını təsdiq edir.[4] E.ə. 719-cu ildə bu vilayətin Mannanın tərkibində olduğu faktı ilə qarşılaşırıq. Deməli, vilayətin Mannaya qatılması III Tiqlatpalasarla İranzu arasındakı müttəfiqlik sövdələşməsinin nəticəsində mümkün olmuşdur. Ehtimal etmək olar ki, Ziqirtu canişini Mitattinin Manna mərkəzi hakimiyyətinə asi olasına səbəb hakimiyyətində olan vilayətin əvvəlki müstəqilliyini bərpa etmək istəyi olmuşdur.

E.ə. yüzilliyin sonunda I Daranın (e.ə. 522-486) əmri ilə Mada satraplığının ərazilərində qısa müddətə "Asaqarta" adlı inzibati vahidlik yaradılmışdır. Bizanslı Stefan məhz bu satraplığı "Saqartiya" adlandırır və Kaspi dənizinin sahilində lokalizə edirdi. Buradan belə nəticəyə gəlmək olar ki, I Daranın zamanında yaradılan Asaqartanın (Aşşur mətnlərində Ziqirtu) tərkibinə Andiyanın torpaqları da qatıldığından bu satraplığın hüdudları şərqdə Xəzərədək genişlənmişdi. Məhz Ziqirtunun torpaqlarında Hellin dövründə Atropatena dövləti yaranmış və təşəkkül tapmışdır [13, c.130-142; 2, s.14-17].

Şimal-şərqdə yerləşən Uişdiş vilayətinin sərhədləri Zimur dağından Uauş dağınadək, cənubdan şimala doğru 6 beru (təqribən 60 km) uzanaraq indiki Mianduabla Səhənd arasındakı bölgəni əhatə edirdi [4, s.73; 5, c.248].

Manna şərqdə Mada tayfa ittifaqının mühüm subyektlərindən olan Qizilbunda (və ya Qizilbuda) və qutilərin sonuncu müstəqil siyasi birliyi olan Abdadana ilə sərhədlənirdi. Missi (Aşşur orfoqrafiyasında "Mesu") və Bit-kapsi [4, s.70][5] vilayətləri cənubda Mannanın Aşşur əyalət sisteminə qatılmış Karalla (və ya Lullume) və Parsua ilə sərhəd zolağını təşkil edirdi. III Salmanasarın və III Adadnerarinin yazılarında Missi Mannadan ayrıca, müstəqil siyasi qurum kimi qeydə alındığı halda, II Sarqonun kitabələrində Mannanın inzibati subyekti kimi göstərilir. Ehtimal etmək olar ki, Missinin vilayət statusunda Mannanın tərkibinə qatılmasında da III Tiqlatpalasarla İranzu arasında yaranmış müttəfiqlik həlledici amil olmuşdur.

Şimal-qərbdə Mannanın Urartu ilə sərhəddi Həsənli-Mehabad xətti boyu keçirdi.[6] Bu rayonda, Tatay çayından şərqdə Urartu mənşəli keramika qeydə alınmadığından ehtimal etmək olar ki, bu çay Manna ilə Urartu arasında təbii sərhəd olmuşdur. Surikaş və Sumbi vilayətləri indiki Sərdəştlə Rəvandüz arasında yerləşərək Urartu ilə sərhəd zolağının mühüm komponentini təşkil edirdilər. Aşşur hökmdarı V Şamşi-Adadın e.ə. 820-ci ildə ayrı-ayrılıqda həm Sumbinin sakinlərindən, həm də mannalılardan xərac alması onların fərqli siyasi qurumlar kimi mövcud olduğunu göstərir [4, s.34]. Kullar dağından (indiki Kollaradağ) şərqdə yerləşən Sumbinin Mannaya birləşdirilməsi Aşşur-Urartu yürüşlərinin səngidiyi vaxtlarda, e.ə. 750-740-cı illərdə baş verə bilərdi.

Manna qərbdə lullubilərin sıx məskunlaşdığı Zamua (e.ə. 880-ci ildən Aşşur dövlətinin əyalət sisteminə qatılmışdır), Allabriya və Karalla ilə sərhədlənirdi.

Bütün deyilənlərdən məlum olur ki, Manna dövləti təkcə Cənubi Azərbaycanın deyil, eyni zamanda İran Kürdüstanının çox hissəsini, xüsusilə bu ostanın mərkəzi və şərq hissələrini əhatə edirdi. Bu bölgə təbii şəraitinin və relyefinin müxtəlifliyi və zənginliyi ilə seçilir. Aşşur kitabələrində Mannanın qərb hissəsində çətin keçilən dağlar və aşırımlar (Aziru, Bidirqi, Elaniu, Etini, Kinipa, Lara, Nispi, Nisir, Simirriya, Sinahulzi, Turtani, Sinabir, Ahşuru, Sabu, Simaki, Su) və bolsulu çaylar (Edir, Lallu, Radanu, Rappa, Aratta, Buya) haqqında məlumat verilir. II Sarqonun “Tanrı Aşşura məktub”unda Urmiya gölündən şərqdə Mallau, Uauş, Zimur, Kispal dağlarının yerləşdiyindən xəbər verilir.

Manna dövləti ali hökmdar (Aşşur mətnlərində: **šarru)** tərəfindən idarə olunurdu və hakimiyyət irsi olaraq atadan oğula keçirdi. Vilayətlər hökmdarın təyin etdiyi canişinlər (Aşşur mətnlərində: **šaknu** < şumercə **šagan** “başçı” < **sag** “baş” sözündəndir), şəhərlər və digər yaşayış məskənləri isə rəhbər şəxslər (Aşşur mətnlərində: **bēl ālu**, **hazannu**; adətən **LÚ.EN.URU.** və ya **LÚ.EN.NAM.** şumeroqramları ilə yazılırdı) tərəfindən idarə olunurdu, Vilayətlərdə hakimiyyətin irsi yolla keçməsini təsdiq edən faktlar olmadığından canişinlərin Manna şahı tərəfindən təyin olunduğunu söyləmək olar. Bəzi hallarda vilayət başçıları mərkəzi hakimiyyətə tabe olmaqdan boyun qaçırır və müstəqil fəaliyyət göstərməyə çalışırdılar. Dövlət idarəçiliyində ağsaqqallar şurası, əyanlar, məmurlar da iştirak edirdilər.

Dövlət idarəçilik strukturlarının formalaşması Manna cəmiyyətində, xüsusilə şəhərlərin ictimai həyatında köklü dəyişikliklərə yol açdı. Əvvəllər dağınıq halda fəaliyyət göstərən yaşayış məntəqələrini ayrı-ayrı vilayətlərdə qruplaşdırmaqla onların vahid mərkəzdən idarə olunması təmin olundu. Yazılı mənbələrdə Manna vilayətlər, şəhərlər, qalalar və xırda yaşayış məskənləri ilə zəngin ölkə kimi göstərilir.[7] Mannalılar çox erkən Aşşur dövlətinin siyasi təsirinə məruz qalsalar da şəhərsalmada və urbanizasiya infrasrukturunun yaradılmasında tamamilə fərqli model seçdilər. Manna relyef baxımından kontrastlı, etnik cəhətdən rəngarəng ölkə olduğundan ilkin mərhələdə yaşayış məntəqələri landşafta və əhalinin dil mənsubiyyətinə görə yaranırdı. Lakin mərkəzləşmiş sosial təsisatlar, təsərrüfat strukturu və özünümüdafiə instinkti şəhərsalmanı şərtləndirən etnik amilin rolunu tədricən heçə endirirdi.

Funksional baxımdan yaşayış məntəqələrinin üç tipi mövcud idi. Əhalinin xeyli hissəsi vilayət mərkəzlərinin ətrafındakı kiçik yaşayış məntəqələrində (Akkaddilli mətnlərdə: **ālani şehruti ša limētişunu** “ətrafdakı kiçik məskənlər”) məskunlaşır, hərbi əməliyyatlar zamanı isə “güclü şəhərlərə”, yəni qalalara (Akkaddilli mətnlərdə: **ālāni dannuti** “güclü şəhər” və ya daha əhatəli formada **ālāni dannuti bit dūrāni** “qalası olan güclü şəhər”) sığınırdı. Urartu hökmdarlarının kitabələrində Mannanın “qalaları olan saraylarının” (**E.GAL.MEŠ. agununili manu)** işğalından bəhs olunur. Aşşur sarayının divarlarını bəzəyən barelyeflər və II Sarqonun “Tanrı Aşşura məktub”unda yazılanlar bürcləri (akkadca: **dimtu**) olan Manna qalalarının (akkadca: **birutu**) zahirən daha çox Urartu qalalarına bənzədiyini təsdiq edir; onlar adətən təbii yüksəkliklərdə (düzən ərazilərdə süni təpələrdə) iri ölçülü dördkünc formalı daş bloklarla inşa edilirdi. Urartuya yürüşü zamanı Mannanın vilayətlərindən keçməli olan II Sarqon dövlət ambarlarında bol arpa və buğda ehtiyatının olduğundan xəbər verir. Aşşur və Urartu şahlarının salnamələrində Mannanın 50-dən artıq yaşayış məskəninin adı xatırlanır:

1.Abitikna, 2.Aburza, 3.Azakanani (və ya Ayakanani), 4.Ayusiaş, 5.Anaştania, 6.Arsita (Aşşur mətnlərində Harşita[8]), 7.Armaid (və ya Urmeyate), 8.Arsianiş, 9.Artarmu, 10.Arhu, 11.Atrana (və ya Terana), 12.Aşdiaş, 13.Aukane, 14.Bala, 15.Barunaka, 16.Birua, 17.Buku, 18.Busutu, 19.Erişteyana, 20.Qimdakrikka, 21.Qituhani, 22.Qurrusupa, 23.Darbani, 24.Dukama, 25.Durdukka (və ya Sirdiakka, Surzukka), 26.İştaippa, 27.İzirtu (və ya İzerte, Zirtu), 28.Kabani, 29.Kadikaniuni, 30.Kitirata, 31.Nanzu, 32.Naziniri, 33.Paddira, 34.Panziş, 35.Parda, 36.Paşa[...]su (və ya Paşşatu), 37.Raksi, 38.Saktatuş, 39.Sinihini, 40.Sihua, 41. Simerihadiri, 42.Sitera (və ya Şituariya), 43.Sukku (və ya Sukkia), 44.Şarruikbi, 45.Şuandahul, 46.Taştami, 47.Tesammi, 48.Ubabara, 49.Uppiş, 50.Urkiyamun, 51.Uşkaya[9], 52.Zibia (və ya İzibia, Uzbia) və s.[10]

Bu məntəqələrin əksəriyyəti yalnız bir dəfə xatırlandıqlarından Mannanın şəhər infrastrukturu haqqında dolğun məlumat toplamaq olmur. Bütün yaşayış məntəqələri yazılı mənbələrdə xarici müdaxilə ilə əlaqədar, ya birbaşa hərbi əməliyyatlarlarla, ya da hərbi yürüşün marşrutu üzərində yerləşdikləri səbəbindən xatırlanırlar. Bu baxımdan Manna şəhərlərinin öyrənilməsini tarixi konteksdən ayırmadan, hərbi yürüşlərin marşrutu nəzərə alınmaqla vacib hesab edirik.

Manna torpaqlarına ilk birbaşa hərbi müdaxilə e.ə. 829-cu il təsadüf edir; həmin yürüş zamanı Aşşur qoşunları Dayan-Aşşurun komandanlığı ilə Mannanın ərazilərinə soxularaq qarət məqsədli əməliyyatlar aparmışlar. Bu hərbi kampaniyadan xəbər verən kitabələrdə yalnız bir şəhər, Manna çarı Ualkının (və ya Udaki) iqamətgahının yerləşdiyi paytaxt Zirtu xatırlanır. O zaman paytaxtı dağıntıdan xilas etmək üçün mannalılar şəhəri tərk edib dağlara çəkilmişlər. Buna baxmayaraq, Aşşur əsgərləri xeyli qənimət ələ keçirib, şəhəri yandırmışlar [7, c. 160-163; 16, texts A.O.102.2, A.O.102.6, A.O.102.14, A.O.102.16, A.O.102.28; 3, s. 28-29].

A. *Paytaxt və vilayətlərin inzibati mərkəzləri.*

1. Zirtu (və ya *İzirtu, İzerte*) Mannanın ən böyük şəhəri idi və ilk dəfə e.ə. 1130-cu ildə Elam hökmdarı Şilhak-İnşuşinakın Urmiya gölündən cənubda yerləşən ərazilərə yürüşünü əks etdirən “Qələbə kitabəsi”ndə “İşirtu” formasında xatırlanır.[11] Manna dövlətinin özündən qədim olan bu şəhər yazılı mənbələrdə təxminən 480 il (e.ə. 1130-650-ci illər) qeyd olunsa da, yerləşdiyi məkan dəqiq müəyyənləşməyib.[12] İki dəfə (e.ə. 716 və 660-cı illərdə) dağıdıldığına və yandırıldığına baxmayaraq, İzirtu təxminən 250 il ərzində Mannanın “şah şəhəri” (Akkaddilli mətnlərdə: **ālu šarruti**; bu ifadə vilayət başçılarının iqamətgahının yerləşdiyi şəhərlərə də şamil olunurdu)[13] kimi paytaxt statusunu saxlamışdır. Maraqlıdır ki, hər iki halda Aşşur qoşunları eyni marşrut və eyni taktika seçərək, İzirtunu viran qoyduqdan sonra Zibiya (və ya Uzbiya) və Armait (və ya Urmeyate) şəhərlərinə yönəlmişlər [4, s.37, 101]. Aşşur hökmdarı Aşşurbanapalın (e.ə. 668-635/627) “B silindri” adı ilə tanınan kitabəsinin məzmunundan görünür ki, bu 3 şəhər eyni inzibati vahidlikdə yerləşirdi və bu şəhərlər 15 gündə viran qoyulmuşdur [1, s.66-68; 4, s.101].

Paytaxtı dağıntıdan qorumaq üçün Manna şahlarının seçdiyi taktika (şəhəri döyüş meydanına çevirmədən tərk etmək və düşmənin qüvvəsini öz üzərinə çəkməklə paytaxtdan uzaqlaşdırmaq) heç bir halda uğurlu olmamışdır. Paytaxtı tərk etdikdən sonra Manna şahları hərbi əməliyyatlara başqa şəhərdən rəhbərlik edirdilər. Məsələn, Aşşurbanapalın e.ə. 660-ci il yürüşündə Manna şahı Ahşeri iqamətgahını İştattu qalasına köçürmüşdür [4, s.100]. Görünür bu qala-şəhər onun ata-baba ocağı olduğundan orada özünü daha təhlükəsiz hiss edirdi.

Mənbələrdə İzirtunun hansı inzibati vahidliyin ərazisində olduğu göstərilmir. II Sarqonun “Tanrı Aşşura məktub”unda (köhnə tarixi ədəbiyyatda “Luvr kitabəsi” adı ilə göstərilir) bildirilir ki, Urartunun sakinləri, yəni biaynililər Mannanın coğrafi baxımdan ən yaxın vilayətini Subi adlandırırdılar [4, s.74]. Ola bilsin ki, Urartu kitabələrində, bəzi hallarda, Mannaya yürüş adı altında, əslində, Subi vilayətində keçirilən hərbi əməliyyatlar nəzərdə tutulurdu.

Maraqlıdır ki, urartululara “İzirtu” adında şəhər məlum deyildi, onlar Mannanın “şah şəhərini” “Şimerihadiri” adlandırırdılar. Şəhər bu adla yalnız bir kitabədə, I Arqiştinin e.ə. 768-ci ildə hərbi yürüşünü tərənnüm edən Xorxor kitabəsinin beşinci sütununda xatırlanır [12, №127; 4, s.114]. Şimerihadiri onun kitabələruində xa-

tırlanan yeganə şəhər olduğundan onu İzirtu ilə eyniləşdirmək olar. Ola bilsin ki, urartulular İzirtu şəhərini "Şimerihadiri" adlandırırdılar. Bununla belə, Mannanın o dövrdə iki paytaxtı olduğu ehtimalını da inkar etmək olmaz, yəni İzirtu siyasi mərkəz funksiyasını daşıdığı halda, Şimerihadiri dini-ideoloji mərkəz rolunu icra edə bilərdi. Müqayisə üçün deyək ki, həmin dövrdə Urartuda iki mərkəz fəaliyyət göstəridi: Tuşpa dövlətin siyasi, Musasir isə dini-ideoloji mərkəzi idi.

*2.* Sirdiakka. Aşşurlular e.ə. 807, 806, 800-cü illərdə Mannaya yürüş etsələr də, mətnlərdə yaşayış məntəqələri haqqında məlumat verilmir. E.ə. IX əsrin sonlarında Aşşur dövləti siyasi və iqtisadi tənəzzül keçirdiyindən Urartunun işğalçılıq planları üçün yeni imkanlar açılır. Urartu hökmdarı İşpuini (e.ə. 824-810) 10 min suvari, 22 min piyada və 106 cəng arabasından ibarət güclü ordusu ilə Meişta (Aşşur mətnlərində Misi/Missi/Mesu) "şəhərinə" hərbi yürüş etmişdir. Onun oğlu Menuanın zamanında (e.ə. 810-781) Manna torpaqları hesabına Urartunun genişlənməsi istiqamətində fəaliyyət daha da genişlənir. Miandoab yaxınlığında həkk olunmuş Daştəpə qayaüstü kitabəsində deyilir ki, Menua burada qala tikdirir, Meiştanın və bütövlükdə Mannanın işğalı zamanı ondan dayaq məntəqəsi kimi istifadə edir [12, № 29; 4, s.109]. Bu kitabəyə əsasən Meiştanı indiki Daştəpənin yerində lokalizə edirlər [10, c.58, 62].

Urartuluların vadidə olması Uşnudan 15 km şərqdə salınmış Qalatgah dairəvi təpəliyində yaxşı yonulmuş daşlardan tikilmiş istehkam divarının xarabalıqları arasında Urartu kitabəsinin tapılması ilə təsdiqlənir [4, s.108].

E.ə. 714-cü ildə Mannada vətəndaş müharibəsinin 3-cü mərhələsini aradan qaldırmaq məqsəqilə Aşşur hökmdarı II Sarqon Manna ilə müttəfiqlik əhdinə sadiq qalaraq Mannaya qoşun yeridir. Yürüşün məramını bilən Manna şahı Ullusunu Parsua əyalətini tərk edib Missi vilayətinə daxil olan xilaskarı II Sarqonu Sirdiakka qalasında oğlu (ehtimal ki, Missi vilayətinin canişini idi) ilə birlikdə qiymətli hədiyyələrlə qarşılayır; bu onun Aşşur şahı ilə ikinci görüşü idi. Qala-şəhərin un və çaxır ambarları, qoşqu atları və mal-qarası proviant kimki Aşşur ordusunun ixtiyarına verilir. Qarşılanma törəninin Sirdiakkada baş verməsi, eləcə də protokol qaydasına uyğun olaraq II Sarqonun Ullusunuya və onu müşayiət edən əyanlara ziyafət verməsi, ən əsası, II Sarqonun əmri ilə Manna şahına burada uca taxtın qurulması bu qala-şəhərin Missi əyalətinin inzibati mərkəzi olduğuna əminlik yaradır [4, s.68-69; 23, p.94].

3. Parda. E.ə. 714-cü ildə Mannada vətəndaş müharibəsinin əsas səbəbkarlarından olan Mitattini cəzalandırmaq üçün II Sarqon Sirdiakkanı tərk edib Bit-kapsidən və "madalılar ölkəsindən" keçməklə Ziqirtu vilayətinə daxil olmuşdur. Bu şəhər İbn Xordadbehin əsərində Marağadan 15 fərsəx (təqribən 90 km) məsafədə yerləşdiyi bildirilən orta əsr Barza şəhəri ilə eyniləşdirilə bilər [2, s.15].

Herodotun məlumatına görə saqartiyalılar (Ziqirtunun sakinləri) utilərlə birlikdə Əhəməni imperiyasının XIV satraplığına daxil idilər. Vaxtı ilə G.Melikişvili diqqətəlayiq belə bir fikir söyləmişdir ki, utilər Araz çayından şimaldakı torpaqlara köçdükdən sonra əvvəllər yaşadıqları Zigirtu vilayətinin inzibati mərkəzinin adını Tərtər çayı sahilində saldıqları yeni şəhərə (indiki Bərdəyə) vermişlər [11, c.5].

4. Sinihini. E.ə. 714-cü ildə II Sarqon Surikaş vilayətində olarkən Ullusunu əyanları ilə bigə xəracla (qoşqu atları və ləvazimatı, qaramal, davar) İzirtudan çıxıb "sərhəddə yerləşən" Sinihini qalasına onun görüşünə gəlmişdir. Sinihininin Allabriya çarlığı, yoxsa İzirtunun yerləşdiyi vilayətlə (Sumbi ?) sərhəddə yerləşdiyi mətndən aydın olmur [4, s.68]. Allabriya çarlığı Manna ilə Parsua arasında bufer zona idi [23, p.95]. Sinihini şəhərini bəlkə də indiki Simah kəndinin (Banehdən 10 km şimal-şərqdə) yerində lokalizə etmək lazımdır. Faktlar Sinihini[14] qala-şəhərinin Surikaş vilayətinin inzibati mərkəzi olduğuna işarədir.

5. Uşkaya qala-şəhəri Mannanın "Zaranda" adlı şimal-şərq vilayətinin inzibati mərkəzi idi. Bu qala-şəhər Mannanı Urartunun şərq vilayətlərinə bağlayan yeganə keçidə girişi təmin edirdi və Zaranda vilayətinin 115 məntəqəsinin mühafizəsini təmin etmək məqsədilə tikilmişdir [4, s.74].[15] II Sarqonun "Tanrı Aşşura məktub"unda Uşkaya qalasının Zaranda vilayətinə gedən aşırımda qaya üzərində tikildiyi, "bağlı qapı kimi gedib-gələnlərin qabağını kəsdiyi" bildirilir. Mənbədə Uşkayanın istehkam divarının qalınlığının "8 qulac" (təqribən 7,5 m) olduğu, üst

hissəsinin dişvari formada hörüldüyü və müdafiə səddinin içində müxtəlif təyinatlı binaların olduğu bildirilir [4, s.75].

6. Harsaya. Aşşur sarayına ünvanlanmış xəfiyyə məktublarının birində xərac kimi toplanan atların hesabatı aparılır. Məktubda xəracın çatdırılmasına məsul şəxs kimi Andiya şahzadəsinin və toponimikadan yalnız Harşayanın xatırlanması məhz bu şəhərin Andiya vilayətinin mərkəzi olduğuna inam yaradır.[16]

B. *Qala-şəhərlər.*

Manna qalalar və istehkam səddlərinin zəngin olduğu ölkə idi. Qalalar təpəli yerlərdə ucaldılır və ətrafına iri daş bloklardan və ya çiy kərpicdən istehkam divarı hörülürdü. II Sarqonun "Tanrı Aşşura məktub"unda urartuluların Sanqibutu vilayətində (qədim Qilzan), Tarui, Tarmakisa və digər şəhərlərindəki qala divarların dərin xəndəklərlə əhatələndiyindən və onların Aşşur ordusu üçün maneə yaratdığından bəhs olunur [4, s.75, 77, 79]. İstehkam texnologiyasının bu formasının mannalılara da məlum olduğu şübhəsizdir. Düşmən qoşununun hücumu zamanı gözətçilər qalanı əhatələyən bürclərdə tonqal yandırılır və bu yolla ətraf məskənlərə yaxınlaşan təhlükədən xəbər verirdilər. Manna əhalisinin xeyli hissəsi vilayət mərkəzlərinin ətrafında salınmış kiçik yaşayış məskənlərində cəmləşdiyindən hərbi əməliyyatlar zamanı "güclü şəhərlər" onların əsas sığınacaq yerinə çevrilirdi; sığınanlar üçün qalanın həyatində zəruri ərzaq ehtiyatı toplamaq məqsədilə ambarlar da inşa olunurdu.

1960-1970-ci illərdə Urmiya hövzəsindəki kəndlərdə qazıntılar aparan alman arxeoloqları aşkara çıxardıqları qalaların xarabalıqlarını, daş bloklardan tikildiyinə əsasən, urartululara aid etmişlər. Lakin bu halda bölgədə alternativ inşaat daşının olmaması nəzərə alınmır. Bu qalalar urartuluların hücumlarından müdafiə məqsədilə yerli sakinlər tərəfindən də tikilə bilərdi. Belə qalaların xarabalıqları Mərənd yaxınlığındakı Livar və Çeraqeyi-Əmirdən, Həsənlinin[17] qonşuluğundakı Yediyar kəndləri ərazisində, Təpə-Aladağda (Xoydan 20 km qərbdə), Qəlei-Seyid-Tacəddində (Xoydan 27 km cənub-şərqdə), Qəlei-Havaşda (Qoturdan 9 km şərqdə), Təpə-Sacirddə (Bazarqandan 5 km şərqdə), Pir-Çavuşda (Salmasdan 14 km cənub-şərqdə) və digər yerlərdə də aşkara çıxarılıb [9, c. 30-65, 69-78]. Livar kəndindəki qala Urartu qalalarının tikinti texnikasına uyğun olduğundan V.Kleiss bu abidəni e.ə. VIII əsrə aid edir [17, s.58]. Yazılı mənbələrin təhlili göstərir ki, Urmiya hövzəsində aşkara çıxarılmış qala xarabalıqlarının az bir qismini mannalılara aid etmək olar; Urmiya gölündən şimalda arxeoloqlar tərəfindən qeydə alınan qalalar Urartuya məxsus idi. Erkən dəmir dövründə regiondakı şəhərləri ümumi və vahid sosial struktur birləşdirirdi. Bu səbəbdən Manna şəhərlərinin tikinti texnikası ilə Naxçıvanın (Oğlanqala, Vayxır Gövurqalası) və İran yayalasındakı Mada və Elam kimi dövlətlərin şəhərlərinin tikinti texnikası arasında fərqin çox da olmadığını görürük [7, рис.32, 33, 34, 39, 48; şəkil 2]. Məsələn, Deyokun əmri ilə Madanın paytaxtı Ekbatanada inşa edilmiş qalanın formasını Herodot (I, 101) belə təsvir edir: "Akropol elə inşa edilmişdir ki, bir divar halqavari formada yan divarla birləşir və yan divarı özünün dişli çıxıntıları (merlon) ilə üstələyir. Dişli çıxıntılardan süzülən günəş şüalarının təsirindən qalanın divarları 7 rəngə çalır...saray belə divarlarla mühafizə olunurdu."



**Şəkil 2.** Mada qalaları.

Aşşur sarayının divarlarını bəzəyən qabartma təsvirlər Manna qalaları haqqında təsəvvür yaradır. Bu qalalar bir qayda olaraq təpəli yerlərdə, dağ yamaclarında, bir sözlə, hərbi texnikanın (divar deşən qurguların, qoşqu və cəng arabalarının) hərəkətini çətinləşdirən və məhdudlaşdıran yerlərdə ucaldılırdı. Qala-şəhərlər bürclər və gözətçi qüllələri ilə təmin olunaraq bir və ya iki müdafiə divarı ilə əhatələnirdi; birinci müdafiə səddi qala-şəhərin keşikçilərinin, ikinci müdafiə səddi iç qaladakıların (rəhbər və texniki personalın) fəaliyyət yeri idi.

1. Şuandahul və Durdukka. E.ə. 719-714-cu illərdə Aşşur dövlətinə qarşı Urartu hökmdarı I Rusanın (e.ə. 730-714) yaratdığı və onun təhriki ilə Karalludan[18] Aşşurle və Allabriyadan İttinin də qoşulduğu hərbi koalisiya fəaliyyəti göstərirdi. Öncə Ziqirtu vilayətinin canişini Mitatti, eləcə də Şuandahul və Durdukka (və ya Zurzukka) şəhərlərinin başçısı (mənbələrdə adı bildirilmir), bir qədər sonra isə Uişdiş vilatətinin canişini Baqdatti və Andiya canişini Telusini Manna mərkəzi hakimiyyətinə tabe olmaqdan imtina edərək bu koalisiyaya qoşulurlar və bununla da ölkəni vətəndaş müharibəsinə sürükləyirlər. Aşşur hökmdarı II Sarqon (e.ə. 722-705) Manna ilə ittifaqa sadiq qalaraq üsyançıların üzərinə qoşun yeridir. Beş ilə yaxın davam edən vətəndaş müharibəsinə həsr olunmuş mətnlərdə Mannanın onlarca yaşayış məntəqələrinin, qalalarının adları sadalanır. Onların hamısı haqqında söhbət açmaq imkan xaricində olduğundan yalnız ən əhəmiyyətlilərinə toxunmağı vacib hesab edirik.

Manna mərkəzi hakimiyyətinə ilk asi olan Ziqirtu vilayətinin canişini Mitatti olmuşdur, məhz onun təhriki və hərbi yardımına arxalanaraq Şuandahul və Durdukka şəhər-qalalarının sakinləri də üsyana qoşulmuşlar. Dur-Şarrukin sarayının (indiki Xorsabadda) 2 və 5-ci zallarının yazılarında bu xüsusda deyilir:

“...hakimiyyətimin üçüncü ilində möhkəmləndirilmiş Şuandahul və Durdukka qala-şəhərlərinin sakinləri öz ağaları, mənim boyunduruğumu daşıyan Manna hökmdarı İranzunun əleyhinə üsyan qaldırmaq fikrinə düşdülər və ziqirtulu Mitattiyə arxalandılar. Ziqirtulu Mitatti öz döyüşçüləri və suvariləri ilə onlara kömək etdi” [4, s.36].

Şuandahul və Durdukka qala-şəhərlərini Ziqirtu vilayətindən cənub-şərqdə yerləşdirmək cəhdləri uğursuz hesab olunmalıdır [5, c.76]. Ziqirtu vilayətindən cənub-şərqdə, Mada tayfa ittifaqının torpaqları ilə bufer zonada, o illərdə hələ də müstəqilliyini qorumuş Qizilbunda (və ya Qizilbuda) çarlığı yerləşirdi; sonralar onun torpaqları Mada (=Midiya) dövlətinə birləşdirilmişdir.

E.ə. 719-cu il üsyanı Aşşur ordusunun müdaxiləsi sayəsində qısa müddətdə yatırıldıqdan sonra üsyanı dəstəkləyən Şuandahul və Durdukka qala-şəhərlərinin, eləcə də Sukka, Bala və Abitikna şəhərlərinin əhalisi Suriyaya deportasiya olunmuşdur.

E.ə. 716-cı ildə Mannada əvvəlki fiqurantların iştirakı ilə vətəndaş müharibəsinin ikinci fazası başlayır və Antiaşşur koalisiyasına daha bir nəfər – Dayukku adlı Manna canişini – qoşulur. Mənbələrdə onun hansı vilayətə rəhbərlik etdiyi bildirilmir. Əvvəllər onu səhvən Mada dövlətinin banisi hesab olunan Deyokla (Herodota görə) eyniləşdirirdilər. E. Qrantovskiyə görə guya o, Missinin canişini idi və iqamətgahı bu vilayətin inzibati mərkəzi olan Sirdiakkada yerləşirdi [6, c.269-270]. Nəzərə almaq lazımdır ki, Missi vilayəti ilə Urartu arasında yerləşən Sumbi və Surikaş vilayətləri Manna mərkəzi hakimiyyətinə tabelikdən boyun qaçırmamışlar. Digər tərəfdən, Sirdiakka e.ə. 719-cu ildə Manna mərkəzi hakimiyyətinə tabe edilmişdi və Dayukkunun (əgər o həqiqətən də bu şəhərin hakimi idi) nə səbəbdən yalnız 3 ildən sonra sürgün olunduğu sualı cavabsız qalır. Deyilənləri nəzərə alaraq, hesab edirik ki, Dayukkunun idarəçiliyində olan vilayət “mərkəzi Sirdiakka olan” Missi ola bilməzdi, onun vilayəti Mannanın Urartunun ucqar şərq hissəsi ilə (Əhər-Meşkin bölgəsində) qonşuluğunda yerləşə bilərdi.

E.ə. 715-ci ildə vətəndaş müharibəsinin ikinci mərhələsi başa çatır və onun iştirakçıları cəzalandırılır: Uişdişli Baqdattinin dərisi soyulur, Dayukku ailəsi ilə birgə Suriyaya sürgün olunur, Andianın 8 qalası (adları mətnlərdə göstərilməyib) zəbt edilir, 4200 əsir mal-qara ilə birlikdə Aşşura aparılır. Yalnız e.ə. 714-cü il yürüşündən sonra, qədim mətndə deyildiyi kimi, “qəzəbli düşmənin ayağı mannalıların ölkəsindən kəsilir” [4, s.73].

2. Panziş. “Tanrı Aşşura məktub”da Bitkapsi vilayətinin qərbindən 30 beru (təqribən 300 km) şərqdə yerləşən bu qalanın Ziqirtu və Andiyadan gözlənilən təhlükənin qarşısını almaq məqsədilə tikildiyi bildirilir. Ziqirtuya yürüş ərəfəsində aşşurlular əks zərbədən ehtiyatlanaraq qalanın sitehkam divarlarını bərkidərək, ərzaq ehtiyatı və hərbi ləvazimatla doldurmuşlar [4, s.70].

3. Ziqirtu qalaları. II Sarqonun “Tanrı Aşşura məktub”unda e.ə. 714-cü ilin hərbi əməliyyatlarında Aşşur ordusunun Ziqirtunun dağ aşırımları arasında yerləşən “möhkəm divarları” olan 13 şəhərini (bizim siyahıda 13, 15, 20, 22, 26, 28, 31, 37, 38, 42, 45, 47 və 48-ci toponimlər), “möhkəm divarlari olan” 12 qalasını və daha 84 məntəqəsini[19] zəbt etdiyi bildirilir [4, s.70; mətndə onların adları göstərilmir]. Lakin Dur-Şarrukin sarayının 2 və 5-ci zallarının divar yazılarında həmin yürüş zamanı Pardanın yandırılmasından, 3 “möhkəmləndirilmiş şəhərin” ətrafındakı 24 məntəqə ilə birlikdə zəbt olunmasından bəhs edilir [4, s.39]. Hər iki məlumatın hansının həqiqət olduğunu söyləmək mümkün deyil; nəzərə almaq lazımdır ki, aşşurlular bəzən məğlubiyyətlərini qələbələri kimi təqdim edirdilər.

E.ə. 719-cu ildə Mitatti-Rusa ittifaqına qoşulan, lakin həmin ildə dağıdılan və sakinləri Suriyaya sürgün olunan Sukku, Bala, Abitikna şəhərlərinin yeri bəlli deyil [4, s.36]. R.Zadoka görə bu şəhərlər Uişdişin tərkibində idi [23, p.93].

4. Darbani. Yalnız bir Urartu mətnində (II Sardurinin Van qalasının Xəzinə qapısı” adlanan hücrəsinə həkk olunmuş kitabə) Darbani şəhərinin “iç qalasının” zəbt olunmasından bəhs olunur [12, № 155 B; 4, s.115]. Qalanın Urmiya gölündən şərqdə yerləşdiyi güman edilir [7, c.172].

5. Zibiya yeri dəqiq bilinən yeganə Manna məntəqəsidir. Saqqızdan 24 km cənub-şərqdə, Saqqız-Sənəndəc yolu üstündə, Sahab kəndi yaxınlığında yerləşən Ziviyə kəndində (Aşşur mətnlərində Zibia, Uzbia, İzzibia) Robert Daysonun rəhbərliyi ilə 1960-cı illərin ortalarında aparılan kiçikmiqyaslı arxeoloji qazıntılarda e.ə. VII əsrin əvvəli ilə tarixlənən qalanın qalıqları aşkara çıxarıldı. 34 x 34 x 9 sm ölçülü bişməmiş kərpiclərdən hörülən qala divarının qalınlığı bəzi yerlərdə 7,5 metrə çatır. Qalanın daxilində sütunlu sarayın və ya iqamətgahın olduğu güman edilir. Coxsaylı keramika fraqmentləri Həsənlitəpənin III B təbəqəsindən (səhvən mannalılara aid edilir) tapılmış analoji məmulatla eynilik təşkil edir. Qazıntılar zamanı orijinallığı ilə diqqəti cəlb edən 340-dan artıq qiymətli sənət nümunələri, o cümlədən, qızıl döşlük, gümüş və tuncdan düzəldilmiş qoşqu ləvazimatları, qızıl üzük, gümüş sini, qızıl və gümüş ritonlar, qızıl kəmər və s. tapılmışdır [15]. Qala-şəhər çevrəsindəki yaşayış məntəqələrinin müdafiəsini təmin etmək məqsədilə Aşşur və Urartu istiqamətlərindən gözlənilən hücumlara qarşı tikilmişdir. Zibiya qalası naməlum şəraitdə yanğın nəticəsində məhv olmuşdur.

6. Dur-İllil (“Tanrı Enlilin qalası”). Sinahheribin zamanında (e.ə. 705-681) Urartumeyilli qüvvələrin təzyiqilə Manna-Aşşur münasibətləri yenidən korlanır; mannalılar, hətta, Aşşur əyaləti Zamuadaki bir neçə qalanı (mənbələrdə adları göstərilmir) zəbt edirlər. Bunun üçün orada Aşşur üsul-idarəsindən narazı olan yerli əhalidən ibarət sosial baza mövcud idi. Belə ki, Dur-İllil şəhərinin sakinləri, digər yaşayış məskənlərinin (Bit-Sanqibutu, Simirra, Arka, Usnu, Siannu və s.) əhalisi kimi hələ III Tiqlatpalasarın zamanında Aşşur dövləti üçün etibarsız olduqlarından iki mərhələdə yaşadıqları yerlərindən deportasiya olunmuşlar [1, s.55-56; 4, s.34].



**Şəkil 3.** Dur-İllil qala-şəhəri uğrunda döyüş.

Mannalılar orada yaşamaqda olan sakinlərin dəstəyi ilə Dur-İllili nəzarətə ala bilmişlər. Aşşur hökmdarı Aşşurahaiddin (e.ə. 681-669) onlardan ən önəmli saydığı Dur-İllil qalasını geri qaytarmağa çalışırdı, hər həlda Aşşur sarayındakı təsvirlər buna cəhd edildiyini təsdiq edir [22, p.35; şəkil 3]. Lakin bu barədə xəbər verən fal sorğularında Aşşurahaiddinin cəhdlərinin nəticəsi haqqında heç nə deyilmir [22, №№ 30-32; 3, s.90-91]. Bu qalaların geri qaytarılması missiyası Aşşurahaiddinin oğlu və varisi Aşşurbanapalın üzərinə düşür.

7. Aşşurbanapalın viran qoyduğu Manna qalaları. E.ə. 660-cı ildə Aşşurbanapal Manna hökmdarı Ahşeriyə qarşı hərbi yürüşə başlayır. Bundan xəbər tutan mannalılar taktiki plan kimi düşmənlə ölkələrinin hüdudlarından kənarda, gecə vaxtı qarşılamaq qərarına gəlirlər. Bu döyüş 3 beru uzunluğunda (təqribən 30 km) düzən ərazidə baş tutur və mannalılar ağır itgi verdikdən sonra Aşşur qoşunları Manna torpaqlarına daxil olaraq ilkin mərhələdə 8 qalanı (bizim siyahıda 4, 12, 18, 32, 36, 40, 49, 50-ci məntəqələr) "saysız kiçik məskənlərlə birlikdə" zəbt edirlər. Hərbi əməliyyatların ikinci mərhələsində hədəf İzirtu seçilir. Düşmənin niyyətindən xəbər tutan Ahşeri paytaxtı tərk edib, "ümid yeri" (akkadca: **ālu tukulti**) olan Atranu şəhərinə sığınır. Aşşur qoşunu İzirtunu, Urmeyate və Uzbiya qala-şəhərlərinin yerləşdiyi vilayəti bütünlüklə viran qoyur. Son zərbə Şurdira şəhərinə və ətrafındakı məntəqələrə, eləcə də Azakanani, Arsiyaniş şəhərlərinə vurulur [4, s.101]. Kitabədə adı qismən zədələnmiş Paşa[...]su toponimini İssar-şumu-ikişa adlı məmurun Aşşur şahına (II Sarqona) yazdığı məktubda xatırlanan Paşşatu şəhəri ilə eyniləşdirmək mümkündür. Belə ki, mannalıların dilində s/z və d/t fonemlərinin bir-birini əvəzləməsi adi hal idi (bəlkə də dialekt fərqidir); məsələn, "Zurzukka" və "Durdukka" formaları bunu təsdiq edir. Ptolemeyin "Coğrafi təlimat"ında (V, 13, 16) **Ζουρζούα** formada verilir.

Aşşurlular nəzarət altına aldıqları ölkələrdə azad ticarət zonalarının (akkadca: **karum** "koloniya") yaradılmasına maraq göstərirdilər; onlardan daxil olan gəlirin çox hissəsi Aşşur sarayına göndərilirdi. Karumlar müxtəlif yerlərdən daxil olan mal və məhsulların reallaşdırılmasını, texnoloji nailiyyətlərin mübadiləsini tezləşdirməklə həm də fərqli etnik qruplar arasında kooperasiyanın (iş birliyinin) yaranmasına, mədəni əlaqələrin qurulmasına əlavə imkanlar açırdı. Mannanın qonşulugunda azad ticarət zonaları fəaliyyət göstərsə də (məsələn, Kar-alla, Kar-kaşşi, Kar-zibra və s), Mannanın özündə belə zonaların fəaliyyətinə dair məlumat yoxdur.

Aşşur və Urartu çarlarının Urmiya hövzəsinə marağının səbəbi bu yerlərin zəngin faydalı qazıntıları, o cümlədən, Məzrənin (Əhərdən 20 km şimalda) mis, eləcə də Təbriz ətrafındakı qurğuşun yataqları idi[20]. Mannada şəhər mədəniyyətinin yüksək səviyyəyə çatması müxtəlif sənət sahələrinin və onları xammalla təmin etməli olan ticarətin inkişafına təsir göstərirdi. Şəhərlərdə qızıl, gümüş, tunc və misdən qab-qacaq hazırlayan peşəkar ustalar fəaliyyət göstərirdi. Hərbi ləvazimatlar düzəldən sənətkarlar dəmir və tuncdan xəncər, ensiz və yastı formalı ox ucluqları, aypara formalı

qılınclar, döyüş dəbilqələri hazırlayır və bəzən də onlara qızıl və gümüşlə naxışlar vururdular.

Nəticə olaraq, qeyd edək ki, ilk mənbələrə istinadən aparılan tədqiqatlar şəhərlərin Manna dövlətinin sosial-siyasi həyatında həlledici rola malik olduğunu təsdiq edir. Paytaxt İzirtunun və vilayət mərkəzlərinin aktiv fəaliyyəti siyasi idarəçilik vərdişlərinin daha da zənginləşməsini, istehsal sferasına cəlb olunan sənət mərkəzləri və kəndlər təsərrüfat sahələrinin səmərəliliyinin artırılmasını, qalalar və istehkam səddləri əhalinin və toplanan məcmu ictimai sərvətin məhafizəsini təmin edirdi. Ara-sıra xaricdən edilən basqınlar, daxildəki ekstremist qüvvələrin pozucu fəaliyyəti mərkəzi hakimiyyəti zəiflədir, ölkənin ərazi bütövlüyünə təhlükə yaradırdı. Lakin tarixin gedişi göstərdi ki, ən çətin vəziyyətlərdə optimal həll yolunu tapmaqla mannalılar dağılmış şəhərlərini bərpa etdilər, dövlətlərini 250 il yaşada bildilər.

**Qeydlər**

1. E.ə. 843-cü ildə Qilzanın cənub qonşuluğundakı Daxili Zamua vilayətinə yürüş edərkən III Salmanasarın qoşunları ilk dəfə Mannanın qərb sərhədləri yaxınlığında hərbi əməliyyatlar aparmış, lakin Mannanın içərilərinə daxil olmamışlarlar [16, texts: A.O.102.6, A.O.102.12, A.O.102.14, A.O.102.16, A.O.102.37].

2. Aşşur və Urartu hökmdarlarının adlarından tərtib olunmuş mixi yazılarda xatırlanan Manna coğrafi adlarının yazılış formaları sonuncu dəfə R.Zadok və F.Maniori tərəfindən toplanıb [23, pp.92-99; 21, pp.190-200]. Vətən tarixşünaslığında Manna şəhərləri haqqında qısa məlumat verilib [3, s.40-44].

3. Yalnız Aşşurbanapalın “B” silindri üzərindəki mətndə qeydə alınıb. Bu məntəqə Şumer mətnlərində “Humurtu” (və ya “Huurtu”) formasında xatırlanır; təqribən e.ə. 2050-ci ildə III-Şumer dövlətinin hökmdarı Şulqi tərəfindən dağıdılsa da [7, c.117-118; 23, p.95], sonralar bərpa olunub.

4. Bəzi toponimlərin (Parda, Aukane, Barunaka, İştaippa, Raksi, Ubabara) qədim İran dilləri əsasında izahı təklif olusa da, yer adlarının əksəriyyəti yerli lullubi və quti dillərinə aiddir [13, c.130-133, 2, s. 15].

5. Bit-kapsi Akkad dilindən tərcümədə “Kapsi evi” anlamındadır. Əhəməni şahı I Daranın Bisütuin kitabəsində bu toponimin parsmənşəli adı ilə (Kapişakaniş) qarşılaşırıq [14, c.76, 80]. Bisütunda xatırlanan toponim Mannanın hüdudlarndan kənarda, Araxoziya vilayətində yerləşdiyindən ehtimal etmək olar ki, Mannanın cənub hüdudlarında yaşayan hansısa əhali qrupu indiki Əfqanıstanın cənub-qərbinə miqrasiya etmişdir.

6. III Salmanasarın “Qara obelisk”i üzərinə həkk olunmuş kitabənin məlumatına görə təxminən bu yerdə Mannanın şimal-qərb qonşusu kiçik Malhisa (və ya Madahisə) çarlığı yerləşirdi [4, s.30]. Həmin mətndə Manna-Parsua sərhəddində yerləşən Qaburisu, Harraniya, Şaşqanu və uzaq Andia xatırlanır [4, s.31]; sonralar bu yerlər Mannaya və Parsua əyalətinə qatılmışlar. Andia Manna ilə yanaşı, lakin tamamilə müstəqil çarlıq kimi III Adadnerarinin (e.ə. 810-782) kitabələrində də qeydə alınıb [4, s.34].

7. Məsələn, Aşşur hökmdarı II Sarqon Uişdiş vilayətində “ulduzları qədər sayları bilinməyən” şəhərlərin olduğuna dair məlumat verir [20, § 157; 2, s.53-58]. Mannada 70-dən artıq yaşayış məntəqəsinin və qalaların olması haqqında deyilənlər həqiqəti yansıtmır [9, c.24-25]. Bütövlükdə məntəqələrin ümumi sayı 150-dən artıqdır.

8. Aşşur hökmdarı III Tiqlatpalasarın (e.ə. 744-727) salnaməsində “Harşu” adı ilə (qrammatik baxımdan adlıq hal formasında) yazılıb [23, p.95]. Bu məntəqə e.ə. III minilliyin sonları ilə tarixlənən şumerdilli sənədlərdə xatırlanan Harşi toponimi ilə eyniləşdirilə bilər. III Ur-Şumer dövlətinin şahı Şulqi hakimiyyətinin son ilində (e.ə. 2046) bu yeri viran etmişdir [7, c.118, 282, прим.3]. Ehtimal ki, bu toponim Təbriz yaxınlığındakı Heris kəndinin adında qalıb.

9. I Arqiştinin (e.ə. 781-760) Xor-xor kitabəsində Aşkaya formasında yazılıb; indiki Uski kəndinin (Tərizdən cənubda, Səhənd dağının şimal yamacında) yerində lokalizə olunur [9, c.77-78].

10. Xəfiyyə məktublarının birində aydın olmayan kontekstə Manna ilə yanaşı “Qumusani” adlı şəhər xatırlanır. Lakin fraqmentar məlumat şəhəri Mannada lokalizə etməyə tam əsas vermir [23, p.98]. 1985-ci ildə cap olunan kitabında Mannanın yaşayış məntəqələrini “Urartu toponimikası” adı altında verməsi N.V.Arutyunyanın məkrli niyyətindən xəbər verir; bu yolla o Urmiya hövzəsini (Cənubi Azərbaycanı) bütünlüklə Urartu torpaqları (ermənilər Urartu irsini özlərinki hesab edirlər) kimi təqdim etməklə, ermə-

nilərin bu geniş əraziyə iddialarına tarixi don geydirməyə çalışır. Əslində Urartu hökmdarları imkan düşdükcə Manna torpaqları hesabına ərazilərini genişləndirməyə çalışırdılar.

11. "İzirtu" bu şəhərin adının Akkad orfoqragiyasına uyğun tələffüs formasıdır; toponimdəki -**u** sonluğu bu dildə ismin adlıq hal şəkilçisidir [1, №37, s.70-72; 10, c.61, прим.2]. "İzirtu" adı lullubimənşəli ola bilər. Müqayisə üçün deyək ki, lullubilərin ölkəsi Zamuada "Suritu" adlı şəhər yerləşirdi; şəhər e.ə. 881-ci ildə II Aşşurnazirapalın qoşunları tərəfindən dağıdılmışdır [4, s.26]. Fonetik baxımdan "İzirtu" toponimi aşşurluların e.ə. 715-ci ildə Mada tayfa birliyinin torpaqlarında yaratdıqları Harhar əyalətindəki Sisirtu qalasının adı ilə də müqayisə oluna bilər [7, c.270]. G.Melikişvili digər yer adlarına istinadən (Meiş-ta, Ziqir-ta, Par-da və s.) haqlı olaraq hesab edir ki, paytaxtın adı yerli dildə "İzirta" və ya "Zirta" kimi tələffüs olunurdu. Həmin yerli dil üçün isimlərdə başlanğıc sait səs protetik səciyyəvi olduğundan, bəzən tələffüs olunmurdu: müqayisə et: Asaqarta/Zigirtu/Saqarta, Atrana/Terana, Zibiya/Uzbiya.

12. Anri Qodar İzirtunu indiki Kaplantu (və ya Qaflantu; Sakkızdan cənubda, Ziviyənin 5 kilometrliyində) şəhərciyinin yerində lokalizə etsə də bu fikirlə razılaşmayanlar var [7, c.162, прим.6, c.282; 9, c.74]. Bukandan 8 km məsafədə Qalaiçi adlanan yerdə e.ə. 1990-cı illərdə üzərində arami dilində mətn yazılmış saxsı qab tapılmışdır. Mətndəki **z'tr** işarələr qrupunu Izirtu şəhərinin adı hesab edirlər [19, p.16, not.5; 21, p.192, not.56].

13. İ.M.Dyakonov "Şimerihadiri" toponimini heç bir dəlil göstərmədən "Şurda" (və ya "Padda") adlı toponimlə eyniləşdirir [7, c.171]. Şurda mənbələrdə Mannanın hüdudlarında yox, Karalla vilayəti ilə Parsua əyalətinin inzibati mərkəzi Nikur arasında xatırlanır [23, p.96]. Bəzi hallarda eyni məntəqə Aşşur və Urartu mətnlərində tamamilə fərqli adlarla göstərilir. Məsələn, aşşurluların "Urartu", babillilərin "Uraştu" adlandırdıqları ölkəni yerli sakinlər "Biayni", aşşurluların "Musasir" (hərfən: "İlan yuvası") adlandırdıqları Urartu şəhərini yerli sakinlər "Ardini" (hərfən: "Şəhər") adlandırırdılar və s.

14. Toponimin etimoloji izahına əsasən qala-şəhərin iki kvartaldan ibarət olduğunu söyləmək olar. Belə ki, **sini**+**hini** komponentləri birlikdə "2+məntəqə" mənasını verirş Sonuncu komponent (-**hini**) Urartu toponimikası (Argiştihinili, Rusahini) üçün səciyyəvidir. Görünür, Sinihini əhalisi urartululara yaxın dildə danışırdılar. Bəlkə də Şınıx kəndinin (Gədəbəy rayonunda) adının mənası da belə izah olunmalıdır.

15. Sarabdan Ərdəbilə istiqamətlənən yol üzərindəki Neştəban, Razlik və Şişe kəndlərində təxminən eyni məzmunlu mətnlərdə Urartu şahı bu bölgədə Arxu, Uşulu, Tuişdu, Qituhani, Buku, Qirduni "olkələrini" işğal etdiyini və Erukima qala-şəhərini tutduqdan sonra ona öz adını verdiyini bildirir. "Düşmən ölkələrin ram edilməsi üçün" yeni inşa etdirdiyi digər qala-şəhərə "Tanrı Haldinin sığınacağı" adını verir [4, s.118-119]. Bu regionda Mannadan başqa hansısa dövlət olmadığından sadalanan "ölkələrin" (əslində vilayətlərin; mixi yazı sistemində "ölkə", vilayət", "əyalət" məvhumları, bəzən də şəhərlər, eyni ideoqram-işarə ilə bildirilirdi) Mannadan qoparıldığını iddia etmək olar.

16. Məktubda Harşaya "vilayət" statusunda göstərilib [4, s.48]. Şəhərlərin vilayət kimi və ya əksinə təqdim olunmaları aşşurlu mirzələr üçün adi hal idi.

17. Bəzi tədqiqatçılar Həsənlini Meişta və ya Qilzan ilə eyniləşdirirlər [21, p.187].

18. Karallu şumerdilli mifoloji mətnlərdə xatırlanan Harali (və ya Arali) toponimi ilə eyniləşdirilir [23, p.96].

19. Bu məntəqələrdən biri – Kitirata – xəfiyyə məktubunda xatırlanır [4, s.52].

20. Qazıntılar nəticəsində Əhər yaxınlığındakı kəndlərdə (Bozorq-Əlvənd, Qala-Çəssənəg və s.) cilalı Urartu keramikası da tapılmışdır [17, ss.81, 83-84, 91, 96].

## Ədəbiyyat siyahısı

1. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Müntəxəbat (Təsisçilər: R.S. Məlikov, A.N. Əlimirzəyev). Bakı: Turxan, 2014. 204 s.

2. Əlimirzəyev A. "Antarpatianu"-"Atropatena"-"Azərbaycan" (ilk atributumuzun tarixi-fonetik təkamülünə dair) // Tarix İnstitutu. Elmi əsərlər. Cild 60, 2012, s.3-21.

3. Qaşqay S. Manna dövləti. Bakı: Azərnəşr, 1993. 107 s.

4. Qədim Azərbaycan tarixi mixiyazılı mənbələrdə (Tərtib və tərcümə edəni, ön sözün

və şərhlərin müəllifi S.Qaşqay). Bakı: Təhsil, 2006. 147 s.

5. Арутюнян Н.В. Топонимика Урарту. Ереван: Издательство АН Арм. ССР. 307 с.

6. Грантовский Э.А. Ранняя история иранских племен Передней Азии. Москва: Наука, 1970. 395 с.

7. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва, Ленинград: Издательство Академии Наук СССР, 1956. 483с.

8. Кашкай С. О металле “annakkum” приурмийских областей // Вестник древней истории, 1976, № 3, с.150-153.

9. Керимов В. Оборонительные сооружения Азербайджана древнего периода. Баку, 2003

10. Меликишвили Г.А. Некоторые вопросы истории маннейского царства // Вестник древней истории, 1949, № 1, с. 57-72.

11. Меликишвили Г.А. Население северных областей Наири-Урарту и его роль в древневосточной истории. М., 1960. 10 с.

12. Меликишвили Г.А. Урартские клинообразные надписи. М.: Издательство АН СССР, 1960. 504 с.

13. Меликов Р.С. Этническая картина Азербайджана в период ахеменидского владычества (VI-IV вв. до н.э.). Баку: Нурлан, 2003. 196 с.

14. Меликов Р. Древнеперсидские надписи. Транслитерация. Перевод, глоссарий. Баку: Шарк-Карб, 2013. 445 с.

15. Dyson R. The Hasanlu Project, 1961-1967 / The Memorial Volume of the Vth In ternational Congress of Iranian Art and Archaeology. Vol. 1. Tehran, 1972, pp.39-58.

16. Grayson A. K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 3. Assyrian Rulers of the Early First Millenium BC (858-745 BC). University of Toronto Press, 1995. 265 p.

17. Kleiss W. Bericht uber Erkundungsfahrten in Iran im Jahre 1970 // Archaologische Mitteilungen aus Iran, 1971, Band 4, ss.51-111.

18. Kroll S. Archäologische Fundplätze in Iranisch-Ost-Azerbaidjan // Archaologische Mitteilungen aus Iran, 1984, Band 17, ss.13-133.

19. Lemaire A., Une inscription araméenne du VIIIe siècle av. J.-C. trouvée à Bukân (Azerbaïdjan iranien) // *Studia Iranica* , 1998, 27, pp. 15-30.

20. Luckenbill D.D. Ancient Records of Assyria and Babylonia. New York: Greenwood Press publishers, Vol. II. Historical records of Assyria from Sargon to the end, 1968, 504 p.

21. Maniori F. Le Campagne Assyre contro l’Urartu del 715 e 714 A.C. // Studi Micenei ed Egeo-Anatoloci, Roma, 2010, 52, pp.177-251.

22. Starr I. Queriers to the Sungod Divination and Politics in sargonid Assyria / State Archives of Assyria. Helsinki. Vol. IV, 1990. Pp. XXIX+409.

23. Zadok R. Ethnolinguistic character of Northwestern Iran and Kurdistan // Iran, 2002, Vol. 40, pp.89-151.

## Summary

**Seljan Mamadzade**

### Territorial and administrative division, cities and fortresses of the Mannean kingdom

The military-political history of Azerbaijan originates from the appearance of fortified cities and fortresses around Lake Urmia, belonging to Urartu and the Manna. Unlike the Urartian, the cities of Manna are poorly studied. The descriptions of the campaigns of the Assyrian and Urartian kings indicate the presence in Manna of just over 150 cities, a third of which are named by name. Fortified cities (in assyrian: **ālâni dannuti**) were built on strategically significant roads, in elevated places and in the midst of small settlements gravitating towards them (in assyrian: **ālani şehruti ša limētişunu**). The fortresses were surrounded by powerful walls, with protruding towers and crowned with battlements. In the event of hostilities, all property, food, and livestock were brought into these fortified

cities. In terms of their structural elements, layout and architectural features of the fortified city, Manna had much in common with Urartian. Over time, some of them, which are the residences of governors, have turned into large cities. With the growth of the population, the development of productive forces, the differentiation of the economy, part of the cities became the focus of craft and trade. So there was the capital of Manna Izirtu, as well as administrative centers such as Parda (in the Zigirtu region), Sirdiakka (in the Missi region), Ushkaya (in the Zaranda region), etc., which the Assyrian scribes called ālāni šarruti ("royal cities") . Unfortunately, with the exception of Zibia, their exact location has not been established. War slowed down the process of urbanization. But each time, having found the optimal solution, the Manneans rebuilt their cities from the ashes.

***Keywords**: kingdom of Manna, cuneiform texts, ancient cities, ancient fortresses, military-political history*

## Резюме

**Сельджан Мамедзаде**

## Территориально-административное деление, города и крепости Маннейского царства

Военно-политическая история Азербайджана берёт своё начало с появления укреплённых городов и крепостей вокруг озера Урмия, принадлежащих Урарту и Маннейскому царству. В отличие от урартских, города Манны изучены слабо. В описаниях походов ассирийских и урартских царей сообщается о наличии в Манне чуть более 150 городов, треть из которых названа поимённо. Города-крепости (по-ассирийски: **ālâni dannuti**) возводились на стратегически значимых путях, на возвышенных местах и посреди тяготевших к ним мелких поселений (по-ассирийски: **ālani şehruti ša limētişunu**). Крепости обносились мощными стенами, с выступающими башнями и увенчивались зубцами. В случае военных действий в эти города-крепости ввозили всякое имущество, продовольствие и скот. По своим конструктивным элементам, планировке и архитектурным чертам города-крепости Манны имели много общего с урартскими. Со временем некоторые из них, являющиеся резиденциями наместников, превратились в крупные города. По мере роста численности населения, развития производительных сил, дифференциации экономики часть городов становилась средоточием ремесла и торговли. Так возникла столица Манны Изирту, а также такие административные центры как Парда (в области Зигирту), Сирдиакка (в области Мисси), Ушкая (в области Заранда) и т.п., которые ассирийские писцы называли **ālāni šarruti** («царскими городами»). К сожалению, за исключением Зибия, точное местонахождение их не установлено. Войны тормозили процесс урбанизации. Но каждый раз, найдя оптимальное решение, маннеи восстанавливали из пепла свои города.

***Ключевые слова:** Маннейское царство, клинописные тексты, древние города, древние крепости, военно-политическая история*

UOT 94(479.24)

**ГУСЕЙН РАГИМЛИ**
*Доктор философии по истории, МИД Азербайджанской Республики*
*dr.rahimli@gmail.com*
*Азербайджан*

# ОБЪЕДИНИТЕЛЬНАЯ ПОЛИТИКА ФАТАЛИ ХАНА ГУБИНСКОГО И ЕГО ДИПЛОМАТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ПО СОЗДАНИЮ ГОСУДАРСТВЕННОСТИ ВО ВТОРОЙ ПОЛОВИНЕ XVIII ВЕКА

***Ключевые слова:*** *политическая и дипломатическая деятельность, ханства Северо-восточного Азербайджана, централизованное государство, объединение, соперничество, независимость.*

Гибель в 1747 году Надир шаха Афшара и распад созданного им государства послужили резкому усилению межплеменных распри и феодальных междоусобиц. На территории Азербайджана эти войны с небольшими перерывами продолжались плоть до начала русско-иранских (гаджарских) войн в начале XIX века. Рассказывая о полити-ческой ситуации в Азербайджане после смерти Надир шаха, А.Бакиханов писал: «Не успели иранские войска уйти из этого края, как сразу же в каждой области появились независимые друг от друга владетели» (5, с.154).

В это самое время усилились центробежные устремления феодалов окраин, которые были подчинены шаху силой ору-жия, в результате чего еще больше ожесточилась борьба за шахских престол между основными претендентами.

Очевидец событий, описывая начавшуюся очередную волну междоусобных войн, сопровождавшихся невиданными разрушениями, а также тяжелым уроном сельскохозяйственным угодиям и пастбищам большинства провинций отмечал: «В Персии великое замешательство и между поддан-ными усобные брани имеются. Персидские подданные почти в огне горят… каждый старается себе богатства собирать и при этом славу получить и согласию пре-пятствовать» (4, д.6, л.29).

В результате такой вражды в государстве сложилось сразу несколько феодально-племенных группировок, ведущих борьбу за верховную власть, в ходе которой происходили небольшие перегруппировки сил, прослеживался переход некоторых ханов в лагерь противника, а иногда в самые решающие моменты – в ходе боя или во время похода. Главной причиной в сохраняющейся вплоть до конца XVIII века политической нестабильности в государстве явилась борьба между основными претендентами на шахский престол, а именно родственниками Керим хана Зенда (2, 31-32), предводителями тюркского племени Гаджаров и потомками Надир шаха Афшара.

Преодоление хозяйственно-экономической разрухи было важнейшим условием для восстановления былой мощи иранского государства, однако осуществление этого оказалось не под силу правящим кругам, т.к. вместо укрепления военно-экономического потенциала государства, каждый из претендентов на шахский престол не отказывался от притязаний на территорию Южного Кавказа и в первую очередь азербайд-жан-ские области, что было весьма ощутимо при правлении Гаджаров.

Единственным преимуществом у являвшегося одним из наиболее слабых среди всех государств-претендентов, ведущих борьбу за Южный Кавказ – Ирана, было то, что азербайджанские земли некогда входили в состав этого государства, и в отдельные моменты противоборства между Российской и Османской империями последним приходилось считаться «с правом» Ирана на вышеупомянутые территории.

Начиная с середины 50-х годов XVIII века, больших успехов как во внутриполитической жизни, так и в проведении внешней политики, стало добиваться Губинское ханство. Еще в период правления Гусейн Али хана к Губинскому ханству были присоединены Сальяны. С приходом же к власти видного государственного деятеля Фатали хана (1758-1789) к Губинскому ханству было присоединено и Дербентское ханство. Бла-годаря его умелой политике, для завоева-ния Дербентского ханства, Фатали хану удалось привлечь к военному походу некоторых южно-дагестанских правителей, в том числе Шамхала Тарковского, уцмия Караайтага Амир Хамзу и других (3, с.39). Так, в 1759 году войска союзников, в результате двух-месячной осады овладели Дербентом, после чего губинский хан, ослепив дербентского правителя Мухаммед Хусейна, отправил его вместе с пятилетним сыном Али беком сначала в Губу, а затем в Баку, где дербент-ский хан и находился до самой смерти – 1768 года, а его сын Али бек пребывал в Бакинском ханстве до 1796 года (9, ч.II с.250). Сразу после взятия Дербентское ханство было упразднено, а сам город Дербент стал вторым политическим и административным центром Губинского ханства. М.Биберштейн, посетивший Азербайджан в конце XVIII века, писал, что Фатали хан и его приемники «всегда смотрели на Дербент, как на самое значимое владение» (6, с.35).

После присоединения Дербента Фатали хан остановил свой выбор на богатом природными ресурсами, а также являвшемся крупным центром торговли в бассейне Каспийского моря – Бакинском ханстве. Так, в 1766 году губинский хан, выдав в жены бакинскому Мелик Мухаммед хану свою сестру Хадидже-бике (21, л.5 об.; 9, с.251), смог поставить в зависимость Бакинское ханство. Следует отметить, что Хадидже-бике была умной женщиной и обладала твердым и властным характером и, став женой бакинского хана, фактически одна стала управлять ханством и проводить в жизнь диктуемую братом политику. Несколько позже между губинским и бакинским ханами было заключено соглашение, согласно которому последний признавал себя вассалом Фатали хана (10, ч.2, с.83-84). Таким образом, если ранее бакинский хан платил Фатали хану подати деньгами, продуктами и поставлял воинов для охраны границ ханства от напа-дений лезгин и вторжения соседних ханов, то после женитьбы и заключения упомянутого соглашения Мелик Мухаммед хан освобож-дался от выплаты податей, а был лишь обязан поставлять войска, снабженных провиантом и в случае необходимости оказывать необхо-димую поддержку Фатали хану (3, с.45). Характерно и то, что переговоры с графом Войновичем по вопросау защиты прав русс-ких купцов, притесняемых Мелик Мухаммед ханом, в качестве полномочного правителя Бакинского ханства вел именно Фатали хан губинский.

Заполучив важнейшие в экономическом, политическом и военно-стратегическом отношении земли от западного побережья Каспийского моря до устья реки Куры, Фа-тали хан приступил к захвату одного из крупных и богатых ханств – Шемахинского ханства. В этой связи следует указать, что после падения государства Надир шаха на территории Шемахи образовалось двоевлас-тие: в новой Шемахе была установлена власть Хаджи Мухаммеда, который ранее служил сборщиком налогов в казну шаха (5, с.155), а в остальной части ханства утвер-дилась власть сыновей разбогатевшего круп-ного феодала Аскер-бека – Мухаммед Сеид хана и Агаси хана (1, с.21). Двоевластие в Шемахинском ханстве продолжалось вплоть до 1765 года, в связи с чем А.Бакиханов отмечал, что «в 1178 (1765) году Мухаммед Сеид хан и Агаси хан, сыновья Аскер бека, получившие от векиля (т.е. от Керим хана Зенда – Г.Р.) титулы ханов, овладели горо-дом Агсу и убили Хаджи Мухаммед Али хана, человека, любившего пышность и спо-койную жизнь» (5, с.159). Прекрасно понимающий важность Шемахинского ханства Фатали хан в 1765-1767 годах проводил активную политику, направленную на установление своего влияния в Шемахинском ханстве. Так, в 1767 году губинский хан, войдя в союз с Гусейн ханом шекин-ским и собрав внушительные силы, чис-ленно превосходящие войска Мухаммед Сеид хана и Агаси хана, приступил

к штурму города. По этому поводу российский консул М.Суляков доносил, что мобилизация и продвижение союзнических войск были столь стремительными и быстрыми… шемахинским ханам не оставалось даже времени организовать оборону (4, д.12, л.84). Таким образом, Старая Шемаха, не выде-ржав осады противника в июле 1768 года, сдалась без боя (3, с.220) и была присоединена к Губинскому ханству. Примерно в то же время войска Фатали хана овладели расположенной южнее Шемахи между реками Кура и Аракс территорией Джавадского ханства (9, ч.I, с.253).

As shown above, the geological prospecting in the 1944-1947 section of the Caspian Sea Oil Rocks, of engineer-geologist Agagurban Aliyev was successful, and in February 1948 a group of oil workers was sent here. After Aghagurban Aliyev, Baba Babazade, Sabit Orujov, Ali Amirov, Suleyman Vezirov, Yusif Jafarov, Anvar Alikhanov, Alekper Suleymanov, Fuad Samadov and other specialists proved scientifically the presence of rich oil deposits in this part of the sea, the government of the republic provided comprehensive assistance to oil workers. In fact, the main purpose of the Caspian oil fields operation was to create a powerful fuel base for the rehabilitation of the devastated territories of the country, which had suffered severe losses from the war, and the creation of new economic areas. Despite the strong forecasts of Azerbaijani oil scientists and geologists, at the level of the leadership of the former USSR Ministry of Oil Industry, claims were raised that had no scientific or substantive basis, to prevent the creation of a new and promising economic sector in the Azerbaijan SSR. The main premise of the allegations is that the Absheron Peninsula and the Caspian sector of Azerbaijan do not have oil and that there is no need to create new oil industry fields. The nature of this groundbreaking claim, and why it has become a subject of debate at the highest level of government, has been of particular interest. Acquaintance with archival documents confirms that, on the eve of the commissioning of the "Oil Rocks", the adviser to the former Minister of Petroleum of the USSR N.R.Baybakov in 1948 A.G.Helkvist (August Germanovich Helkvist, a Soviet citizen of Sweden, worked in various positions at the Azneftkombinat in the 1940s. Since 1947 he has been the referent of N.K.Baybakov. He is assumed to be associated with the Nobel family – J.B.) invites Azneft's chief geologist, B.G.Bazazade, to Moscow. At a meeting with the senior officials of the oil industry in Baku on July 29, 1954, with the participation of N.R.Baybakov, Minister of Oil Industry of the USSR, Mr. Babazade remembers his meeting with A.G.Helkvist in 1948: "We focus our attention on the offshore fields, because we did not have any other resources besides the Absheron fields. I would like to bring to your attention an important issue at a meeting of activists held here. For reasons unknown to me, A.G.Helkvist opposed the use of offshore oil fields and wanted to stop the work at sea and in Absheron. I met with him while in the ministry in Moscow and he asked me how we were doing. He was no longer the chief geologist, but was the minister's assistant. He invited me into his office and said during a conversation with me that I have said so long and I repeat that there is no oil in the sea. Let's write a letter to Baybakov, the minister, to destroy the work on the sea, because nothing is there. That was in 1948. At the time, the development of offshore exploration was on the agenda. I told him that I could not do this because I fully believe that there are rich offshore oil fields. Helkvist told me that the rich oil fields are in Kirovabad (Ganja –J.B.) and Shamakhi. Why do I say this? Because for a long time, Helkvist was trying to forward Bagirov to Kirovabad and Shamakhi" [3, v.145]. It is necessary to say that the head of the republic takes up this issue and called the Minister N.K.Baybakov and demanded that he not "put his nose" in the oil business of Azerbaijan, expressing very harsh words.

In June 1949 preparations for the first well drilling on the island began; For this purpose (for the purpose to create an operating site for drilling on the island –J.B.) the ship "Chvanov" has been brought to the island and submerged at the required point. In 1949-1951, six additional ships, removed from the balance of "Khazartanker" (Caspian Tanker) and "Khazardonanma" (Caspian Fleet) enterprises (it is as summed including the well-known Zoroastr ships of the Nobels among them), were brought to the island and submerged in half to protect the island from wind and waves and artificial gulf was created. Boats and warehouses of ships are used as a dining room, medical center, bedrooms and other purposes for drill brigade members. Thus the artificial "Seven Ships Island" is being created here. In the following years, this work is still underway and the total number of ships sinking around the island reaches 20. On August 24, 1949, for the first time in

the world, the first well began drilling on a small island in the middle of the open sea 60 km away from the coast by the brigade of master Mikhail Kaverochkin. On November 7, 1949, a well with a depth of 1,100 meters gush an oil fountain with a daily oil output of 100 tons [8, s.17]. The second well drilled by another oilman Gurban Abbasov, the Socialist Labor Hero, and with the same production figures, was put into operation in the first half of the 1950 s.

Thus, in 1949, the legendary Oil Rocks field was discovered, which gave impetus to the development of offshore oil production not only in Azerbaijan but also in the oil producing countries of the world.

## References


1. ARİİSSA, fond 1, siyahı 28, sax.vah.199, v.2
2. ARPİİSSA, fond 1, siyahı 232, iş 3, vərəq 18-30.
3. ARPİİSSA, fond 1, siyahı 282, iş 11, vərəq 145.
4. Azərbaycan tarixi. VII cild. Bakı, 2008, s. 94, httr://www/wikiwand.com. Население Азербайджана.
5. Azərbaycan tarixi. VII cild. Bakı, 2008, s. 96.
6. Rəhmanov R., A.Rəhimov. Xəzər və neft. Bakı, Azərnəşr, 1961, s.110-111.
7. Rəsulov A. Neft uğrunda Azərbaycan Kommunist Partiyasının mübarizəsi. Bakı, 1991, s.101.
8. Амиров А.Дж. Морские нефтянники лауреат государственной премии. Баку, 1961, с.17.
9. Мирзоев М.А. На шельфе Каспия. Баку, 1995, с.38.
10. Народное хозяйство Азербайджанской ССР. С., 359.
11. Русско-Польские связи в области наук о земле. Москва, 1975, с.64-70.
12. Султанов Чапай. История не любит сослагательного наклонения и все же… Баку, Çaşıoğlu. 2011, стр. 9.
13. Чуев Ф.И. Солдаты империи: Беседы, Воспоминания, Документы. Москва, 1998, с.174.


## Xülasə

**Cəbi Bəhramov**

## AZƏRBAYCANIN XƏZƏR NEFTİNİN HASİL OLUNMASINA BAŞLANILMASI TARİXİ (1825-1949)

Məqalə 150 ilə yaxın bir dövr ərzində Xəzər dənizi suları təkində neft yataqlarının praktiki olaraq aşkar edilməsi, XIX əsrin əvvəllərindən başlayaraq dənizin Bibiheybət və Pirallahı bölgələrindən kustar üsulla çıxarılmasından başlayaraq, XIX əsrin sonunda bu məqsədlə irəli sürülən layihələr, Bibiheybət bölgəsində XX əsrin 20-ci illərinin sonuna qədər görülən işlər və neftin hasil edilməsi, 1944-cü ildən başlayaraq SSRİ dövlətinin və respublika hökumətinin qəbul etdiyi qərarların həyata keçirilməsi və o cümlədən 1949-cu ildə Xəzərdə Neft Daşları yatağının istifadəyə verilməsi məsələləri tarixi xronoloji ardıcıllıqla öz əksini tapmışdır. Müəllif zəngin faktiki materiallar və indiyədək elmi dövriyyə cəlb edilməmiş yeni arxiv sənədləri əsasında problemin elmi həllinə nail olmuşdur.

***Açar sözlər:*** *Bibiheybət buxtası, Mərdəkan dəniz, A.G.Helkvist*

## Резюме

**Джаби Бахрамов**

## ИСТОРИЯ НАЧАЛА ДОБЫЧИ НЕФТИ НА КАСПИИ (1825-1949 )

Статья посвящена истории открытия морских нефтяных месторождений, первым попыткам добычи нефти кустарным способом на Биби-Эйбатском участке моря и на острове Пираллахи, а также первым проектам по добыче, предложенные на Биби-Эйбате по добыче нефти в 20-30 годы XX века, решениям Советского правительства по сдаче в эксплуатацию морских нефтяных месторождений с 1944 по 1949 гг.

Автор при написании статьи использовал фактические материалы и неопубликованные архивные источники.

***Ключевые слова****: Биби-Эйбатская бухта, Мардакян море, А.Г.Хельквист*

UOT 902

**NƏCƏF MÜSEYİBLİ**
*Tarix elmləri doktoru, professor*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini*
*necef_museibli@mail.ru*
*Azərbaycan*

# SOYUQBULAQDA XALKOLİT VƏ İLK TUNC DÖVRÜ KURQANLARINDA ARXEOLOJİ QAZINTILAR

***Açar sözlər:*** *kurqanlar, Xalkolit, İlk Tunc, saxsı qab qəbri, Leylatəpə mədəniyyəti*

Azərbaycan ərazisində son illər aparılan geniş miqyaslı arxeoloji qazıntıların böyük bir qismi yeni tikinti sahələrində reallaşdırılan tədqiqatlardır. Belə araşdırmalar zamanı müxtəlif tarixi mərhələlərə aid abidələr, o cümlədən kurqan tipli qəbir abidələri öyrənilmişdir. 2017-ci il qazıntıları zamanı Ağstafa rayonunun Soyuqbulaq kəndindən şimalda yerləşən, əvvəllər məlum olan son Xalkolit dövrünə - e.ə. IV minilliyin birinci yarısına aid kurqan çölündə bir neçə qəbir abidəsi və kəndin şərqində aşkar edilmiş İlk Tunc dövrünə aid bir kurqan tədqiq edilmişdir.

Cənubi Qafqaz Boru Kəməri Ağstafa rayonunun Soyuqbulaq kəndi yaxınlığındakı kurqan çölündən keçir. Bu kəmərin genişləndirilməsi ilə əlaqədar aparılan tikinti işləri layihəsi çərçivəsində müəllif rəhbərlik etdiyi ekspedisiya 2017-ci ilin fevral ayında burada Xalkolit dövrü kurqanları, iyul ayında isə İlk Tunc dövrü kurqanında  arxeoloji qazıntı işləri aparmışdır.

## Xalkolit dövrü kurqanları

Qafqazda ən qədim kurqanlar olan Leylatəpə mədəniyyətinə aid Soyuqbulaq kurqanlarında ilk arxeoloji qazıntılar müəllif tərəfindən 2005-ci ildə aparılmış, 2009-cu ildə davam etdirilmişdir. Həmin illərdə burada 21 kurqan qazılmışdır (5). Son qazıntılar zamanı bu nömrələmə davam etdirilmişdir. Soyuqbulaq kurqanları son xalkolit dövrünə - e.ə. IV minilliyin birinci yarısına aiddirlər. Kurqanlar hündür olmayan daş örtüyünə malikdirlər. Ərazi əkin sahəsi kimi istifadə edildiyindən bu daş örtüklərin ilkin vəziyyəti dəyişmişdir. Buna görə də kurqanların olduğu yeri seyrək çay daşları, qəbir kameralarını isə nisbətən yığcam daş yığımı ilə müəyyən etmək mümkün olmuşdur .

***22 №-li kurqan.*** Bu kurqanın örtüyündən yalnız seyrək səpələnmiş daşlar qalmışdır. Qəbir kamerasının əlamətlərini bildirən 2,2X1,6 m ölçüdə daş yığımı aşkar edilmişdir. Əvvəlki kurqanlarda olduğu kimi bu kurqanın da qəbir kamerası şimali-qərb - cənubi-şərq istiqamətli olmuşdur. Kamera 90 sm dərinlikdə qazılmışdır. Kameranın cənubi-şərq küncündə, 30 sm dərinlikdə yığcam tökülmüş oxra qalıqları, cənub divarı dibində oxra və qara kül qalıqları aşkar edilmişdir. Qəbir kamerasının şimali-qərbində 40 sm dərinlikdə təmiz gildən hazırlanmış kiçik ölçülü qırmızı rəngli qabın ağız kənarının fraqmenti aşkar edilmişdir. Kameranın döşəməsində, cənubi-şərq hissədə insanın yanaşı qoyulmuş bud və baldır sümükləri, onların arasında qara rəngli mineraldan hazırlanmış 2 ədəd uzunsov muncuqlar aşkar edilmişdir. Sümüklərlə yanaşı uzunsov, yastı (2,5 sm qalınlığında) əhəngdaşı parçası (ola bilsin ki, məqsədli şəkildə qəbirə qoyulmuş) aşkar edilmişdir. Qəbirdə insana məxsus digər sümüklər və başqa maddi mədəniyyət qalıqları aşkar edilməmişdir.

***23 №-li kurqan*** (Şəkil 1.1). Kurqanın örtüyü pərakəndə dağılmış seyrək çay daşlarından ibarət idi. Mərkəzi hissədə 30 sm dərinlikdən başlayaraq daşları sıx düzülmüşdür. Bu daşların arasında qırmızı rəngli saxsı qab fraqmentlərinə rast gəlinirdi. 90 sm dərinlikdə qazılmış qəbir kamerası məhz bu daşların altında aşkar edilmişdir. Şimali-qərb – cənubi-şərq istiqamətli, oval şəkilli qəbir kamerasının ölçüləri 1,4X1 m olmuşdur. Qəbrin içərisində, 60 sm dərinlikdə, şərq divarı dibində kiçik qara qab fraqmentləri aşkar edilmişdir. 70 sm-dən başlayaraq insan

skeletinin hissələri aşkar edilmişdir. Kəllə sümüyü cənubi-şərqdə idi. İnsan sümükləri çoxlu sayda çay daşları ilə birgə aşkar edilirdi. Qəbirin döşəməsinə doğru çay daşları daha da sıxlaşırdı. İnsan sümüklərinin çoxu, o cümlədən kəllə sümüyü daşların üzərində idi. Sümüklərlə eyni səviyyədə, qəbirin mərkəzi hissəsində və kəllə sümüyü ətrafında qırmızı rəngli qab fraqmentləri aşkar edilmişdir. Kameranın şimali-şərq divarı dibində sümüklərlə yanaşı tünd çəhrayı rəngli, üstü hamar, yastı dairəvi daş aşkar edilmişdir.

Demək olar ki, bütün sümüklər qəbirdə olduğu halda onlar nizamsız, pərakəndə vəziyyətdə aşkar edilmişlər. Çox ehtimal ki, Soyuqbulağın digər bir sıra qəbirlərində olduğu kimi burada da kənarda çürümə nəticəsində sümüklər ətdən tam azad olduqdan sonra qəbirdə dəfn edilmişdir (və yaxud təkrar dəfn icra olunmuşdur).

Kurqanın qəbir kamerasının üst daşları arasında üzərində işlənmə əlamətləri olan iki ədəd daş aşkar edilmişdir. Birinci daş qonur rəngli çay daşından hazırlanmış Paleolit dövrünə aid çopper tipli alətdir. Yastı ovalvari daşın hər iki sonluğunda və bir yanında iki üzdən qəlpələr qoparmaqla üç işlək ağız düzəldilmişdir (Şəkil 1.2).

İkinci daş yastı-ovalvari qum daşıdır (Şəkil 1.3). Daşın bir yan tərəfində iki üzdən vurub qoparmaqla kiçik işlək ağız düzəldilmişdir. Belə daşlar Leylatəpə mədəniyyətinə aid II Poylu yaşayış yerindən aşkar edilmişdir (2).

***4 №-li bu saxsı qab qəbri***. Tədqiq edilən kurqanlarla yanaşı bir sahədə (ehtimal ki, bura dağıdılmış kurqanın örtüyü olmuşdur) 40 sm dərinlikdə 60X60 sm ölçüdə çay daşları yığımı altında iri küp aşkar edilmişdir. 85 sm dərinlikdə 70X55 sm ölçüdə yastı çay daşlarının düzümü üzərində küp ağzı cənuba olmaqla şimal-cənub istiqamətində yanı üstündə uzadılmış və ətrafı daşlarla bərkidilmişdir. Küpün ağzı yastı daşla qapadılmışdır. Küpün içərisində, dibə doğru alt divarında qara kül izləri müşahidə edilirdi. 2005-ci il qazıntıları zamanı bu sahədə körpə uşaqların dəfn edildiyi bir neçə saxsı qab qəbri qazılmışdır (9). Həmin qəbirlərdən fərqli olaraq bu küpün içərisində skelet aşkar edilməmişdir. Fikrimizcə Soyuqbulaqda 4 №-li dəfnin imitasiya edildiyi bu saxsı qab qəbri Leylatəpə mədəniyyətinə aid bu tipli ilk kenotaf qəbirdir. Eyni zamanda bu dəfn abidəsi Azərbaycan ərazisində bizə məlum olan ən qədim kenotaf qəbirdir.

Qırmızı rəngli dəfn küpü düz ağızlı olub, qum qatışıqlı gildən əldə kobud hazırlanıb. Altı yuvarlaqdır. Ağız ortası xaricə az qabarıq, sonluğu isə daxilə meyllidir. Küpün ağzının diametri 23 sm, gövdəsinin diametri 39 sm, hündürlüyü isə 48 sm-dir.

## İlk Tunc dövrü kurqanı

CQBKG xəttinin 409.33-cü km-də yerləşən İlk Tunc dövrü Soyuqbulaq kurqanı 2017-ci ilin 15 iyununda boru kəməri dəhlizi torpağının üst münbit qatının qaşınmasına nəzarət zamanı arxeoloq Ş.Nəcəfov tərəfindən aşkar edilmişdir.

Kurqan Ağstafa rayonu ərazisində, Soyuqbulaq kəndinin şərqində, N-8523826; E-4576645 koordinatlarda, CQBKG marşrutunun 409.33-cü km-də yerləşirdi.

İlk Tunc dövrü Soyuqbulaq kurqanı Gəncə-Qazax bölgəsində bu dövrə aid qazılmış azsaylı kurqan abidələrindən biridir. Bütün bu tədqiq edilmiş abidələr Kür-Araz Mədəni-Tarixi Birliyinə aiddirlər. İlk Tunc dövrünə aid kurqanlar 2005-ci ildə BTC və SCP boru dəhlizinin 332 və 333-cü km-də, Şəmkir rayonu ərazisində tədqiq edilmişdir (4; 10).

Bölgədə boru kəmərləri dəhlizindən kənardakı digər sahələrdə də İlk Tunc dövrünə aid kurqan abidələri qazılmışdır. Bunlardan Göygöl, Şəmkir, Goranboy və Tovuz rayonları ərazisindəki kurqanları qeyd etmək olar (6; 7; 1; 3). İlk Tunc dövrü Soyuqbulaq kurqanı bütün bu kurqanlarla eyni tarixi mərhələyə aiddir.

Sahənin relyefi düzənlikdir. Ərazi uzun illərdir ki, əkin yerləri kimi istifadə olunmaqdadır. Abidənin aşkar olunması məqamında kəmər dəhlizinin bütün sahəsinin üst qatı texnika vasitəsi ilə silinib götürülmüşdür. Ətraf sahələrə baxış keçirilən zaman başqa bir kurqana və ümumiyyətlə hər hansı arxeoloji abidəyə rast gəlinmədi.

Tədqiqatın başlanmasına qədər tikinti şirkətinin texnikası vasitəsilə kurqanın ətrafının torpağı 30-40 sm qalınlığında silinib götürülmüşdür. Buna görə də kurqan örtüyünün ilkin diametri barədə məlumat yoxdur. Örtüyün demək olar ki, kvadrat şəklində saxlanmış ölçüləri şimal-cənub istiqamətində 7,8 m, şərq-qərb istiqamətində 9 m, saxlanmış hündürlüyü isə 50 sm təşkil edirdi. Kurqanın örtüyü sıx tökülmüş çay daşlarından ibarət olmuşdur. Ş.Nəcəfov abidəyə baxış keçirən

zaman bu örtük daşları arasında paleolit dövrünə aid qırmızı rəngli çaxmaq daşdandan hazırlanmış qaşov tipli alət aşkar etmişdi.

Qazıntı işləri şimal-cənub istiqamətində 50 sm enində stratiqrafik divarla kurqan örtüyünün şərq və qərb sektorlarına bölünməsi ilə başlandı. Sonra hər bir sektorun daşları hissə-hissə təmizlənərək götürüldü. Şərq sektorunda daşlar nisbətən seyrək idi. Mərkəzi hissədə 10-15 sm dərinlikdə obsidian qəlpələri aşkar edildi.

Qərb sektorunun üst qat daşları təmizlənərkən cənub hissədə 60X60 sm ölçüdə yanıq/ocaq qalığı aşkar edildi. Yanmış təbəqə qalın deyildi və görünür alov uzun müddətli olmamışdır. Eyni zamanda bu yanmış sahənin kurqan örtüyünün qurulması ilə sinxron olmasına da əminlik yoxdur. Qərb sektorunun şimalında, örtük daşları arasında qədim Paleolit dövrünə - Aşel mərhələsinə aid alət - əl çapacağı aşkar olundu. Bundan əlavə, kurqan örtüyünün mərkəzi hissəsində çay daşından Paleolit dövrünün Aşel mərhələsinə aid çopper tipli iki alət aşkar edilmişdir.

Qərb sektorunun cənub kənarında 10-15 sm dərinlikdə saxsı qab fraqmentləri aşkar edildi. Bunlar qum qatışıqlı gildən hazırlanmış qabların fraqmentləri olub tez ovulurlar. Bu saxsı parçalarının üstü qırmızı-çəhrayı, daxili isə tünd qara rənglidir. Həmin dərinlikdə, sektorun qərbində bir neçə obsidian alətlər və qəlpələr, çaxmaqdaşından bir ədəd bıçaq tipli alət aşkar edildi.

Qərb sektorunda kurqan örtüyünün 15-20 sm qalınlığında üst daşlarının götürülməsindən sonra qəbir kamerasının izləri müşahidə edilməyə başlandı. Həmin sahədə çay daşlarının arasına dolmuş narın, yumşaq torpağı tünd olub ətrafın bərk və açıq rəngli torpağından seçilirdi. Kamera şimali-şərq – cənubi-qərb istiqamətli olub bu səviyyədə 3,8 X 2 m ölçülərə malik idi (Şəkil 2.1). Kameranın ətrafını bərk çınqıllı torpaq əhatə edir, içərisi isə iri daşlarla doldurulmuşdur və torpağı yumşaq idi.

Kurqan örtüyünün saxlanmış 50 sm hündürlüyü götürüldükdən sonra qədim yer səthi ilə eyni səviyyədə, qəbir kamerasının cənub küncündə bir ədəd saxsı qab hissələrə parçalanmış vəziyyətdə aşkar edildi. Ətrafı daşlarla möhkəmləndirilmiş qab qara-qırmızı rəngli olub qum qatışıqlı gildən hazırlanıb. Zəif bişirildiyindən tez ovulur. Qabın üstü qara, daxili isə qırmızı rənglidir. Qeyri-bərabər temperaturda bişirildiyindən boğaz hissəsinin xarici səthi açıq qonurdur. Silindrik boğazlı qabın ağız kənarının sonluğu xaricə zəif qabarıqdır (Şəkil 2.2).

Qəbir kamerası (Şəkil 2.1) tam təmizləndikdən sonra onun bütün ölçülərini müəyyənləşdirmək mümkün oldu. Kameranın uzunluğu 2,85 m, eni 2,2 m olmuşdur. Kameranın cənubi-qərb tərəfdən girişi – dromosu vardır və bu dromosun eni 1,3 m, kameraya doğru istiqaməti isə 90 sm təşkil edirdi. Qəbir kamerasının dərinliyi 1,2 m-dir. Bu dərinlikdə kameranın şimali-şərqində insan skeleti aşkar edildi. Dəfn meyitin başı cənuba olmaqla sol yanı üstdə, qolları və ayaqları bükülü vəziyyətdə icra olunmuşdur. Skeletlə birgə tuncdan hazırlanmış kiçik ölçülü xəncər tipli alət və 3 ədəd nazik metal (ehtimal ki, gümüş) məftildən aypara şəkilli əşyalar (ola bilsin ki, paltara tikmə və ya bəzək əşyaları) aşkar edildi (Şəkil 2. 3-4). Kameranın döşəməsində, cənub küncdə oxra aşkar edildi.

İlk Tunc dövrü Soyuqbulaq kurqanının xronologiyası həm arxeoloji, həm də radiokarbon üsulla müəyyən edilmişdir. Belə ki, dromoslu, iri ölçülü qəbir kameraları məhz ilk tunc dövründən etibarən bölgədə yayılmağa başlamışdır. Qəbir kamerasından aşkar edilmiş arxeoloji materiallar – saxsı qab və tunc bıçaq məhz İlk Tunc dövrü üçün səciyyəvi tapıntılardır. Qazıntı zamanı aşkar edilmiş insan skeletinin dişinin radiokarbon analizi (bax: Cədvəl) e.ə. IV minilliyin sonu-III minilliyin əvvəlini göstərmişdir ki, bu da qəbir kamerasından aşkar edilmiş arxeoloji materialların tarixi və tipoloji xüsusiyyətlərinə uyğundur.

## Paleolit dövrü tapıntıları

Soyuqbulaqda İlk Tunc dövrü kurqanının örtüyündən aşkar edilmiş Paleolit dövrü daş alətlər aşağıdakılardır (bu alətlərin təhlilində köməkliyə görə Paleolit dövrü üzrə mütəxəssis M.Mansurova təşəkkürümüzü bildiririk):

1. Andezit cinsli daşdan hazırlanmış əl çapacağı (Şəkil 3.1). Alət (bifas) ikiüzlü işlənmişdir Hər iki üzü qabarıqdır. Uzun müddət torpaqla təmasda olduğuna görə bir səthində (alt üzündə) ağ əhəng çöküntüsü müşahidə edilir. Üst üzü daha qabarıqdır. Əl çapacağın sol yanının aşağısı ikinci işlənməyə məruz qalmayıb. Amma yuxarısı fasetlər qoparmaqla işlənmişdir.

Alətin sağ yanı isə bütövlükdə əvvəlcə iri qəlpələr vurub götürməklə, sonra isə fasetlərlə

işlənərək dişəklənmişdir. Alətin aşağısının yarıdan çoxu qalın və qabarıqdır.

Alt üzünün həm küp həm də sağ yanı yenə küp hissəni də əhatə etməklə iri qəlpəciklər qoparmaqla nazikləşdirilib və iti işlək ağız alınmışdır. Alt üzün sol yanı itiləyici qəlpəciklər qoparmaqla itilənmişdir.

Alətin üst üzdən sol yanı sınmışdır. Sağ yanı dalğalı, sol yanı isə düz xətt şəklində olub nisbətən hamardır. Üst üzünü sarımtıl-boz rəngdə ərp örtmüşdür. Alt üzdə isə ərpdən əlavə qalın əhəng çöküntü örtüyü müşahidə olunur. Sonluğu hər iki üzdən qoparmalarla itiləndirilib. Morfoloji xüsusiyyətlərinə, ölçülərinə görə, ikinci işlənmə texnikasına əsasən qədim Aşel dövrü üçün səciyyəvidir.

2. Çay daşından hazırlanmış çopper tipli alət (Şəkil 3.2). Yarımdairə formalı alət hər iki üzdən qabarıqdır. Tutacaq hissəsi təbii qabıqda olub qalındır. İşlək ağız hissə böyük yarımdairəni xatırladır. Alətin sol yarısında 4 pilləli ikinci işlənmədən qalmış qoparma yerləri var. Çopperin işlənmiş səthi yuxarı olaraq aşkar edilmişdir. Buna görə də Günəşin davamlı təsirində alətin üst mərkəzi hissəsi qaralıb. Üst səth daha qabarıq olduğundan əvvəlcə iri qəlpələr qopardılmış, ikinci növbədə orta ölçülü qəlpəciklər qoparılmış, sonda isə ağız hissəsini iti şəklə salmaq üçün nazikləşdirici fasetlərlə işlənmişdir. Qədim Aşel dövrünün erkən mərhələsinə aiddir.

3. Qum daşından hazırlanmış çopper tipli alət (Şəkil 3.3). Oval yastı daşın yuxarı, qalın enli ucu üst üzdən əvvəlki qoparmalarla, sonra fasetlər vasitəsi ilə işlənmişdir. Alətin üst üzü nisbətən qabarıq, alt üzü isə yastıdır. Yanları və aşağı ucu əzmə/sürtmə məqsədilə istifadə olunduğundan qabığının tökülərək aşındığı müşahidə edilir. Alt yastı üzü əhəng çöküntüsü ilə örtülmüşdür. İşlək uc çıxıntılı olub itidir. Qədim Aşel dövrünə aiddir.

4. Qırmızı çaxmaqdaşından iki yanlı hündür qaşov (Şəkil 3.4). Alt üzü hamar, üst üzü isə qabarıq olub təbii qabıqlıdır. Aşağı (qalın) sonluğunda vurma səthinin qalığı var. Hər iki yanı pilləli dişəklənib. Daha çox işlənmə alətin aşağı yarısının çox hissəsini əhatə etmişdir. Sol yanı iri pulcuqlarla, sonra isə xırda retuşlarla dişəklənib. Sağ yanı qabarıq olub iki pilləli dişəklənib. Alt üzdə vurma səthinə yaxın yastı zərbə düyümü müşahidə olunur. Mustye dövrünün əvvəlinə - 200-250 min il əvvələ aid etmək olar.

## Nəticə

Soyuqbulaqda son Xalkolit dövrü kurqanları 2004-cü ildə aşkar edilmiş və 2005-ci ildə burada ilk arxeoloji qazıntılar aparılmışdır (9). Bu qəbir abidələri Cənubi Qafqazda ən qədim kurqanlar olub Leylatəpə mədəniyyətinə aiddirlər. Öz növbəsində bu mədəniyyət mənşə etibarilə Şərqi Anadolu-Şimali Mesopotamiya ilə sıx bağlıdır. Lakin bir arxeoloji mədəniyyət olaraq Cənubi Qafqazda – Azərbaycanın qədim ərazisində formalaşmışdır. Bu dövr kurqanları Yaxın Şərqdə, o cümlədən Şərqi Anadolu-Şimali Mesopotamiyada məlum deyildir. O dövrdə Yaxın Şərqdə vəfat etmiş insanları bilavasitə yaşayış məskənlərinin hüdudlarında dəfn edirdilər. Həmin regiondan Cənubi Qafqaza köç etmiş qədim tayfalar burada yeni coğrafi məkanlarda məskunlaşırdılar. Bu zaman vəfat etmiş tayfa üzvlərinin qəbirlərinin yerinin itməməsi üçün onun üstünə çoxlu daşlar tökürdülər. Bununla da Cənubi Qafqazda ilk kiçik ölçülü kurqan tipli qəbirlər meydana çıxırdı. Bu nekropolda son tədqiq edilmiş qəbirlər də həmin kurqanlar sırasındandır.

Orta Kür hövzəsində, Azərbaycan Respublikasının Gəncə-Qazax bölgələrində İlk Tunc dövrünə aid kurqanlar üçün əsas səciyyəvi cəhətlərdən biri, Soyuqbulaq kurqanında olduğu kimi, onların dromosa – girişə malik olmasıdır. Eyni zamanda yerüstü, qədim horizontda qurulmuş qəbir kamerası olan kurqan da aşkar edilmişdir. Bu dövr kurqanlarında həm kütləvi, həm də tək dəfnlər aşkar edilmişdir. Kurqanların quruluşunda, dəfnlərdəki belə fərqlər həm xronoloji aspektlə, həm də müxtəlif ərazilərdəki əhalinin dəfn adətləri amilləri ilə bağlı olmuşdur. İlk Tunc dövrü Soyuqbulaq kurqanı bu elmi problemin gələcək araşdırılmalarında daha geniş tədqiqatlar üçün gərəkli informasiya mənbəyidir.

Paleolit dövrünə aid əmək alətləri İlk Tunc dövrü Soyuqbulaq kurqanının örtüyünün qurulması zamanı ətrafdan digər daşlarla birgə yığılıb atılmışdır. Ehtimal ki, həmin ətraf sahədə Paleolit dövrünə aid açıq tipli düşərgənin qalıqları olmuşdur. Lakin kurqanın arxeoloji qazıntısının başlanması anında yaxın ətraf sahələrin üst qatı texnika vasitəsi ilə qaşınıb götürüldüyündən belə bir düşərgənin əlamətlərinin mövcudluğunu müəyyən etmək mümkün olmadı. Ümumiyyətlə, Azərbaycanın qərb bölgəsi, xü-

susilə də Ağstafa rayonu ərazisi üçün açıq tipli Paleolit düşərgələri səciyyəvidir (8).

**Ədəbiyyat siyahısı**


1.Cəlilov B.M. Göygöl-Goranboy arxeoloji ekspedisiyasının Goranboy rayonu ərazisində apardığı tədqiqatlar // Azərbaycanda arxeoloji tədqiqatlar – 2011. Bakı, 2012.

2. Müseyibli N. Gəncə-Qazax bölgəsindəki Leylatəpə mədəniyyəti abidələrinin daş məmulatı // AMEA-nın "Xəbərləri" tarix, fəlsəfə, hüquq seriyasi. №1-2. Bakı, 2010.

3.Helwing B., Aliyev T., Lyonnet B., Guliyev F., Hansen S., Mirtskhulava G. The Kura Projects. New research on the Later Prehistory of the Southern Caucasus//Archaologie in Iran und Turan, Band 16. Berlin, 2017.

4.Museyibli N., Najafov Sh., Hajili Z. Early Bronz Age Shamkirchai Kurqan // Материалы международной конференции «Археология, этнология, фольклористика Кавказа». Тбилиси, 2010.

5.Museibli N. The grave monuments and burial customs of the Leilatepe culture. Baku, 2014.

6.Гуммель Я.И. Некоторые памятники раннебронзовой эпохи Азербайджана /КСИИМК, вып. XX, 1948.

7.Кесаманлы Г.Л., Джафаров Г.Ф., Бабаев И.А. Работы Шамхорского отряда // Археологические открытия 1977. Москва, 1978.

8.Мансуров М.М. Нижний палеолит Западного Азербайджана. Баку, 2020.

9.Мусеибли Н.А. Позднеэнеолитические курганы Акстафинского района / Материалы международной научной конференции «Археология, этнология, фольклористика Кавказа». Баку, 2005.

10.Мусеибли Н.А. Курганы Шамкирчая эпохи ранней бронзы // Кавказ. Археология и этнология. Международная научная конференция. Материалы. Баку, 2009.


## REPORT OF RADIOCARBON DATING ANALYSES

David Maynard — Report Date: January 21, 2018

Landsker Archaeology — Material Received: December 27, 2017

| Laboratory Number | Sample Code Number | Conventional Radiocarbon Age (BP) or Percent Modern Carbon (pMC) & Stable Isotopes<br>Calendar Calibrated Results: 95.4 % Probability High Probability Density Range Method (HPD) | |
|---|---|---|---|
| **Beta - 483546** | **SCPX Sample 35** | **4380 +/- 30 BP** | IRMS δ13C: -17.2 o/oo<br>IRMS δ15N: +12.1 o/oo |

**(80.3%) 3036 - 2913 cal BC (4985 - 4862 cal BP)**
**(15.1%) 3090 - 3045 cal BC (5039 - 4994 cal BP)**

| | |
|---|---|
| Submitter Material: | Tooth |
| Pretreatment: | (tooth collagen) collagen extraction; with alkali |
| Analyzed Material: | Tooth collagen |
| Analysis Service: | AMS-Standard delivery |
| Percent Modern Carbon: | 57.97 +/- 0.22 pMC |
| Fraction Modern Carbon: | 0.5797 +/- 0.0022 |
| D14C: | -420.31 +/- 2.16 o/oo |
| Δ14C: | -424.99 +/- 2.16 o/oo(1950:2017) |
| Measured Radiocarbon Age: | (without d13C correction): 4250 +/- 30 BP |
| Calibration: | BetaCal3.21: HPD method: INTCAL13 |
| Carbon/Nitrogen: | CN : 3.3 %C: 41.91 %N: 14.67 |

İlk tunc dövrü Soyuqbulaq kurqanının radiokarbon analiz cədvəli




Şəkil 1. 23 №-li kurqan. 1 - qəbir kamerası; 2 - kurqan örtüyündən paleolit dövrünə aid çopper; 3 - kurqan örtüyündən daş alət




Şəkil 2. Soyuqbulaq İlk tunc dövrü kurqanı və aşkar edilmiş arxeoloji materiallar




Şəkil 3. Soyuqbulaq İlk tunc dövrü kurqanının örtüyündən aşkar edilmiş paleolit dövrünə aid daş alətlər

## Summary

**Najaf Museibli**

### Archaeological excavations in Chalcolithic and Early Bronze Age kurgans in Soyuqbulaq

In 2017, archaeological excavations were carried out in kurgan monuments near Soyuqbulaq village of Agstafa region as part of the project for expansion of South Caucasus pipeline. The excavations were carried out both in Chalcolithic kurgans of Leilatepe culture located in the northern part of the village of Soyuqbulaq and known since 2005, where more than 20 kurgans were excavated, as well as in a newly discovered Early Bronze Age kurgan in the east of the village.

Two kurgans related to the Late Chalcolithic era -- the first half of the 4th millennium B.C (No. 22, 23) were excavated. Because of the many years sowing, the kurgan covers were destroyed. Some fragments of human skeleton, fragments of pottery and 2 beads of black mineral were found in the burial chamber of kurgan No. 22. In burial chamber of kurgan No. 23, a human skeleton and ceramic fragments were discovered. Although almost all parts of the human skeleton were in the grave, its anatomical position was sparse. It is possible that there was carried out reburial here. Moreover, imitation of the jar burial (kenotaph grave) was found in the kurgans' area. The jar placed on flat stones arranged purposefully on its side is also encircled by stones to make it sound. But no skeleton was found inside it. In previous years, three children graves were found in pottery jars.

The cover of the Early Bronze Age kurgan was also somewhat destroyed. The grave chamber has an entrance - a dromos. A man was buried on the left side in the grave. In the upper part of the chamber, a pottery broken into small pieces, and a small dagger was found at the same level as the skeleton. Radiocarbon analysis realized based of human bones indicated end of the 4th millennium-early 3rd millennium BC. A few stone tools dating back to the Paleolithic period were found in the kurgan cover. Apparently the stones of the neighboring Paleolithic camp were also used during the construction of the kurgan cover.


***Keywords:*** *kurgans, Chalcolithic, Early Bronze Age, jar burial, Leilatepe culture*


## Резюме

**Наджаф Мусеибли**

### Археологические раскопки Союгбулагских курганов периодов халколита и ранней бронзы

В рамках археологических работ, связанных со строительством по расширению Южно-кавказского Газопровода, в 2017 г. раскопаны курганы около сел. Союгбулаг Акстафинского района. Раскопки проводились на позднехалколитическом (перв. пол. IV тыс. до н.э.) курганном поле к северу от Союгбулаг, где впервые курганы изучены еще 2005 г. Кроме того на востоке села раскопан один курган периода ранней бронзы.

Археологически исследованы два кургана периода халколита (№№ 22, 23). Территория долгие годы использовалась под посевы, в результате чего разрушены насыпи курганов. В кургане № 22 выявлены несколько частей человеческого скелета, фрагменты керамики и 2 бусины из черного минерала. В могиле кургана № 23 обнаружены скелет и фрагменты керамических сосудов. Несмотря на то, что почти все кости скелета выявлены в этой могиле, од-

нако расположение их было хаотичным. Вероятно, здесь проводилось повторное захоронение. Кроме того на курганном поле выявлено захоронение в сосуде, вернее имитация (кенотаф) захоронения ребенка. В кувшине, уложенном на бок на специально выложенных плоских камнях и подкрепленном по периметру такими же камнями, кости не обнаружены.

Насыпь кургана ранней бронзы тоже частично разрушена. В могильной камере с дромосом совершено одиночное захоронение на левом боку. В верхней части камеры выявлен сосуд, разрушенный на фрагменты, а рядом со скелетом – металлический кинжал маленького размера. Радиокарбонные анализы на основе человеческих костей дали дату конец IV - нач. III тыс. до н.э. В насыпи кургана обнаружены несколько каменных орудий палеолитического периода. Вероятно, по близости находилась стоянка периода палеолита и в сооружении кургана использованы и камни этой стоянки, следы которых к началу раскопок не сохранилась.

***Ключевые слова:*** *курганы, халколит, раняя бронза, погребение в сосуде, лейлатепинская культура*

UOT 902

**VƏLİ BAXŞƏLİYEV**
*AMEA-nın müxbir üzvü*
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu*
*velibahshaliyev@mail.ru*
*Azərbaycan*

# AZƏRBAYCANIN NEOLİT MƏDƏNİYYƏTİNİN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *Cənubi Qafqaz, Azərbaycan, Naxçıvan, Neolit dövrü, Dalmatəpə mədəniyyəti, basma naxışlı keramika*

XXI əsrin əvvəlindəAzərbaycanda aparılan arxeoloji araşdırmalar nəticəsində Son Neolit və Eneolit dövrünə aid xeyli yeni tapıntılar əldə edilmişdir (1, s. 20; 7, c. 108-121). I Kültəpə (11, s. 26-41), Molla Nağı Təpəsi (16, c. 40-50), Göytəpə (30, p. 279-294), Kamiltəpə (5, s. 335-341), Menteş Təpə (28, p. 1-190), İsmayılbəytəpə (2, s. 74-82), Nahçıvantəpə (3, s. 4-30) və digər yaşayış yerlərində (28, p. 1-190) aparılan araşdırmalar zamanı əldə edilən tapıntılar Azərbaycannın Neolit və Eneolit dövrü mədəniyyətlərinin müxtəlif mərhələlərini öyrənməyə imkan verir. Azərbaycannın Neolit dövrü mədəniyyətləri başlıca olaraq e.ə. VII-VI minilliklərə aid edilmişdir (11, c. 32). Azərbaycanın şimalında Gəncə və Qazax bölgələrində yayılan, qum qarışıq keramikanın çoxluq təşkil etdiyi Neolit dövrü mədəniyyəti Şomutəpə mədəniyyəti (4, s. 32-38), Azərbaycanın cənubunda Naxçıvanda meydana çıxan, Kür və Araz çayları arasında, Mil-Muğan çöllərində yayılan saman qarışıq keramikanın çoxluq təşkil etdiyi Neolit mədəniyyəti isə Kültəpə mədəniyyəti (4, s. 38-58). E.ə. VI minilliyin birinci yarısına aid edilən Şomutəpə mədəniyyəti Gürcüstan və Ermənistanın da bir hissəsini əhatə etdiyindən bu mədəniyyət qafqazşünas arxeoloqlar tərəfindən Şomu-Şulaveri (18, c. 97; 28, p. 2), Şulaveri-Şomutəpə (28, p. 85), Arataşen-Şulaveri-Şomutəpə (27, p. 11) kimi adlarla da təqdim edilmişdir. Naxçıvanda, I Kültəpədə aparılan araşdırmalar bu yaşayış yerinin Cənubi Qafqazın ən qədim Neolit abidəsi olduğunu göstərmişdir. I Kültəpənin alt qatlarından götürülən kömür nümunəsinin C 14 analizi e.ə. 6372-5200 illəri göstərmişdir (11, c. 32).

Kültəpə yaşayış yeri üçün dairəvi formalı evlər xarakterikdir (Şəkil 1). I Kültəpədə aşkar olunan arxeoloji materialların əksəriyyəti keramika məmulatından ibarətdir. Keramika başlıca olaraq narın saman qarışığı olan gildən hazırlanaraq qırmızı rəngin müxtəlif tonlarında bişirilmişdir. Keramika nümunələrinin kəsiyində boz və qara rəngli təbəqə izlənməkdədir. Əksəriyyəti anqoblanan və cilalanan keramika nümunələri küpə, çölmək, banka və kasa tipli qabların parçalarından ibarətdir. I Kültəpə keramikasının yaxın bənzərləri Şomutəpə (7, c. 369-384), Molla Nağıtəpəsi (16, c. 40-50), Göytəpə (14, c. 26-30), Hacı Firuz (31) və digər abidələrdən məlumdur.



**Şəkil 1.** I Kültəpə yaşayış yerindəki dairəvi formalı ev

*Cədvəl 1*

**I Kültəpə yaşayış yerindən götürülmüş karbon nümunələrinin analizinin nəticələri**

| | *Sampl İD* | *Sample* | *Radiocarbon Age (BP)* | *$\delta^{13}C$ (‰)* | *Date BC (95,4%)* |
|---|---|---|---|---|---|
| 1 | Kultepe –F149 E294 | LTL16900A | 7361 ± 55 | -27.9 ± 0.6 | 6372-6084BC |
| 2 | Kultepe14-C034 | LTL15113A | 7099 ± 50 | -21.1 ± 0.6 | 6070-5880BC |
| 3 | Kultepe14-C032 | LTL15114A | 7065 ± 50 | -19.9 ± 0.5 | 6040-5840BC |
| 4 | Kultepe14-D004 | LTL14936A | 7042 ± 45 | -22.8 ± 0.6 | 6014-5836 BC |
| 5 | Kultepe-2013-B-006 | LTL14890A | 6926 ± 45 | -18.6 ± 0.2 | 5903-5720 BC |
| 6 | Kultepe-2013-B-035 | LTL14889A | 6374 ± 50 | -24.4 ± 0.4 | 5473-5293 BC |
| 7 | Kultepe14-A057 | LTL14939A | 6420 ± 45 | -25.5 ± 0.3 | 5475-5320 BC |
| 8 | Kultepe14-A072 | LTL14940A | 6355 ± 45 | -23.9 ± 0.6 | 5468-5399 BC |
| 9 | Kultepe13 AO12 | LTL14035A | 6462 ± 45 | -26.6 ± 0.5 | 5490-5320 BC |
| 10 | Kultepe14-C021 | LTL14937A | 6548 ± 45 | -19.6 ± 0.5 | 5616-5466 BC |
| 11 | Kultepe14-P1,002 | LTL14935A | 6477 ± 45 | -21.3 ± 0.6 | 5520-5341 BC |

Küpələr bir neçə nümunə ilə təmsil olunub. Onlar silindrik boğazlı olub ağız kənarları xaricə qatlanmışdır. Küpələrdən birinin boğazı məməcikşəkilli ornamentlə naxışlanmışdır (Şəkil 2, 1). Bu tip ornamentlə naxışlanmış keramika Qadaşirili qora (26, fig.7), İmiris qora (23, abb. 40, 13) və Şomutəpədən (7, таблица 209, 5/526) məlumdur.

Kasa tipli qabların olduqca müxtəlif formaları vardır. Onların bəzisi qabarıq gövdəli olub, ağız kənarları xaricə qatlanmışdır (Şəkil 2, 2). Digərlərinin isə ağız kənarı içəriyə qatlanmışdır (Şəkil 2, 3; Şəkil 3, 7). Bu tip kasalar Hacı Firuz (31, fig. 83,O) və Şomutəpədən (7, таблица 205, 4/548) məlumdur. Üçüncü tip kasalar konusvari formaya malik olub ağız kənarları dəyirmiləşdirilmişdir (Şəkil 2, 4-6). Bu tip kasaların müxtəlif tipləri Hacı Firuzdan (31, fig. 75, b, p, q) məlumdur. Bu tip kasa, yaxud tabaqların qədim nümunələri Tel əs Savan yaşayış yerindən məlumdur (29, p.133, fig. 91). Yaxın Şərq ölkələrindəki abidələrdə həmçinin bu tip kasaların boyalı nümunələri də vardır. Bu tip kasalar Arpaçiya, Yunus və Tel Xalafdan (29, p.133, fig. 93) məlumdur. Araşdırmalar göstərir ki, bu tip kasalar Naxçıvan ərazisində uzun müddət ərzində istifadə olunmuşdur. Bu tip kasalar Naxçıvanda Erkən, Orta və Son Eneolit abidələrindən məlumdur (10, рис. 5, 14). Silindrik formalı kasalar da (Şəkil 2, 7; Şəkil 3, 5) Yaxın Şərq nümunələri ilə bənzərdir. Bu tip kasalar Hacı Firuz yaşayış yerindən məlumdur.




**Şəkil 2.** I Kültəpənin Neolit dövrü keramikası



**Şəkil 3.** I Kültəpənin sadə və relyef ornamentli keramikası

Keramika məmulatı arasında banka tiplilər və qazan tiplilər çoxluq təşkil edir (Şəkil 1, 8). Keramika nümunələrinin bəzisinin ağzının kənarında kiçik dairəvi deşik açılmışdır (Şəkil 2, 9-10). Bu tip keramika həmçinin O.Həbibullayevin tədqiqatları zamanı I kültəpənin “1a” və “1b” təbəqələrindən məlumdur (6, c. 59). Onlar formaca Hacı Firuzdan aşkar olunan nümunələrlə bənzərdilər (31, fig. 74, f, g). Belə keramika nümunələri Xatunarx yaşayış yerindən də məlumdur (22, fig. 9-3, 1, 4, 6). I Kültəpə keramikasının bəzi nümunələri relyef kəmərlə əhatə olunmuşdur (Şəkil 2, 11-12). Qeyd etmək istəyirik ki, relyef kəmərlə əhatələnmiş keramika Cənubi Qafqaz abidələrində çox az rastlanır. Lakin Danqreuli qora keramikasında ilanşəkilli relyef ornamentə rast gəlinmişdir (23, abb. 19, 15). Keramika nümunələrinin birinin silindrik şəkilli lüləyi vardır (Şəkil 2, 13). Bu tip lüləkşəkilli çıxıntılar da Cənubi Qafqaz keramikasında az rastlanır. Lakin bu tip bu tip lülələr Yaxın Şərq abidələrindən, xüsusilə Fiala (29, p.133, fig. 78) və Mersindən (29, p.129, fig. 74) məlumdur.

Bəzi keramika nümunələrinin qulaqcıqşəkilli relyef ornamentləri vardır (Şəkil 2,14). Məlum olduğu kimi bu tip ornament Cənubi Qafqaz abidələrində geniş yayılmışdır. Onlar Şomutəpə (7, c. 56, таблица 209 и 210;), Xatunarx (22, fig. 9-2, 5-11) Göytəpə və Aruxlodan (25, fig. 9, 1-2) məlumdur.

Qazan tipli qablar qabarıq gövdəlidir (Şəkil 3, 1-3, ). Onların bəzisinin ağzının kənarında yuvarlaq deşiyi, bəzilərində isə qulaqcıqşəkilli çıxıntı var.

Aşkar olunan keramika nümunələri göstərir ki, qablar başlıca olaraq bir qədər xaricə çıxıntılı yastı oturacağa malik olmuşdur. Bəzi qabların oturacağı olduqca kobud hazırlanmışdır. Oturacaqlar Cənubi Qafqazın, o cümlədən Azərbaycanın Neolit qablarının oturacağı ilə bənzərdir. Bu tip oturacaqlı qablar I Kültəpənin “1a” təbəqəsindən (6, tablo 20, 1-4), Şomutəpədən (18, Рис. 10; 7, таблица 211-216), Molla Nağıtəpəsindən (16, таблица VI, 3-6) və digər yaşayış yerlərindən məlumdur. Bəzi qabların oturacağı içə doğru batıqdır (Şəkil 3, 4). Bu tip qablar Hacı Firuzdan məlumdur (31, fig.91, n).

I Kültəpə keramikasının Cənubi Qafqaz ın, o cümlədən Azərbaycanın Neolit abidələrindən

aşkar olunan keramika ilə müəyyən qədər bənzər olmasına baxmayaraq I Kültəpədə keramika nümunələri formaca özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Fikrimizə görə bu, bir tərəfdən Kültəpə keramikasının müstəqil və yerli inkişafı ilə, digər tərəfdən isə Kültəpə keramikasının arxaikliyi ilə bağlı olmuşdur. Çünki Kültəpə keramikası e.ə. VII minilliyin ikinci yarısına aid olduğu halda, digər abidələrin keramikası e.ə. VI minilliyin əvvəlləri ilə tarixlənir.




**Şəkil 4.** Naxçıvantəpənin basma və qabartma naxışlı keramikası

I Kültəpədə və Cənubi Qafqazın, o cümlədən Azərbaycanın digər yaşayış yerlərində keramikasız Neolit dövrü aşkar edilmədiyindən bu bölgənin Neolit dövrü mədəniyyətlərinin mənşəyi ilə bağlı fərqli fikirlər söylənmişdir. Sovet tədqiqatçıları Cənubi Qafqazın əkinçimaldar tayfalarının Şimali Mesopotamiyadan gəldiyini söyləmişdir (15, c. 407). Hazırda tədqiqatçıların bir qismi Cənubi Qafqazın Neolit mədəniyyətinin yerli Mezolit əsasında inkişaf etdiyini (30, p. 279-294), digərləri isə hazır şəkildə Şimali Mesopotamiyadan gətirildiğini söyləmişdir (7, c. 98). I Kültəpədə aparılan araşdırmalar zamanı Xalaf tipli boyalı keramikanın aşkar olunması Mesopotamiya ilə əlaqələrin olduğunu təsdiq etməkdədir (18, 159-160). Ancaa arxeoloji araştırmalar Son Neolit dövründə Azərbaycanda yayılan Şomutəpə və Kültəpə mədəniyyətlərinin Şimali Mesopotamya mədəniyyətlərindən fərqli olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Azərbaycanda Daş dövrünün bütün mərhələləri Alt Paleolitdən başlayaraq Mezolit dövrünədək kəsintisiz şəkildə öyrənilmişdir. Keramikasız Neolitin indiyədək aşkar olunmaması yaşayış yerlərinin kifayət qədər tədqiq olunmaması ilə bağlı olmuşdur.

Digər tərəfdən araşdırmalar Cənubi Qafqazın Yaxın Şərqlə əlaqələrinin tək tərəfli olmadığını, Cənubi Qafqaz mədəniyyətlərinin də Yaxın Şərqə təsir etdiyini göstərir.

Son illər aparılan arxeoloji araşdırmalar Azərbaycanın Neolit dövrü mədəniyyətinin inkişaf xüsusiyyətlərini öyrənməyə imkan vermişdir. E.ə. VI minilliyin ikinci yarısında Naxçıvan, Gəncə və Qarabağ bölgəsinin Neolit mədəniyyətində ortaq xüsusiyyətlər meydana gəlmişdir. Azərbaycanın Qarabağ bölgəsindəki Son Neolit dövrü yaşayış yerlərində aşkar olunan keramika məmulatının bir qismi basma na-

xışlılardan ibarətdir. Naxçıvantəpədə aparılan araşdırmalar bu tip keramikanın Naxçıvantəpənin Neolit dövrü təbəqəsi üçün də xarakterik olduğunu göstərir (Şəkil 4). Məlum olduğu kimi basma naxışlı keramika Şimal Qərbi İranda (İran Azərbaycanı) yayılan Dalmatəpə mədəniyyəti üçün xarakterikdir. Mesopotamiya və İran mədəniyyətlərindən fərqli olan bu mədəniyyətin mənşəyi şübhəsiz ki, Cənubi Qafqazla, xüsusilə Azərbaycanla bağlıdır. Çünki bu regionda basma naxışlı keramikanın ən qədim nümunələri hələlik Qarabağ və Naxçıvan abidələrindən məlumdur.

*Cədvəl 2*

**Naxçıvantəpə yaşayış yerindən götürülmüş karbon nümunələrinin analizinin nəticələri**

| **№** | **Sampl İD** | **Sample** | **Radiocarbon Age (BP)** | **δ$^{13}$C (‰)** | **Date BC (95,4%)** |
|---|---|---|---|---|---|
| 1 | NA-2019-1240 | LTL19695A | 6102±45 | -23.2 ± 0.4 | 5209-4930BC |
| 2 | NB-2019-2277 | LTL19694A | 6028 ± 45 | -22.1 ± 0.3 | 5038-4799 BC |
| 3 | NA-2019-1253 | LTL19693A | 5967 ± 45 | -21.2 ± 0.4 | 4959-4725BC |
| 4 | NB 2019- 2278 | LTL19696A | 5951 ± 45 | -30.8 ± 0.6 | 4941-4722 BC |
| 5 | NB-2017-2095 | LTL17636A | 5956 ± 45 | -25.9 ± 0.5 | 4945-4722 BC |
| 6 | NA-2018-1165 | LTL18624A | 5724 ± 45 | -20.3 ± 0.1 | 4686-4464 BC |
| 7 | NA-2018-1179 | LTL18625A | 5777 ± 40 | -23.1 ± 0.5 | 4720-4529 BC |

Fikrimizə görə, Cənubi Qafqazın zəngin xammal mənbələri, digər tərəfdən Qarabağ və Naxçıvanın bir-birinə yaxın coğrafiyada yerləşməsi Azərbaycanın cənub bölgələri ilə Şimal Qərbi İran (İran Azərbaycanı) arasında sıx əlaqələrin yaranmasına və bu bölgədə mədəniyyətlərin formalaşmasına önəmli təsir etmişdir.

Məlum olduğu kimi, Cənubi Qafqazda , xüsusilə Zəngəzur və Dərələyəz dağlarında zəngin xammal mənbələri vardır. Bunlar arasında qədim insanlar üçün ən önəmlisi mis və obsidian yataqları idi (13, c. 7-216; 9, c. 16-29). Şimal Qərbi İranda (İran Azərbaycanı) odsidian yataqları olmadığından (19, p. 107-118) bu bölgədə yerləşən qəbilələr Cənubi Qafqazın obsidian yataqlarından istifadə etmişlər. Qədim dövrdə obsidian Şimal Qərbi İranın (İran Azərbaycanı) əkinçi-maldar tayfaları üçün önəmli olduğundan onlar Cənubi Qafqazla Yaxın Şərq ölkələri arasında əlaqələrin formalaşmasında mühüm rol oynamışdır. Tədqiqatlar göstərir ki, Şimal Qərbi İrandakı (İran Azərbaycanı) yaşayış yerlərində istifadə olunan obsidianın 95%-i Naxçıvantəpədən 45 kilometr şimalda yerləşən Zəngəzur yataqlarından gətirilmişdir (24, p. 1956-1965). Araşdırmalar Naxçıvan və Qarabağın yaşayış yerlərində daha çox Zəngəzur və Göyhasar obsidianından istifadə olunduğunu göstərir (12, c. 257-258). Analizlər göstərir ki, Mil düzünün yaşayış yerlərində obsidianın 33%-i, Muğanda Əliköməktəpəsində isə 85%-i Zəngəzurdan gətirilmişdir (12, c. 258). Şimal Qərbi İranda Xoy vadisi yaşayş yerlərində istifadə olunan obsidianlar başlıca olaraq Nemrut Dağ (15 adet) və Zəngəzurdan (8 adet) gətirilmişdir (20, p. 41-60). Dəvə Göz yaşayış yerində də Zəngəzur obsidianından istifadə üstünlük təşkil edir (21, p. 756-767). Naxçıvantəpədə istifadə olunan obsidianlar əsasən Göyçə (14 adet), Zəngəzur (16 adet) və Şərqi Anadoludan (5 adet) gətirilmişdir. Şimal Qərbi İran, Mil düzü və Naxçıvanın Neolit və Eneolit yaşayış yerlərində istifadə olunan obsidianların analizi onların bir qisminin Şərqi Anadoluda yerləşən Meydan Dağdan gətirildiyini göstərir. X.Alməmmədovun verdiyi məlumata görə Mil düzündə yerləşən İsmayılbəytəpə yaşayış yerində Sarıqamış obsidianı da istifadə olunmuşdur. Araşdırmaların nəticəsi göstərir ki, Şimal Qərbi İran, Qarabağ və Naxçıvanda məskunlaşan qədim tayfaların ortaq nöqtəsi Cənubi Qafqazın xammal mənbələrindən istifadə edilməsi olmuşdur. Ehtimal ki, Naxçıvanın strateji baxımdan əlverişli mövqedə yerləşməsi obsidianın Urmiya hövzəsində yerləşən yaşayış məskənlərinə daşınması üçün önəmli rol oynamışdır. Qa-

rabağla Naxçıvan arasındakı əlaqələr etnoqrafik dəlillərlə təsdiq olunur. Şübhəsiz ki, Azərbaycanın cənub bölgələri ilə Urmiya hövzəsi arasındakı əlaqələr Dalmatəpə mədəniyyətinin formalaşmasını şərtləndirmişdir.

**Ədəbiyyat siyahısı**

1. Alməmmədov X. Qarabağın arxeoloji abidələri toplusu, Bakı: Çap Art, 2016, 448 s.

2. Alməmmədov X.İ., Quluzadə N.V. Qarabağ neolit-eneolit ekspedisiyasının apardığı arxeoloji tədqiqatların qısa hesabatı / Azərbaycanda arxeoloji tədqiqatlar 2012. Bakı:Nafta-Press, 2013, s. 74-82

3. Baxşəliyev V., Quliyeva Z. Həşimova T., Mehbalıyev K., Baxşəliyev E. Naxçıvantəpə yaşayış yerində arxeoloji tədqiqatlar, Naxçıvan: Əcəmi, 2018, 264 s.

4. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası, Bakı: Elm, 2007, 240 s.

5. Əliyev T.R., Helving B., Ricci A. Azərbaycan-Almaniya beynəlxalq ekspedisiyasinin çöl tədqiqatlarının hesabatı / Azərbaycanda arxeoloji tədqiqatlar 2012, 2013, Bakı:Nafta-Press, s. 335-341.

6. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, 1959. 134 s.

7. Ахундов Т.И. У истоков Кавказской цивилизации. Неолит Азербайджана. Шомутепе. Баку: Наука, 2012. 386 с.

8. Бахшалиев В.Б. Исследование энеолитических памятников Сирабчайской и Нахчыванчайской долин / Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic-Late Bronze Age. Baku, 2017, с. 108-121.

9. Бахшалиев В. Древняя металлургия и металлообработка на территории Нахчывани. Баку:Элм, 2005,120 с.

10. Бахшалиев В.Б. Новые энеолитические памятники на территории Нахчывана // Российская Археология, 2014, № 2, с. 88–95

11. Бахшалиев В.Б., Маро К., Бертон Р., Кулиева З. Археологические раскопки на поселении Кюльтепе / Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic-Late Bronze Age. Baku, 2017, с. 26-41.

12. Бадалян Р. С., Кикодзе З. К., Коль Ф. Л. Кавказский обсидиан: источники и модели утилизации и снабжения (Результаты анализов нейтронной активации). Историко-филологический журнал,1996, № 1-2, с. 245-264

13. Иессен А.А. К вопросу о древнейшей металлургии меди на Кавказе // Известия Государственной Академии Истории Маеериальной Культуры. М.-Л., 1935, 120, с. 7-216

14. Гулиев Ф., Гусейнов Ф., Алмамедов Х. Раскопки неолитического поселения VI тыс. до н. э. на холме Гойтепе (Азер-байджан) // Материалы международного симпозиума «Азербайджан – страна, связывающая восток и запад. Обмен знаниями и технологиями в период «первой глоба-лизации» VII-IV тыс. до н. э.». Баку: German Embassy, 2009. С. 26-30.

15. Массон В.М. Средняя Азия и Древний Восток. Москва-Ленинград: Наука, 1964

Наиболее подробно роль техники и технологии в трансформации мировоззрения человека изложил канадский философ и социолог М. Маклюэн. Любое изобретение является выражением и расширением (*extension*) внешней проекции наших физических тел и чувств. Даже обычное применение технологии, согласно Маклюэну, подвергает человека постоянным модификациям, в результате чего он пытается найти все новые и новые способы ее дальнейшего усовершенствования [11, с. 207]. Технические изменения, стало быть, перестраивают не только наши жизненные ориентиры, но и миросозерцание. В качестве примера Маклюэн приводит «психическое следствие» любой новой технологии, приводящее к неминуемому спросу на нее: ни у кого не возникает потребности в автомобиле, пока автомобилей нет. В этом, по его мнению, заключается особый «талант» технологии – создавать свой собственный мир, в котором человек неосознанно принимает безоговорочную капитуляцию.

Интенсивные процессы информатизации общества, характеризующиеся созданием новых средств связи, формированием общедоступных баз данных, также сталкивают дифференциальные культуры и традиции в системе мирового обмена материального и духовного опытов. В свою очередь, это влечет за собой унификацию идеалов и взглядов, универсализацию и стандартизацию культур. Т.е. информационные технологии, превратившись в ключевой фактор прогресса, способствуют формированию «массовой культуры» в локальном и глобальном масштабах. И если культура в общем понимании является смысловым гарантом целостности человека, то сегодняшняя культура погружает индивида в хаотическое состояние, растворяя его в новой многомерной реальности.

Тщательный анализ феномена массы как единства толпы предложил Г. Лебон. Согласно ему, масса составляет свое мнение в целом, которое не является мнением ни одного отдельного человека – «общественное мнение», заставляющее их чувствовать, думать и действовать совершенно иначе, чем думал бы, действовал и чувствовал каждый из них в отдельности [9, с. 92]. «Массовость» бытия порождает чувство несвободы, в связи с чем возрастает волнение о своей экзистенции. Человек стремиться вырваться из толпы, ибо не хочет более быть инертной частью массы, «вещью среди вещей». Парадокс заключается в том, что, выходя из оков стереотипного мышления большинства, индивид зачастую делается бездумным элементом новой массы, ибо даже самые смелые кандидаты в «индивидуалисты» зачастую являются частью толпы в меньших масштабах. Ибо сегодняшний человек стремиться выделиться из толпы, даже если это противоречит его сущностной природе. Сегодня *модно* быть не таким как все! Так происходит, потому что «у человека нет прочных моральных устоев…, никто толком не понимает, что хорошо, а что плохо, что справедливо, а что – нет. Границы морали стираются, а правила поведения становятся зыбкими, непостоянными и являются предметом манипуляций» [17]. Ключевую роль здесь играет демонстративность: поступки и действия теряют всякий смысл, если этого не видят окружающие. Маскарад эпохи модернизма (обменивать *быть* на *казаться*) не закончен, он разыгрался с новой силой, а вместе с ним углубился и духовный кризис человека.

При этом симулякр как эрзац действительности настолько внедрен в нашу повсе-

дневную жизнь, что начинает абсорбировать объективную реальность. Нам начинает казаться, что мы на самом деле являемся тем, чем кажемся. В результате границы между реальностью и иллюзией становятся диффузными. В этом размывании границ Ж. Бодрийяр видит главную проблему трансформации человека. Будущее он обозначил как «запрограммированную реальность, в которой все наши физиологические и социальные функции (память, аффект, интеллект, сексуальность, работа) постепенно становятся бесполезными» [1].

И в то же время постмодернизм оголил проблему сохранения основополагающих принципов и ценностей гуманизма в условиях интенсификации технологизации человеческой природы. Как отмечает Ж. Бодрийяр, идеи и ценности хоть и совершенствуются с каждым годом, но утрачивают свой нравственный смысл, их больше невозможно идентифицировать: культура стала транскультурой, политика – трансполитикой, сексуальность – транссексуальностью, экономика – трансэкономикой, «все подверглось радикальному извращению».

Итак, присоединение индивида к толпе – есть верный путь к отрицанию личной ответственности, а стало быть, и нивелированию нравственных идеалов. Ибо мораль реализуется только свободно и сознательно, в обществе, где индивид не ориентируется на всех, не пытается не/быть как все, а живет в согласии с собой и в гармонии с другими. Фундаментальная моральная проблема современного мира видится нам именно в том, что человек в новой реальности утратил чувство индивидуальности и самоценности, превратившись в живой ресурс для достижения внешних целей. А в процессах глобализации утрачивается и идентичность национальных культур. Согласно профессору И. Мамед-заде, идентичность – это, в первую очередь, вопрос о взаимоотношении индивидов, групп индивидов, а кризис связан с необходимостью пересмотреть эти отношения [13, с. 129]. Академик Р. Мехтиев, учитывая глубокое влияние новейших технологий на культурную жизнь, приводящее к ее омассовлению, не раз подчеркивал необходимость бережного отношения к национальной культуре. В современных условиях данная постановка вопроса приобретает концептуальное значение, ибо обществам предоставляется возможность: быть объектом процесса – слепым и глухим потребителем инокультуры или же стать субъектом процесса – источником трансляции собственного культурного содержания [15, с. 343].

На кризис идентичности непосредственное влияние могут оказывать и современные биотехнологии, в том числе и искусственный интеллект. При этом надо понимать, что хотя большинство технологических новшеств создаются во благо и удобство человека, впоследствии они могут посягнуть на его безопасность или даже трансформироваться в устройство для его уничтожения. Биотехнологии, таким образом, вновь ставят перед нами не только извечный вопрос «Что есть человек?», но и такие острые вопросы, как «Где начинается человек и где появляется технология?».

Новейшие технологии приобретают «эффект бабочки», затрагивающий все стороны жизнедеятельности общества, в особенности, вопросы личной безопасности. В западных странах (Швеция, США) проводятся эксперименты по введению в организм человека различного рода микрочипов, датчиков, которые содержат всю биометрическую информацию о самом носителе, а также нанороботов или «умных протезов». Процессы кибернетического «протезирования» тела и сознания влекут за собой «инвалидизацию», ибо доверяя часть своих способностей машинам, человек фактически их атрофирует, заменяя искусственными механизмами, без которых уже не мыслит свое существование [5, с. 156]. Впоследствии это может перейти в реальную угрозу для биологического вырождения человечества.

Согласно философу Д. Дубровскому, наступление к середине XXI в. состояния динамического хаоса в связи с углублением антропологического кризиса, повлечет за собой либо деградацию и гибель всего человечества, либо выход на качественно новый уровень самоорганизации. Выход на новую

ступень может быть осуществлен или за счет преобразования биологической природы путем изменения целей и способов его жизнедеятельности, или за счет небиологической самоорганизующейся системы, т. е. трансгуманистических преобразований [1]. При этом кибернетический проект как результат технологической конвергенции антропогенетики, робототехники и наноинженерии, по мнению Д. Дубровского, предпочтительнее естественного [4, с. 53], предполагающего биологическую регенерацию, изменение генов (генетическая модификация), и, как следствие, увеличение продолжительности жизни, избавление от большинства генетических заболеваний. Однако и в первом, и во втором случае человек выходит за свои природные пределы, уверенно прокладывая себе путь к «сверхчеловеку». Но не к тому, о котором возвещал Ницше. «Сверхчеловек» Ницше – исключительно природное существо, свободная сильная личность, воспринимающая себя и мир через базовые инстинкты, через понятие воли к жизни и власти.

**Заключение**

Уже сегодня можно с уверенностью сказать, что какой бы путь человек не избрал для себя, он будет технологически оснащенным. Физик-теоретик С. Хокинг подчеркнул, что человек не в состоянии «остановить прогресс или обратить вектор его движения, поэтому мы должны признать его опасности и суметь контролировать их»[2]. Однако прежде чем научиться контролировать процессы прогресса необходимо ответить на крайне существенный вопрос: есть ли у современного человека надежда на освобождение от всех «смертей» («смерть» Бога, «смерть» субъекта, «смерть» идеи прогресса и т.д.)?

«Смерть Бога» ставит человека в кризисное положение. С одной стороны, она сталкивает нас с неопровержимой реальностью мира постоянных изменений, а с другой – лишает инструментов, которыми мы пользовались до сих пор, чтобы упорядочить этот мир, придать ему значение и ценность. А, стало быть, «смерть Бога» – это поворотный момент, который вынуждает нас искать новые ценности и новые средства [2, с. 43]. Однако, постмодернизм, отрицая универсальную систему координат, не дает при этом никаких ориентиров, что приводит к имплицитной неспособности формировать устойчивые модели деятельности и идентификации личности. Отвергая постмодернизм, нужно понимать, что взамен надо предоставить более разумную идеологию как способ управления реальностью. Мы не можем предложить человеку то, что уже имело опыт в истории, пусть даже самый лучший, ибо и оно когда-то было отвергнуто или на стадии отвержения (по крайней мере, в чистом, первозданном виде). Но мы можем интегрировать их, вобрать все лучшие ценности и убеждения и трансформировать в соответствии с современными реалиями. Но здесь возникает еще более острый вопрос: кто должен решать, какие ценности лучшие, а какие нет, кто должен делить убеждения на дурные и благонравные? Мы не хотим быть оригинальны и вернемся к Ницше: те, у кого власть. И в данном случае, *идеологическая* власть в руках философов-этиков. Как подчеркнул этик И. Мамед-заде «философия может стать языком междисциплинарных исследований, но для этого она сама должна по-новому понять себя, свое прошлое, с тем, чтобы предвидеть тенденции настоящего и будущего» [14]. Более того, философия играет не последнюю роль в формировании типа мышления и сознания, она не только способна, но и призвана искоренять зло из общества (насколько это возможно).

Но что противопоставить постмодернизму? Разумный реализм. Для этого, в первую очередь, нам необходимо «воскресить» субъект, попытаться не только принять реальные его проблемы, но и найти пу-

---

[1] Трансгуманизм – это приверженность к преодолению поставленных человеку пределов во всех их формах: к росту продолжительности жизни, к усилению интеллектуальных способностей, к достижению полного контроля над своей личностью и т.д.

[2] Hawking S. A Brief History of Time. London: Bantam, 2011. 256 p.

ти их разрешения. Существующие проблемы уже привели к переосмыслению социокультурного генома, что, в свою очередь, как предполагает философ В. Степин, «является первым шагом на пути к новому типу цивилизационного развития» [19, с. 8]. Процессы трансформации и модификации человека заставляют не только пересмотреть понятия о его сущности, свободе воли, о человечности в буквальном смысле этого слова, но и требуют формирования нового сознания, обусловленного объективной необходимостью рационального преобразования материальных и духовных ценностей.

Очевидно, что так или иначе технический прогресс создает зависимость от технологии, определяя фактор трансформации идентичности и самости человека. Однако, как неолуддизм[1], так и трансгуманизм одинаково радикальны. Целесообразным представляется учитывать воздействие зависимости и минимизировать угрозы для человека. В условиях неизбежного стремительного сокращения расстояния между «естественным» и «искусственным», в условиях, когда вопрос «как остаться человеком?» носит не гипотетический, а определенный характер, наиболее верным, на наш взгляд, является путь умеренного и соразмерного сосуществования человека и техники. Снять существующие противоречия возможно благодаря внедрению в науку новых взглядов и убеждений, основанных не на исключении новейших технологий из жизни человека или замене «естественного» «искусственным», а на их гармоничном гуманном взаимодействии. В свою очередь, роль техники должна принять гуманистическое измерение, приносить человеку пользу, ибо техника есть лишь средство, целью же является человек.

Сегодня, пожалуй, как никогда очевидно сосуществование этики и науки в едином пространстве. Научные достижения XX в. в корне изменили этическую парадигму. Ответ за этикой. Сегодня этика должна внести свои коррективы в науку, пересмотреть принципы ответственности ученых за последствия своих открытий, негативное влияние которых может сказаться не только на человеке, но и окружающем его мире. Вспо-минается знаменитый 11-й тезис о Фейербахе К. Маркса: «философы лишь различным образом объясняли мир, но дело заключается в том, чтобы изменить его». Хотя и объясняя мир по своему, можно определенным образом повлиять на ход его развития, современная духовная ситуация требует от нас более радикального подхода к видению мира и решению стоящих перед ним проблем. А именно – необходима всеобщая институционализация этической рефлексии, на основе которой будут приниматься решения по поводу создания и культивирования новых технологий. Мы призываем не быть «беспомощными винтиками в машине», а использовать технику во благо всего человечества.

[1] Неолуддизм – философское течение, подразумевающее критику внедрения научных технологий в повседневную жизнь человека

## Использованная литература

1. Бодрийяр Ж. Эстетика иллюзий, эстетика утраты иллюзий // Элементы, № 9, 2000.URL: http://arcto.ru/modules.php?name=News&file=article&sid=555 (дата обращения: 23.11.2019).

2. Дадашова С. Фридрих Ницше: по ту сторону религии и морали / История философии, том 25, № 1, М.: ИФ РАН, 2020. С. 39-48.

3. Джеймисон Ф. Постмодернизм, или культурная логика позднего капитализма / пер. с англ. Д. Кралечкина. М.: Изд-во Института Гайдара, 2019. 808 с.

4. Дубровский Д. Биологические корни антропологического кризиса. Что дальше? // Человек, № 6. М.: РАН, 2012. С. 51-54.

5. Емелин В. Человек технологический. Трансформация идентичности в условиях развития информационного общества // Философские науки, № 2, 2015. С. 154-157.

6. Кант И. Антропология с прагма-тической точки зрения / пер. Н. Соколова. СПб: Наука, 1999. 451 с.

7. Колин К. Информационная антропология: предмет и задачи нового направления в науке и образовании // Вестник КемГУКИ, 2011, № 17. С. 17-32.

8. Колин К. Философские проблемы информатики. М.: БИНОМ. Лаборатория знаний, 2010. 270 с.

9. Лебон Г. Психология народов и масс. Спб: Изд-во «Макет», 1995. 179 с. [Электронный ресурс] // URL: https://bookap . info/book/psihologiya_narodov_i_mass_1995/load/pdf.shtm (дата обращения: 25.02.2020).

10. ЛиотарЖ-Ф. Состояние постмодерна. Спб: Алетейа, 1998. 160 с.

11. Маклюэн М. Понимание медиа: Внешнее расширение человека / пер. В. Николаева. М.: «КАНОН-пресс-Ц», 2003. 464 с.

12. Мамардашвили М. Сознание и цивилизация. Тексты и беседы. М.: «Логос», 2004. 272 с.

13. Мамедзаде И. Введение в этику, Баку: Муаллим, 2004. 159 с.

14. Мамедзаде И. Междисциплинарные исследования: к философии понимания проблемы / Проблемы восточной философии, 2014 [Электронный ресурс] // URL: http://orientalphilosophy.org/nesrler/seminar/355-d-rfilos-n-prof-lham-mamedzade-mezhdisciplinarnye-issledovaniya.html (дата обращения: 15.01.2020).

15. Мехтиев Р. Национальная идея Азербайджана в эпоху глобальных трансформаций, в 2х кн., книга 2-ая. М.: РОССПЭН, 2017. 365 с.

16. Сабадаш Ю. «Новый гуманизм» А. Печчеи и глобальные проблемы: культурологический аспект // Вестник Полоцкого государственного университета. № 7, 2015. С. 100-104.

17. Соммэр Д. Мораль XXI века. М.: «ЭЛЬ-рекордс», 1995. 478 с.

18. Стариков Н. Технология уничтожения. Окна Овертона, 2014 [Электронный ресурс] // URL: https:// nstarikov. ru/tehnologiya-unichtozheniya-okno-overton-36349 (дата обращения: 01.02.2020).

19. Степин В. Цивилизация в эпоху перемен: поиск новых стратегий развития // Журнал Белорусского Государственного Университета, №3, 2017. С. 6-11.

20. Фуко М. Слова и вещи. Археология гуманитарных наук / пер. В. Визгина, Н. Автономовой, СПб.: А-са, 1994. 406 с.

21. Юдин Б. Человек: выход за пределы (сборник). М.: «Прогресс-Традиция», 2017. 620 с.

## Xülasə

**Samirə Dadaşova**

## ANTROPOLOJİ BÖHRAN: FƏLSƏFİ-ETİK DİSKURS

XX əsr dünya müharibələrinin saysız-hesabsız fəlakətlər və əzablarla təcəssümü olmuş, və təbii ki, fəlsəfi fikirlərin inkişafının xarakterinə təsir etmişdir. Ekoloji, demoqrafik və nüvə ilə bağlı qlobal problemlərlə yanaşı, bütün insan problemlərinin özəyini əks etdirən insanlığın qorunub saxlanılması preoritet təşkil etməlidir. Dünya sisteminin total texnolojiləşmə və qloballaşması şəraitində mənəvi böhran problemi xüsusi aktuallıq kəsb edir.

Bugünkü böhran ideologiyası kimi postmodernizm, ümumi koordinat sistemini rədd edərkən heç bir təlimat vermir, bu da sabit fəaliyyət modellərini və şəxsiyyət identifikasiyasını meydana gətirə bilməməsinə səbəb olur. İnsanın transformasiya və modifikasiya prosesləri təkcə onun mahiyyəti, azad iradəsi, insanlıq anlayışlarını sözün hərfi mənasında yenidən nəzərdən keçirməyə məcbur edir, həm də maddi və mənəvi dəyərlərin rasional çevrilməsinə obyektiv ehtiyac səbəbindən yeni bir şüurun formalaşmasını tələb edir. Yeni texnologiyaların yaradılması ilə bağlı qərarlar qəbul edilməsində ümumi etik institutlaşdırılmasına açıq bir ehtiyacı var. Postmodernizm əvəzinə reallığı idarə etməyin yeni bir yolu – realizm təklif edirik, real insan problemlərini qəbul etmək və onları həll etmək yollarını tapmağı çalışan universal etika.

***Açar sözlər:*** *antropoloji böhran, mənəvi böhran, texnoloji etika, postmodernizm, plüralizm, etik relyativizm*

**Summary**

**Samira Dadashova**

**ANTHROPOLOGICAL CRISIS: PHILOSOPHICAL-ETHICAL DISCOURSE**

The 20th century was the embodiment of world wars with their countless disasters and sufferings, which, of course, affect the nature of the development of philosophical ideas. Along with such global problems as environmental, demographic, nuclear, etc., the most important is the problem of preserving humanity, which is the main link of all other human problems. The moral crisis becomes particularly relevant in the context of total technologization and globalization of the world system.

As today's crisis ideology postmodernism while denying the universal ethical system, does not provide any guidelines, which leads to an implicit inability to form stable models of activity and personal identification. The processes of transformation and modification of a person make us not only revise the concepts of his essence, free will, humanity, but also require the formation of a new consciousness, due to the objective need for a rational transformation of material and spiritual values. In our opinion, it is necessary to introduce universal institutionalization of ethical reflection. In return for postmodernism, we propose providing a new way of managing reality – realism, universal ethics, which not just accepts real human problems, but also tries to find ways to solve them.

***Keywords:*** *anthropological crisis, moral crisis, technology ethics, postmodernism, pluralism, ethical relativism*

**UOT 323.28; UOT 327**

**AKİF MARİFLİ**
*Tarix üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının elmlər doktoru proqramı üzrə dissertantı*
*akif.marifli@gmail.com*
Azərbaycan

# TERRORİZM VƏ MEDİA: QARŞILIQLI TƏSİR

***Açar sözlər:*** *media, terror, terrorizm, təsir, məlumat, təhlükəsizlik, nəzarət, qorxu, akt, təşkilat*

## Giriş

Müasir terrorizmin yayılmasında və həmçinin qarşısının alınmasında mühüm amil kütləvi informasiya vasitələrinin, o cümlədən elektron medianın inkişafıdır. Bir terror hücumu edildikdən sonra bütün dünyada əks-səda doğurur və bütün dünya ictimaiyyətinin diqqətini mətbuat vasitəsilə cəlb edir. Qəzet, radio və televiziya olmadan terroristlər bu cür diqqəti cəlb etmir və qorxu mühiti yarada bilmirlər və belə olan halda kütləvi informasiya vasitələrindən istifadə etməklə terrora kütləvi şüurun manipulyasiyası üçün bir vasitə yaratmış olur. Yaxud hər hansı bir terrorun qarşısını almaq və ya onun ağır nəticələri barədə ictimaiyyəti mütəmadi məlumatlandırmaqda kütləvi informasiya vasitələrinin və elektron medianın rolu müstəsnadır.

Terrorizm və media hər zaman bir-birləriylə qeyri-rəsmi münasibətdə olan iki fərqli ünsürdür. Hər ikisinin də irəli sürdükləri məhsulun bir alıcısı var. Terroristlər diqqəti cəlb edir, ictimaiyyət tərəfindən tanınır, hakimiyyət tərəfindən bir qüvvə kimi qəbul edilir və hakimiyyət ilə dialoqa girir, eyni zamanda hakimiyyətdən hörmət və legitimlik qazanmaq istəyirlər. Bundan əlavə, ictimaiyyəti onlardan xəbərdar etməyə, qorxu yaratmağa, gündəmdə qalmağa və qanuni əsas yaratmağa çalışırlar ki, burada əsas rol məhz medianın üzərini düşür.

Terror aktlarının əsas məqsədi medianın diqqətini cəlb etməkdir. Terrorizm mediadan istifadə edərək sosial çirkinlik yaratmağa çalışsa da, media da öz növbəsində reytinq baxımından terror hadisələrini üstələyir və manipulyasiya materialı hazırlayıraq eyni mənzərələri manşetə çıxarır. Bununla da media özü üçün reytinq və maddi qazanc əldə edir. Hətta, demək lazımdır ki, mediada hadisələr dramatikləşdirilərək qan, göz yaşı və ağrı kimi iztirablı mənzərələrlə təsvir edilir. Nəticədə qorxu cəmiyyətə vurulur. Təəssüf ki, bu cür pis hadisələr həmişə media üçün ən yaxşı xəbər olaraq görülür.

## Qarşılıqlı əlaqə

Müasir terrorun xüsusi "reklam" xarakteri və kütlələr arasında çaxnaşma yaymaq istəyi, həmçinin terrorun nümayiş təsirini maksimum sayda insanlara yönəltməkdə mühüm faktor mətbuatın inkişafı amilidir. Qeyd etmək lazımdır ki, ilk olaraq terror aktları taktik xarakter daşıyırdı və onların əsas məqsədi bir şəxsin siyasi sui-qəsd olması və bütövlükdə əhaliyə deyil, dövlətin hakim dairələrinə təsir etməsi idi. Bu gün terrorçuların əsas hədəfi TV ekranlarında işıqlandırılmasıdır.

Terrorizm-media dediyimiz münasibət simbiotik bir əlaqədir; yəni iki ayrı qrup, terrorizm və media qruplarının bir-birlərindən qeyrirəsmi şəkildə faydalandıqları bir əlaqəyə əsaslanır. Terrorizmlə mübarizədə hadisələrin əsl canlı reallıqlarını formalaşdıra və dəyişdirə biləcək əsas oyunçu məhz mediadır. Bu gün terror təşkilatları tez-tez hərəkətlərini medianın diqqətini çəkən bir şəkildə təşkil edirlər. Terror təşkilatları üçün media çaxnaşma atmosferi yaratmaq, investisiya və turizm sahəsindəki bir ölkənin iqtisadi nüfuzunu itirmək və dövlət qurumlarına inamı azaltmaq üçün təsirli bir yoldur.

Terroristlərə müsahibə vermək, çox vaxt bunu doğru hesab etməyən və medianın mürəkkəbliyini inkar etmək istəyi ilə hakimiyyətə qarşı mübarizə aparan ictimaiyyəti şoka sala bilər. Terrorist Qrupları ilə ünsiyyətdə olan Bri-

gitte Nacos vəziyyəti aşağıdakı ifadələrlə ümumiləşdirmişdi: “Müsahibin terrorçu yaxud ona simpatiyasına qarşı sərt olub-olmaması fərq etməz. Terrorçudan nüfuzlu media nümayəndələri tərəfindən müsahibə alınması və “ictimai müzakirələrə verdiyi töhfəyə diqqət yetirən biri kimi qəbul edilməsi sadəcə insanı qanuni bir siyasətçi səviyyəsinə qaldırır” [5, 66].

Kütləvi informasiya vasitələri, şübhəsiz ki, Britaniyanın keçmiş Baş naziri Marqaret Tetçerin məşhur sözlərində tez-tez “terrorun oksigeni” adlandırılan bu məsələnin mərkəzində dayanır. “Terror hücumları, tez-tez elektron medianın və beynəlxalq mətbuatın diqqətini cəlb etmək üçün diqqətlə xoreoqrafiya edilir. Təbii ki, terrorizm əsl qurbanlara deyil, məhz onu izləyən insanlara yönəlib”.

Terror aktının ilk anlarında media, əksər hallarda, dövlət orqanları kommunikasiya qurana qədər vətəndaşlar üçün ilk məlumat mənbəyi hesab olunur. Buna görə də onların missiyası vacibdir: ABŞ-ın Corc Mason Universitetinin mütəxəssisi Frank Sesno-nın sözləri bu tərzdə ifadə edir: “aydın, dəqiq, sürətli və məsuliyyətli məlumat” təmin etmək. Məqsəd vətəndaşlara rəsmi xidmətlərlə (polis, fövqəladə hallar üzrə böhran mərkəzi və s.) birlikdə və ya paralel olaraq təhlükəsizliyini təmin etməkdə kömək etməkdir [10, 8].

Terrorçular fəaliyyət seçimlərində uğur qazanmaq üçün mediaya üstünlük verirlər. Çünki hər şeydən əvvəl, onların nə qədər böyük və güclü olduqlarını ictimai rəydə nümayiş etdirmələri terrorçular üçün çox əhəmiyyətlidir. Şübhə yoxdur ki, bu, pərəstişkarları qarşısında böyük bir mənəvi həvəsləndirici effekt yaradır. Bundan başqa, terror təşkilatlarının “düşmən” olaraq gördükləri kütlələrdə kütləvi qorxu və vahimə yaradaraq bu çarəsizlik və ümidsizlik mühitindən çıxmaq niyyətlərinin olduğu aydın məsələdir. Digər tərəfdən isə bəlkə də ən vacib məqsəd cəmiyyətə bu təsirləri yaratmaq istəyidir.

İnformasiya cəmiyyətinin inkişafı xüsusi xidmət orqanları ilə terrorçular arasında mübarizədə yeni kütləvi informasiya vasitələri, qlobal şəbəkə, rəqəmsal texnologiyalar və s. vasitələr media terrorizminin həyata keçirilməsində ən son və ənənəvi mediadan məharətlə istifadə etməklə, hətta ən kiçik terrorçu qrupların üstünlüyünü təmin etmiş oldu [8, 130-138].

Müstəqil media istənilən səviyyədə cəmiyyətin həyatında mühüm rol oynayır. Nəzarətdən azad olmaq, müəyyən bir hadisə haqqında obyektiv məlumat ötürmək, bir vəziyyətdə insanların xeyrinə, digərində isə zərərinə xidmət edə bilər. Belə ki, terrorçuların əlində silah olmaq, çaxnaşma və şiddət yaymaq, sosial sabitliyin pozulmasına, millətlərarası münaqişələrin, həmçinin cəmiyyətdə dağıdıcı hadisələrin (depressiya, dövlətə etinasızlıq və s.) töhfə verməsinə səbəb olur.

Bu proseslər təkcə müasir cəmiyyətlərin qloballaşması və informasiyalaşdırılması, məlumat ötürülməsinin yeni yollarının ortaya çıxması və yayılması ilə deyil, həm də demokratiyanın inkişafı ilə dəstəklənir. Bu paradoks, insan hüquq və azadlıqlarına riayət olunması, mediaya nəzarətin olmaması, şəxsi həyata müdaxilə edilməməsi və demokratik rejimlər üçün əsas olan digər prinsiplər media terrorizminin inkişafı üçün münbit zəmin yaratması ilə izah olunur.

Media terrorizmi, xüsusilə terror aktının birbaşa qurbanlarına təsir göstərmir, o, ictimai şüura mənfi təsir göstərdiyi üçün xüsusilə təhlükəlidir. Media terrorizmi cəmiyyətin hər bir üzvünün ehtiyac duyduğu sabitlik və təhlükəsizlik hissini məhv edir. İnsanların zehnindəki bir ziddiyətə (daxili balanssızlığa) səbəb olan media terrorizmi cəmiyyətdə xarici dəyişikliklərə zəmin yaradır. Bunlar dövlət aparatına təzyiq, millətlərarası münaqişələr, depressiya və s. kimi xarakterizə etmək olar.

Üstəlik, dövlət nəzarəti tətbiqi – rabitə istifadəsinə, informasiya axınlarına nəzarət, media fəaliyyəti və s. nəinki problemi həll etmir, həm də bu, ölkədə demokratiyanın gələcək inkişafını şübhə altına alır və daha da dərin mənfi təsirə səbəb olur. Belə olan təqdirdə, cəmiyyət təkcə təhlükəsizlik hissini deyil, azadlıq hissini də itirir. Burada nəzarət qorxu yaradır ki, bu da təkcə terrorçulara qarşı deyil, həm də dövlətə qarşıdır. Üstəlik, əksər hallarda dövlətdə qlobal nəzarət sisteminin yaradılması böyük sərmayə tələb edir. Bu vəsait dövlət büdcəsindən ayrılır, buna görə xərclərin digər sahələri – bir qayda olaraq, sosial (sosial təminat, səhiyyə, təhsil və s.) əziyyət çəkir. Bu proses problemi daha da

ağırlaşdırır. Media terrorizmi təsirindən cəmiyyətin təhlükəsizliyini təmin etmək hər bir insanın təhlükəsizliyini təmin etməkdir. Buna yalnız texniki vasitələrlə (məlumat ötürmə vasitələrinə, internet məkanına və s.) nəzarət etməklə nail olmaq mümkün deyil.

Digər tərəfdən, KİV-lərin terrora münasibətdə məlumatların məsuliyyətli və vətənpərvər şəkildə, dövləti dəstəkləyərək yayımlanmasını təmin edərsə, nəticədə cəmiyyət bir araya gələrək ümumi təhdidlər və terrorizm qarşısında birləşər, bir terror təşkilatına silahı atmasına təzyiq edə bilər. Məsələn, 12 mart 2004-cü ildə Madrid küçələrində terrorizmə etiraz edən bir milyondan çox insan ETA-nı tərksilah etməyə məcbur etdi [3]. Media və terrorizm kontekstində ən çox diqqət çəkən mövzular terror hadisələri barədə məlumat verən jurnalistlərin bu hadisələri necə təsvir etməsi, şərhçilərin və köşə yazarlarının ifadələrini necə qurmaları və terrorla əlaqəli hansı fikir və ya görüntülərin dəfələrlə vurğulaması, xəbərlər, tarazlıq, obyektivlik, dəqiqlik və s. Bundan başqa fərqli ölkələrin KİV-nin eyni terror hadisəsini necə təsvir etməsi, terror aktları çərçivəsində xəbərlərin necə qurulması, terror hadisələri ilə bağlı xəbərlərin cəmiyyətə necə təsir etməsi kimi məsələlər də məhz medianın qarşısında duran prioritet məsələlərdəndir.

Türkiyəli tədqiqatçı Hüseyin Bilir "Terör, Mediya və Dövlət" adlı əsərində terrorizmdə istifadə olunan dilin üslübunun vacib olduğunu və terror aktlarını törədənlərin şəxsiyyətlərinin qurulmasında nə dərəcədə təsirli ola biləcəyini vurğulayaraq dilin istifadəsinin vacibliyini vurğulamışdır. Bilir, terror təşkilatlarının medianın reportaj funksiyasından istifadə etdiyini də vurğulayaraq terrorun mediadan bir alət kimi istifadə etdiyini qeyd etmişdir [2, 53-67].

**Qarşılıqlı təsir**

Media terrorizminin ictimai şüura yönəlik mənfi təsirinə qarşı mübarizə aparmaq üçün, terrorçuların əlində olan, hədə-qorxu, habelə, könüllü və ya məcburi vasitə, bir sözlə, mediaya təsir göstərən əsas metoddan başlamaq lazımdır. Bu da öz növbəsində vətəndaşın məlumatlılığını, terrorizmin səbəblərini, digər millətlərə sadiqliyini, etiqadlarını, adətlərini, media savadını düzgün təmin etmək (məlumat axınlarından istifadə edərək özünü idarə etmək cəhdlərinə qarşı durmaq bacarığı), o cümlədən, dövlətə güvən və digər bu kimi komponentlər cəmiyyəti qorumaq üçün bir sistem qurmağa kömək edəcəkdir.

İndi isə praktiki nümunələrə keçə bilərik. XX əsrin ikinci yarısının silahlı qarşıdurmaları asimmetrik münaqişə kimi təsnif edilir, bu da iki qeyri-bərabər tərəfin mübarizəsi deməkdir. Üstəlik, birinin gücü eyni zamanda zəifliyini də göstərir. "Asimmetriya" – amerikalı strateq Stiven Metzə görə, rəqibdən fərqli və öz üstünlüklərindən maksimum istifadə etmək, düşmənin zəif cəhətlərindən faydalanmaq, öz əlində təşəbbüskar olmaq və ya daha çox hərəkət azadlığı əldə etmək üçün istifadə edilən təşkilatlanma və düşüncə tərzidir [7, 1-2].

Asimmetrik müharibənin zəif iştirakçısı, ciddi silahları olmadığından milli və mədəni simvolların məhv edilməsi (Nyu-Yorkdakı əkiz qüllələr), gözlənilməz terror əməliyyatları və media vasitəsilə ictimai rəyə təsiretmə kimi vasitələrə əl atmaq məcburiyyətində qalır. Milli rəmzlərin məhv edilməsi ciddi itki və ya strateji nəticələrə səbəb ola bilməz, ancaq cəmiyyətin mənəvi və psixoloji vəziyyətinə əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Buna görə də, media vasitəsi ilə terrorizmə qarşı mübarizə və yeni görüntülərin yaradılması çox vacibdir.

Misal olaraq qeyd edə bilərik ki, media faktlar və dram ilə maraqlanır və terrorçular bunu təmin etməyə hazırdırlar. Bu halda hər iki tərəfin maraqları təmin olunur. Məntiqi bir sual meydana çıxır – əgər dövlətlər terrorizmə qarşı müharibədə qalib gəlmək istəyirsə, burada ictimai rəyi formalaşdıran əsas silah mediadır, onda terrorçuların dağıdıcı hərəkətlərini psixoloji cəhətdən yatırmaq üçün kütləvi informasiya vasitələrinin köməyi ilə necə zərərsizləşdirmək olar?

Araşdırmalar göstərir ki, tədqiqatçılara terrorçular üzərində qələbə barədə sual verdikdən sonra bu qələbənin mümkünlüyünə şübhə edirlər. Digər tərəfdən, terrorizm bir fenomendir və müəyyən bir qrup insanlar deyildir. Bu o deməkdir ki, media məkanında bu fenomen qeyd edildiyi müddətcə mövcud olacaqdır. Tədqiqatçılar, məsələn, terrorçuların adlarını bu problemin həll yollarından biri kimi onları gizlətməkdə görürlər. Məsələn, 11 sentyabr terror hücumundan sonra böyük televiziya kanallarının

(ABC, CBS, NBC, CNN, Fox News) müxbirlərindən Osama bin Laden və silahdaşlarının ifadələrinin yayımının məhdudlaşdırılması istənilmişdir.

**Media terror hadisələrində bir vasitə kimi**

Nəzərə almaq lazımdır ki, terrorçuların mesajlarında açıq təşviqdən kodlanmış mesajlara qədər hər şey ola bilər. Burada təhlükəsizlik və məlumat azadlığının ziddiyyəti kimi bir problemlə qarşılaşırıq. Bu həm ərazi təhlükəsizliyini, həm də cəmiyyətin mənəvi sağlamlığını nəzərdə tutur. Terrorizmə qarşı mübarizədə ilk təhlükəizliyi təmin etmək məqsədilə hökumət ekstremal tədbirlərə - senzuraya gedə bilər. Lakin demokratik psixologiyaya görə, faktların qarşısını almaq vətəndaşların məlumat almaq hüququnu pozur [6, 123].

Buna görə də, terrorçular və onların hücumları barədə mediada məlumatların yayılmasını tamamilə məhdudlaşdırmaq mümkün olmadığından, yuxarıda göstərilən terrorçuların terror məqsədlərinə çatmasına kömək etməyən, lakin hadisələrin adekvat qavrayışının formalaşmasına kömək edəcək xüsusi qaydalar hazırlamaq lazımdır.

Medianın vasitəçilik funksiyalarını hansı məqsədlə yerinə yetirdiyini müəyyənləşdirdiyimiz zaman başqa bir sual yaranır. Müxalifət mediası nəzərdə tutulursa, həmişə hökumətə qarşı çıxmaq üçün bir bəhanə axtaracaqlar. Əgər media neytraldırsa və ya hökumətə sadiqdirsə, onda yalnız hökumətin müsbət imicini pozmayan faktlarla maraqlanırlar. Ancaq bütün hallarda, media terrorçuların zorakılıq aktlarına görə məsuliyyət daşımırsa, həmçinin hadisələr canlı yayımlanmasa və terrorçuların ifadələrinin qeydləri yayılmasa belə, yenə də mediada danışılacaq. Onların hərəkətləri diqqət mərkəzində olacaq.

Bütün terror aktlarında ortaq məqsədlər var. "Diqqəti cəlb etmək" və "səsini eşitdirmək" bu hədəflərdəndir. Əlbəttə ki, "terrorizm" həm də fərdləri və geniş kütlələri qorxutmaq məqsədi daşıyır. Çünki terrorun əsas hədəfi suverenliyi, idarə etdiyi münasibətləri hücum etdiyi qaydada sarsıtmaqdır. Buna görə hər bir terror aktı özünün verdiyi suverenliyə qarşı olan "düşüncələrini" izah etmək, həmçinin "gücünü" göstərmək istəyir. Bu baxımdan hər bir terror aktı həm də ictimai münasibətlər baxımından "təbliğat" hərəkatıdır. Bu təbliğat fəaliyyətinin üç məqsədi var: Bir tərəfdən hücum etdiyi suverenlik münasibətlərini minimuma endirmək, məğlub etmək, digər tərəfdən bu suverenlik əlaqəsi daxilindəki hədəfləri qorxutmaq və nəhayət tərəfdarlarına "mənəvi ruh" verməkdir. Məhz bu üç hədəfə yalnız KİV vasitəsilə nail olmaq olar. Bu səbəbdən, qaçırma, girov götürmə, təyyarənin qaçırılması kimi terror aktlarının əksəriyyətində terrorçuların "mesajları" nı ictimailəşdirmək və aksiyaya son qoymaq üçün təklif olunan şərtlər arasında media birinci yeri tutur. Bu zaman terrorizmə qarşı mübarizədə ilk növbədə kütləvi informasiya vasitələrinin fəaliyyəti gündəmə gəlir. Burada KİV-nin hadisələrin gedişatına həssas yanaşması, mübarizə metodlarının düzgün aparılması baxımından zəruri məsələlərdəndir. Belə ki;

Birincisi, hadisə nə qədər böyük olarsa, qorxunun da miqyası cəmiyyətdə geniş olar.

İkincisi, terrorçuların gücü nə qədər şişirdilərsə, bu qorxu və davamlılıq da bir o qədər uzun çəkər.

Üçüncüsü, hücum edilən hədəfin fəlsəfi və ideoloji əsaslarını nə qədər tənqid edilsə, terror aktı bir o qədər özünə nüfuz qazanar.

Bu ümumi prinsipləri nəzərə alaraq, terror aktı ilə ictimaiyyəti maarifləndirmə vəzifəsi ilə qarşılaşan kütləvi informasiya vasitələrinin qarşısındakı dilemmalar bütün çılpaqlığı ilə ortaya çıxır:

Bu, əgər hadisəni əvvəlkindən daha böyük edirsə, terrorizmə xidmət etmiş olacaq və əgər olacağından kiçik olsa, funksiyasını yerinə yetirmədiyi vəziyyətə düşəcəkdir.

Terroristlərin düşüncələrini xalqa çatdırarsa, terrorizmə kömək edər, etməzsə, xalqı maarifləndirmə funksiyasını laqeyd edər.

Bəlkə də terrorun ən böyük təhlükəsi və ziyanı budur: Hədəfini özünə bənzər üsullardan istifadə etməyə məcbur etmək onun sosial münasibətlərinin tamamilə pozulmasına səbəb olur.

Mediaya nəzarət terrorizmlə mübarizədə ən təsirli silahlardan biridir. Tarixdə Hitler, Stalin və Mao kimi diktatorlar tərəfindən bu cür metodlardan istifadə edilmişdir. Açıq və demokratik cəmiyyətlərdə isə mediaya yönəlmiş

təzyiq üsulları ilə terrorizmlə mübarizə aparmaq mümkün deyil.

Dövlət qurumlarının ümumiyyətlə mediadan gözləntiləri aşağıdakı kimi sıralana bilər:

- Dövlət siyasətini dəstəkləyən medianın zəruriliyi, yəni KİV həmişə qurulmuş siyasi hakimiyyətə bağlı olmalıdır.
- Terror hadisələrinin baş verdiyi andan etibarən media sürətlə gündəmə gəlir və hadisənin şiddətindən uzaqlaşır;
- Terroristləri əsir liderlər və ya qəhrəman kimi deyil, cinayətkar kimi təqdim etmək,
- İctimaiyyəti çaxnaşma havasından uzaqlaşdırmaq,
- Media dominant və ya geniş yayılmış mənəvi və siyasi dəyərlərə qarşı çıxmamalıdır,
- Dövlət orqanlarına bu işdə dəstək olmaq, dövlət üçün mübarizə fəaliyyətini tənqid etməmək və nəticədə dövlətin institusional imicini zəiflətməməlidir [1, 21-44],
- Senzura praktikası bu prinsiplərin etibarlılığını təmin etmək üçün qanuni və əsaslıdır.
- Rəsmi siyasətdən xoş olan məqama qarşı yolverilməz hücumlar, həmçinin mənəvi qaydalara əməl edilməməsi cinayət əməlləridir.
- Rabitə vasitələrinə xüsusi mülkiyyət yalnız bu şərtlərə uyğun olduqda qəbul edilə bilər.
- Digər tərəfdən, sadaladıqlarımızın tam əksinə olaraq, terroçularımn mənafeyinə xidmət edərək cəmiyyəti terrora səsləyən qara medianın fəaliyyətini əngəlləmək və bu sahədə antiterror mübarizə ilə bağlı ictimayyətin maarifləndirilməsi istiqamətində təbliğat xarakterli yazılar dərc etmək.

Ümumiyyətlə, medianın baş verənlərə görə ilk növbədə məsuliyyəti olmasa da, şüursuz terror xəbərləri terror təşkilatlarına töhfə verir və bu şüursuz jurnalistika da medianın işini çətin vəziyyətə salır. Medianın nə etməsi, terror təşkilatlarını tamamilə təbliğ etməyən bir şəkildə ictimaiyyətə məlumat vermək vəzifəsini yerinə yetirməkdir. Lakin unutmaq lazım deyil ki, bütün bunlar tək "peşəkar jurnalistikanın etik prinsipləri" ilə deyil, hər bir media kanalının "ideoloji meylləri" ilə müəyyən edilir. Media, terror əməliyyatları zamanı xüsusən girovların qorunması və ya təhlükəsizlik qüvvələri əməliyyatlarının təhlükəsizliyinin təminatı üçün məlumatların yayılmasının prinsipini qoruma və bunun mənfi təsirini minimuma endirmək üçün məlumat vermək hüququnu və vəzifələrini balanslaşdırmağı bacarmalıdır. Bununla belə, jurnalist etikası "insanlıq duyğusunu" tələb etsə də, bu, jurnalistikanın vacib funksiyasını poza bilməz, bu da cəmiyyətin əhval-ruhiyyəsindən və ya hakimiyyətin əmrlərindən qorxmadan ictimai maraq mövzuları barədə məlumat vermək imkanlarını balanslaşdırır [9, 29-30].

Terror aktları barədə məlumat verməyin mənfi nəticələrini aşağıdakı kimi sadalamaq olar:

- Terroristlərə fikir bildirmək üçün bir mühit hazırlayaraq dövlətin nüfuzunu sarsıtmaq.
- Terror aktının digər qruplar və ya şəxslər tərəfindən xəbərlərə məruz qalmasının təqlidi.
- Terror aktı bitməsə, təhlükəsizlik qüvvələrinə meydan oxumaq girovların həyatına təhlükə yarada bilər.
- Terror aktı davam edərsə, qərar verənlərə mənfi təsir göstərə bilər.
- Xəbərləri tez-tez təkrarlamaq terrorçulara əhval-ruhiyyə verə bilər.

Məlumatların sərt şəkildə işlənməsi, məsələn, simvolik böhranı idarəetmə, cazibə və empatiya, media və xüsusən TV xəbər lövbərləri və "tweeter"lər ictimai rəyi də inandırmaq üçün xüsusi vasitə hesab olunur. Onların tonu və seçdikləri sözlər və görüntülər yalnız çaxnaşmanın qarşısını almağa kömək etmir, həm də ictimaiyyətin şüurunda hücumların günahkarları ilə əlaqəli olan şəxslərə və ya qruplara qarşı qisasın qarşısını alır.

**Nəticə**

Qeyd etmək lazımdır ki, 11 sentyabr hücumlarında terrorçular hər iki təyyarəni eyni anda vura biləcəkləri təqdirdə, onlar ilk təyyarədən sonra gözlədilər və media hadisəsi ölkənin hər yerində canlı yayımlanana qədər ikinci təyyarəni vurmadılar. Bu nümunədə, terror təşkilatı, xəbəri təqdim etmək istəyən media üzərindən izdihamlı bir səs-küy yaratdı. Lakin, 11 sentyabr terror hücumlarından, həmçinin 2009-cu ildə Fort Huddakı hücumdan və 2010-cu ildə Tayms Meydanında bomba qoyulmasına cəhddən sonra ABŞ-ın daxilindəki təhdidlərə diqqətin artması ilə ABŞ hökuməti 2010-cu ildə zorakı ekstremizmə

qarşı yönəlmiş səylərini artırdı. Burada əsasən, sosial medianın gücündən və düzgün idarə olunmasından məharətlə istifadə edərək, eyni zamanda, Əl-Qaidənin əsasını xeyli zəiflətdi və tamamilə zərərsizləşdirdi. Cəmiyyətdə Əl-Qaidəyə qarşı sonsuz nifrət hiss yaratmağa nail oldu [4, 45]. Bu vəziyyətdə ağla gələn ilk şey medianın məhdudlaşdırılması və senzuranın tətbiqi ön plana çıxır. Ancaq əvvəldə də qeyd edildiyi kimi, azad media demokratik cəmiyyətlər üçün uyğun olmayan bir şeydir. Çünki, medianın azad olması, belə hadisələrin fəsadlarını ölçüyəgəlməz şəkildə daha da artırır. Lakin, mətbuat azadlığının konstitusiya təminatı olmadan, informasiya və rabitə azadlığına dair qanuni tənzimləmələr olmadan, mətbuata istənilən məhdudiyyət ümumiyyətlə medianın demokratiyadakı rolunu yerinə yetirməsinə mane olan birtərəfli yanaşmadır.

Lakin bundan əlavə, terror xəbərlərinin müsbət nəticələri aşağıdakı kimi xarakterizə etmək olar:

- Media verdiyi xəbərlər vasitəsilə cəmiyyətin məlumat azadlığını təmin edir.
- Hadisələrdən sonra dövlətə və təhlükəsizlik qüvvələrinə qarşı yarana biləcək əsassız söz-söhbətlər, dedi-qodular və s. təbliğat işləri bloklanır.
- Medianın konstitusiya hüququ olan azadlıq prinsipi yerinə yetirilir.
- Bu görüntüləri izləyən vətəndaşların təhlükəsizlik qüvvələrinə qarşı inam hissi yarana bilər.

Terror hadisələrinin mediada yayımlanmasının müsbət təsirlərindən biri budur ki, xəbər alan kütlələrin eyni düşüncə və hissləri yaşamaları nəticəsində bir birlik meydana gəlməsidir. Unutmayaq ki, müasir cəmiyyətdə dünya təkcə məlumata sahib olana deyil, onu düzgün təqdim etməyi və şərh etməyi bilənə məxsusdur.

**Ədəbiyyat siyahısı**

1. Avşar, Z. (2002). "Terör Haberleri ve Medya", Polis Bilimleri Dergisi, C. 4, Sayı: 3-5, s. 21-44.

2. Bilir H. Terör Medya ve Devlet, İstanbul: Kültür Sanat. 2009. 175 s.

3. Bombs were Spanish-made explosives. Millions pack Madrid's streets. Saturday, March 13, 2004 Posted: 0701 GMT (1501 HKT). // https://edition.cnn.com/2004/WORLD/europe/03/12/spain.blasts/

4. Brian A. Jackson, Ashley L. Rhoades, Jordan R. Reimer, Natasha Lander, and etc. Practical Terrorism Prevention. Reexamining U.S. National Approaches to Addressing the Threat of Ideologically Motivated Violence. Homeland Security Operational Analysis Center (HSOAC), 2019, 335 p.

5. Brigitte L. Nacos. Terrorism and the Media: from the Iran hostage crisis to the World Trade Center Bombing. USA, Columbia University Press, 1994, 107 p.

6. Magri P. Digital Jihad Online Communication and Violent Extremism. (edited by Francesco Marone). Italy, Milano, Ledizioni Ledi Publishing. November 2019, 156 p.

7. Metz St. and Johnson V.D. Asymmetry and U.S. Military Strategy: Definition, Background, Strategic Concepts (Carlisle Barracks, PA: Strategic Studies Institute, US Army War College, 2001), 30 p.

8. Muftuler-Bac M. Information Societies, New Terrorism: Its Impact on International Politics [Electronic Resource] / Meltem Muftuler-BAC // Uluslararası Hukuk ve Politika. – 2007. – Cilt 3, No:9. – p.130-138

9. Terrorism and the media: a handbook for journalists. Published by the United Nations Educational, Scientific and Cultural Organization. Paris 2017. 110 p.

10. U.S. House of Representatives, Combating Terrorism: The Role of the American Media. U.S. Government Printing Office. September 15, 2004, Vol. 4, 72 p.

## Summary

**Akif Marifli**

**Terrorism and media: interaction**

The article is dedicated to the relationship between the media and terrorism. It highlights the interaction between terrorism and the media as two distinct elements that have always been inextricably linked. Interesting findings of Western researchers were considered and the essence of the issue was analyzed. Mostly explained, differences between studies. The article focuses on how terrorists turn to the media to prove their presence in society and gain a foothold, and how to make the most of modern media. One of the urgent and painful problems of the time is that terrorists prefer the media to succeed in their choices. At the same time, the article provides an interesting analysis of the different approaches of relevant researchers to the issue. The topic of the article is very relevant, as it is sensitive both locally and globally.


***Keywords:*** *media, terror, terrorism, influence, information, security, control, fear, act, organization*


## Резюме

**Акиф Марифли**

**Терроризм и медиа: взаимодействие**

Статья посвящена взаимосвязи медиа и терроризма. В нем подчеркивается взаимодействие между терроризмом и средствами массовой информации как два отдельных элемента, которые всегда были неразрывно связаны. Были рассмотрены интересные выводы западных исследователей и проанализирована суть проблемы. В основном объясняются, различия между исследованиями. Статья посвящена тому, как террористы обращаются к средствам массовой информации, чтобы доказать свое присутствие в обществе и закрепиться, и как максимально использовать современные средства массовой информации. Одна из насущных и болезненных проблем того времени заключается в том, что террористы предпочитают, чтобы медиа преуспели в своем выборе. В то же время в статье представлен интересный анализ различных подходов соответствующих исследователей к данной проблеме. Тема статьи очень актуальна, так как она чувствительна как локально, так и глобально.


***Ключевые слова:*** *медиа, террор, терроризм, влияние, информация, безопасность, контроль, страх, действия, организация*

UOT 327.5

**GÜNEL MƏLİKLİ**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, AMEA-nın Fəlsəfə İnstitutu "Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq" şöbəsinin aparıcı elmi işçisi,*
*"Siyasi nəzəriyyə" ixtisası elmlər doktoru proqramı üzrə dissertantı,*
*Azərbaycan*
*gunelmelikli88@gmail.com*

# QAÇQIN, MƏCBURİ KÖÇKÜNLƏR VƏ ŞƏHİD AİLƏLƏRİNİN SOSİAL VƏZİYYƏTİNİN YAXŞILAŞDIRILMASI DÖVLƏTİN ƏN MÜHÜM MƏQSƏDİDİR

***Açar sözlər**: Dağlıq Qarabağ, qaçqın və məcburi köçkünlər, münaqişə, sosial təminat problemləri, dövlət, humanitar yardım*

Son iki əsr ərzində regionda gedən siyasi mübarizə nəticəsində Azərbaycan xalqı öz ərazilərindən, əzəli torpaqlarından köçürülməyə, deportasiyaya məruz qalmışdır. Tarixən Azərbaycan torpaqlarına göz dikən erməni mənfurları zaman-zaman öz məkrli niyyətlərini həyata keçirərək nəhayət XIX əsrin sonlarından başlayaraq Azərbaycan torpaqlarını hissə-hissə işğal etməyə başladılar. 1988-1992-ci illər ərzində Ermənistan silahlı qüvvələrinin ölkəmizə təcavüz etməsi nəticəsində torpaqlarımızın 20 faizi – Dağlıq Qarabağ, eləcə də ətraf 7 rayonun (Ağdam, Füzuli, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan və Kəlbəcər) ərazisi işğal olundu, bir milyona yaxın soydaşımız öz ata–baba torpaqlarından didərgin düşdü. Hazırda bu qaçqınlar və məcburi köçkünlər respublikanın müxtəlif rayon və şəhərlərində məskunlaşmışlar. Qaçqın və məcburi köçkün problemi müasir Azərbaycan dövlətinin ən həssas problemlərindən biridir. Ümumiyyətlə, qaçqın və məcburi köçkün dedikdə bir ölkədən digərinə və ya ölkə daxilində bir yerdən digər yerə məcburi şəkildə köçmüş insanlar başa düşülür. Ümummilli Lider Heydər Əliyev bu insanlara xüsusi qayğı və məhəbbətlə yanaşırdı. Ulu Öndər deyirdi: "... İşğal olunmuş bütün regionlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir".

Qeyd edək ki, XX əsrin sonlarından başlayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində səkkiz milyon əhalinin bir milyondan çoxu qaçqın və məcburi köçkün olmuşdur. Ermənistan tərəfindən 1988-ci ildən yürüdülən işğalçı planın nəticəsində bütün qanunlar, insan hüquqları kobud şəkildə pozuldu. Qaçqın və məcburi köçkünlər ölkənin 69 şəhər və rayonunda müvəqqəti məskunlaşmış, 700 min nəfər məcburi köçkün isə 1600-dan çox sıx məskunlaşma obyektində yerləşmişlər. Erməni işğalı nəticəsində zəbt edilmiş rayonlara külli miqdarda ziyan dəymiş, iqtisadiyyat, təhsil, mədəniyyət və s. sahələr tamamilə dağıdılmışdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Ermənistanın hərbi təcavüzü Azərbaycanın 17 min kvadrat kilometr ən məhsuldar torpaqlarının işğalına səbəb olmaqla yanaşı, 900 yaşayış məntəqəsinin, 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil, 798 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin, 5198 kilometr avtomobil yollarının, 348 körpünün, 7568 kilometr su və 76940 kilometr elektrik xətlərinin dağıdılmasına səbəb oldu. Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırdılar. [4, s.121-122]

Ümumiyyətlə, ilk zamanlar müxtəlif rayon və şəhərlərdə yerləşən qaçqın və məcburi köçkünlərin sosial rifah halı və həyat şəraiti müxtəlif çətinliklərlə müşayiət olunurdu. Təhsil, səhiyyə, mədəniyyət və s. sahələrdə onların problemlərinin həlli dövlətimiz üçün prioritet məsələlərdən biridir. Bütün bu problemlərin aradan qaldırılması, qaçqın və məcburi köçkünlərin sosial rifahına nail olunması üçün müəyyən dövlət təşkilatları fəaliyyət göstərir. Bunlara Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Milli Məclisin Sosial Si-

yasət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və s. qurumları aid etmək olar. Qaçqın və məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması, mənzil-məişət problemlərinin həll olunması istiqamətində həyata keçirilən tədbirlər son illərdə bu sahədə böyük uğurlara şərait yaratmaqla Azərbaycan hökumətinin qarşısında duran prioritet vəzifələrdən birinə çevrilibdir. Qaçqın və məcburi köçkünlərin məskunlaşdıqları ərazilərdə sosial infrastrukturun, kommunal xidmət sektorunun inkişaf etdirilməsi bunun ən bariz nümunəsidir. Bu sahədə sistemli tədbirlər həyata keçirərək qaçqın və məcburi köçkünlərin enerji, su, işıq, qaz və digər kommunal xidmətlərlə əhatə olunmaları üçün məqsədyönlü işlərin görülməsi də hökumətin qarşıda duran vəzifələrə, həmçinin, taleyinə qaçqınlıq və məcburi köçkünlük yazılmış soydaşlarımıza nə qədər həssaslıqla yanaşdığını sərgiləyir. Eyni zamanda, qaçqınların səhiyyə, təhsil xidmətləri ilə təmin edilməsi, onların üzləşdikləri problemlərin həlli üçün ardıcıl tədbirlərin həyata keçirilməsi daim dövlət tərəfindən diqqət mərkəzində saxlanılmışdır. Azərbaycan Prezidentinin 01 iyul 2004-cü ildə təsdiq etdiyi "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" çərçivəsində genişmiqyaslı işlər aparılmış, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün mümkün olan bütün tədbirlər həyata keçirilmişdir. Azərbaycan torpaqlarının erməni işğalı nəticəsində qaçqın düşmüş, ölkənin müxtəlif ərazilərində çadır düşərgələrində, köhnə dəmir yolları üzərindəki yük vaqonlarında və s. çətin şərait olan yerlərdə müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluqlarının təmin edilməsi istiqamətində effektiv addımlar atılmışdır. Nəticədə təkcə Bərdə və Ağcabədi rayonları ərazisində uzun illər çadır düşərgələrində müvəqqəti məskunlaşmış 3860 məcburi köçkün ailəsinin mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır. Bunlardan əlavə işğaldan azad olunmuş və müharibə zamanı zərər dəymiş yaşayış məntəqələrində bərpası başa çatdırılmamış evlərin, sosial və texniki infrastrukturların, tarix, mədəniyyət müəssisələrinin və abidələrin barpası və yenidən qurulması, işğaldan azad olunmuş və müharibə zamanı zərər dəymiş sərhədyanı əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün müxtəlif işlər görülmüşdür. Sərhədyanı rayonlarda məskunlaşan soydaşlarımızın təhlükəsizlik problemi də daim dövlətin diqqət mərkəzində olmuşdur. Belə ki, işğaldan azad olunan ərazilərin, yolların, elektrik xətlərinin, su borularının, qaçqın və məcburi köçkünlər üçün müvəqqəti ayrılan torpaq sahələrinin, yaşayış qəsəbələrinin tikintisi üçün ayrılan ərazilərin minalardan təmizlənməsi üçün ciddi işlər görülür. Bu proqram çərçivəsində qaçqın və məcburi köşkünlərin işlə təmin olunması istiqamətində müəyyən addımlar atılıbdır. Belə ki, Ağdam, Ağcabədi, Bərdə, Biləsuvar, Füzuli, Goranboy və s. rayonlarda kiçik süd emalı sexləri, aqroservis mərkəzləri, gön-dəri və yun tədarükü sexləri, kərpic, xalçaçılıq sexləri və s. tikilib istifadəyə verilmiş və nəticədə yüzlərlə qaçqın və məcburi köçkün işlə təmin edilmişdir.

Qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədi ilə 1999-cu ildə Azərbaycan Respublikasının Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu yaradılmışdır. Fondun əsas məqsədi məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına, onlar üçün iş yerlərinin açılmasına, sosial infrastrukturun bərpasına yönəldilmiş layihələrin yerinə yetirilməsi üçün vəsait ayırmaq və bu vəsaitlərin səmərəli və məqsədyönlü istifadəsini təmin etməkdən ibarətdir. Fond yarandığı gündən əhəmiyyətli işlər görmüş, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində əhəmiyyətli addımlar atmışdır. Belə ki, 2008-ci ildə MKSİF Xocavənd rayonundan olan məcburi köçkünlər üçün Beyləqan rayonunun ərazisində 500 ailəlik bir, Xocalı rayonundan olan məcburi köçkünlər üçün isə Goranboy rayonunun ərazisində 500 ailəlik dörd yeni yaşayış qəsəbəsinin tikintisinə başlamışdır. Artıq bu qəsəbələrin tikintisi başa çatmış və burada məcburi köçkünlər yerləşdirilmişdir. Goranboy rayonunun Yuxarı Ağcakənd kəndinin ərazisində tikilən 120 ailəlik yeni qəsəbənin tikintisi 2009-cu ildə başa çatmışdır. Bütün yeni salınan qəsəbələrdə zəruri sosial texniki infrastrukturlar nəzərdə tutulmuşdur. 2008-ci ilin sonunda MKSİF məcburi köçkünlər üçün Qəbələ rayonunda 155 mənzillik 2 ədəd 5 mərtəbəli, Bakı şəhərində 369 mənzillik 6 ədəd 9 mərtəbə-

li yaşayış binalarının, Göygöl rayonunda isə həyətyanı sahələri olan 26 ədəd fərdi evin tikintisinə başlamışdır və artıq bu işlər başa çatmışdır. 2009-cu ilin yayında Goranboy rayonunda fin tipli evlərdən ibarət düşərgədə müvəqqəti məskunlaşmış 596 məcburi köçkün ailəsi üçün həmin rayonunun ərazisində yeni qəsəbə salınmışdır. 2010-cu ilin may-iyun aylarında respublikanın bəzi rayonlarında təbii fəlakət nəticəsində dəymiş zərərin qısa bir zamanda aradan qaldırılması məqsədi ilə Laçın rayonundan olan 552 ailə üçün yeni qəsəbə salınmışdır.

Azərbaycan Respublikasında Qaçqın və məcburi köçkünlərin sosial təminatı, problemlərinin baxımından dövlət tərəfindən bəzi imtiyazlar və güzəştlər nəzərdə tutulmuşdur.

Qaçqınlar:

- "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinə əsasən 1988-ci il yanvarın 1-dək Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqınlar Azərbaycan Respublikasının vətəndaşları hesab edilirlər, lakin onlar siyasi mənada "qaçqın" statusunu və öz ölkələrinə qayıtmaq hüququnu saxlayırlar;

- mənzil və ya ev alqı-satqısı zamanı notarial rüsumlardan azaddırlar; - bu imtiyazlar qaçqın və məcburi köçkünlərə onların mənzil probleminin həllində böyük köməklik göstərmişdir. Bundan əlavə Nazirlər kabinetinin 31 oktyabr 2003 –cü il tarixli qərarı ilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi yanında Mənzil İstismar Departamenti yaradılmışdır ki, bu da problemin həllində müstəsna əhəmiyyət malikdir.

- Təhsil Nazirliyinin 2004-cü il kollegiya qərarına əsasən Ermənistandan olan, 1988-1992-illərdə anadan olmuş qaçqınlar dövlət ali və orta ixtisas təhsili müəssisələrində təhsil haqqını ödəməkdən azaddırlar;

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamının 3-cü bəndinə əsasən özəl müəssisələrin, ali və orta ixtisas təhsili məktəblərinin rəhbərlərinə tövsiyə olunmuşdur ki, qaçqın və məcburi köçkünlərin işlə təmin olunması və təhsil haqqının ödənilməsində güzəştlərin verilməsi məsələlərində onlara lazımi kömək etsinlər. [5, s.146]

Bütün bu addımlar qaçqın və məcburi köçkünlərin problemlərin həll edilməsi, onların səhiyyə, təhsil kimi hüquqlarının bərpası üçün atılır.

Məcburi köçkünlər:

- "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamının 2-ci bəndinə əsasən məcburi köçkünlərin 1992-1998-ci illərdə mülkiyyət formasından asılı olmayaraq müvəqqəti məskunlaşdıqları ictimai binalardan, mənzillərdən, torpaq sahələrindən və digər obyektlərdən çıxarılması onlar öz doğma yurdlarına qayıdana, həmçinin müvəqqəti yaşamaq məqsədi ilə yeni qəsəbələrə və evlərə köçürülənədək dayandırılır;

- Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamının 3-cü bəndinə əsasən özəl müəssisələrin, ali və orta ixtisas təhsili məktəblərinin rəhbərlərinə tövsiyə olunmuşdur ki, qaçqın və məcburi köçkünlərin işlə təmin olunması və təhsil haqqının ödənilməsində güzəştlərin verilməsi məsələlərində onlara lazımi kömək etsinlər;

- kommunal və digər xidmət haqqları (elektrik enerjisi, təbii qaz, içməli su, telefon abunə haqqı) ödəməkdən azaddırlar;

- təbii qazla təmin olunmayan şəhər və rayonlarda müvəqqəti məskunlaşanlara payız-qış mövsümündə 40 litr miqdarında aylıq ağ neft yanacağı verilir;

- Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli Sərəncamına əsasən dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqını ödəməkdən azaddırlar;

- Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olunmaqla, respublikanın digər ərazilərində müvəqqəti məskunlaşmış 270 min məcburi köçkünə aylıq ərzaq yardımı göstərilir;

- orta ümumtəhsil məktəblərində təhsil alan məcburi köçkün şagirdlər dərsliklərlə pulsuz təmin olunurlar;

- büdcədən maliyyələşdirilən müəssisələrdə, təşkilatlarda çalışmış, özlərindən asılı olmayan səbəblərə görə iş yerlərindən məhrum olmuş və işlə təmin olunmamış 15 min nəfər məcburi köçkünə 1994-cü ilin may ayından orta

aylıq əməkhaqqı ödənilməsi təmin edilmişdir. [5, s.146]

Bildiymiz kimi, torpaqları işğal altında qalan insanların iş problemi hər zaman həlli vacib ən əsas problemlərdəndir. Dövlətimizin bu istiqamətdə atdığı addımlar nəticəsində bu gün minlərlə qaçqın və məcburi köçkün işlə təmin edilmiş onların həyat səviyyəsi xeyli yüksəlmişdir.

Azərbaycanla dostluq əlaqələrinə malik olan dövlətlər, beynəlxalq təşkilatlar onlara daim humanitar yardımlar etmişlər. Təkcə 1993-2004-cü illər ərzində qaçqın və məcburi köçkünlərə 640 milyon ABŞ dolları miqdarında humanitar yardım göstərilmişdir.

Ümumiyyətlə, qaçqınlar və məcburi köçkünlərlə bağlı problem bu gün dünya ictimaiyyəti qarşısında duran ən mürəkkəb məsələlərdən biridir. Dünyada müxtəlif təşkilatlar və birliklər bu problemlərin həlli istiqamətində fəaliyyət göstərməkdədir. Bunlardan biri də Birləşmiş Miləətlər Təşkilatıdır. Qaçqın problemi Birləşmiş Millətlər Təşkilatının fəal müzakirə mövzusudur. BMT bu gün də əhalinin bu təbəqəsinin müdafiəsi və onlara yardım göstərilməsi üçün ən səmərəli vasitələr axtarışını davam etdirir. Bəziləri fövqəladə yardım göstərilməsi ilə məşğul olan təşkilatlar arasında əməkdaşlığı və onların fəaliyyətlərinin əlaqələndirilməsini möhkəmləndirməyə, digərləri isə diqqəti beynəlxalq normaların yaradıcılığı sahəsindəki boşluqlara cəlb edərək yeni hüquqi normaların işlənib hazırlanmasına çağırır. Amma dünya ictimaiyyəti bir şeydə yekdildir ki, bu problem çoxcəhətli və qlobal xarakterə malikdir. Buna görə də bu problemin istənilən yanaşma üsulu ilə təhlili və istənilən şəkildə həlli hər sahəni əhatə etməli və onların yaşayış yerlərini kütləvi tərketmələrinin səbəbindən tutmuş qaçqınlar problemi ilə əlaqədar meydana çıxan ən müxtəlif situasiyalarda zəruri olan təsir göstərmək tədbirləri, fövqəladə yardımdan başlayıb repotriasiyaya (vətən qaytarılmaya) yardım tədbirləri ilə qurtarmaqla işlənib hazırlanmasına qədər bütün aspektlərini nəzərə almalıdır. Aparılan müzakirələr nəticəsində təsdiq olunan bir sıra faktlar heç bir şübhə doğurmur. Qaçqınlıq birmənalı olaraq insan hüquq və azadlıqlarının kobud surətdə pozulması ilə birbaşa əlaqədardır. Demək olar ki, dünya əhalisinin bəzi kütləvi yerdəyişmələrini qabaqcadan müəyyənləşdirmək mümkün olsa da, onların heç biri könüllü olmur. Çünki qaçqın olmaq sürgündə yaşamaq və ərzaq, geyim və mənzil kimi əsas zəruri əşyalarla təmin olunmaqda başqalarından asılı vəziyyətdə olmaq deməkdir. Ümumiyyətlə, qaçqınları qəbul edən ölkələr onların müdafiəsi ilə bağlı öz öhdəliklərini yerinə yetirməlidirlər. Qaçqınların mənsub olduqları ölkələr isə əhalisinin vətəni kütləvi tərketmələrinə səbəb olan fəaliyyətlərin qarşısını almağa borcludurlar. Dünyadakı qaçqınların sayı, onların yerləşdiyi ərazilər və yaşayış yerlərini tərk etmələrinin səbəbləri barədə geniş informasiya mövcuddur. Son əlli ilin məlumatlarını təhlil edərək belə bir nəticə çıxarmaq olar ki, qaçqınlar problemi bu müddət ərzində əhəmiyyətli dərəcədə keyfiyyət və kəmiyyət dəyişikliklərinə uğramışdır.

Müstəqilliyinin üçüncü onilliyində yaşayan Azərbaycan Respublikası azadlığa qaçqınlar problemi ilə birlikdə çıxmışdır. Daha doğrusu, Azərbaycan hələ müstəqilliyini qazanmamışdan əvvəl qaçqınlar problemi ilə üzləmişdir. BMT-nin "Qaçqınlarının İşi üzrə Ali Komissarlığının Avropa regional bürosunda və MDB konfransı"nda bu faktla yanaşı, Azərbaycanda qaçqınlar probleminin sosial və hüquqi cəhətləri haqqında məlumat verilmişdir. [3, s.305] Dağlıq Qarabağ müharibəsi ilə əlaqədar olaraq Azərbaycan Hökumətinin müraciəti əsasında, 1992-ci ilin sonlarından BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarlığı (BMT QAK) ölkəmizdə fəaliyyət göstərməyə başlamışdır. Dövlətimiz bu qurumlarla əməkdaşlıq etməyə başlamış və qaçqın, məcburi köçkün və sığınacaq axtaranların həyat şəraitlərinin yaxşılaşdırılması, onların sosial problemlərinin həll edilməsi, təhsil və gəlir imkanlarının yaxşılaşdırılması, təhsil müəssisələrinin təmiri və bərpası (bağça, məktəb, kitabxana və s.) kimi istiqamətlərdə onlarla fəaliyyəti müvəffəqiyyətlə həyata keçirmişdir.1993-cü ildən bəri Azərbaycan dövləti BMT-nin Qaçqınların işi üzrə Ali Komissarı (UNHCR) ilə birgə qaçqın və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması üzrə fəaliyyəti davam etdirirlər.Bu əlaqələr çərçivəsində Ali Komissar dəfələrlə ölkəmizdə olmuş, qaçqınların həyat şəraiti ilə yaxından tanış olmuşdur. 2004-cü ildə BMT QAK-ın Ali Komissarı cənab Ruud Lubbersin, 2005-ci ildə ATƏT-in

Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun sədri Kristian Ştrohalın, 2006-cı ildə Beynəlxalq Qırmızı Xaç Komitəsinin direktoru Yakob Kellenberqerin Sabirabad rayonundakı "Qalaqayın", 2007-ci ildə BMT Baş Katibinin köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalinin və digərlərinin çadır düşərgələrində qaçqınlarla görüşləri olmuşdur.

Heydər Əliyevin 1997-ci ildə İtaliyaya səfəri zamanı əldə olunmuş razılığa əsasən, İtaliyanın ENI şirkəti tərəfindən "Azərbaycanda yurdlarından didərgin düşmüş şəxslər və məcburi köçkünlər" layihəsi çərçivəsində 2,2 milyon ABŞ dolları həcmində ayrılmış qrant vəsaiti hesabına 1999-cu ilin noyabr ayında Azərbaycan hökuməti, "ACIP Azərbaycan" Ortaq Şirkəti, İtaliyanın ENI şirkəti və BMT QAK arasında imzalanmış üçtərəfli müqaviləyə əsasən məcburi köçkünlər üçün Xanlar rayonunda 234 ailə üçün 124 ev və sosial obyektlər, Beyləqan rayonunda 110 ailə üçün 124 ev və sosial obyektlər inşa edildi, Ağcabədi rayonu ərazisində Laçın qış yataqlarında (Taxta körpü) 35 obada 5600 nəfər üçün su xətləri çəkildi. [8, s.457]

Demək olar ki, bu tədbirlər nəticəsində Azərbaycanda bütün çadır şəhərcikləri ləgv olunmuş, yerində qaçqın və məcburi köçkünlərin rahat yaşaması üçün bütün imkanların olduğu qəsəbələr tikilib istifadəyə verilmişdir. Məktəblərin səhiyyə ocaqlarının tikilməsi nəticəsində qaçqın uşaqların təhsil və səhiyyə problemləri aradan qaldırılmış, onların keyfiyyatli təhsil almaları və öz sağlamlıqlarını qoruması üçün komfortlu şərait yaradılmışdır. Hal-hazırda da qaçqın və məcburi köçkün soydaşlarımızın səhiyyə və təhsil xidmətlərindən istifadə imkanlarının yaxşılaşdırılması, onların səhiyyə müəssisələrində pulsuz müayinə, müalicə və dərman preparatları ilə təmin olunması istiqamətlərində də addımlar atılır, həmçinin onların, sıx məskunlaşdığı yerlərdə sanitar-epidemioloji vəziyyətin yaxşılaşdırılması üçün müvafiq tədbirlər həyata keçirilir.

1998-ci ildə isə ulu öndərimiz Heydər Əliyevin sərəncamına əsasən "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı" təsdiq edildi. 2001-2008-ci illər ərzində Dövlət Neft Fondundan qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırıması üçün 524,8 mln. AZN həcmində vəsait ayrılmışdır. 2000-2010-cu illər ərzində ümumilikdə 67 yeni qəsəbə salınmışdır. Həmin qəsəbələrdə 20 min mənzil mövcuddur. Bu da qaçqın və məcburi köçkünlərin sosial təminatlarının, yaşayışlarının müsbət olmasına şərait yaratdı. 2004-cü il 1 iyul tarixində Cənab Prezident İlham Əliyevin 298 saylı sərəncamı ilə "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir .

Prezident İlham Əliyevin 2 avqust 2018-ci il tarixli sərəncamı ilə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 2018-ci ildə əlavə olaraq minimum 300 mənzilin alınması üçün 20 milyon manat vəsait ayrılmışdır. Bu da 2018-ci ildə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilməsi nəzərdə tutulan mənzillərinin sayının 2,4 dəfə artırılmasına imkan yaratmışdır. Bunlarla yanaşı, Qarabağ müharibəsi əlilləri dövlət tərəfindən minik avtomobilləri ilə davamlı olaraq təmin edilirlər. 2018-ci il noyabr ayına qədər müharibə əlillərinə verilən avtomobillərin sayı 6144 olub ki, onlardan 265-i cari ildə verilib. 2017-ci ildə əlilliyi olan şəxslərə 33 min ədəd protez-ortopedik məmulat və reabilitasiya vasitəsi, tibbi göstərişi olan əlillərə 1193 ədəd əlil arabası təqdim olunub, 39,8 min nəfərə bərpa xidməti göstərilibdir. Bundan başqa, Prezident təqaüdü ilə yanaşı, müharibə əlillərinin böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, qalan az bir qismi isə əlilliyə görə müavinət almaqdadırlar. Müharibə əlillərinin uşaqlarına aylıq sosial müavinətin verilməsi, şəhid ailələrinə 242 AZN aylıq Prezident təqaüdünün ödənilməsi də dövlətin sosial siyasətinin tərkib hissəsidir. [2] Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Prezidentin 2005-ci il 1 fevral tarixli 187 nömrəli fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə uyğun olaraq qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi, məşğulluğunun artırılması, mənzil şəraiti, müvəqqəti məskunlaşmaları, humanitar ərzaq və qeyri-ərzaq yardımın verilməsi və s. problemlərə dair işlər aparır. Cənab prezidentimiz İlham Əliyevin qətiyyətli mövqeyi göz önündədir. 2008-ci ildə "Məcburi Köçkünlərin İqtisadi İnkişafına Yardım Layihəsi üçün Əlavə Maliyyələşdirmə" ni həyata keçirmək üçün Beynəlxalq İnkişaf Assosiasiyasi və Azərbaycan Hökuməti arasında layihə sazişi imzalanmışdır.

2013-cü il Prezident İlham Əliyevin Abşeron rayonunun Masazır qəsəbəsində 760 məcburi köçkün ailəsi üçün yeni salınmış məhəllənin açılışında nitqində qeyd etmişdir: "Əsas məsələ öz həllini tapandan, torpaqlarımız işğalçılardan azad olunandan sonra Zəngilanda, digər şəhər və rayonlarımızda gözəl evlər tikəcəyik. Artıq bu qəsəbə özlüyündə bir göstəricidir."[1 s.9]

Bu gün Azərbaycan Prezidentinin bütün səyləri işğal olunmuş torpaqlarımızın geri qaytarılması, öz yurd-yuvalarında didərgin düşmüş qacqın və məcburi köçkünlərin öz torpaqların qaytarılması istiqamətindədır. Bunun üçün dövlətimiz öz iqtisadi, siyasi və hərbi gücünü daim artırır. Öz iqtisadi inkişaf tempinə görə regionda öndə gedən dövlətimiz siyasi sahədə də regionda söz sahibidir. Hərbi sahədə isə son iyirmi ildə çox böyük inkişafa nail olunmuşdur. Belə ki, hərbi sənaye sahəsində digər ölkələrdən asılılığı aradan qaldırmaq üçün Müdafiə Sənayesi Nazirliyi yaradılmış, ordumuzun təchizat səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmişdir. Bu gün dinc yolla mümkün olmayacağı təqdirdə Ali Baş Komandanın bir əmri ilə torpaqlarımızı erməni işğalçılarından azad edəcək qüdrətli və nizami ordumuz formalaşmışdır. Dövlət başçısının sosial siyasət istiqamətində ən uğurlu sərəncamlarından biri də azad olunmuş ərazilərdə pilot layihələrin həyata keçirilməsi məqsədilə yaşayış binalarının, inzibati və sosial infrastrukturun yaradılmasıdır. Dövlət başçısının Sərəncamı ilə düşmən işğalından azad olunmuş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası istiqamətində həyata keçirilən layihə məcburi köçkünlərin doğma yurda qayıdışı prosesində bir pilot layihədir və beynəlxalq təşkilatlar tərəfindən də müsbət qarşılanıbdır. Azərbaycan Prezidentinin təşəbbüsü və iradəsi ilə həyata keçirilən bu pilot layihə beynəlxalq ictimaiyyət tərəfindən də dəstəklənir. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı və digər beynəlxalq strukturlar bu məsələ ilə əlaqədar qəti iradələrini ortaya qoyublar.

Şəhid ailələridə həmçinin cəmiyyətimizin ən həssas qruplarından biridir. Təsadüfü deyildir ki, dövlət orqanları, müxtəlif təşkilatlar bu ailələrin problemlərinə xüsusi diqqət yetirir, onların həlli üçün mümkün olan hər şəyi etməyə çalışırlar. Respublika Prezidenti İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyeva daim şəhid ailələri ilə görüşür, onları diqqətlə dinləyir, müxtəlif qayğı və himayədarlıq nümunələri nümayiş etdirirlər. Bu çoxsaylı nümunələr aydın surətdə göstərir ki, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalmış insanların xatirəsi daim əziz tutulur, onların ailə üzvlərinə diqqət, qayğı zaman keçdikcə artır, məzmunca daha da dolğunlaşır. Dövlət başçısının, Mehriban xanımın şəhid, qaçqın və məcburi köçkün ailələrinin nümayəndələri ilə görüşləri zamanı yaranan xoş ovqatı, canlı ünsiyyəti, səmimiyyəti dillə ifadə etmək çox çətindir. Həmin ailələr həmişə dövlət siyasətini yüksək qiymətləndirir, bu siyasətin daha çox uğur qazanması istiqamətində səylərini əsirgəmirlər. Cəmiyyətin həssas qruplarına münasibətdə formalaşmış Azərbaycan nümunəsi bütün dünya üçün örnək olmağa yarayır. Bu il yanvar ayının 28-də Prezident sarayında şəhid ailələri ilə keçirilən görüş zamanı prezident İlham Əliyev söylədiyi nitqində qeyd etmişdir ki, "keçən ilin aprel ayında Azərbaycan xalqı bir daha mənə etimad, inam göstərdi, məni prezident vəzifəsinə seçdi. Mənim birinci fərmanım şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı idi. Mən istənilən sahə üzrə fərman imzalaya bilərdim. İqtisadi sahə üzrə, xarici siyasət, sosial məsələlərlə bağlı. Ancaq mən hesab edirəm ki, birinci fərman şəhid ailələri ilə bağlı olmalıdır. Bu fərman əsasında 10 minə yaxın şəhid ailəsinə dövlət tərəfindən 11 min manat məbləğində birdəfəlik ödəmələrin verilməsi nəzərdə tutulur. Yenə də deyirəm, mən heç bir ölkə ilə Azərbaycanı müqayisə etmək istəyirəm, ancaq bu da həqiqətdir ki, Azərbaycan bir çox ölkələrə bu sahədə nümunə göstərir ". [7]

2018-ci il aprelin 11-də keçirilən seçkilərdə inamlı qələbə qazanan İlham Əliyevin növbəti prezidentlik müddətində imzaladığı ilk fərman – "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli fərman təkcə məlum kateqoriyaya aid olan şəxslər tərəfindən deyil, bütün ictimaiyyət tərəfindən çox yüksək qiymətləndirilmişdir. Bu, dərin humanizmin parlaq təcəssümüdür.

Prezidentin 28 yanvar 2019-cu ildə imzaladığı fərmanla 19 aprel 2018-ci il tarixli fərmanda müəyyən dəyişiklik edilmiş, Azərbaycanın ərazi bütövlüyü uğrunda 1997-ci il avqust ayının 2-dək şəhid olmuş əlavə 2725 şəhidin varəsələrinə də birdəfəlik ödəmə verilməsi zəruri hesab olunmuşdur. Bunların 2264 nəfəri az sığorta ödənişi almış şəhid hərbi qulluqçunun, 461 nəfəri isə şəhid polisin vərəsəsidir. Yeni fərmanla birdəfəlik ödəmənin verilməsi prosesi artıq 12268 şəhidin vərəsələrini əhatə edur. Prezidentin 30 yanvar 2019-cu il tarixli "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması haqqında" fərmanı ilə bu təqaüdün aylıq məbləği artırılaraq 2019-cu il fevralın 1-dən 300 manat müəyyən edilmişdir.

Şəhid ailələrinə dövlət və cəmiyyət qayğısının təzahürləri kifayət qədər zəngindir, əhatəlidir. Bunlardan bir qismini qeyd etsək, mənzərə tam şəkildə görünər.

- 2019-cu il yanvarın sonuna qədər 6650 şəhid ailəsinə dövlət tərəfindən mənzillər, evlər, 6 mindən çox şəhid ailəsinə isə minik avtomobilləri verilibdir.
- Şəhid ailələlərinə 19 aprel 2018-ci il tarixli Prezident fərmanına əsasən ötən müddət ərzində 3100 şəhid hərbi qulluqçunun vərəsələrinə birdəfəlik ödəmə həyata keçirilib və bu istiqamətdə 34 milyon manat vəsait xərclənibdir. Hazırda 6444 şəhidin vərəsələrinə ödənişlər davam etməkdədir.
- Ölkəmizdə müharibə əlilləri və veteranları ilə yanaşı şəhid ailələrinin də mənzillə təminatı həyata keçirilir. Ötən illərdə bu kateqoriyalardanolan vətəndaşlara 6654 mənzil verilibdir. Təkcə 2018-ci ildə şəhid ailələrinə və müharibə əlillərinə nəzərdə tutulduğundan 3 dəfə çox, daha dəqiq desək, 626 mənzil verilməsi diqqətə layiqdir. 2019-cu ildə isə həmin qəbildən olan vətəndaşlara ən azı 800 mənzilin verilməsi nəzərdə tutulmuşdur.
- Şəhid ailələrinin Prezidentin aylıq təqaüdü, yaxud müavinətlərlə təmin olunması da xüsusi qeyd edilməlidir. Aylıq təqaüd və müavinətlərin artırılması da daim diqqətdə saxlanılır.
- Əmək pensiyası almaq hüququ olmayan şəhid ailəsi üzvlərinə və müharibə əlillərinin uşaqlarına da aylıq sosial müavinət verilir.
- Şəhid ailəsi və Milli Qəhrəman ailəsi üzvlərinə əmək pensiyası təyin olunarkən əlavə də hesablanır.
- Şəhid ailələrinin və müharibə əlillərinin övladları dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

Qeyd etdiyimiz məqamlar, nəzərdə tutulan imtiyazlar və təminatlar göstərir ki, ölkəmizdə diqqətlə işlənib hazırlanan və reallaşdırılan sosial siyasət şəhid ailələrinin rifah halının yaxşılaşdırılmasının başlıca istiqamətlərindən biri kimi müəyyənləşdirililmişdir. Ümumiyyətlə, təkcə şəhid ailələrinə yox, digər həssas qruplara da kömək, yardım üçün əhəmiyyətli yolların axtarılması və seçilməsi özünü yetərincə doğruldur. Məsələn, bu vaxta qədər müharibə əlillərinə 6144 avtomobil verilibdir; onların böyük əksəriyyəti əlilliyə görə əmək pensiyası, belə hüququ olmayan az bir qismi isə əlilliyə görə müavinət alırlar.

Şəhid ailələrinin nümayəndələri dövlətin yeritdiyi siyasətdən, o cümlədən sosial siyasətdən razı qaldıqlarını, qürur hissi keçirdiklərini xüsusi vurğulayırlar. Bu baxımdan 2019-cu il yanvarın 28-də Prezident sarayında təşkil edilmiş görüş zamanı şəhid anası İbadət Əliyevanın dediyi sözlər səciyyəvidir: "Sizin şəhid ailələrinə göstərdiyiniz qayğını biz öz üzərimizdə hiss edir və bundan qürur hissi keçiririk. Şəhid ailələrinə bu diqqət və qayğınıza bizim sosial təminatımızla bağlı gördüyünüz bütün işlərə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Bu tədbirlər ildən-ilə genişlənir, çoxalır... Mən inanıram ki, xalqımız çox vətənpərvər, qəhrəman xalqdır. Bu xalqın əli silah tutan hər bir nümayəndəsi şəhidlərin yolunu davam etdirmək üçün bir nəfər kimi Vətənimizi qorumağa hazırdır". [7]

Şəhid ailələrinə, habelə digər həssas qruplara köməyi artırmaq üçün ölkəmizin iqtisadi və hərbi potensialı gücləndirilməlidir. Hazırda Azərbaycanın yeritdiyi uğurlu iqtisadi siyasətin nəticəsidir ki, ölkə böyükmiqyaslı sosial layihələri icra edə bilir. Reallaşdırılan Layihələrin, təşəbbüslərin əsasında ilk növbədə bizim maddi-maliyyə imkanlarımız, vəziyyətimiz dayanır. Bunu ondan görmək olar ki, vaxtilə müavinətlə əhatə olunmuş vətəndaşların aldıqları məbləğin səviyyəsi o qədər də yüksək deyildi. Ölkəmizin iqtisadi inkişafı, maddi vəziyyətinin yaxşılaşdı-

rılması bir çox sosial layihələrin icrasına zəmin yaradır. İndiki şəraitdə ordumuzun ən müasir silahlarla təminatı, çox böyük vəsait tələb etsə də, tam şəkildə həyata keçirilir. Çünki biz müharibə şəraitindəyik, torpaqlarımızın bir qismi işğal altındadır. Hazırda Azərbaycan ordusu dünya miqyasında ən güclü ordular sırasındadır. Bu amillərlə yanaşı hansı inkişaf modelinin seçilməsindən də çox şey asılıdır. Dövlət başçısı İlham Əliyev şəhid ailələri ilə görüş zamanı demişdir: "Biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının öz qanunları var. Bəzi hallarda bazar iqtisadiyyatı sosial siyasətlə o qədər də uzlaşmır. Hesab edirəm ki, ölkəmizin uğurlu inkişaf modeli bu iki amilin hər iki istiqamətini özündə ehtiva edir. Çünki biz iqtisadi inkişafa ona görə nail olmaq istəyirik ki, sosial məsələləri daha genişmiqyaslı həll edək və vətəndaşlarımız daha da yaxşı yaşaşınlar". [7]

Lakin bir məsələyə də xüsusi diqqət yetirilməlidir. Şəhid ailələrinə qayğı, kömək təkcə maddi-iqtisadi amilləri nəzərdə tutmur. Məsələnin mühüm aspektlərindən biri həmin ailələrə sosial-mənəvi dəstək verilməsi, şəhid adının yüksəkliyinin, ucalığının etiraf olunmasıdı, əbədiləşdirilməsi, nəsildən-nəsilə ötürülməsidir. Bu baxımdan bir neçə sənədin adının çəkilməsi məqsədəuyğundur: "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən guzəştlər haqqında" Azərbaycan Respublikasının 1993-cü il 3 sentyabr tarixli Qanunu; "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 1997-ci il 23 dekabr tarixli Qanunu; "20 Yanvar Şəhidi" fəxri adının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 31 mart tarixli Fərmanı; "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli Fərmanı və s.

Qeyd olunan sənədlər həm şəhidin və onun ailəsinin statusu, həm şəhid adının əbədiləşdirilməsi, həm də şəhid ailəsi üzvlərinin sosial müdafiəsi kimi məsələlərə aydınlıq gətirir, bu işlə bağlı müxtəlif qurumların fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Bu sənədlərin məzmunu ilə tanışlıq göstərir ki, şəhid Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxsdir.

Araşdırmalar belə deməyi əsas verir ki, qanunla müəyyən edilən anlayış kifayət qədər əhatəli olub, zaman keçdikcə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təkamülü ilə əlaqədar daha konkret xüsusiyyətlər kəsb etmişdir. Bu baxımdan Milli Məclisin komitə sədri, siyasi elmlər doktoru, professor Hadı Rəcəbli haqlı olaraq, üç mərhələnin ayırd edilməsini məqsədəuyğun sayır. Birincisi, Azərbaycanın müstəqillik əldə etdiyi vaxtadək olan mərhələdir. Bu mərhələdə münaqişə bir ölkənin-Sovet İttifaqının daxilində cərəyan edirdi, Azərbaycanın müstəqil silahlı qüvvələri yox idi. İkinci mərhələ Azərbaycanın müstəqilliyini əldə etdiyi vaxtdan atəşkəsin elan edilməsinədək olan dövrdür. Bu dövr Azərbaycanla Ermənistan arasında fəal müharibə şəraiti, döyüş əməliyyatları ilə səciyyələnir. Üçüncü mərhələ atəşkəsin elan olunmasından sonra başlanır və fərqli xüsusiyyətləri ilə seçilir. Bu mərhələdə hər iki tərəf öz üzərinə götürdüyü öhdəliklərə uyğun olaraq, fəal döyüş əməliyyatları aparmasada, qarşı tərəfin atəşkəsi pozması, hərbi qulluqçularımıza və mülki əhaliyə atəş açması, təxribatlar törətməsi nəticəsində ölənlər və yaralananlar olur. [9 s.110-111]

Beləliklə, ölkəmizdə şəhidlik və şəhidin ailəsi ilə bağlı əsaslı, ədalətli hüquqi baza yaradılmışdır; meydana çıxan problemlər diqqətlə araşdırılır, qanunvericiliyin daha da təkmilləşdirilməsini, daha konkret məzmun kəsb etməsini şərtləndirir. Bu halda nəzərə alınır ki, şəhid statusu şəhid adının əbədiləşdirilməsinə, şəhid ailəsinin üzvü statusu isə onlara güzəştlər tətbiq edilməsinə əsas yaradır.

Şəhid adının əbədiləşdirilməsi müxtəlif formalarda həyata keçirilə bilər. Şəhidlərin adlarını daşıyan küçələr, meydanlar, müəssisə və təşkilatlar, mədəni-maarif ocaqları az deyildir. Lakin əsasən kənd yerlərində, habelə işğal olunmuş rayonların ərazilərində bu baxımdan müəyyən problemlərə daha çox təsadüf olunur. Məlum obyektlərin azlığı, yaxud kiminsə adını daşıması halları, əlbəttə, müəyyən çətinliklər yaratsada, əsas məqam unudulmamalıdır: Şəhid Vətən qarşısında canını fəda etmiş şəxsdir,

onun xatirəsi düşüncələrdə, qəlblərdə yaşamalı, əziz tutulmalıdır. Bu baxımdan qanunvericilikdə nəzərdə tutulmuş başqa əbədiləşdirmə formalarında istifadə olunur və özünü doğruldur(qəbirüstü abidələrin, xatirə komplekslərinin yaradılması və s.).

Şəhid ailəsi üzvlərinin sosial müdafiəsi getdikcə daha yüksək səviyyəli sosial-iqtisadi bazaya malik olur. Ümummilli Liderimizin işləyib hazırladığı və həyata keçirilməsi üçün insanları səfərbər etdiyi siyasi kursu yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev şəhid ailələrinə münasibətdə cəmiyyət həyatının ən müxtəlif sahələrini əhatə edən güzəştləri və imtiyazları getdikcə artırır, həmin ailələrin sosial təminatlarını və sosial müdafiəsini gücləndirir.

## Ədəbiyyat siyahısı


1. Azərbaycan 2013-2003. Əsrə bərabər illər. İnsan amili: sosial siyasət sahəsində bütün dövlət təşəbbüslərin əsası. Gənclər siyasəti və idman: müasir düşüncəli sağlam nəsil./ -Bakı: “Şərq-Qərb”, – 2013. – 280 s.
2. Azərbaycanın özünü doğruldan sosial dövlət modeli. // -Kaspi. – 2018, 20 dekabr.
3. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir (I-IX) cildlərinin köməkçi aparatı. Bakı, M.F.Axundov adına Milli Kitabxana, 2008, 336 s.
4. İnkişafın Azərbaycan modeli: İdeya rəhbəri və ön sözün müəllifi Ramiz Mehdiyev, buraxılışa məsul Bəxtiyar Sadıqov. Bakı: “Oskar” NPM, 2011. –204 s.
5. Qaçqın və məcburi köçkünlərə Prezident qayğısı/ Qaçqınlar və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi. - Bakı: İndiqo mətbəəsi, - 2009. - 361 s.
6. Məlikli, G. Azərbaycan Respublikasının dövlət təhlükəsizliyində sosial siyasətin yeri və rolu/ G. Məlikli. - Bakı: “İndiqo” poliqrafiya şirkəti. – 2018. -208 s.
7. Mənim birinci fərmanım bununla bağlı idi - Prezident [Elektron resurslar]/ - 28 yanvar 2019/ Url: https://axar.az/news/gundem/344929. html.
8. Müasir Azərbaycan dövrün baxışında/ – Bakı: “Azərbaycan” qəzetinin redaksiyası, - c.1: - 2011, - 528 s.
9. Rəcəbli, H. Azərbaycan Respublikasının Sosial Müdafiə Sistemi/ H.Rəcəbli. -Bakı: “MBM” nəşriyyatı, -2012. – 408 s.


## Summary

**Gunel Melikli**

### Improvement of the social situation of refugees, idpers and families of shehides is an important goal of the state


As a result of the Armenian-Azerbaijani conflict around Nagorno-Karabakh since the end of the 20th century, more than one million out of eight million people have become refugees and internally displaced persons. Families of martyrs are also one of the most vulnerable groups in our society. It is no coincidence that state bodies and various organizations pay special attention to the problems of these families and try to do everything possible to solve them. The best example of this is the development of social infrastructure and utilities in areas where refugees and internally displaced persons live. The adoption of systematic measures in this area helps to provide refugees and internally displaced persons with electricity, water and other utilities. Social protection has an increasingly high level of socio-economic base. President Ilham Aliyev, creatively following the political course developed and implemented by our nationwide leader, is increasingly increasing privileges and benefits for various sectors of society, including the social protection of martyrs' families.


***Keywords****: Nagorno-Karabakh, refugees and internally displaced persons, conflict, problems of social security, government, humanitarian aid*

## Резюме

Гюнель Меликли

### Улучшение социального положения беженцев, вынужденных переселенцев и семей шехидов является важной целью государства


В результате армяно-азербайджанского конфликта вокруг Нагорного Карабаха с конца 20-го века более одного миллиона из восьми миллионов человек стали беженцами и вынужденными переселенцами. Семьи шехидов также являются одной из наиболее уязвимых групп в нашем обществе. Не случайно государственные органы и различные организации уделяют особое внимание проблемам этих семей и стараются сделать все возможное для их решения. Лучшим примером этого является развитие социальной инфраструктуры и коммунальных услуг в районах проживания беженцев и вынужденных переселенцев. Принятие систематических мер в этой области способствует обеспечению беженцев и вынужденных переселенцев электричеством, водой и другими коммунальными услугами. Социальная защита имеет все более высокий уровень социально-экономической базы. Президент Ильхам Алиев, творчески следуя политическому курсу, разработанному и осуществляемому нашим общенациональным лидером, все больше повышает привилегии и льготы для различных слоев общества, в том числе повышается социальная защита семей шахидов.


***Ключевые слова:*** *Нагорный Карабах, беженцы и вынужденные переселенцы, конфликт, проблемы социального обеспечения, государство, гуманитарная помощь.*

UOT 327.7

**RAMİLƏ DADAŞOVA**
*Tarix üzrə fəlsəfə doktoru, dosent, AMEA Qafqazşünaslıq İnstitutunun elmi işlər üzrə direktor müavini*
*dadashova.ramila@rambler.ru*
*Azərbaycan*

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİ NIZAMA SALMASI İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ

***Açar sözlər:*** *Ümummilli lider, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ABŞ, Rusiya, BMT Təhlükəsizlik Şurası*

1969-1982-ci illərdə Azərbaycanın rəhbəri olan Heydər Əliyev Qarabağa çox böyük diqqət ayırdı. Ümummilli lider, uzaqgörən siyasətçi, diplomat Heydər Əliyev bilirdi ki, 1923-cü il iyulun 7-də Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Dağlıq Qarabağın ermənilər yaşayan hissəsində Azərbaycan SSR-in tərkibində, mərkəzi Xankəndi olmaqla, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması qərarı Qarabağın Dağlıq (Yuxarı) Qarabağ və Aran (Aşağı) Qarabağ coğrafi adı altında bölünməsi məsələnin gələcəkdə yenidən qaldırılmasında ermənilərə siyasi stimul verəcək. Bu vaxtdan etibarən Dağlıq Qarabağ Muxtar Vilayətində əhalinin etnik tərkibi barədə saxta məlumatların verilməsi, ermənilərin sayının süni surətdə artırılması, türk toponimlərinin erməni adları ilə əvəz edilməsi, 1948-1953-cü illərdə, 1956-cı illərə qədər azərbaycanlıların Ermənistandan deportasiya edilməsi və 1946-1980-ci illərdə dünyanın müxtəlif yerlərində - ABŞ, Fransa, Misir, Türkiyə, Kipr, Uruqvay, Argentina, Suriya, Yunanıstan, Livan, İran, Bolqarıstan və Rumıniya, Fələstin və başqa ölkələrdə yaşayan 130 min erməninin azərbaycanlıların çıxarıldığı yerlərə köçürülməsi bunları göstərirdi (8, s.43-44). Qeyd etmək lazımdır ki, Azərbaycanlıların öz tarixi ata-baba yurdlarından məcburən deportasiyası sovet dövründə araşdırılmamış, bu haqda tədqiqat əsərləri olmamışdır. 1948-1953-cü illərdə Ermənistandan azərbaycanlıların deportasiyasına Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 1997-ci il 18 dekabr tarixli fərmanı ilə hüquqi-siyasi qiymət verdi. Fərmanda 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə dövlət komissiyası yaradılması barədə göstəriş verilmişdir(7).

Heydər Əliyev erməni millətçilərinin, guya Azərbaycanın digər rayonları ilə iqtisadi əlaqələrinin olmadığını bəhanə gətirərək, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələblərinin qarşısını almaq üçün Qarabağın dağlıq və aran zonalarının təsərrüfat, iqtisadi cəhətdən birləşdirilməsinə çalışırdı. Şuşa şəhərinin inkişaf etdirilməsi üçün bir neçə qərar qəbul edildi, Şuşa ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. 1969-cu ildən Xankəndi Pedoqoji İnstitutu fəaliyyətə başladı. Dağlıq Qarabağda erməni və rus dillərində təhsil verən onlarla ixtisaslaşdırılmış orta məktəb və peşə məktəbi fəaliyyət göstərirdi. DQMV televiziya və radio proqramlarının qəbulu üçün texniki infrastruktur ilə təchiz edilmişdi. Erməni dilində beş müstəqil dövrü nəşr var idi. Heydər Əliyevin sərəncamı ilə 1979-cu ildə Ağdam-Xankəndi dəmiryolu çəkilməsi DQMV-nin digər rayonlarla əlaqəsini gücləndirdi. Təsadüfi deyil ki, Azərbaycanın iqtisadi regionları arasında Abşeron, Gəncə-Qazax, Naxçıvan Muxtar Respublikasından sonra Dağlıq Qarabağ Muxtar Vilayəti sənayenin inkişafına görə 4-cü yerdə dururdu. Təkcə DQMV-də 137 sənaye və tikinti müəssisəsi fəaliyyət göstərirdi (20, s.45).

Hələ Azərbaycan SSR DTK-nın sədri olarkən Heydər Əliyev 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundova məktubunda yazırdı ki, iyun ayının 23-dən 24-nə keçən gecə Xankəndində bəzi küçələrdə erməni dilində 8×9 sm. ölçüdə 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələb edilirdi. Məktubda yazılır-

dı ki, Xankəndinə əməliyyat qrupu göndərilmiş, təqsirkarlar ciddi cəzalandırılmışlar. (17, s.28). 1964-cü ildə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri vəzifəsində olmasından istifadə edərək A.Mikoyan Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi barədə yenidən Xruşova bildirmişdi. Xruşşov onun təklifinə cavab olaraq demişdi ki, Dağlıq Qarabağ ermənilərinin Ermənistana bir sutka ərzində köçürülməsini təmin etmək üçün 12 min hərbi yük maşınları ayrılmasını təqdim etməyə hazırdır (1, s.162).

90-cı illərin əvvəllərində Azərbaycan silahlı qüvvələri arasında ixtilaf, dövlət orqanlarının nəzarət edə bilməməsi və gedən daxili çəkişmələrdən istifadə edərək Ermənistan öz təcavüzünə haqq qazandırırdı. Bir tərəfdən Ermənistan Azərbaycanı cavab verməyə təhrik edir, digər tərəfdən də ölkədə daxili çəkişmələr rayonların bir-birinin ardınca işğal edilməsinə səbəb olurdu. Daxili siyasətin sabitləşdirilməsi Azərbaycan üçün əsas çıxış yolu idi. Bunun üçün hakimiyyətə iradəli bir şəxs gəlməli idi. Görkəmli siyasi xadim Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasına uğurla rəhbərlik etməsini, diplomatik xidmətlərini dərk edərək Azərbaycan xalqı çıxış yolunu Ümummilli liderin hakimiyyətə qayıdışında gördü. Heydər Əliyev Ali Sovetin sədri seçildi. 1993-cü il iyunun 24-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Prezident səlahiyyətləri Ali Sovetin sədrinə verildi. Heydər Əliyev iyulun 5-də Ali Sovetdə ABŞ, Rusiya və Türkiyənin Bakıdakı səfirləri və BMT-nin Bakıdakı nümayəndəsi ilə görüş keçirdi, ABŞ, Rusiya, Türkiyə, BMT, ATƏT və beynəlxalq birliyi erməni silahlı qüvvələrinin Azərbaycana təcavüzünü dayandırmağa çağırdı, adları çəkilən dövlətlərin və qurumların heç bir zəruri tədbir görmədiyini, ermənilərin hücumlarının gücləndiyini bildirdi (26, s.46-47). ATƏT-in Minsk konfransının sədri Mario Rafaelli xarici informasiya agentlərinin guya ermənilərin Ağdamı işğal etməsi barədə məlumat yayması ilə əlaqədar Bakıya gəlişini təxirə salması barədə Prezident Heydər Əliyev belə dedi: "… əgər siyasi və diplomatik addımlar yanlış informasiya əsasında qəbul edilibsə, bu, bizi sadəcə təəccübləndirir… ATƏM-in bu hərəkətindən sonra biz Ermənistanla təkbətək mübarizə aparmağa məcburuq, bu da problemin sülh yolu ilə həll edilməsinə zərbə vurur, regionda hərbi əməliyyatları qızışdırır. .." (26, s.46-47).

1995-ci il oktyabrın 22-də BMT-nin 50 illik yubileyində iştirak etmək üçün ABŞ-da olan Prezident Heydər Əliyev Baş Məclisdə çıxışında Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin həyata keçirilmədiyini, ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticə vermədiyini bildirdi (2, s.23).

Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində Naxçıvan blokadadan çıxarılmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikasını Azərbaycanla birləşdirən yeganə nəqliyyat yolu olan Mehri dəmiryolunu Ermənistanın dağıtması nəticəsində Naxçıvan blokadada qalmışdı (25, s.229-230). Çünki sovet dövründə (1920-1921-ci illərdə) Azərbaycanın Göyçə, Dərələyəz, Zəngəzur mahallarının Ermənistana verilməsi nəticəsində Naxçıvan Muxtar Respublikası anklav əraziyə çevrilmişdi. Yalnız Naxçıvan Muxtar Respublikası Ali Soveti Məclisinin sədri, uzaqgörən siyasətçi Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində Türkiyə və İranla nəqliyyat, elektrik sahələrində əlaqələr yaradıldıqdan sonra Naxçıvan blokadadan xilas oldu (8, s.54).

Heydər Əliyev "Azadlığı dəstəkləmə aktı"na edilmiş 907-ci əlavənin ləğv edilməsi üçün gərgin mübarizə aparırdı. Ermənistanın xaricdə olan erməni diasporasından məharətlə istifadəsi nəticəsində ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də hökumət səviyyəsində Azərbaycana hər cür yardımı, o cümlədən humanitar yardımı göstərilməsini qadağan edən qərarı, "Azadlığı dəstəkləmə aktı"na edilmiş 907-ci əlavəni qəbul etməsi həm də siyasi məna kəsb edirdi. Azərbaycanın ədalətli mübarizəsinə şübhə yaradırdı. Həmin dövrdə ABŞ-da ermənilərin maraqlarını Amerika Erməniləri Milli Komitəsi müdafiə edirdi, Azərbaycan lobbizmi isə yox dərəcəsində idi. Yalnız Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin düşünülmüş daxili və xarici siyasətinin nəticəsi olaraq dünya dövlətlərinin, eləcə də ABŞ-ın dövlətimizə münasibəti dəyişdi. Heydər Əliyev 1999-cu il aprelin 27-də ABŞ-da olarkən nüfuzlu konqresmenlərin bir qrupu ilə görüşdü, dövlət başçısı Azərbaycanın xarici siyasətini, Dağlıq Qarabağ probleminin həll edilməsi üçün ədalətli mövqeni təfsilatı ilə izah etdi. Konqresmen Çet Edvards Azərbaycan rəhbərinə öz minnətdarlığını belə bildirdi: "Bizə göstərdiyiniz li-

derlikdən bəhrələnərək, nümunə götürərək Konqresdə 907-ci maddənin ləğvinə həsr olunan müzakirələr zamanı eyni liderlik göstərəcəyik..."(2, c.5, s.221; 3).

1992-ci ildə "Azadlığı müdafiə Aktı"na "907-ci əlavə"ni qəbul edən ABŞ administrasiyası yalnız Ümummulli lider Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində 2002-ci ildə konqresə Azərbaycana yardımın 46% artırılması, Ermənistana yardımın 22% azaldılması barədə müraciət etdi (11, s.70). 2001-ci il 11 sentyabr terror hadisələrindən sonra Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə ABŞ-ı dəstəkləyən ilk dövlətlərdən biri oldu, oktyabr ayının sonlarında ABŞ Senatı 907-ci əlavənin müvəqqəti dayandırılması barədə Prezidentə səlahiyyət verdi. Ümummulli lider Heydər Əliyev 2001-ci il oktyabrın 28-də ATƏT-in Minsk qrupunun həmsədri ABŞ nümayəndəsi Rudolf Perina ilə görüşdə bu barədə belə demişdir: "Terrorizmin meydana gəlməsi səbəbi təcavüzkar separatizmdir. Təcavüzkar separatizm demək olar ki, terrorizmin anasıdır. Ancaq təəssüf ki, vaxtilə bu köklərə lazımi qədər qiymət verməyiblər..."(16, 36-cı kitab, s.406).

Ermənistan münaqişənin əvvəllərindən Azərbaycana qarşı dezinformasiya müharibəsinə keçmişdi. Heydər Əliyevin gərgin diplomatik fəaliyyəti nəticəsində dünya birliyinin Azərbaycan barədə rəyi müsbət istiqamətdə dəyişdi. Heydər Əliyev dünya dövlətlərinə bildirdi ki, Ermənistan silahlı qüvvələri Azərbaycanın İranla həmsərhəd olan və dəmiryolunun keçdiyi Füzuli, Cəbrayıl, Zəngilan rayonlarını işğal etmiş, yolları dağıtmış, özləri-özlərini bu dəmiryolu kommunikasiyasından məhrum etmişlər (10, s.283).

Heydər Əliyev Rusiyanın da münaqişədə mövqeyinə ciddi yanaşırdı. Rusiya Müdafiə Nazirliyinin ayrı-ayrı vəzifəli şəxsləri 1993-1995-ci illər ərzində Ermənistana qanunsuz olaraq ümumi dəyəri 1 milyard dollar olan silah və döyüş sursatı göndərmişdi (14, 20-ci kitab, s.87). Bu məsələ ilə bağlı 1997-ci ilin mart ayında Heydər Əliyev Boris Yeltsinə məktub göndərdi, Rusiyaya rəsmi səfəri zamanı bu barədə danışdı. B.Yeltsin təqsirkarların aşkar ediləcəyini bildirdikdə, Heydər Əliyev təkcə təqsirkarların aşkar edilməsi deyil, həm də bu silahların aşkar edilərək, Ermənistandan alınıb Rusiyaya qaytarılmasının lazım olduğunu vurğuladı (4, c.2, s.43). Həmin il iyul ayında Heydər Əliyevin Rusiyaya səfəri zamanı Rusiya-Ermənistan-Azərbaycan Komissiyası yaradılması haqqında razılıq əldə edildi. Komissiya istər Ermənistanda, istərsə də Azərbaycanda Rusiya silahlarının haradan göndərildiyini araşdırmalı idi (4, c.2, s.44). 1997-ci il iyulun 28-də BMT-nin iqamətgahında Baş katib Kofi Annan ilə görüşən Heydər Əliyev Rusiyanın Ermənistana qanunsuz yollarla külli miqdarda silah verdiyini və BMT-nin bu məsələ barəsində ciddi tədbir görməsinin vacibliyini bildirdi (2, s.42).

Bütün dünyanın gözü qarşısında baş verən Xocalı soyqırımının əsl mahiyyəti yalnız Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə yenidən qayıdışından sonra açılmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikası Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir (22, s.19).

Münaqişənin ilkin mərhələsində dünya ictimaiyyətinə qaçqın və məcburi köçkünlərin vəziyyəti ilə bağlı verilən informasiyanın qıtlığı ucbatından humanitar yardım çox az göstərildi. Ümummilli lider Heydər Əliyevin dünya ictimaiyyətini problemlə bağlı təfsilatı ilə tanış etməsi belə yardımların bir neçə dəfə artırılmasına səbəb oldu. BMT Baş Məclisi 1993-cü il dekabrın 20-də qəbul etdiyi "Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardım" adlı 48/114 nömrəli qətnamədə bütün dövlətləri, təşkilatları, BMT-nin proqramlarını, ixtisaslaşmış qurumları, digər hökumətlərarası, qeyri-hökumət təşkilatlarını azərbaycanlı qaçqın və məcburi köçkünlərə kifayət qədər maliyyə, tibbi, maddi kömək göstərməyə çağırdı (23, s.64-66).

Ümummilli lider Heydər Əliyev Uşaqların həyatının müdafiəsi və inkişafına dair BMT bəyannaməsini imzalayarkən Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində meydana çıxan 1 milyondan çox qaçqın və məcburi köçkünün əksəriyyətinin uşaq olduğunu, Ermənistanın beynəlxalq hüquq normalarına məhəl qoymayaraq 50-dən artıq azsaylı uşağı əsirlikdə saxladığını bildirmişdi (12, 2-ci kitab, s.229).

Heydər Əliyev BMT-nin Baş katibi Kofi Annana 1999-cu il 5 iyul tarixli məktubunda qaçqın və məcburi köçkünlərin hüquq və azadlıqlarının bərpası məqsədilə işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasına, onların öz torpaqlarına qayıtmasına səy göstərməyə və

Azərbaycan xalqının qanuni mənafeyini dəstəkləməyə çağırdı (14, 20-ci kitab, s.431).

1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə görüşündə Heydər Əliyev Lissabon prinsiplərinin Ermənistan tərəfindən qəbul edilməsi üçün lazımi fəaliyyət aparmamaqda Minsk qrupu həmsədrlərini günahlandırdı (19, s.90). Heydər Əliyev Cənubi Qafqaz regionunun Avropanın ayrılmaz hissəsi olduğunu qeyd edərək ABŞ-ı, Avropa Birliyi ölkələrini, Rusiyanı, Türkiyəni, Gürcüstanı, Ermənistanı və ATƏT-in digər üzvlərini regionun problemlərini həll etməyə çağırdı və təhlükəsiz Avropanın yaradılması üçün Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının təsis olunması təklifini irəli sürdü (5, c.5, s.429).

1993-2000-ci illərdə Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunması məsələsini ABŞ ilə 18, Fransa ilə 16, Rusiya ilə 28, Türkiyə ilə 78 dəfə müzakirə etmiş, Minsk qrupunun təmsilçiləri ilə 130-dan çox görüş keçirmişdir (6, c.7, s.372).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Gürcüstan Respublikasının Prezidenti E.Şevardnadze ilə 1996-cı il martın 6-da "Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında birgə bəyannaməni imzalayarkən demişdir: "Qafqaz millətlərarası münaqişələrdən, qeyri-sabitlikdən əziyyət çəkir, bizim başlıca vəzifəmiz regionda sülh və təhlükəsizliyi möhkəmlətməkdir. Bizim imzaladığımız bəyannamə hamı üçün açıqdır və biz ümid edirik ki, bizim ölkələr və qonşu regionun ölkələri ona qoşulacaqlar, kim bəyannaməni rədd edirsə, o, Qafqazda münaqişələrin tərəfdarı kimi özünü göstərir" (24, s.297). Bəyannamədə aşağıdakı müddəalar irəli sürülürdü: 1. Dövlətlərin suverenliyinin beynəlxalq tanınmış sərhədlər hüdudlarında bərpa edilməsi, onların ərazi bütövlüyünün təmin olunması, qaçqınların təhlükəsiz və təminatlı daimi yaşayış yerlərinə qaytarılması. 2. İnsan hüquq və azadlıqlarına, o cümlədən milli azlıqlara mənsub olan şəxslərin hüquqlarına həmişə və hər yerdə hörmət edilməsi. 3. Nəqliyyat və digər kommunikasiya vasitələrinin daha da inkişafı və onların təhlükəsizliyi sahəsində əməkdaşlıq. 4. Qafqazın nadir təbiətinin mühafizəsi məsələlərində, texnogen, təbii fəlakətlərin və silahlı münaqişələrin nəticələrinin aradan qaldırılmasında, beynəlxalq turizmin inkişafında hərtərəfli əməkdaşlıq. 5. Etnik və dini dözümlülük; Qafqazın – dünyanın ən sərvətli qoruğunun mədəni və dil rəngarəngliyinə qayğılı və hörmətli münasibət. 6. Beynəlxalq layihənin fəal dəstəklənməsi, xarici investisiyaların cəlb edilməsi və təşviqi (21, s.69-70).

İstər yuxarıda adı çəkilən bəyannamə, istər 1997-ci il 18 fevral tarixli "Azərbaycan Respublikası və Gürcüstan arasında strateji əməkdaşlığın daha da dərinləşməsi haqqında" bəyannamə, istərsə də digər sənədlər Qafqazda sülh və təhlükəsizliyin, sabitliyin yaradılmasına yönəldilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, Gürcüstandakı qarşıdurmaların nizama salınması Cənubi Qafqazda sülh və sabitlik üçün ən vacib amildir. Heydər Əliyev Qafqazda sülh və təhlükəsizliyin BMT, ATƏT və MDB-dən deyil, Qafqaz dövlətlərinin özlərinin fəaliyyətindən asılı olduğunu bildirirdi (13, 5-ci kitab, s.415).

BMT-nin fəaliyyətinin artırılması və qəbul etdiyi qətnamələrinin yerinə yetirilməsinə dair Azərbaycan Respublikası dövlətinin mövqeyini 1993-2003-cü illərdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev etdiyi nitqlərində və müsahibələrində təqdim etmişdir. BMT-nin fəaliyyətinin hansı halda müsbət nəticə verə biləcəyi barədə Heydər Əliyev BMT Baş Məclisinin 1994-cü ildə keçirilən 49-cu sessiyasında çıxışında demişdir: "Regional münaqişələrin aradan qaldırılmasında toplanmış təcrübə göstərir ki, qətnamələrin yerinə yetirilməsi sahəsində səylər yalnız BMT Nizamnaməsi ilə nəzərdə tutulmuş qətiyyətli tədbirlər ilə möhkəmləndikdə müvəffəqiyyət gətirir" (12, 2-ci kitab, s.310). Ümummilli lider öz çıxışında Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirməkdə fəaliyyətinin gücləndirilməsinin, Şuranın tərkibinin genişləndirilməsinin, Baş Məclisin rolunun artırılmasının, Baş katibin öz səlahiyyətlərindən səmərəli istifadə etməsinin, üzv dövlətlər arasında sıx qarşılıqlı fəaliyyətin olmasının zəruriliyini qeyd etmişdi (2, s.11). Heydər Əliyev eyni zamanda, 2000-ci il sentyabrın 7-də Minilliyin Sammitində çıxışında ATƏT-in Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsi ilə bağlı fəaliyyətinin zəifliyini qeyd etmiş, BMT-də islahatlar aparmaq və Təhlükəsizlik Şurasının səmərəliliyinin artırılması yolu ilə bu məsələnin həll edilməsində BMT-yə ümid edildiyini bildirmişdi (15, 30-cu kitab, s.13-14).

Ümummilli lider Heydər Əliyevin siyasətini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də BMT Baş Məclisinin 2004-cü il sentyabrın 24-də keçirilən 59-cu sessiyasında Təhlükəsizlik Şurasının problemləri, xüsusilə də silahlı münaqişələrə aid problemləri həll etməyə qadir olmamasının etiraf edilməsinin zəruriliyini aşağıdakı kimi vurğuladı: "Təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha geniş məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidlərinə, risklərinə və təhlükələrinə qarşı daha operativ şəkildə cavab verməlidir. Ümdə məsələ BMT Təhlükəsizlik Şurası qətnamələrinin həyata keçirilməsinin işlək mexanizminin yaradılmasından ibarətdir"(17, 6-cı kitab, s.133).

2005-ci il Sammitində Baş katib Kofi Annanın islahatlarla bağlı məlum təkliflərini, Təhlükəsizlik Şurasında islahatlar aparılmasını Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də dəstəklədi.

2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvlüyünə keçirilən seçkilərdə 155 səs çoxluğu ilə Azərbaycan 2012-ci il yanvarın 1-dən 2013-cü il dekabrın 31-ə qədər BMT Təhlükəsizlik Şurasının müvəqqəti üzvü seçildi. Bu hadisə BMT ilə əməkdaşlığın genişləndirilməsinə təsir edən amillərdən biri oldu. Azərbaycan Respublikası 2012-ci ilin mayında və 2013-cü ilin oktyabrında 1 ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyasını yerinə yetirdi. 2012-ci il mayın 4-də Prezident İlham Əliyevin sədrliyi ilə BMT Təhlükəsizlik Şurasının keçirilən iclasında Azərbaycanın təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə yaratdığı təhdidlər" mövzusunda müzakirələr oldu. İclasda iştirak edən BMT Baş katibi Pan Qi Mun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə belə bir mövzunun BMT Təhlükəsizlik Şurasının gündəliyinə salınmasına öz müsbət fikrini bildirdi. BMT Baş katibi 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı da yüksək qiymətləndirdi (9, s.101-103). Təhlükəsizlik Şurasının üzvü olduğu dövrdə İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin milli maraqlarının qlobal səviyyədə inkişafı istiqamətində fəal səylər göstərildi. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün müxtəlif aspektləri Təhlükəsizlik Şurasının müvafiq iclaslarında mütəmadi olaraq diqqətə çatdırıldı, dövlətlərin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüquq prinsiplərinə hörmətin, həmçinin münaqişələr zamanı müharibə və insanlığa qarşı cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsinin vacibliyi vurğulandı.

## Ədəbiyyat siyahısı

1.Abdullayev Ə. İ. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin axırı-XX əsr). Bakı: Elm, 1998, 324s.

2. Azərbaycan BMT ailəsində. Bakı, 2000, 345 s.

3.Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının nüfuzlu konqresmenlərinin bir qrupu ilə görüşdə söhbətindən - Vaşinqton, Kapitoli binası, 27 aprel 1999-cu il http://lib.aliyevheritage. org/az/6606335.html

4. Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, II c., Bakı: Göytürk, 1997, 776 s.

5. Azərbaycan beynəlxalq aləmdə: 5 cilddə, V c., Bakı: Göytürk, 1999, 492 s.

6. Azərbaycan tarixi: 7 cilddə, VII c., Bakı: Elm, 2003, 676s.

7.1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Fərmanı, Bakı şəhəri, 18 dekabr 1997-ci il. http://lib.aliyevheritage.org/az/7128078.html

8.Dadaşova R.B. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarixi, siyasi və hüquqi təhlil. Bakı: Mütərcim, 2019, 216 s.

9.Dadaşova R.B. Diplomatik portpetlər. Bakı:Avropa. 2015, 120s.

10.Dadaşova R.B. Ermənistanın "dezinformasiya müharibəsi" nin münaqişənin nizama salınmasına təsiri / Gənc Alimlərin I Respublika İnnovativ İdeya Yarmarkası çərçivəsində keçirilən "Gənc alim və tədqiqatçıların innovativ inkişafı üçün intellektual potensialın stimullaşdırılması və təkrar istehsalı" adlı konfransın materialları, Bakı, AMEA, 18-23 noyabr 2010-cu il, s.282-285.

11. Ermənistan-Azərbaycan münaqişəsi sənədlər bölməsi // Diplomatiya Aləmi Jurnalı, 2005, № 13, s.63-70.

12. Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir: 46 kitabda, 2-ci kitab, Bakı: Azərnəşr, 1997, 604 s.

13. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 5-ci kitab, Bakı: Azərnəşr, 1998, 500 s.

14. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 20-ci kitab, Bakı: Azərnəşr, 2007, 536 s.

15. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 30-cu kitab, Bakı: Azərnəşr, 2010, 512 s.

16. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: 46 kitabda, 36-cı kitab, Bakı: Azərnəşr, 2011, 512 s.

17.Əliyev İ.H. İnkişaf – məqsədimizdir: 94 kitabda, 6-cı kitab, Bakı: Azərnəşr, 2011, 416 s.

18.Əhmədov E.İ. Ermənistanın Azərbaycana qarşı təcavüzü: etnik təmizləmə, soyqırımı, terror, işğal. II kitab. Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015, 408 s.

19. Heydər Əliyev: "Biz Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaranacağına yol verməri k". Bakı: Əbilov, Zeynalov və oğulları, 2006, 472 s.

20. Həsənov T.G. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının ağır sosial-iqtisadi nəticələri. Bakı: Çaşıoğlu, 2002, 118s.

21. Müqavilələr toplusu. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi / E.M.Məmmədyarovun ümumi redaktəsilə tərtib edilmişdir. I c., Bakı: Qanun, 2008, 252 s.

22. Xocalı soyqırımı (genosidi) günü haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı (24 fevral 1994-cü il) http://files.preslib.az/projects/khojali/azkhojali/gl2.pdf Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasi

23. Письмо представителя Азербайджана от 14 мая 1993 года на имя Председателя Совета Безопасности, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за апрель, май, июнь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1996 год, 455 с.

24. Письмо представителя Азербайджана от 7 июля 1993 года на имя Председателя Совета Безопасности, Документ S/26058, Совет Безопасности. Официальнее отчеты сорок восьмой год дополнение за июль, август, сентябрь 1993 года, Организация Объединенных Наций, Нью-Йорк, 1995 год, 390 с.

25. Сборник документов ООН по армяно-азербайджанскому нагорно-карабахскому конфликту, Баку, Министерство Иностранных Дел, 2009, 368 с.

26. Шукуров И. Дипломатия мира (Об итогах визитов Президента Азербайджанской Республики Гейдара Алиева в зарубежные страны (1993-1997 гг.)). Баку: Азербайджан, 1997, 392 с.

**Summary**

**Ramila Dadashova**

**NATIONAL LEADER HEYDAR ALIYEV`S ACTIVITY ON THE SETTLEMENT OF THE ARMENIA-AZERBAIJAN NAGORNO-KARABAKH CONFLICT**

In 1969-1982, the national leader Heydar Aliyev, who was the head of Azerbaijan, paid great attention to Karabakh in order to prevent the Armenian nationalists lack of economic relations with other regions of Azerbaijan and the demands for annexation of Nagorno-Karabakh to Armenia. Therefore, the propaganda carried out by Armenia in the direction of non development from an economic point of view of Nagorno-Karabakh and the necessity of its annexation to Armenia is groundless. After returning to power in 1993 at the request of the people for the stabilization of the internal policy, Heydar Aliyev carried out diplomatic activity for the settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. Thus, since the beginning of the conflict, Armenia has switched to a disinformation war against Azerbaijan.

As a result of the thought-out domestic and foreign policy of Heydar Aliyev, the opinion of the world community, the states of the world, and also the USA about Azerbaijan has changed in a positive direction. The national leader represented the position of the Republic of Azerbaijan in 1993-2003 at international tribunes, meetings in his speeches and interviews and spoke about the weakening of the OSCE's activities on the settlement of the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, increasing the activity of the UN and the implementation of its resolutions. Continuing the policy of national leader Heydar Aliyev, President of the Republic of Azerbaijan Ilham Aliyev also brought to the attention of the world community the various aspects of Armenia's military aggression against Azerbaijan, the importance of respecting the principles of international law such as sovereignty, territorial integrity and inviolability of internationally recognized borders of states, as well as bringing to responsibility, in particular, he stressed that the UN`s Security Council was not able to solve the problems related to armed conflicts, and stressed the importance of establishing the functioning of the UN`s Security Council resolutions.

***Keywords:*** *the national leader, the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, USA, Russia, UN`s Security Council*

**Резюме**

**Рамиля Дадашова**

**Деятельность общенационального лидера гейдара алиева по урегулированию армяно-азербайджанского нагорно-карабахского конфликта**

Армянские националисты якобы под предлогом отсутствия экономических связей с другими районами Азербайджана требовали присоединения Нагорного Карабаха к Армении, ввиду чего для предотвращения этого в 1969-1982 годах общенациональный лидер Гейдар Алиев уделял очень большое внимание Карабаху. Поэтому пропаганда, проводимая Арменией, якобы экономической отсталости Нагорного Карабаха и необходимости присоединения к Армении является необоснованной. Вернувшись к власти в 1993 году по просьбе народа для стабилизации внутренней политики, Гейдар Алиев осуществлял напряженную дипломатическую деятельность для урегулирования Армяно-азербайджанского нагорно-карабахского конфликта. Так, с начала конфликта Армения перешла к дезинформационной войне против Азербайджана. В результате продуманной внутренней и внешней политики Гейдара Алиева мнение мирового сообщества, государств мира, а также США об Азербайджане изменилось в позитивном направлении. Общенациональный лидер представлял позицию Азербайджанской Республики в 1993-2003 годах на международных трибунах, встречах, в своих выступлениях и интервью высказывал об ослабление деятельности ОБСЕ по вопросу устранения Армяно-азербайджанского нагорно-карабахского конфликта, о повышении деятельности ООН и выполнении принятых ею резолюций. Продолжая политику общенационального лидера Гейдара Алиева Президент Азербайджанской Республики Ильхам Алиев также отмечает, что различные аспекты военной агрессии Армении против Азербайджана регулярно доведены до внимания мирового сообщества, уважает принципы международного права, такие как суверенитет, территориальная целостность государств и неприкосновенность признанных на международном уровне границ, а также важность привлечения к ответственности лиц, совершивших преступления против человечества и войны во время конфликтов, он подчеркивает, что проблемы Совета Безопасности, в частности, не способен решать проблемы, связанные с вооруженными конфликтами, необходим действенный механизм осуществления резолюций Совета Безопасности ООН.

***Ключевые слова:*** *общенациональный лидер, армяно-азербайджанский нагорно-карабахский конфликт, США , Россия, Совет Безопасности ООН.*

UOT 32

**SÜDABƏ HÜSEYNOVA**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA Qafqazşünaslıq İnstitutunun elmi katibi*
*sudabeaskerova@gmail.com*
*Azərbaycan*

# RUS TƏDQİQATÇISI V.L.VELİÇKONUN "QAFQAZ" (RUS İŞİ VƏ TAYFALARARASI MƏSƏLƏLƏR) ƏSƏRİNDƏ ERMƏNİLƏRİN ETNO-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *Qafqaz, V.İ.Veliçko, erməni etnosu, xarakterik xüsusiyyətlər, etno-psixoloji xüsusiyyətlər*

Qafqaz regionunun Qərb və Şərq sivilizasiyalarının qovuşağında yerləşməsi onun özünəməxsus mədəni-tarixi fenomen kimi formalaşmasına şərait yaratmışdır. Bu özünəməxsusluq özünü həm Qafqaz xalqlarının mədəniyyətində, həm sosial-siyasi həyatında, həm də etno-psixoloji durumunda əks etdirmişdir.

Hər bir fərdin özünəməxsus səciyyəvi xüsusiyyətləri olduğu kimi, hər bir etnosun da özəl keyfiyyətləri vardır. Etnopsixoloqların araşdırmalarına görə hər bir xalqın, millətin xarakteri onun tarixi keçmişi ilə sıx bağlı olub onun formalaşmasında mühüm rol oynayır.

Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və mənəvi tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır. Yəni etnos və ya xalq kim olduğunu, özünü nə zaman və necə dərk etdiyini, hansı mənəvi psixoloji keyfiyyətlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını da yaxşı bilməlidir. Bu isə xalqın etno-psixoloji xüsusiyyətlərini tarixi planda araşdırmadan, onu ətraflı öyrənmədən mümkün deyildir.

Bu gün dünyada gedən qloballaşma, müasir texnoloji inkişaf insanlar, etnoslar arasında, həm də ünsiyyət kommunikasiyasında müəyyən yeniliklərin olmasını zəruri edir. Hətta buna görə əsrlər boyu hansısa konfliktlər, qarşılıqlı iddialar yaşayan xalqlar da münasibətlərinə yenidən baxmağa, baş verən ünsiyyət qüsurlarını aradan qaldırmağa çalışırlar. Sözsüz ki, Azərbaycan da bu prosesdən kənarda qala bilməz və tarixi keçmişi də nəzərə almaqla, ətraf mühitin təsirinə, ətraf mühitlə ünsiyyətə diqqət yetirməlidir. Bu baxımdan ilk sırada diqqəti cəlb edən qonşu erməni etnosu olmalıdır. Yüz illərdir ki, qonşuluq şəraitində yaşayan bu etnos ilə nədənsə qurulan ünsiyyət sonda ya tam fiaskoya uğrayır, ya da zaman-zaman mümkünsüz iddialarla üz-üzə qalırıq. Bu baxımdan erməni etnosunun xarakterik xüsusiyyətləri araşdırılmalı və bu məsələlərə aydınlıq gətirilməlidir.

Ermənilərin etno-psixoloji xüsusiyyətlərini araşdırmaq üçün XIX əsrin sonunda yaşamış rus tədqiqatçısı Vasili Lvoviç Veliçkonun "Qafqaz" (Rus işi və tayfalararası məsələlər) əsərini təhlil etmək qarşıya məqsəd qoyulmuşdur.

Erməni etnosunun xarakteri, etno-psixoloji xüsusiyyətlərilə bağlı dolğun bilgilərə yiyələnmək üçün eyni zamanda rus müəlliflərindən N.N.Şavrovun, A.S.Qriboyedovun, M.Y.Lermontovun, V.T.Mayevskinin, A.S.Puşkinin, gürcü müəllifi İ.O.Çavçavadzenin və digər müəlliflərin də əsərlərinə baxmaq kifayət edər [8, s. 25].

V.L.Veliçko yazırdı ki, Qafqazda həyat hadisələri və insan xarakterləri olduqca qabarıq və eyni zamanda mürəkkəbdir [10, s. 16]. Ümumiyyətlə V.L.Veliçkonun Qafqaz və bu regionda yaşayan xalqlarla bağlı apardığı təhlillər xeyli dərəcədə maraq doğurur. Əsərində Qafqaz xalqlarının xüsusiyyətlərini mükəmməl şəkildə təhlil edən V.L.Veliçko azərbaycanlılar, gürclər, Dağıstan dağlılarının etnoqrafiyası, mədəni səviyyəsinə, etno-psixoloji xüsusiyyətlərinə ciddi diqqət yetirmişdir. Gürcüstanda uzun müddət çalışması səbəbindən bu xalqa xüsusi rəğbət bəsləyən V.L.Veliçko bunu əsərdə də açıq aşkar hiss etdirir. Azərbaycanlılar haqqında isə V.L.Veliçko belə yazır: "Heç şübhəsiz, azərbaycanlıların damarlarında nəciblik qanı axır, onlar təbiətən xeyirxah, mərd, genişqəlbli və alicənabdırlar [10, s. 124]. O həmçinin azərbaycanlıların tarixi yaddaşından və qəhrəmanlığa olan münasi-

bətindən bəhs edərək yazır: "Azərbaycanlıların yaxşı tarixi yaddaşı və qəhrəmanlığa böyük irsi ehtiramı vardır [10, s. 133].

V.Veliçkonun ermənilərə yanaşması maraqlıdır. Əsərin təhlilindən də aydın olur ki, V.Veliçko ermənilərin digər Qafqaz xalqlarından kəskin şəkildə fərqlənməsindən xeyli dərəcədə təəccüblənmiş və bunun səbəblərini axtarmışdır. Tarixi prosesləri təhlil etdiyimiz zaman isə bunun səbəbi aydın olmuşdur. Qafqaza sonradan böyük dövlətlərin maraqlarına uyğun olaraq köçürülmüş ermənilər bu regionun avtoxton xalqı olmadıqları üçün ümumqafqaz etno-psixoloji durumu ilə ermənilərin etno-psixoloji durumları arasında kəskin fərqlər meydana çıxmışdır.

V.L.Veliçkonun əsərində ermənilər "mənşəyi aydın olmayan xalq" kimi qeyd olunur [10, s. 7]. Tarixi faktlar sübut edir ki, ermənilərin 1918-ci ilə qədər Qafqaz bölgəsində heç bir dövlət qurumu olmamışdır. O, ermənilərin XIX əsrin I yarısında Cənubi Qafqaza Türkiyədən köçüb gəldiyini, onların yerli sakin olmadıqlarını vurğulayır [10, s. 50]. Qeyd edir ki, Türkiyədən köçürülən on minlərlə erməni diyara əməlli-başlı bədbəxtlik gətirdilər [10, s. 57].

Məlumdur ki, ermənilərin mənşəyinin qeyri-müəyyənliyi ilə bağlı məsələlər təkcə Veliçkonun əsərində deyil, erməni müəlliflərinin özlərinin tədqiqatlarında da qeyd olunmaqdadır. Məsələn, erməni müəlliflərindən Manuk Abekyan bu barədə yazır: "…erməni xalqının mənşəyi nədir, nə zaman və haradan, hansı səbəblərdən buralara gəlmişlər, erməni olmazdan əvvəl və sonra hansı xalqlarla əlaqələr qurmuşlar, onun dilinə, etnik mənsubiyyətinə kimlər və necə təsir göstərmişdir? Bizim əlimizdə bunları isbatlayan açıq və dəqiq məlumatlar yoxdur" [11, s. 124].

İlkin mərhələdə o vaxtkı İranın əyalətlərindən biri olan və əhalisi fars dilində danışan Ərməniyyədə milli azlıqlardan və ya bu dövlətin əsirlərinin yerləşdirildiyi kaloniyalarından biri kimi mövcud olan və "Hayk"lar adlanan hazırkı ermənilər, bu dövlət dağılandan sonra qonşu ərazilərdə elə mənsub olduqları qüdrətli dövlətin adı ilə də adlandırılaraq ərmənlilər, ermənilər və s. kimi tanındılar. Yəni ki, yaşadıqları güclü dövlətin adını, adətlərinə uyğun olaraq özününküləşdirdilər, özəlləşdirdilər. Bununla belə, heç vaxt dövlət şəklində mövcud olmayıblar ki, bunu da onların tarixdə heç bir dövlət atributlarının (pul, gerb və s.) qalmaması faktı da isbatlayır. Yalnız XIX-XX əsrlərdə Osmanlı imperiyasını daxildən parçalamaq istəyən qonşu dövlətlərin planı və dəstəyi sayəsində türk dövlətlərinin arasında tarixdə ilk erməni dövləti yaradıldı ki, sonradan da Türkiyə əleyhinə olan hər yeni dövlət bu erməni kartını oyundan çıxmağa qoymadılar, növbə ilə dönə-dönə oyuna daxil etdilər. Mövcudluğunun missiyasından asılı olduğunu, bu missiyanın isə Türkiyəni aradan götürməkdə böyük dövlətlərə alət olmaq olduğunu dərk edən erməni xalqı isə ölməyib sağ qalmaq üçün bu "killer" vəzifəsi ilə razılaşmaq məcburiyyətində qaldı və həqiqətən də, "vəzifəsinin" öhdəsindən layiqincə gəldi. Üstəlik də, bütün bu tarixi-psixoloji proseslərin sayəsində bu millətin beyni davamlı olaraq planlı şəkildə anti-türk əhval-ruhiyyəsinə kökləndirildi, hansının ki, ağrı-acısını Azərbaycan və Türkiyə hələ də çəkməkdədir [7, s. 44].

Qafqazda erməni dövləti yaradılana qədər erməni xalqını kilsə idarə etmişdir. Bu xalq əsrlər boyu vətənsizlik dərdi çəkib. Bu çox acı nəticəyə elmdə "erməni xəstəliyi" adlandırılan sindromun meydana çıxmasına səbəb olub. Güya nə zamansa dövlətlərinin, dövlətçilik ənənələrinin olduğunu deyəndə də yalan danışırlar. Uydurduqları tarixi özlərindən başqa təsdiq edən yoxdur. Sözügedən fikirləri rus tarixçisi İqor Peçenev də təsdiq etmişdir [6].

Gürcü yazıçısı və publisisti İ.Cavaçavadze "Erməni alimləri və fəryad edən daşlar" əsərində göstərir ki, ermənilər köçürüldükləri torpaları öz adlarına çıxarırlar. O bu iyrənc yalanları və ermənilərin gürcülərə qarşı tarixi-arxeoloji təcavüzlərini ifşa edərək yazırdı: "Onlar bizim adımızı biabır etməklə, bizi milli ləyaqətimizdən məhrum etməklə kifayətlənməyib, bizi dünyadan sıxışdınb çıxarmaq üçün qanla boyanmış tariximizi də, salnamələrimizi də, tarixi xatirə və abidələrimizi də, tarixi sərvətlərimizi də danırlar, müxtəlif fırıldaqlarla öz adlarına çıxırlar" [2, s. 9].

V.L.Veliçko əsərində erməniləri fitnəkar adlandırır və onların məmləkətin müsəlman əhalisini məhv etmək və gələcəkdə onların torpaqlarından istifadə etmək, ona sahib çıxmaq niyyətində olduqlarını göstərir [10, s. 92].

Ermənilik – qeyri-adi, fenomenal bir xüsusiyyətdir: başqa xalqlara, xüsusilə, türk xalqlarına qarşı, o cümlədən, Azərbaycana qarşı kəskin

millətçilik mövqeyində dayanan, öz məqsədlərinə nail olmaq üçün qondarma, uydurma ideyalara geniş rəvac verən, terroru əsas vasitə seçən, insan qanına susamış, ən dəhşətli terror faktlarını yerinə yetirən, təcavüzkar, mədəniyyətdən, sivilizasiyadan uzaq bir ideologiya və siyasətin təzahürü kimi meydana çıxmışdır. Bir sözlə, bu xüsusiyyətin əsas klinik əlamətləri patoloji yalançılıq, özünə vurğunluq ideyaları, təqibetmə sayıqlaması, imperativ sayıqlamalardır [5].

Bu millətin milli şüuru türklərin əsir koloniyalarında formalaşdığından, bugünkü gündə də onlarda kolonial düşüncə sistemi patoloji səviyyədədir. Onlarda sənətkarlığın geniş yayılması ilə bərabər patoloji kollektivçilik, özgə millətlərə, mədəniyyətlərə, dinlərə qarşı dözümsüzlük və s. bu mənşədən qidalanır. Türk cəngavərliyi qarşısında gücsüzlük tarixən onlarda "natamamlıq kompleksi" kimi patoloji hiyləgərlik, yaltaqlıq psixologiyası meydana çıxarıb. Dövlətləri olmadığı üçün həyat tərzləri, psixologiyaları, fiziki, fizioloji, bioloji xarakteristikaları natamam olmuşdur. Onlarda həmişə həyatdan narazılıq düşüncəsi, başqasına şər atmaq, onda olanı qapmaq və sair kimi eybəcərliklər genlərinə işləmişdir. Bu gün müşahidə edilənlər bunu tam təsdiq edir. Ona görə də ermənilər tarixi həqiqətlərdən qorxurlar, anlayırlar ki, reallıqda o keyfiyyətlərin heç biri onlarda yoxdur. Onlar daim başqasının malik olduğu müsbət keyfiyyətlərə iddia edirlər, həm də bu psixoloji sindromdan qurtula da bilmirlər [8, s. 46].

Erməni toplumunda diqqəti cəlb edən psixoloji pozuntulardan biri də özünütəcriddir. Yəni bu toplum saxta tarix yaratmaq, saxta düşmənlər müəyyənləşdirmək və həlli mümkünsüz kimi görünən vəzifələri qarşısına məqsəd kimi qoymaqla okeanda bir ada rolunu oynamağa daha çox meyillidir. Bunun səbəbi isə əslində psixoloji tarazlığın pozulması nəticəsində şəxsiyyətin ikiləşməsini xatırladan bir halın, yəni topluda mütləq reallıqla xəyal arasında olan sərhədin itməsidir [4, s.15].

Bir erməninin istər siyasi, istər həyati, istərsə də fəlsəfi baxışlarına diqqət yetirsək, ilkin olaraq aşağıdakı xüsusiyyətləri görə bilərik.

- İdarə olunaraq qalib gəlmək
- Ətraf mühitə öz təsirini göstərmək
- Fərqlənmək

Erməni fərdi özünütəsdiq düşüncəsinə, intellektual və mənəvi xüsusiyyətlərinə arxalanaraq heç nə etmir. Erməni fərdinin özünütəsdiqi ətrafı inkardan başlayır. Belə ki, erməni bizlər üçün bizi inkar edərək özünü təsdiq etməyə çalışan kəsdir. Bu, erməni psixologiyasının əsas sütunlarından biridir [4, s. 19].

Ermənilərdə diqqətə alınan digər böyük məsələ onların dünyaya səpələnərək yaşamasıdır. Demək olar ki, hər yerdə erməni var. Onlar yerli mühitə və xalqa tez adaptasiya olunur, başqa millətlərdən xüsusiyyətlər mənimsəyirlər. Türklə, ərəblə, yunanla, yəhudilərlə qarışıq nigaha girən ermənilərin övladları türk, yunan, yəhudi, fransız, ərəb millətlərinə məxsus soyadları, adları daşımalarına, başqa mühitdə böyümələrinə rəğmən, öz erməni xislətini unutmurlar. Buna onların beşikdə ikən "beyinlərinin doldurulması" da kömək edir.

Rus müəllifi V.Veliçko göstərirdi ki, "ermənilər haqqında qədimdən pis fikir yaranıb və bu, söz yox ki, əsassız deyil, belə olmasaydı, bu fikir bir çox xalqlarda və həm də müxtəlif vaxtlarda yarana bilməzdi". Rus tədqiqatçısı rusların ermənilərə, xüsusən bu xalqın fitnəkar şovunist nümayəndələrinə münasibətini aşağıdakı cümlə ilə ifadə edir: "…bizim onlara nə qədər ürəyimiz yansa da, onların vəziyyətinə nə qədər yaxından bələd olsaq da, ermənilərin fitnəkar, bic, hiyləgər, araqarışdıran, vicdansız tayfa başçıları gözlərimiz önündə çox iyrənc bir surətdə canlanır" [11, s. 46].

Erməni tarixi araşdırılanda onların müntəzəm şəkildə ətrafında olan güclü dövlətlərdən asılı olduqları, ancaq rus tədqiqatçısı V.Y.Veliçkonun yazdığı kimi sistematik şəkildə daim onlara xəyanət etdikləri aşkara çıxır. Rus müəllif Orest Yevetsi isə qeyd edir ki, "hiyləğər və bəzən də "oyunbaz" olmaq hamının bildiyi kimi ermənilərə məxsus bir xüsusiyyətdir" [6].

Ermənilərin hiyləgərliyi, qeyri-səmimiliyi, xəyanəti rusların bir atalar sözündə də öz əksini tapmışdır. "İki müsəvi (yəhudi) bir erməniyə, iki erməni bir ruma, iki rum da şeytana bərabərdir" ifadəsi ermənilərin hiyləgərliyini xüsusi olaraq vurğulamışdır. Ermənilərin hiyləgərliyi ilə əlaqədar alman səyyahı Alfred Kyorte rumlunun iki müsəvini (yəhudini) aldatdığını, erməninin isə iki rumlunu aldatdığı" atalar sözünün hər yerdə təsdiqini tapdığını qeyd etmişdir. Kyorte qələmə aldığı əsərində ermənilərin hiyləgərliyini qeyd edə-

rək, "Sizi Anadolunun hər hansı bir yerində aldadıblarsa, demək siz ermənilərlə iş görmüsünüz" demişdir. Əksinə türklərin düzgünlüyünü göstərərək yazmışdır: "Mən bir türk ilə iş gördüyüm zaman, yazılı bir sənəd imzalamağa ehtiyac hiss etmirəm. Çünki onun sözü kifayətdir". Eyni zamanda "rum və ya hər hansı bir levantla yazılı sözləşmə hazırlayıram. Çünki onlarla yazılı sənəd imzalamaq, həm vacib, həm də faydalıdır. Erməni ilə isə yazılı da olsa heç bir iş görmürəm, çünki onların yalançılığından və intriqalarından yazılı şərtlərlə də qoruna bilmərsiniz" şəklində düşüncələrini qeyd etmişdir. [6].

Oxşar ifadələr fransız yazıçısı A.Dyuma tərəfindən yazılmışdır. O, 1858-ci ildə Qafqaz səyahətindən sonra qələmə aldığı "Qafqaz səfəri" adlı əsərin birinci hissəsində bölgədə yaşayan xalqlarla əlaqədar müşahidələrini bu şəkildə dilə gətirmişdir: "Qafqazda yaşayan hər xalqın özünə məxsus xüsusiyyətləri vardır". "Fars (tat) ipək ticarəti edər, ləzgi xalça satar, tatar silah satar, erməninin bir xüsusiyyəti yoxdur, satılan hər şeyi satar hətta satılmayanı da. Ümumən ermənilər yaxşı təəssürat yaratmamışlar" [3, s. 57].

XIX əsrin sonu XX əsrin əvvəllərində Osmanlı imperiyasının ayrı-ayrı vilayətlərində konsul işləmiş rus generalı V.T.Mayevski də, V.Ştreker adlı alman tədqiqatçısı da ermənilərin hiyləgərliyini və yalançılığını, xəyanətini xüsusi vurğulamışlar. [9, s. 49-50]

V.Veliçkonun əsərində XIX əsrin sonunda erməni mesenatlarının özlərinin tarixini yazmaq deyil, məhz yaratmaq üçün xeyli vəsait sərf etdiklərinə dair faktlar da təqdim olunur. Veliçko yazır ki, "ermənilərin neft sənayesindən olan mesenatları xüsusi Ermənistan tarixinin tam yaradılmasına, bu kiçik xalqın generallarından tutmuş, kontrabandaçılarına qədər hamını həddindən artıq şişirtməyə səylə çalışırlar" [10, s. 49].

Daha sonra Qafqaz mədəni tarixi fenomeninə yad olan bu ünsürlərin qonşu xalqların tarixlərini və mədəni irsini mənimsəməkdə necə usta olduqlarını göstərərək yazırdı: "Xüsusilə onlar öz tarixi "xidmət"lərini və indiki məziyyətlərini tüfeyli yollarla, daha doğrusu, tarixi daha aydın, şübhəli olmayan və şərəfli qonşu xalqların üstünə kölgə salmaqla irəli çəkmək fürsətini əldən vermirlər" [10, s. 49]. Veliçko ermənilərin bu xüsusiyyətini daha çox Gürcüstan misallarında izah etmiş və buna aid tutarlı faktlar təqdim etmişdir.

V.Veliçkonun əsərində elmi obyektivlik baxımından maraq doğuran məsələlərdən biri də Qafqaz Albaniyası məsələsi ilə bağlıdır. Məlumdur ki, rus və erməni tədqiqatçıları tərəfindən Sovet dövründə canfəşanlıqla aparılan tədqiqatlardan biri albanların və ermənilərin eyniləşdirilməsi məsələsi ilə bağlı olmuşdur. Lakin həm sovet dövründə həm də müasir erməni "tədqiqatçıları" tərəfindən yazılan bu cəfəngiyyatın cavabını hələ XIX əsrdə V.Veliçko öz əsərində vermişdir: "Zaqafqaziya Albaniyası, yaxud ermənicə Ağvaniya məsələsi də olduqca maraqlıdır. Tərkibində həm indiki Yelizavetapol quberniyası, həm də Tiflis quberniyası və Dağıstanın bir hissəsi daxil olan bu diyar ermənilərdən xristianlığı qəbul edən, lakin erməni olmayan xalqların məskənidir" [10, s. 73]. Bu fikrində bir qədər qeyri-dəqiqliyə yol versə də, V.L.Veliçko albanların ümumiyyətlə ermənilərə heç bir aidiyyəti olmamasında tamamilə haqlı idi. Qeyri-dəqiqlik isə ondan ibarət idi ki, V.L.Veliçko albanların xristianlığı ermənilərdən qəbul etdiyini yazmışdı. Aparılan ciddi tədqiqatlar nəticəsində sübut edilmişdir ki, ablanlar xristianlığı ermənilərdən qəbul etməmişlər.

Apardığımız təhlillər nəticəsində belə bir qənaətə gəlirik ki, V.L.Velçiko ermənilərin etno-psixoloji xüsusiyyətlərini şərh edərkən aşağıdakı cəhətləri müəyyənləşdirmişdir:

- Qeyri-normal heysiyyat;
- Şöhrət düşkünlüyü;
- Keçmiş əzəmətlərin həddən artıq şişirdilməsi və reklam edilməsi;
- Namərdlik və xəyanət;
- İkiüzlülük və riyakarlıq;
- Nifrət və həsəd.

Bunun səbəblərini isə rus müəllifi belə açıqlayır: "onların orta əsrlər boyu özlərinə pis ad qazanmaqları və bundan yaxa qurtarmaq istəkləri ilə izah olunur…" [10, s. 52]

V.L.Veliçkonun əsərində əks etdirilən digər bir erməni xarakteri də bugünki proseslərlə səsləşməkdədir. O göstərir ki, "erməni başçıları, belə demək olarsa, iki dükanda alver edirlər: vətənlərini və xalqlarını gah farslara, gah müsəlmanlara, gah da Bizansa satırlar, əl altından isə öz tayfa xüsusiyyətləri uğrunda mübarizə aparırlar" [10, s. 55-56]. 2018-ci ildə Ermə-

nistanda klanlararası mübarizənin nəticəsi kimi meydana çıxan "küçə inqilabı" nəticəsində hakimiyyətə gələn klanın da hərəkətləri bu fikirlə asossiasiya təşkil edir. Tarixi təhlillər göstərir ki, ermənilər Bizansın tərkibində yaşadıqları dövrdə bu dövləti Anadoluya əzəmətli yürüşlər edən türklərə satmışlar. Səlcuq və Osmanlı dövlətləri tərəfindən daim qayğı görən ermənilər XVIII-XIX əsrlərdən etibarən Osmanlı dövlətini İngilislərə və Çar Rusiyasına satmışlar. Artıq iki əsrə yaxındır ki, ermənilərə yeni "vətən" qazandıran, 1991-ci ildən sonrakı dövrdə isə ümumiyyətlə Ermənistan dövlətinin varlığını qoruyub saxlayan Rusiyaya son dövrlərdə baş verən hadisələrin fonunda ermənilərin arxa çevirməsi, bu xalqın V.L.Veliçko tərəfindən də qeyd olunan xüsusiyyətlərini bir daha təsdiqləyir.

V.L.Veliçkonun əsərində ermənilərin Rus hakimiyyət orqanlarına arxa çevridikləri halda başlarına gələ biləcək maraqlı proseslər də şərh edilir: "Erməni siyasətbazlarının sərsəmləmələri, yəqin elə sərsəmləmə kimi də qalacaq, çünki heç bir inqilabi fırıldaq rus əsgərlərinin süngüsü qarşısında davam gətirə bilməz. Ancaq erməni başçılarının Qafqazda rus xalq-dövlət işinə də, erməni camaatının özünə də vurduğu iqtisadi və mənəvi zərər saysız-hesabsızdır. Bu başçılar mənəviyyatca pozulmuş adamlar kimi, sosial pozğunluğun mikrobları kimi, tüfeyli adamlar kimi dəhşətdirlər" [10, s. 99].

Əsərində ermənilərin Qafqaza hansı dəstək hesabına gəldiyini, törətdikləri fitnəkarlıqları müfəssəl şəkildə, faktlara təsvir edən V.L.Veliçko sonda Qafqazın avtoxton xalqlarının ermənilərə münasibətini belə ifadə edir: "Gürcülər və Qarabağın borca düşmüş müsəlmanları Qafqazda qeyri səmimi halda gülümsəyərək bəzən deyirlər ki, rus hökuməti Zaqafqaziyadan qoşunlarını çıxartsa, ermənilərin burada izi-tozu da qalmaz" [10, s. 76].

Erməni ideoloqları diasporda təbliğatı gücləndirməklə, ermənilərin qüdrətli xalqlar tərəfindən assimilyasiya olunmasının qarşısını almağa çalışırlar. Onlar gözəl başa düşürlər ki, Ermənistanda yaşayan bir ovuc erməni uğrunda mübarizə apardıqları ümumi işin davamçısı ola bilməz. Bu səbəbdən də diasporda erməniləri ortaq əzablar və ortaq uğurlar xülyası ilə birləşdirməyə çalışır, bunun üçün "soyqırım əfsanəsindən" məharətlə istifadə edirlər. Diasporda saxta bir tarix təbliğ edən erməni ideoloqları onları qədim və sivil xalqın nümayəndələri olduqlarına inandırmağa çalışırlar. Ermənilərin tarixən əzabkeş bir xalq kimi təzyiqlərə məruz qalması barədə uydurma konsepsiya hazırlayan erməni ideoloqları özləri də bunun yalan olduğunu bilirlər. Bu toplumda əvvəlcə fərqli imperatorluqların və böyük dövlətlərin təsiri altında yaşamış olmalarına, onların böyük əziyyət görmələrinə və acılar yaşamalarına baxmayaraq, xüsusilə türk düşmənçiliyini yaymaq və aktiv saxlamaq istədiklərini görmək lazımdır [5].

Faktlar göstərir ki, hiyləgərlik, məkr müəyyən qrupların rəftar və davranışında dönə-dönə təkrar olunaraq, ermənilərin etnik stereotip və yönümünə çevrilir, nəsildən-nəsilə verilərək etnos üzvlərinin əxlaqi adət və baxışlarında, davranış və rəftar tərzində, başqalarına münasibətlər sistemində təzahür edir [1, s.135].

Beləliklə, şəxsiyyət, insan psixologiyası müəyyən etnik qruplara xas olan tipik tərbiyə üsulları vasitəsilə formalaşır. Ermənilərin həmin tipik tərbiyə üsulunda əsas yeri etnosentrizm, şovinizm, qisasçılıq, terror tutur. Burada xüsusi təşkilatlar, liderlər və dini qurumlar həlledici rol oynayır. Elə buna görə də siyasət, iqtisadiyyat və terrorizm sahəsində erməni mafiyası dünyada məşhurdur və həmin mafiyanın fəaliyyəti dünyanın onlarca ölkəsini əhatə edir. Bu cəhəti ermənilərin psixoloji xüsusiyyətlərini araşdıran bir çox xarici mütəxəssislər də təsdiq edirlər. Onlar sanki dəyişmir və dəyişə bilmirlər, öz xislətlərinə, qisas hissi ilə yaşamalarına əsla dönük çıxa bilmirlər.

### Ədəbiyyat siyahısı

1. Bayramov Ə.S. Etnik psixologiya. Bakı: Penessans nəşriyyatı, 2001, 374 s.
2. Cavaçavadze İ.Q. Erməni alimləri və fəryad edən daşlar. B., 1995, 80 s.
3. Düma A. Qafqaz səfəri. B., 1985, 142 s.
4. Elgün E. Erməni psixologiyası. Çaşıoğlu, 2014, 122 s.
5. Əliyev Z. www.azadliq.az. Tarixin sandığından: Ermeni xesteliyi və qul psixologiyası – araşdırma /10/04/2015/
6. Hüseynova İ. Ermənilərin Cənubi Qafqazda məskunlaşması: reallıqlar və xülyalar https://az.trend.az/azerbaijan/society/3045174.html)

7. Məmmədov C. Diplomatik psixologiya. Bakı: Sabah nəşriyyatı, 2001, 399 s.
8. Sadıq İ. Elmdə erməni virusu. Bakı, 2009, s. 25
9. Sertçelik S. Rus və erməni problemi. Meydana çıxma prosesi. 1678-1914. Ankara, 2017, 398 s.
10. Veliçko V. Qafqaz. Rus işi və tayfalararası məsələlər. Bakı: Azərbaycan nəşriyyatı, 1995, 192 s.
11. Абекян М. История древнеармянской литературы. Ереван: изд. АН Армянской ССР, том 1, 1948, 524 с.

## Summary

**Sudaba Huseynova**

### Etno-psychological features of armenians in the work of russian researcher V.L.Veliçko "Caucasus" (Russian affairs and inter-tribal issues)

In this article, the author analyzes the work of the Caucasus (Russian affairs and inter-tribal issues) of the Russian explorer Vasily Lvovich Veliçko of the late 19th century to investigate the ethno-psychological characteristics of Armenians.

In explaining the ethno-psychological characteristics of the Armenians, V.L.Veliçko identified such characteristics as abnormal sensitivity, fame, betrayal and treachery, hypocrisy and hypocrisy, hatred and envy. At the same time, he calls the Armenians provocative and shows that they intend to destroy the Muslim population and take possession of it in the future.

Ethnocentrism, chauvinism, revenge, and terrorism play a key role in the typical method of Armenians training. It is noted that insidious, recurring behavior and behavior of certain groups, turning the ethnic stereotype and orientation of Armenians into the ethical customs and attitudes, behaviors and systems of the members of the ethnic group.

***Keywords:*** *Caucasus, V.I.Veliçko, Armenian ethnos, characteristic features, ethno-psychological feature*

## Резюме

**Судаба Гусейнова**

### Этно-психологические особенности армян в произведении «Кавказ» (Русское дело и межплеменные вопросы) русского исследователя В.Л.Величко

В данной статье автор для изучения этно-психологических особенностей армян проанализировал работу русского исследователя Василия Львовича Величко "Кавказ" (русское дело и межплеменные вопросы) жившего в конце XIX века.

В.Л.Величко, комментируя этно-психологические особенности армян, определил в них такие неадекватные черты, как наглость и предательство, лицемерие, ненависть, зависть. В то же время он указывает на намерение армян уничтожить мусульманское население и в будущем прибрать к рукам их землии.

Основное место в типичном методе воспитания армян занимают этноцентризм, шовинизм, месть, террор. Отмечается, что хитрость, коварство, повторяясь в отношении и поведении определенных групп, становятся этническим стереотипом и ориентацией в поведении и воспитании армян, передаются из поколения в поколение и проявляются в нравственных обычаях и во взглядах данного этноса.

***Ключевые слова:*** *Кавказ, В.И.Величко, армянский этнос, характерные черты, этно-психологические особенности*

**UOT 32**

**TAMAM CƏFƏROVA**
*tarix üzrə fəlsəfə doktoru, dosent*
*tjafarova59@mail.ru*
*Azərbaycan*

# GÖRKƏMLİ İCTİMAİ-SİYASİ VƏ DÖVLƏT XADİMİ MEHRİBAN XANIM ƏLİYEVANIN AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ ROLU

***Açar sözlər:*** *Heydər Əliyev Fondu, YUNESKO və ISESCO-nun xoşməramlı səfiri, Azərbaycan qadınları, BMT-nin İnkişaf Proqramı*

Azərbaycan qadınına xas olan bütün nəcib xüsusiyyətləri özündə əks etdirən Mehriban xanım Əliyevanın səyləri nəticəsində bu gün Azərbaycanda qadın hərəkatı keyfiyyətcə yeni səviyyəyə yüksəlmiş, ölkənin siyasi sistemində güclü "Birinci Xanım" institutu formalaşmışdır. Mehriban Əliyevanın 1994-cü ildən başlayan geniş ictimai-siyasi fəaliyyəti həyatın demək olar bütün sahələrini əhatə edir və qadın hərəkatının inkişafında yeni mərhələnin lideri kimi başlıca olaraq humanizm meyarlarına söykənir.

Azərbaycan Respublikasında qadın siyasətinin yeni mərhələyə keçməsində, qadın hüquqlarının qorunması ilə bağlı qanunvericilik bazasının zənginləşməsində Mehriban xanım Əliyevanın müstəsna xidmətləri vardır. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti milli-mənəvi dəyərlərə söykənən və intellektual yüksəlişə xidmət edən ideyaların cəmiyyətdə daha çox yayılmasına yönəlmişdir. Ölkənin birinci xanımının gender həssaslığı, qadınların hüquq və azadlıqlarının əməldə təsbiti, amalı onun "Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər" adlı insan hüquqları haqqında hesabata yazdığı "Ön sözdə" belə ifadəsini tapmışdır: *"Cəmiyyətin demokratikləşməsinə aparan uzun və çətin yol, ölkənin dayanıqlı inkişaf trayektoriyası məhz gender bərabərliyindən, şəxsiyyətin, cinsindən asılı olmayaraq, ictimai tərəqqinin mərkəzi fiquru kimi tanınmasından başlayır"* [1, s.4].

Mehriban xanım Əliyeva tarixə mədəniyyətlərin dialoqu əsri kimi daxil olan XXI əsrdə dünyanın siyasi məkanında özünəməxsus yer tutmuşdur. Onun 2004-cü ildən rəhbərlik etdiyi Heydər Əliyev Fondu Azərbaycan milli dövlətçiliyinin daha da güclənməsi və beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə xidmət edən nüfuzlu bir qurum kimi qadın hərəkatının inkişafında da əvəzedilməz missiyası vardır.

Mehriban xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə yalnız Azərbaycan Respublikasında deyil, Avropa və Asiyanın bir çox ölkələrində, o cümlədən MDB ölkələrində elm və təhsil, səhiyyə, ailə, qadın, uşaq məsələləri ilə bağlı müxtəlif layihələr həyata keçirilir. Azərbaycan milli mədəniyyətinin, musiqisinin, incəsənətinin, ədəbiyyatının, tarixinin dünyada tanınması istiqamətində misilsiz işlər aparılır. 2004-cü il avqustun 13-də YUNESKO, 2006-cı il noyabrın 24-də İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESCO) Mehriban xanım Əliyevanın xoşməramlı səfir adına layiq görüldüyünü elan etmişdir. Mehriban xanım Əliyeva İSESKO-nun xoşməramlı səfiri adına layiq görülmüş ilk qadın olmuşdur [2, 2006. – 26 noyabr. – s.2]. İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri bu münasibətlə demişdi: "Dünyanın bu ağır günlərində, cəsarətli insanlara ehtiyac duyulduğu bir zamanda, münaqişələrin qarşısının alınmasında, sivilizasiyalararası dialoqun aparılmasında xidmətlərinə, İslam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban xanıma İSESKO-nun ən yüksək adını veririk. Bu, İSESKO-ya da, islam aləminə şərəf gətirəcəkdir" [3, s.50].

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qadın siyasəti sahəsində beynəlxalq təşkilatlarla iş və əməkdaşlıq əlaqələrinin qurulmasına dəstək olur, mühüm bey-

nəlxalq tədbirlər və konfranslar keçirir, diasporla əlaqələrinin möhkəmlənməsinə çalışır. Fond Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünü və azərbaycanlıların soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaqda mühüm işlər görür. Azərbaycançılıq ideologiyasının təbliği, milli-mədəni dəyərlər və sərvətlərin qorunması hüquqlarının reallaşdırılması, əlillərin və qadın hüquqlarının müdafiəsi, sosial təminat və sağlamlığın qorunması hüququnun reallaşdırılması Fondun əsas fəaliyyət istiqamətlərindəndir. Uşaq hüquqlarının müdafiəsi, idmanın inkişafına dəstək və turizm əlaqələrinin genişlənməsi, qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, ekologiya məsələlərinin tənzimlənməsi və təbii sərvətlərin qorunması, elm və təhsil sahəsində fəaliyyət, amnistiya və azadlıqdan məhrumetmə yerlərində insan hüquqlarının təminatı bu siyasətin tərkib hissəsini təşkil edir.

2008-ci il yanvarın 10-da Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu (UNFA) və Azərbaycan Respublikası Ailə, Qadın, Uşaq Problemləri Dövlət Komitəsi arasında XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə birgə layihənin imzalanması bu fəaliyyətin bir nümunəsidir. Beynəlxalq səfərləri zamanı keçirdiyi görüşlərdə elm və təhsil, mədəniyyət, səhiyyə sahələrində əməkdaşlıq barədə razılıq əldə olunmuşdur. YUNESKO və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikası və YUNESKO arasında elm, təhsil və mədəniyyət sahəsində bir sıra mühüm layihələr həyata keçirilmiş və əməkdaşlıq münasibətləri daha da inkişaf etdirilmişdir. 2008-ci il iyunun 10-11-də Mehriban xanım Əliyevanın təşəbbüsü, YUNESKO-nun və İSESCO-nun dəstəyi ilə "Gülüstan" sarayında "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum dünyada böyük maraqla izlənmişdir. Möhtəşəm tədbirdə müxtəlif ölkələrdən 300-dən çox nümayəndə, o cümlədən bir neçə ölkənin birinci xanımları, İSESCO-nun baş direktoru, YUNESKO-nun xoşməramlı səfirləri iştirak etmişlər. Bakı Forumunda mədəniyyətlərarası dialoqun idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olundu, təcrübə mübadiləsi aparıldı, eləcə də yeni təşəbbüslər irəli sürüldü. Forumun yekununda Bakı Bəyannaməsi və birinci xanımların bəyanatı qəbul olunmuşdur. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu qadın hüquqlarının müdafiəsi ilə bağlı dövlət qurumları, beynəlxalq təşkilatlar, o cümlədən yerli qeyri-hökumət təşkilatları ilə əməkdaşlığa mühüm yer verir, qadın və uşaqların problemləri və onların həllinə dair tədbirlər həyata keçirir. Bakıda BMT-nin Əhali Fondu və AQUPDK ilə birlikdə həyata keçirdikləri "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsi çox mühüm və ciddi işlərdən biridir. Həmçinin 2008-2011-ci illərdə həyata keçirilən "Gender Əsaslı Zorakılıqla Mübarizə" Layihəsi qadın hüquqlarının müdafiəsi, gender bərabərliyi və qadınların cəmiyyətdə qərar qəbuletmə prosesində iştirakının təmin edilməsinə yönəlmiş mühüm təşəbbüslərdən biridir. Xocalı soyqırımı cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə əlaqədar Fond xüsusi layihələr həyata keçirmişdir.

2008-ci il yanvarın 25-də Heydər Əliyev Fondu ilə ABŞ-ın "Uşaqların Xilası" ("Save the Children") təşkilatı arasında Azərbaycan Respublikasında uşaqlar üçün inkişafa doğru yönəlmiş səylərin birləşdirilməsini nəzərdə tutan anlaşma memorandumu imzalanmışdır. 2011-ci ilə qədər layihə çərçivəsində 12 rayonda 30 min uşağı əhatə edən 8 min ailənin həyat səviyyəsinin yaxşılaşdırılmasına kömək göstərilmişdir. ABŞ-ın Azərbaycan Respublikasındakı səfirliyi və Heydər Əliyev Fondu birgə peşə məktəbləri ilə bağlı layihə üzərində işləyirdilər [4, 2011. – 22 oktyabr. – s.2]. Heydər Əliyev Fondu uşaqların hərtərəfli inkişafı, onların yüksək standartlara cavab verən təhsil və tibbi xidmətlərlə təmin olunması, uşaq problemlərinin həlli istiqamətində önəmli layihələr həyata keçirməkdədir. Respublikanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaq məsələlərinə diqqəti bu sahəyə qayğının daha da artırılmasına səbəb olmuşdur. Xüsusilə də "Uşaqlar Azərbaycanın sabahıdır, gəlin onların problemlərinə biganə qalmayaq" devizini irəli sürən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva uşaqların hərtərəfli inkişafı, keyfiyyətli təhsil, yüksək standartlara cavab verən tibbi xidmətlərlə təmin olunması istiqamətində önəmli layihələr həyata keçirir. "Yeniləşən Azərbaycana yeni məktəb" çərçivəsində yüzlərlə təhsil ocaqları tikilib isti-

fadəyə verilmişdir. “Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı” və “Məktəbəqədər uşaq tərbiyə müəssisələrinin yenidənqurulması” layihəsi çərçivəsində 100-dək körpələr evi, bağça və internat məktəbi əsaslı təmir olunmuşdur. Uşaq evləri və internat yetirmələrinin sosial-psixoloji reabilitasiyasına imkan yaradacaq resurs mərkəzinin yaradılması, “Kor və zəif görən uşaqlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsi”, “Təhsilə dəstək” və “İnklüziv təhsil” proqramlarının həyata keçirilməsi Fondun xidmətləri sırasında xüsusi vurğulanmalıdır. Fondun prezidenti kimsəsiz və yetim uşaqlara, fiziki sağlamlığında problemi olanlara xüsusi yardım göstərir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Diabetli uşaqlara ən yüksək qayğı” və “Talassemiyasız həyat naminə” layihələri cəmiyyətin diqqətinin uşaqların sağlamlığına yönəldilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə cəmiyyətdəki daha həssas uşaqlar - xüsusi qayğıya ehtiyacı olan, ailələrini itirmiş azyaşlılar, münaqişədən zərər çəkmiş bölgələrdə yaşayan uşaqların müdafiəsi ilə bağlı müxtəlif layihələr həyata keçirilir. Hər bir uşaq üçün bərabər imkanlar yaradılıb: təhsil, tibb, istirahət və digər xidmətlər əlçatandır, ədalətli, inklüziv çıxış imkanları var. Uşaq hüquqlarının müdafiəsi üzrə çox ciddi nəzarət və monitorinq mexanizmi fəaliyyət göstərir. Mütəmadi olaraq uşaqların qidalanma, nəzarət, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqi aparılır, tövsiyələr hazırlanır, sənədlər Nazirlər Kabinetində toplanır və Prezidentə hesabat verilir.

2008-ci sentyabrın 26-da keçirilmiş və iki minə yaxın nümayəndənin təmsil olunduğu Azərbaycan qadınlarının III qurultayı dövlət qadın siyasətinin əsas istiqamətləri üzrə görülən işlərə müsbət qiymət verməklə yeni vəzifələr müəyyən etdi. Qurultay iştirakçılarına Azərbaycan Respubliasının Prezidenti İlham Əliyevin müraciəti və bir sıra görkəmli qadınların yüksək dövlət mükafatları ilə təltif edilməsi respublika qadınları tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılandı. Qurultayda Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın çıxışı ölkəmizdə qadın siyasətinə yüksək diqqətin əyani ifadəsi oldu. Müasir qadın hərəkatında yeni prioritetlərin müəyyən edilməsi Mehriban Əliyevanın Azərbaycan qadınlarının III qurultayında çağırışında öz əksini tapıb: *“Biz bu gün bərabər hüquqlardan bərabər imkanlara keçid siyasətini gerçəkləşdiririk. Mən bu yolda bütün Azərbaycan qadınlarını daha fəal olmağa, öz potensialını genişləndirməyə, cəmiyyətdə öz sözünü deməyə çağırıram”* – sözləri Mehriban Əliyevanın qadın hüquqlarının qorunması istiqamətində irəli sürdüyü yeni tendensiyanın əsasını təşkil edir. Bütün bunlar Mehriban Əliyevanın yüksək siyasi potensiala malik olduğunu bir daha təsdiqləyir [5, 2008, 27 sentyabr ].

Müasir dövrdə ölkədə gender bərabərliyinin təmin olunması üçün əlavə vasitə və yolların axtarılması, yeni layihələrin və fəaliyyət planlarının müzakirə edilərək qəbul edilməsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzində saxlanılır. 2010-cu il may ayının 24-25-də Bakıda keçirilən Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin “Gender bərabərliyi: de-yure və de-fakto gender bərabərliyinin təmin olunması” mövzusunda VII konfransın müzakirə etdiyi məsələrdən biri də kişilər və qadınlar arasında de-fakto bərabərliyə nail olunması üçün siyasi iradənin ortaya qoyulması, iqtisadi, maliyyə resurslarının gender təyinatlı fəaliyyətə yönəldilməsinin, KİV-nin, təhsil və maarifləndirmənin rolunun artırılması idi. Mehriban xanım Əliyevanın açılış mərasimində gender bərabərliyi ilə bağlı ətraflı çıxışı tədbirə çox sayda xarici qonağın və beynəlxalq təşkilatların nümayəndələrinin qatılması, bir daha bu məsələnin əhəmiyyətini təsdiq etmiş oldu [6, 2010, 25 may, s.5].

Uşaq və qadınların hüquqlarının qorunması, təhsildə gender bərabərliyinə nail olunması, qadın təşkilatlarının fəaliyyətinin gücləndirilməsi, qadınların ictimai həyatda rolunun artırılması və digər sahələrdə Heydər Əliyev Fondu mühüm işlər görür. Fondun təşkilatçılığı ilə “Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi” mövzusunda beynəlxalq Forumun Bakıda keçirilməsi qadınların cəmiyyətin həyatındakı fəal mövqeyini bir daha təsdiq edir. Bakı Forumunda mədəniyyətlərarası dialoqun idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olundu, təcrübə mübadiləsi aparıldı, eləcə də yeni təşəbbüslər irəli sürüldü. Bu cür

beynəlxalq tədbirlərin Bakıda keçirilməsi Azərbaycan dövlətinin nüfuzunun getdikcə gücləndiyini bir daha sübut edir [7, 2014, № 14, s.9-10].

Mehriban xanım Əliyeva "Milli Məclis" jurnalına olan müsahibəsində müxbirin - *"Bizim qadınların ictimai fəallığının səviyyəsini qısaca necə qiymətləndirərdiniz ?* – sualını cavablandırarkən demişdi: *"Bu gün qadınlarımız təkcə ailə dəyərlərinin qoruyucusu deyil, onlar həm də ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Bizim müasir qadınlarımız sosial baxımdan fəaldırlarvə onların ictimai proseslərə təsirləri getdikcə artır. İctimai-siyasi həyatın elə bir sahəsi yoxdur ki, orada qadınlar özlərinin ən yaxşı keyfiyyətlərini göstərməsinlər. Bizdə siyasətlə məşğul olan, dövlət qulluğunda, ümumiyyətlə, hər bir sahədə fəaliyyət göstərən qadınlar çoxdur. Onlar arasında bacarıqlı təşkilatçılara, müxtəlif səviyyəli rəhbər vəzifələrdə uğurla çalışanlara daha tez-tez rast gəlirik"* [8, 2009. – mart - aprel. – s.4].

Azərbaycan ailəsinin problemlərini həmişə diqqət mərkəzində saxlayan Mehriban xanım Əliyeva ölkədə ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir. Onun təşəbbüsü ilə ailələrin rifahına yönəlmiş layihələr reallaşır. Məsələn, "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihəsinin müzakirəsi ölkədə böyük əks-səda doğurmuşdu. Məişətdə zorakılığa və təzyiqə ən чox məruz qalanlar da məhz qadınlardır. Bundan əlavə, bəzi bölgələrdə qızların erkən yaşda evlənməsi halları geniş yayılmışdır. Mehriban xanım Əliyeva bu problemlərin həlli yolları barədə düşüncələrini bölüşərkən demişdi: *"...təəssüf ki, ölkəmizdə qadınlara qarşı ailədaxili və məişət zorakılığı hallarına hələ də tez-tez rast gəlinir. O cümlədən, qızların erkən yaşda zorla ərə verilməsi halları da var və mən bunu qadınların чoxunun taleyini şikəst edən zorakılığın ən aqır nəticələrə gətirib чıxaran bir forması hesab edirəm. Belə hallara qarşı mübarizədə qanunun gücündən tam istifadə etmək lazımdır. Lakin gender zorakılığının və erkən nikahların чox ağır nəticələrini insanlara izah edən ciddi maarifçilik işinin aparılması da zəruridir"* [9, 2009. - mart-aprel. — s.5].

Özünün çoxşaxəli fəaliyyəti ilə insanların dərin rəğbət və ehtiramını qazanmış, ölkə qadınları tərəfindən "Mərhəmət simvolu" seçilmiş Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ailə, qadın və uşaq problemlərinin həllinə böyük dəstək verir. Bu istiqamətdə reallaşdırılan layihələr sırasında önəmli yer tutan və bir sıra regionları əhatə edən "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" layihə çərçivəsində geniş maarifləndirmə kampaniyası həyata keçirilir [10, 2009. – 23 aprel. – s.3].

Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin 2010-cu il mayın 24-də "Gülüstan" sarayında Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərinin "Gender bərabərliyi: de-yure və de-fakto bərabərliyinin təmin olunması" mövzusunda keçirilən VII konfransında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva çıxışında qeyd etmişdi ki, Azərbaycan Respublikasında elə bir sahə yoxdur ki, orada qadınlar iştirak etməsin, qadınlar idarəçilik, hüquq-mühafizə, ədliyyə orqanlarında təmsil olunur, biznes fəaliyyəti ilə məşğul olur, siyasi və ictimai proseslərdə iştirak edirlər. Qadınlar dövlət məmurları və elmi işçilərin demək olar ki, yarısını təşkil edirlər. Həkimlərin və məktəb müəllimlərinin əksəriyyəti qadınlardır. Bütün bunlarla bərabər Mehriban xanım Əliyeva qeyd etmişdi ki, *"Azərbaycanda gender münasibətləri və qadınların ailə və cəmiyyətdə statusu ilə bağlı ciddi problemlər də vardır. Bütün bunlar dövlət və qeyri-hökumət qurumlarını narahat edən məsələdir....Bütün tədqiqatçılar hesab edirlər ki, sivilizasiyanın inkişaf dövründən başlayaraq, qadınlar demək olar, bütün cəmiyyətlərdə dini mənsubiyyətdən və ya siyasi quruluşdan asılı olmayaraq, kişilərdən asılı vəziyyətdə olublar. Hazırda dünya öz inkişafının elə bir dövrünə qədəm qoyur ki, yekun məqsəd bu vəziyyətin dəyişməsindən ibarətdir. Vəziyyətin dəyişilməsində uğurlar bir çox - siyasi, ictimai, sosial, dini və mənəvi amillərdən asılıdır".* Birnci xanımın qadın hüquqları ilə bağlı çıxışı beynəlxalq konfransda diqqətin ölkəmizə yönəldilməsinə imkan yaratmış və bu mövzuda geniş müzakirələrə təkan vermişdi [11, 2010. - 25 may. - s.5].

Müasir Azərbaycan Respublikasında milli qanunvericilik qadınların hüquq bərabərliyini təmin edərək hər cür ayrı-seçkiliyin qarşısını almağa xidmət göstərir, gender məsələləri ilə

bağlı dövlət siyasəti isə qadınların bərabər imkanlarının gerçəkləşdirilməsinə yönəlmişdir. Gender bərabərliyi müasir dövrdə demokratik cəmiyyətin inkişafının və insan hüquqlarının qorunmasının əsas prioritetlərindən birini təşkil edir. "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunun qəbul edilməsində ölkənin birinci xanımının xüsusi rolu olmuşdur. Azərbaycanın milli təhsili və səhiyyəsində aparıcı mövqelər tutan qadınlarımız ölkəmizin siyasi, sosial və ictimai həyatının bütün sahələrində fəal iştirak etməklə, real gender bərabərliyinə nail olunması üçün öz qüvvələrini əsirgəmirlər. Qadın və uşaqların məişət zorakılığından müdafiəsinə yönəlmiş "Məişət zorakılığı haqqında Qanun"un qəbul edilməsində və "Ailə Məcəlləsi"ndə qızlar üçün nikah yaşının 18-ə qaldırılması ilə bağlı dəyişiklik edilməsində Mehriban xanım Əliyevanın böyük dəstəyi olmuşdur. Mehriban xanım Əliyevanın dövlətin idarəetmə sistemində ləyaqətli mövqeyi və şəxsiyyət kimi formalaşması sayəsində dövlətin inkişafı üçün əməli zəmin və möhkəm baza yaratmaqla, qarşıya qoyulmuş məqsəd və vəzifələrini reallaşdırmaq üçün yüksək idarəetmə məharəti, peşəkarlıq səviyyəsi nümayiş etdirməklə dəyərli əməli nəticələr əldə etməklə qadın siyasətinin dünyaya mədəni inteqrasiyanın mühüm amil kimi çıxış etdiyini sübuta yetirir [12, s.48].

Bakıda "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" mövzusunda Forumun (29-30 iyun 2010-cu il), "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama" mövzusunda mədəniyyətlərarası dialoq üzrə II Beynəlxalq Forumun (8-9 aprel 2011-ci il) keçirilməsi də məhz Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşmışdır.

2012-ci il iyunun 29-da Bakıda keçirilən beynəlxalq Krans-Montana Forumu çərçivəsində "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzusunda konfransda qaldırılan məsələlər, eyni zamanda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın qadın hüquqları ilə bağlı geniş və əhatəli çıxışı beynəlxalq diqqətin ölkəmizə yönəldilməsinə imkan yaratmışdır. Plenar iclasda Azərbaycanın birinci xanımı Mehriban Əliyeva qadınların hüquqlarının təşviqi və gender bərabərliyi məsələlərinin çox önəmli və aktual olduğunu qeyd edərək demişdi: *"Azərbaycan qadınları fəal surətdə ölkə həyatının müxtəlif sahələrində fəaliyyət göstərir, dövlət qulluqçuları, parlament üzvləri, vətəndaş cəmiyyətinin fəalları kimi çalışırlar. Bundan başqa, qadınlar arasında çox bacarıqlı tələbələr, müəllimlər, professorlar vardır. Həmçinin qadınlarımız prioritet məsələlərdə çox fəaldırlar. Məsələn, biz Azərbaycanda gender bərabərliyi haqqında qanun qəbul etdik. Bundan başqa, 2008-ci ildən ölkədə qadın məsələləri üzrə Tədbirlər Planını həyata keçiririk. Bu Plana əsasən, qadınların sosial-iqtisadi hüquqlarının qorunması ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulur"* [13, 2012, 30 iyun, s.5].

Mehriban xanım Əliyevanın ölkədə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü fəal işlərlə yanaşı, gender problemlərinin, qadınlara qarşı bütün zorakılıq hallarının, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir. Onun adı cəmiyyətimizdə xeyirxahlıq, insanlara kömək, nəciblik məzmunu ilə assosiasiya olunur, dünya səviyyəsində Azərbaycan qadınının müsbət obrazının formalaşmasında əvəzsiz rol oynayır. 2005-ci ildən başlayaraq Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Bakıda və əksər rayonlarda uşaq evləri və internat məktəblərində olduqdan sonra Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı həyata keçirilmişdir. Bu kateqoriyadan olan 50-dək uşaq müəssisəsində yenidənqurma və tikinti-təmir işləri aparılmışdır. Onlar zəruri avadanlıqla, yeni ədəbiyyatla təmin edilmiş, informasiya texnologiyalarının tətbiqi, interaktiv təhsil üçün uyğunlaşdırılmışdır. Heydər Əliyev Fondu ilə BMT-nin İnkişaf Proqramı arasında kor və görmə qabiliyyəti zəif olan insanlar üçün İKT-yə çıxışın təmin edilməsinə dair layihə imzalandı (9 dekabr 2005-ci il). Bu layihənin həyata keçirilməsi əhalinin təcrid olunmuş qrupunun cəmiyyətin həyatında fəal iştirakını təmin edildi, fiziki qüsurlu insanların informasiya əldə etməsi üçün əlavə imkanlar yaradıldı [14, 2009.- 22 avqust. - s. 3-4].

Heydər Əliyev Fondunun həyata keçirdiyi "Yeniləşən Azərbaycana yeni məktəb", "Diabetdən əziyyət çəkən uşaqlara qayğı", "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Təh-

silə dəstək" kimi layihələr uşaqların və ümumilikdə ailələrin rifahının yaxşılaşdırılmasına yönəldilmişdir. Adı çəkilən layihələr üzrə uşaq müəssisələrinin bir qismi yenidən qurulmuş, müasir texniki avadanlıqlarla təchiz olunmuşdur. Yaşı 18-ə çatmış qızların uşaq evindən sonrakı taleyi bu gün cəmyyəti narahat edən məsələlərdən idi. Bunu nəzərə alan Heydər Əliyev Fondu internat həyatı başa çatan qızlar üçün yaşayış binası tikdirdi. Bu layihə müstəqil həyata qədəm qoyan qızların həyatını izləməklə yanaşı, onlara verilən mənəvi dəstəyin ifadəsi oldu. Heydər Əliyev Fondunun fəaliyyətində xüsusi yer tutan məsələlərdən biri də əhalinin sağlamlığının təmin olunması və səhiyyə sistemindəki problemlərin həlli ilə bağlıdır.

Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, *"hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki, həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir".*[15, 2014.- 4 iyul.- s.4].

2015-ci il noyabrın 15-də Antalyada keçirilən "Böyük İyirmiliyin" Sammiti çərçivəsində "Biznes-20"/"Qadınlar-20" ("Business-20"/"Women-20") birgə sessiyada Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirak etdiyi ədbirdə qaçqın qadınların problemlərinə, həmçinin terrorçuluğa qarşı mübarizə, vəziyyət, bu ölkədə olan Suriya qaçqınlarının məsələlərinə də toxunulmuş, milliyyəti və sərhədi olmayan terrorun yaratdığı təhlükələrin aradan qaldırılmasında dünya xalqlarının birgə fəaliyyətlərinin zəruriliyindən danışılmışdı [16, 2015.- 17 noyabr.- s. 3].

2019-cu ilin may ayında IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın iştirakı ilə "Qızlara təhsil verməklə zorakı ekstremizmə qarşı mübarizə" mövzusunda "dəyirmi masa"nın təşkil olunması, onun təşəbbüsü ilə ayrıca sessiyanın keçirilməsi, bu mövzu ətrafında fəal müzakirələrin aparılması və tövsiyələrin qəbul edilməsi dünyada qadınların, əsasən də qızların hüquqlarının müdafiəsi istiqamətində xüsusi əhəmiyyət kəsb edir [17, 2019.- 24 avqust.- s.5].

Mehriban xanım Əliyeva özünü reallaşdıra bilən harmonik, məqsədyönlü və güclü qadınların etalonuna çevrilib. Rusiya Federasiyası Federal Məclisinin rəsmi mətbu orqanı olan "Parlamentskaya qazeta"nın 2015-ci il 22 sentyabr tarixli nömrəsində jurnalisti Aleksandr Karavayevin yazdığı kimi "Mehriban Əliyeva Azərbaycanın və postsovet məkanının ayrılıqda götürülən tarixi baxımından müstəsna, amma qlobal proseslər baxımından obyektiv qanunauyğun fenomendir... Bir tərəfdən Azərbaycanda Mehriban Əliyeva kimi liderin formalaşmasını taleyin qisməti hesab etmək olar. Obyektiv desək, onun təşəbbüs və təklifləri müxtəlif sivilizasiya platformalarının qovuşuğunda yerləşən Azərbaycanın sosiohumanitar və mədəni modernləşməsinin hərəkətverici amilinə çevrilib" [18, s. 3].

Beləliklə, aparılan araşdırmanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva dövlətin qadın siyasəti sahəsində qoyulmuş məqsəd və vəzifələri reallaşdırmaq üçün yüksək idarəetmə məharəti, peşəkarlıq səviyyəsi nümayiş etdirməklə dəyərli əməli nəticələr əldə etmişdir. Bunlar başlıca olaraq aşağıdakılardır:

- Mehriban Əliyeva özünün geniş və zəngin ictimai-siyasi fəaliyyəti sayəsində Azərbaycanın qadın hərəkatı tarixində mühüm bir mərhələnin əsasını qoymuşdur;
- Mehriban Əliyevanın gender bərabərliyinin təmin edilməsində, qadın hüquqlarının müdafiəsi istiqamətində ölkəmizdə aparılan işləri xüsusi qeyd olunmalıdır;
- Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən sosialyönümlü layihələr öz bitkinliyi və kompleks xarakter daşıması ilə seçilir: Birinci xanım ictimai-siyasi və mədəni sahələrdə çoxsaylı layihələrin müəllifi və dəstəkçisidir, qadınların problemlərinə, onların ictimai həyatda aktiv rolunun təmin edilməsinə də böyük qayğı ilə yanaşır;
- Mehriban Əliyevanın zəngin ictimai-siyasi fəaliyyəti ilə ön mövqedə olması, eyni zmanda cəmiyyətdə "qadın – lider" faktorunu daha da möhkəmləndirmişdir;
- Mehriban Əliyevanın çoxşaxəli və səmərəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının daha geniş təbəqələri ölkənin ictimai-siyasi həyatına qoşulmuşdur.

## Ədəbiyyat siyahısı


1. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər. Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında. Bakı: BMTİP, 2007, s.4.

2. Mehriban Əliyeva İSESCO-nun ilk xanım xoşməramlı səfiri elan edildi // Xalq qəzeti. – 2006. – 26 noyabr. – s.2.

3. Ulu öndər. 5 cilddə. 4-cü cild. Bakı., "Şərq-Qərb" Nəşriyyat Evi. – 2013. – 218 s., S.50.

4. Xüsusi qayğıya ehtiyacı olan uşaqların problemlərinin həlli daim dövlətin diqqət mərkəzindədir // Xalq qəzeti. –2011. – 22 oktyabr. – s.2.

5. Heydər Əliyev Fondunun prezidenti,Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyevanın Azərbaycan qadınlarının III qurultayında nitqindən //"Azərbaycan" qəz., 2008, 27 sentyabr.

6. Bakıda Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin VII konfransı keçirilir // Azərbaycan qəz., 2010, 25 may, s.5.

7. Heydər Əliyev Fondu. 10 il //Ailə. Qadın. Uşaq . Azərbaycan Respublikası Ailə, Qadın, Uşaq Problemləri Dövlət Komitəsi. Bakı, 2014, mart-avqust, № 14, s.9-10.

8. Mehriban xanım Əliyeva: "Humanist dəyərlər və ideallar birinci yerdə dayanmalıdır // Milli Məclis. – 2009. – Mart – aprel. – s.3-5. - S.4.

9. Mehriban Əliyeva: "Humanist dəyərlər və ideallar birinci yerdə dayanmalıdır. - Milli Məclis. – Mart-aprel. – 2009. – s.3-5. – S.5.

10. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın çıxışı // Azərbaycan. – 2009. – 23 aprel. – s.3.

11. Bakıda Avropa Şurasının qadınlar və kişilər arasında bərabərlik məsələlərinə məsul nazirlərin VII konfransı keçirilir // "Azərbaycan" qəz., 25 may, 2010. s.5.

12. İbrahimova G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadIn siyasəti. Siyasi elmlər dok. disser ...avtoreferatı. Bakı, 2011, 56 s., S.48.

13. Krans Montana Forumu çərçivəsində Bakıda "Qadın hüquqları insan hüquqlarıdır, insan hüquqları isə qadınların hüququdur" mövzusunda plenar iclas keçirilmişdir .// "Azərbaycan" qəz., 2012, 30 iyun, s.5.

14. Bayramlı E. Əsrin ən böyük qadını və ya dünyaya humanizm örnəyi // Səs.- 2009.- 22 avqust. - №157. - s. 3-4.

15. Leyla Əliyeva: Əgər fayda verə biləcək bir iş görməyə imkan varsa, mən həmin imkandan məmnuniyyətlə istifadə edirəm // Yeni Azərbaycan.- 2014.- 4 iyul.- s.4.

16. Birinci xanım Mehriban Əliyeva Antalyada "Biznes-20"/"Qadınlar-20" birgə sessiyasında iştirak edib // Azərbaycan.- 2015.- 17 noyabr.- s. 3.

17. Mehriban xanım Əliyeva müasir Azərbaycan qadın hərəkatının lideri kimi dövlətimizin tərəqqisi naminə geniş fəaliyyət göstərir (Azərbaycan Respublikası AQUPDK-nin sədri Hicran Hüseynova ilə müsahibə // Yeni Azərbaycan.- 2019.- 24 avqust.- s.5.

18. Караваев Александр. Политика сердца Мехрибан Алиевой // Парламентская газета, https: // www. pnp.ru/in-world / 2015/09/22/ politika-serdca-mekhriban-alievoy.html, 22.09.2015; Mehriban Əliyeva qəlbinin siyasəti // Azərbaycan.- 2015.- 24 sentyabr.- S. 3.


## Summary

**Tamam Jafarova**

## The role of prominent socio-political and state figure Mehriban Aliyeva in the implementation of women's policy in the Republic of Azerbaijan

The article covers the wide public activity of the First Lady of the Republic of Azerbaijan, President of the Heydar Aliyev Foundation, Goodwill Ambassador of UNESCO and ISESCO Mehriban Aliyeva in the transition to a new stage of women's policy in Azerbaijan, enrichment of

the legal framework for the protection of women's rights. The author points out that Mehriban Aliyeva, as an influential political leader who serves the further strengthening and development of the Azerbaijani statehood, provides important support for the strengthening of the women's movement. Mrs. Mehriban Aliyeva has achieved valuable practical results by demonstrating high management skills and professionalism in the implementation of the goals and objectives set in the field of women's policy of the state. The projects implemented under his leadership cover health, culture, social sphere, ecology, sports and other areas. Mrs. Mehriban Aliyeva plays an important role in ensuring the foreign policy interests of the Azerbaijani state and implementing the national statehood strategy.

***Keywords:*** *Heydar Aliyev Foundation, Goodwill Ambassador of UNESCO and ISESCO, Azerbaijani women, UNDP*

## Резюме

**Тамам Джафарова**

## Роль видного общественно-политического и государственного деятеля Мехрибан Алиевой в реализации женской политики в Азербайджанской Республике

В статье освещается широкая общественная деятельность Первой леди Азербайджанской Республики, президента Фонда Гейдара Алиева, посла доброй воли ЮНЕСКО и ИСЕСКО Мехрибан Алиевой по переходу к новому этапу женской политики и усовершенствованию законодательной базы по защите прав женщин в Азербайджане. Автор отмечает, что Мехрибан Алиева как влиятельный политический лидер, которая служит дальнейшему укреплению и развитию Азербайджанской государственности, оказывает важную поддержку укреплению женского движения. Мехрибан ханум Алиева достигла ценных практических результатов, продемонстрировав высокий уровень компетентности и профессионализма в достижении целей и задач, поставленных в сфере женской политики государства. Реализуемые под ее руководством проекты охватывают сферы здравоохранения, культуры, социальных направлений, экологию, спорт и другие области. Мехрибан ханум Алиева играет важную роль в обеспечении внешнеполитических интересов азербайджанского государства и осуществлении национальной стратегии государственности.

***Ключевые слова:*** *Фонд Гейдара Алиева, посол доброй воли ЮНЕСКО и ИСЕСКО, Азербайджанские женщины, ПР ООН*

UOT 316.37

**ZEYNƏB HƏCƏMOVA**
*AMEA Rəyasət Heyəti aparatı Sənədlərlə iş şöbəsinin Dəftərxana sektorunun müdiri*
*AMEA Fəlsəfə İnstitutunun disseertantı*
*hecemova7@gmail.com*
Azərbaycan

# İDARƏETMƏDƏ SOSİAL QAVRAYIŞIN İNSAN AMİLİNƏ TƏSİRİNİN SOSİAL-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *elmlərarası əlaqə; sosial qavrayış; idarəetmə sistemi; insan amili*

**Problemin aktuallığı.** Sosial-psixoloji hadisələri, faktları, qanunauyğunluqları və onların inkişaf mexanizmlərini öyrənən sosial psixologiya psixologiyanın mühüm bir sahəsidir, lakin sosiologiyadan fərqli olaraq o insanı öyrənən anatomiya və fiziologiya ilə yanaşı heyvanlar və bitkilər aləmini öyrənən zoologiya və biologiya ilə də sıx qarşılıqlı əlaqədədir. Təkamülçü psixoloqların iddiasına görə, ən ali varlıq olan insan heyvanlar aləmi ilə vəhdət təşkil edir. Məhz bu bağlılıq sosial psixologiyanı biologiya, fiziologiya və anatomiya ilə ümumi nöqtədə birləşdirir. Məlumdur ki, sosial psixologiyanın digər elmlər ilə əlaqəsinə nəzər saldıqda onun olduqca geniş elm sahələrinin ümumi qovşağında cərəyan etməsi və mürəkkəb komponentlərdən ibarət olması faktı diqqəti cəlb edir. Sosiologiya və psixologiya 2 ayrı və geniş elm sahəsi olmaqla bərabər həm də bir sıra oxşar və fərqli cəhətlərlə də səciyyələnir. Belə ki, sosioloji komponentlər psixologiyanı humanitar, siyasi və ictimai elmlərlə, psixoloji komponentlər isə fundamental və tətbiqi elmlərlə əlaqələndirir.

Tədqiqatın **məqsədi** idarəetmədə sosial qavrayışın insan amilinə təsirinin sosial-psixoloji xüsusiyyətlərinin təhlilindən ibarətdir. Eyni zamanda sosial psixologiyanın digər elmlərlə əlaqəsi və mövcud sahədə reallaşan münasibətlər sistemi haqqında anlayışların idarəetmə psixologiyasının əsas məzmunu kimi şərh olunması məsələsi də əsas məqsəd olaraq qarşıya qoyulmuşdur. Qeyd edilən məqsədlərə nail olmaq üçün qarşıya bir sıra **vəzifələr** də qoyulmuşdur: idarəetmədə şəxsiyyətlərarası münasibətlərin əsas hərəkətverici qüvvə olduğunu nəzərə alaraq sosial qavrayışın insan amilinə göstərdiyi təsirin tədqiqinə dair bir sıra elmi-nəzəri müddəaları ümumiləşdirmək; idarəetmədə insanların sosiallaşması prosesini tamamlayan xüsusiyyətləri şərh etmək.

**Əsas materialın şərhi.** Məlumdur ki, malik olduğu statusdan asılı olmayaraq (rəhbər və ya icraçı) insan idarəetmə kimi ciddi strukturun tərkib hissəsi olmazdan əvvəl müəyyən sosial institutun (ailə, məktəb və s.) təcrübəsinə yiyələnir. Bu baxımdan kifayət qədər çoxşaxəli sistemi əhatə edən idarəetmə mürəkkəb struktura çevrilir. İdarəetməyə psixoloji nöqteyi nəzərdən yanaşdıqda və qeyd edilən sahədə aparılan tədqiqatlara nəzər saldıqda məlum olur ki, bu strukturun tərkib hissələrini tənzimləyən əsas psixoloji ünsür – sosial qavrayışdır. Bu təsirin idarəetmənin fonunda öyrənilməsi daha böyük əhəmiyyət kəsb edir. Belə ki, aparılan tədqiqatların müxtəlifliyinə və çoxluğuna baxmayaraq, proses zamanın tələblərinə uyğun dəyişir və tamamilə yeni münasibətlər sistemi meydana gəlir.

Sosial qavrayış sistemli və ardıcıl prinsiplərə əsaslanır və özünəməxsus mürəkkəb struktura malikdir. Bu baxımdan sosial qavrayışın ünsiyyət, fəaliyyət, temperament, xarakter, dərketmə, iradə, dünyagörüşü və s. psixoloji proseslərlə və hadisələrlə paralel tədqiqi vacibdir. Sosial qavrayışın bir sıra qanunauyğunluqları görmə qavrayışı və müşahidəçinin baxış prizmasından asılı olduğundan hətta ən sadə stimullar belə 2 fərqli insanda tamamilə müxtəlif təsirlərə səbəb olur, çünki informasiyanın qəbul edilməsi və interpretasiyası olduqca mühüm keyfiyyətlərlə səciyyələnir. Qeyd edilənlərə əsasən belə bir fərziyyə irəli sürmək mümkündür ki, informasiyanın interpretasiyası fərqli çalarlara malikdir.

Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, sosial qavrayış qarşılıqlı təsirlə sıx əlaqədədir. Qeyd edək ki, bu iki sistem arasındakı əlaqə-

nin, burada cərəyan edən hadisələrin və qanunauyğunluqların öyrənilməsi müasir dövrün tələbləri ilə də uzlaşmalıdır, çünki müvafiq tələblərin təmin edilməsi idarəetmənin uğurlu təşkilinin təminatçısıdır. Uğurlu idarəetmə isə möhkəm dövlətçilik ənənələrinin fasiləsiz inkişafının əsas təkanverici qüvvələrindən biridir. İdarəetmədə yaranan psixoloji problemlər nəinki humanitar və ictimai elmlər, həmçinin fundamental və tətbiqi elmlər üçün də eyni dərəcədə aktual məna kəsb etməlidir. Dövlət tərəfindən həyata keçirilən siyasi, mədəni və sosial-iqtisadi islahatların səmərəli olması üçün bütün elm sahələrində fəaliyyət göstərən mütəxəssislərin səfərbər olması vacib şərtdir. Belə ki, istənilən sferanı əhatə edən inkişaf xətti sistemlilik və fasiləsizlik prinsiplərinə əsaslandıqda öz səmərəli nəticəsini verir. Bu prinsiplərə istinad edilməsinin isə müəyyən sosial-psixoloji aspektlərə söykənməsi danılmazdır. İnsanların psixoloji sağlamlığı olduqca mühümdür. İstər dar, istər geniş mənada bütün sahələrdə faydalı və düşünən beyin faktoru əsas rol oynadığından insanların müsbət enerjiyə malik olması, ruh yüksəkliyi ilə fəaliyyət göstərməsi zərurətdir. Vahid və bölünməz cəmiyyətin bərqərar olması yalnız bu zaman mümkün ola bilər. Bütün bu sadalanan məsələlərdə sosial və psixoloji problemlərin həlli diqqəti cəlb edir. Danılmaz faktdır ki, fəaliyyət zamanı bir sıra problemlər də ortaya çıxır. Bu kimi sosial-psixoloji problemlərin kompleksli həllində sosial qavrayışın rolu olduqca vacibdir. Məsələyə sosial-psixoloji aspektdən nəzər saldıqda sosial qavrayışın insanın daxili-mənəvi dünyasını, sosial davranışının motivlərini və psixoloji qanunauyğunluqlarını öyrənməsi faktları diqqəti xüsusilə cəlb edir.

İdarəetmə və psixologiya elmlərində insan probleminin araşdırılmasında dörd əsas yanaşma tətbiq olunur:

- Koqnitiv yanaşma. Əsası XX əsrin 20-ci illərində görkəmli psixoloqlar Kurt Levin, Leon Festinger və b. tərəfindən qoyulan "koqnitiv psixologiya" elmi məktəbinin ənənələrinə əsaslanan bu yanaşmaya görə insan problemi ictimai nöqteyi-nəzərdən tədqiq edilir. Koqnitiv yanaşma koqnitiv psixologiya çərçivəsində sosial persepsiya, stereotiplər, sosial yönəliş və s. problemlərin araşdırılmasına xidmət edir. İnsan idrak prosesləri vasitəsilə ətraf mühitlə informasiya və qarşılıqlı təsir mübadiləsi aparır.

- Fəaliyyət yanaşması. İnsanın idarəetmə fəaliyyətində sosiallaşmasını, ictimai təcrübəyə yiyələnməsini, reallığa olan fəal münasibətini, özünü ifadə və təsdiq etməsini, sosial-psixoloji yetkinləşməsini, rəhbər şəxsin fəaliyyətini və idarəetmə təcrübəsini zənginləşdirməsini öyrənən yanaşmadır. Qeyd edilən yanaşma idarəetmənin əsas anlayışlarındandır və mühüm proseslərin nəticəsini tədqiq edir.

- Şəxsiyyət yanaşması. Bu yanaşma idarəetmənin əsas elementlərini – idarə edənlə idarə olunanların şəxsi keyfiyyətlərini, fəaliyyətini öyrənir. Həmçinin idarəetmədə insanlara şəxsiyyət kimi yanaşılması, onlara həvalə edilən tapşırıqların təkcə icra edilməsi deyil, həm də dərk edilməsi və şüurlu sürətdə yerinə yetirilməsi də şəxsiyyət yanaşmasının mühüm tərkib hissələrindəndir.

- Sosial yanaşma. İnsanın sosial mahiyyətini, yəni daxil olduğu və təmsil etdiyi qrupdakı fəaliyyətini, qarşılıqlı əlaqələrini, ətrafdakı insanlarla münasibətini, maraqlarını, normalarını, istək və arzularını, öz varlığına olan münasibətini təzahür etdirir [5, səh., 62-65].

İdarəetmə fəaliyyətini xüsusi bir sahə - idarəetmə psixologiyası öyrənir. Beləliklə, idarəetmə psixologiyası idarəetmə fəaliyyətinə və idarəetmə funksiyalarına insanın mənəvi-psixoloji prizmasından yanaşır və idarəetmədə insan amilinin fəal, yaradıcı və tənzimləyici rolunu öyrənir. İdarəetmədə müvafiq vəzifələrin və məqsədlərin həllini reallaşdırmaq məqsədilə idarə olunan obyektin bütün struktur elementlərinin əlaqələndirilmiş fəaliyyətinin tənzimlənməsi tələb olunur. Spesifik problemlərin müşahidə olunduğu idarəetmə sahəsində fəaliyyət göstərən kadrların hazırlığı onların zəruri bilik və bacarıqlar sisteminə yiyələnməsindən və mənəvi-psixoloji hazırlığından asılıdır. Məhz bu baxımdan idarəetmə sahəsində fəaliyyət göstərən mütəxəssislərin hazırlığı zamanı idarəetmə psixologiyası daha geniş tədris olunur.

İdarəetmə sisteminin əsas problemlərindən biri idarəedən şəxsin iş prinsiplərinə uyğun davranmamasından ibarətdir. Belə ki, idarəedən şəxs əhəmiyyətli qərarlar qəbul etməyi, analitik düşünməyi, alternativləri müqayisə etməyi və təşkilat üçün ən məqsədəuyğun fəaliyyəti seçməyi bacarmalıdır. İdaərəedən şəxs hərtərəfli yaradıcı düşünmək qabiliyyətinə və situasiyanın psixoloji tərəflərini ayırd etmək keyfiyyəti-

nə malik olmalıdır. Düşünmək özü bir psixoloji prosesdir. Bencamin Samuel Blyum düşünmənin 2 tipini ayırd edir: aşağı səviyyəli düşünmə - mahiyyətcə faktlardan istifadə etmək, məlumatları xatırlamaq, interpretasiya etmək və bəhrələnmək və yuxarı (ali) səviyyəli düşünmə - analiz, sintez və qiymətləndirmə [1, səh., 133].

Buradan belə bir nəticəyə gəlmək olar ki, aşağı səviyyəli düşünmə ali səviyyəli düşünmə üçün bir növ baza rolunu oynayır. Mütəxəssis, yəni lider bu keyfiyyətlərə malik olmalıdır. Belə ki, rəhbər şəxs fəaliyyət göstərdiyi sahə üzrə sistemli, vahid və dərin biliyə, bacarıqlar sisteminə yiyələnməli, öz peşə bacarıqlarını daima inkişaf etdirməlidir. Rəhbər şəxs həm də ədalətli olmalıdır. Yalnız bu zaman kollektivi adekvat istiqamətə yönəltmək və zəruri nəticəni əldə etmək mümkündür. Məlumdur ki, emosional tələbatları ödənilməyən qrup üzvlərinin əmək fəaliyyəti də məhsuldar səviyyədə təşəkkül etmir, çünki qeyri-stabil və sağlam olmayan iş şəraiti (ünsiyyət defisiti və ya ünsiyyət prosesində yaranan problemlər, şəxsi tələbatların ödənilməməsi, şəxsiyyətlərarası münasibətlərdə özünü biruzə verən çatışmazlıqlar, qarşılıqlı təsirin müsbət olmaması və s.) bu sahədə başlıca maneə rolunu oynayır. Bu da idarəetmə prosesini kökündən sarsıdır. Qeyd edək ki, vətəndaşlarla bilvasitə əlaqədə olan icraçılar tutduqları müvafiq vəzifəni layiqincə yerinə yetirmədikdə bu onların rəhbərlərinə qarşı müəyyən iradların yaranmasına gətirib çıxarır. Vəziyyətin stabilləşdirilməsi üzrə müvafiq tədbirlər görülmədikdə narazılıqların sayı artır və geniş kütləni əhatə etməyə başlayır. Bu zaman rəhbər şəxsdən iş prinsipinə uyğun olaraq davranmaq, məsələyə hərtərəfli yanaşmaq və eyni zamanda işgüzar mühiti ciddiləşdirməklə bərabər vəzifə bölgüsünü bir daha nəzərdən keçirmək tələb olunur. Hadisələrin şəxsi nəzarətə götürülməsi də zəruridir. Bu zaman müvafiq mədəni meyarların da nəzərə alınması əsas şərt hesab olunur. Rəhbər şəxsdən tabeliyində olan əməkdaşlarla mədəni və işgüzar münasibətlərin qurulması zamanı zəruri biliklər sisteminə, işin ümumi funksiyalarına və prinsiplərinə dərindən bələd olması tələb olunur. Bu münaqişələrin sivil yolla həll olunmasına xidmət edə bilər. Qeyd edilənlərdən məlum olur ki, rəhbər şəxslərdən tələb olunan əsas keyfiyyətlərdən biri liderlik mədəniyyətidir. Belə ki, liderlik mədəniyyəti özündə özünüidarəetmə keyfiyyətləri ilə yanaşı həm də ümumi idarəetmə qabiliyyətini də ehtiva edir. Bütün qeyd edilənlərdən belə bir nəticəyə gəlmək mümkündür ki, istənilən halda hər bir insan ilk öncə şəxsi "mən"ini dərk etməlidir.

Müasir idarəetmə təcrübəsi belə bir fikri təsdiqləyir ki, idarəetmə fəaliyyətinin səmərəliliyi idarəetmə sisteminin əsas elementi olan insan amilindən və onun yaradıcı potensialının dinamikliyindən, həmçinin idarə olunan təşkilatda şəxsiyyətlərarası münasibətlərin düzgün tənzimlənməsindən çox asılıdır. Müasir dövrdə cəmiyyətin həyatının müxtəlif sahələrinin, o cümlədən idarəetmə sisteminin demokratikləşməsi təşkilatların idarə olunmasında insan amilinin rolunu daha da artırır [5, səh., 4]. Məlumdur ki, idarəetmə sistemində reallaşan fəaliyyət və ünsiyyət prosesi başlıca psixoloji aspekt kimi çıxış edir. Belə ki, idarəedənlə idarəolunan arasında yaranan işgüzar münasibətlərin xarakteri və rəhbər şəxsin işçilərə göstərdiyi iradi-emosional təsir onun fərdi-psixoloji keyfiyyətlərindən, mənəvi-psixoloji və kommunikativ hazırlığından, fərdi idarəetmə üslubundan çox asılıdır. Buradan belə bir qənaətə gəlmək mümkündür ki, təşkilatın fəaliyyətinin səmərəliyini şərtləndirən amillərin böyük bir qismi psixoloji məna kəsb edir.

İnsan amilinin cəmiyyətdə və əmək kollektivində mahiyyətinin və rolunun müəyyən edilməsi kompleks elmi problemdir. Bu problemlərə insan əməyinə əsaslanan sahələrdə kefiyyətin və məhsuldarlığın, cəmiyyətin intensiv inkişafının təmin olunması və kollektivin hər bir üzvünün sosial rifahının yaxşılaşdırılması daxildir. İnsan amili probleminin sistematik olaraq öyrənilməsi psixoloji aspektlərə əsaslanır. Belə ki, insan amilinin gücləndirilməsi, onun rolunun stimullaşdırılması üsullarının müəyyən edilməsi psixologiyanın, o cümlədən sosial qavrayışın prioritet vəzifələrindəndir [6, səh 14].

Ümumiyyətlə, fəaliyyətin motivlərinin müəyyənləşdirilərək öyrənilməsi insanın həyat və fəaliyyətinin psixoloji nöqteyi nəzərdən tədqiq edilməsinin əsas mahiyyətini və məqsədini şərtləndirir. Beləliklə, insan amilinə münasibət rəhbərin idarəetmə fəaliyyətinin və onun tətbiq etdiyi rəhbərlik üslubunun xarakterini müəyyən edir [5, səh., 49].

İnsan dinamik sistem olan idarəetmənin əsas tənzimləyici, yaradıcı və fəal elementi kimi çıxış edir [5, səh., 7]. Cəmiyyətdə təzahür edən innovasiyalar idarəetmə sistemində də ardıcıllığın gözlənilməsini, islahatların aparılma-

sını və müasir tələblərə cavab verən idarəetmə kadrlarının hazırlanmasını zəruri edir.

İdarəetmədə insan amilinin roluna və insan amili probleminə ilk olaraq klassik nəzəriyyələrdə təsadüf olunur (Teylor, Fayol və s.) [5 səh., 57].

Təşkilatın idarə olunmasında səmərəliyin təmin olunması və əmək məhsuldarlığının artırılmasında insan amilinin potensialının maksimum dərəcədə tətbiqi Fredrik Vinslo Teylorun elmiliyin gözlənilməsi nəzəriyyəsində mühüm aspekt kimi çıxış edir. Onun bu nəzəriyyəsi "elmi menecment" və ya "elmi idarəetmə" məktəbi kimi tanınır [5, səh., 11]. F.Teylor öz nəzəriyyəsində kadr seçimi, peşənin mənimsənilməsi və idarə olunmasında insanların fərdi-psixoloji xüsuiyyətlərinin ciddi nəzərə alınmasının vacibliyini qeyd edirdi. F.Teylorun nəzəriyyəsində insan amilinə yüksək məhsuldarlığun təminatçısı kimi baxılsa da, onun mahiyyətinə münasibət birtərəfli idi [5, səh., 12]. Belə ki, bu nəzəriyyədə insana iqtisadi faktor kimi yanaşılır və onun əmək fəaliyyəti iqtisadi qanunauyğunluqlarla izah olunurdu. F.Teylorun təliminin inkişaf etdirilməsi və müəyyən çatışmazlıqların aradan qaldırılmasına dair müxtəlif cəhdlər olmuşdur.

XX əsrin 20-30-cu illəri idarəetmənin inkişafının həlledici mərhələsi hesab olunur. İlk dəfə Anri Fayol menecmentin psixologiya ilə sıx əlaqəsi olduğunu qeyd etmiş və müəssisədə məhsuldarlığın artırılmasında vahid rəhbərliyin bərqərar olmasını, şəxsi maraqların ümumi maraqlarla uzlaşmasını və müəssisədə korporativ ruhun vacibliyini əsas amil kimi göstərmişdir [5, səh., 13].

İnsan amilinin mahiyyəti və məzmunu idarəetmənin səviyyəsindən asılı olaraq aşağıdakılardan ibarətdir: institusional-sosioloji səviyyə - idarəetmənin obyekti və subyekti kimi sosial sistem, sosial təşkilatlar, qruplar çıxış edir; kollektiv səviyyə - idarəetmənn sosial-psixoloji problemləri araşdırılır və idarəetmənin obyekti və subyekti olaraq kollektiv çıxış edir; fərdi-psixoloji səviyyədə araşdırmalarda idarəetmənin obyekti və subyekti kimi ayrı-ayrı fərdlər çıxış edir. İdarəetmənin hər 3 səviyyəsi bir-biri ilə sıx və qarşılıqlı əlaqədə olub, vahid idarəetmə sisteminin müxtəlif səviyyələrini və aspektlərini təşkil edir. Hər 3 səviyyədə insan amilinin konkret məzmununu müəyyən etmək üçün bu səviyyələrdə təzahür olunan idarəetmə münasibətləri və üslubları dəqiq öyrənilməlidir. İdarəetmədə insan amilinin psixoloji mahiyyəti və insan amilinin idarəetmədə rolu, idarəetmənin mərkəzi problemlərindən olan motivləşmə hadisəsində öz spesifik həllini tapır [5, səh., 54].

İdarəetmə psixologiyasında insan amili özünü əsasən 2 formada biruzə verir: I halda insan idarəetmə fəaliyyətinin obyeki və subyekti kimi çıxış edir; II halda isə təşkilatda insan davranışına əsas amil kimi baxılır. Yəni insan amili bir halda idarəetmə fəaliyyətinin psixoloji əsasları, digər halda isə təşkilatın sosiologiyası daxilində araşdırılır [6, səh., 60].

